# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# YETMİŞ BİRİNCİ KİTAB

## OKTYABR 2015 - DEKABR 2015

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 408 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Çin Xalq Respublikasına, Fransa, Gürcüstan və Belarus respublikalarına rəsmi və işgüzar səfərləri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafına, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrə, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsinə və hərtərəfli əməkdaşlıq məsələlərinə dair danışıqları, çıxış və nitqləri, Türkiyənin Antalya şəhərində keçirilən «Böyük İyirmilik»in (G20) üzvü olan dövlət və hökumət başçılarının Sammitində iqtisadi inkişaf, sərmayələr, məşğulluq mövzularında keçirilən müzakirələrdə, eyni zamanda, «Terrorizmə qarşı mübarizə və qaçqınlar böhranı» mövzusunda çıxışları maraq doğurmuş, Sammitlə bağlı buraxılan xüsusi nəşrdə «Ümumi strategiyanın formalaşdırılması» başlığı altında dərc edilən böyük məqaləsi də yer almışdır.

Bu cilddə, həmçinin ölkə başçısının AMEA-nın 70 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqi, bölgələrə səfərləri zamanı, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına dair nitqləri, ictimaiyyətin nümayəndələri ilə görüşləri, səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, uşaq bağçaları və əyləncə mərkəzlərinin, parkların, sənaye müəssisələrinin, qaçqınlar və məcburi köçkünlər üçün salınmış qəsəbələrin açılışındakı nitqləri də toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{0801000000}{\text{М} - 651(07) - 2018}$ **ББК - 32**

© Azərnəşr, 2018

## SABUNÇU MƏHKƏMƏ KOMPLEKSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*21 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Sabunçu Məhkəmə Kompleksinin yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Sabunçu Rayon Məhkəməsinin köhnə binasının, eləcə də Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində hazırlanan müasir məhkəmə bina və komplekslərinin layihələrini əks etdirən stendlərə baxdı.*

*Ədliyyə naziri Fikrət Məmmədov yeni binanın inşası və burada yaradılan yüksək şərait barədə dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, kompleksin ümumi sahəsi 9000 kvadratmetr olan yeddimərtəbəli binasının inşasına 2012-ci ilin oktyabrında başlanılıb. Tikinti işləri ən müasir standartlara uyğun aparılıb. «Əlillərin hüquqlarının qorunması haqqında Konvensiya»nın tələblərinə müvafiq olaraq binada onlar üçün bütün zəruri şərait yaradılıb. Əlillərin binaya daxil olması üçün xüsusi qurğu quraşdırılıb.*

*Prezident İlham Əliyev Sabunçu Məhkəmə Kompleksinin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, bina Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində inşa olunub.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişa-*

*fına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb.*

*Sabunçu Məhkəmə Kompleksi təxminən 1,3 milyon əhaliyə xidmət göstərəcək. Kompleksdə 150 nəfər, o cümlədən 21 hakim, 100 məhkəmə aparatı əməkdaşı və 30-dək ədliyyə işçisi çalışacaq. Müasir informasiya-kommunikasiya texnologiyalarının quraşdırıldığı bina inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. Ədliyyə Nazirliyinin icra şöbəsinin əməkdaşları, dövlət ittihamçıları və vəkillər ictimai zonadan istifadə edəcəklər. Bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.*

*Binada Sabunçu Rayon Məhkəməsi, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi və Ədliyyə Nazirliyinin rayon icra şöbəsi yerləşir. Burada gözdən əlil vətəndaşların sərbəst hərəkəti üçün hər mərtəbənin döşəməsinə xüsusi örtük salınıb. İctimai zonada bütün otaqların adlarını əks etdirən lövhələrdə gözdən əlil insanlar üçün də xüsusi yazılar var. Müasir elektron məlumat daşıyıcıları vətəndaşlara məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakim və digər məsələlərlə bağlı informasiyanı maneəsiz əldə etməyə imkan yaradır.*

*Prezident İlham Əliyev məhkəmə zallarında yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, kompleksdə 14 məhkəmə iclas zalı – cinayət işlərinin baxıldığı 4 və mülki işlərin baxıldığı 10 zal fəaliyyət göstərir. Zallarda vəkillər, dövlət ittihamçıları, şahidlər və icra məmurları üçün otaqlar ayrılıb.*

*Diqqətə çatdırıldı ki, kompleksdə «Elektron məhkəmə»nin tətbiqi üçün bütün zəruri infrastruktur yaradılıb. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən və audio-video yazılışları aparan «Femida» sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıb. Təqsirləndirilən şəxslər zalda beynəlxalq standartlara*

uyğun ayrılan xüsusi şüşə otaqda saxlanılırlar. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğu da var. Məhkəmə zalında əcnəbi şəxslərin iştirakı ilə işlərə baxılan zaman tərcümə xidmətlərinin göstərilməsi üçün xüsusi yer ayrılıb.

İnzibati zonada da hakimlər və məhkəmə aparatı işçiləri üçün lazımi şərait yaradılıb.

Prezident İlham Əliyev burada dünyada və Azərbaycanda məhkəmə və ədalət mühakiməsi ilə bağlı tarixi sənədlərə, rəmzlərə, poçt markaları və nişanlara baxdı.

Bu mərtəbədə yerləşən konfrans zalı ilə tanışlıq zamanı dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, müasir avadanlıqlarla təchiz edilən zalda hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına, həmçinin Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb.

Sonra «Elektron məhkəmə» informasiya sisteminin təqdimatı oldu. Bildirildi ki, ədalət mühakiməsinin həyata keçirilməsində şəffaflığın, insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi məqsədilə Azərbaycan Prezidentinin 2014-cü il 13 fevral tarixli Sərəncamına əsasən «Elektron məhkəmə» informasiya sisteminin yaradılması üzrə işlər görülür, məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi məqsədilə zəruri infrastruktur yaradılır. Yeni inşa olunan müasir məhkəmə binalarında artıq «Elektron məhkəmə» informasiya sisteminin komponentlərinin sınaq rejimində tətbiqinə başlanılıb.

Təqdimatda vətəndaşların, habelə hakimlərin rahatlığına xidmət edən bəzi komponentlərin – ərizə və şikayətlərin elektron formada qəbulu, məhkəmə prosesi iştirakçılarının «elektron şəxsi kabineti», onların avtomatik məlumatlandırılması, məhkəmədə işlərə baxılmasına dair cədvəllər və digər məsələlər barədə ətraflı məlumat verildi.

Kompleksin böyük iclas zalında həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Yeməkxana və kitabxana da ən yüksək səviyyədədir. Binanın alt qatında təqsirləndirilən şəxslərin müvəqqəti saxlanması üçün kameralar, onların

*vəkillərlə görüş otağı və konvoy maşını üçün yeraltı dayanacaq mövcuddur.*

*Kompleksdə yaradılan şərait göstərir ki, son illərdə ölkədə bütün sahələrə olduğu kimi, ədalət mühakiməsinin səmərəsinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq məhkəmə sisteminin daha da müasirləşdirilərək beynəlxalq standartlara tam uyğunlaşdırılması işləri uğurla aparılır.*

*Qeyd edildi ki, hazırda paytaxtın Binəqədi, eləcə də Zaqatala, İmişli və Qəbələ rayonlarında yeni müasir məhkəmə binaları inşa olunur. Azərbaycan ilə Dünya Bankının əməkdaşlığı çərçivəsində 33 məhkəməni və 18 icra qurumunu əhatə edən məhkəmə komplekslərinin və binalarının layihələri hazırlanıb. Artıq paytaxtın Yasamal, Gəncə şəhərinin Nizami, eləcə də Gədəbəy, Oğuz və Quba rayon məhkəmələrinin yeni inzibati binaları istifadəyə verilib. Eyni zamanda, ölkəmizdə konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən Şəki və Bakının Sabunçu Məhkəmə komplekslərinin tikintisi başa çatdırılıb. Sumqayıt Məhkəmə Kompleksi, həmçinin paytaxtın Nərimanov və Suraxanı Rayon məhkəmələri üçün yeni binaların inşası isə davam etdirilir.*

*Dövlətimizin başçısı Sabunçu Məhkəmə Kompleksində yaradılan şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## BAKIDA YENİ SALINAN YOLLARIN, PARKLARIN, YENİDƏN QURULAN KÜÇƏ VƏ PROSPEKTLƏRİN AÇILIŞI MƏRASİMİ

*21 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Bakıda Nəriman Nərimanov heykəlinin, Hüseyn Cavid və Parlament prospektləri ətrafında yeni çəkilən yolların, bu ərazidə yenidən qurulan küçə və prospektlərin, yeni salınan parkların açılışında iştirak etmişdir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Azərbaycan Prezidentinə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, paytaxtın Həsən Seyidbəyli, Nəriman Nərimanov, Mikayıl Müşfiq, İsmayıl bəy Qutqaşınlı, Mehdi Hüseyn, Kazım Kazımzadə, Məmməd Rahim küçələrində ən yüksək səviyyədə əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni küçə – Qurban Xəlilov küçəsi və ərazidə yeni parklar salınıb. Əsaslı təmir və yenidənqurma işləri zamanı 100 min kvadratmetrdən artıq asfalt örtüyü döşənib, qranit səki daşı düzülüb, müasir işıq dirəkləri quraşdırılıb. Yeni salınan Qurban Xəlilov küçəsində uzunluğu 610 metr, eni 17 metr olmaqla, ümumi sahəsi 10 min 370 kvadratmetr olan əraziyə asfalt beton örtüyü döşənib. Mikayıl Müşfiq küçəsində yolun hərəkət hissəsi genişləndirilərək yenidən inşa edilib. Yolun Nəriman Nərimanov heykəlindən Parlament prospektinə qədər, Həsən Seyidbəyli küçəsindən Süleyman Tağızadə küçəsinədək olan hissələrində 35 min kvadratmetr asfalt beton örtüyü əsaslı təmir edilib. Görülən işlər bu ərazidə nəqliyyatın sıxlığının aradan qaldırılması baxımından olduqca əhəmiyyətlidir.*

*Yeni salınan parklarda isə sakinlərin mənalı istirahətini təşkil etmək üçün hərtərəfli şərait yaradılıb. Burada geniş abadlıq və yaşıllıq işləri görülüb. Bu layihənin uğurla reallaşması bir daha*

sübut edir ki, ölkədə mövcud yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, yeni yolların salınması ilə bağlı tədbirlər uğurla davam etdirilir.

Prezident İlham Əliyev yeni salınan Qurban Xəlilov küçəsinin rəmzi açılışını bildirən lenti kəsdi.

Hazırda beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması ilə yanaşı, paytaxt Bakının yol infrastrukturunun daha da müasirləşdirilməsi məsələsinə xüsusi diqqət yetirilir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən Bakının mövcud avtomobil yollarının əsaslı təmiri və ya yenidən qurulması, yeni yol qovşaqlarının yaradılması ümumilikdə ölkəmizin sosial-iqtisadi inkişafına mühüm töhfələr verir. Bütün bunlar ilk növbədə vətəndaşların sosial vəziyyətinin daha da yüksəldilməsi işinə xidmət edən layihələrdir. Beləliklə, bu ərazidə yeni salınan yolların istifadəyə verilməsi, mövcud yol infrastrukturunun yenidən qurulması avtomobillərin, piyadaların hərəkətini rahat və təhlükəsiz edəcək.

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ**

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 oktyabr 2015-ci il*

# RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ RƏHBƏRİ RAMAZAN ABDULATİPOV İLƏ GÖRÜŞ

*22 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovun ölkəmizə səfərinin ənənəvi qardaşlıq əlaqələrinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Ölkəmizlə Rusiya Federasiyası Dağıstan Respublikası arasında əlaqələrin region üçün, bütövlükdə Azərbaycan–Rusiya münasibətlərinin inkişafı baxımından çox əhəmiyyətli olduğunu qeyd edən prezident İlham Əliyev bildirdi ki, dövlətlərarası ikitərəfli münasibətlər möhkəmləndikcə, Azərbaycan–Dağıstan ənənəvi əlaqələri daha da güclənir. Ramazan Abdulatipovu və bütün dağıstanlıları Dərbənd şəhərinin 2000 illik yubileyinin yüksək səviyyədə keçirilməsi münasibətilə təbrik edən dövlətimizin başçısı bunun region üçün çox böyük hadisə olduğunu dedi. Prezident İlham Əliyev yubiley tədbiri zamanı Azərbaycanla bağlı, xalqımızın ümummilli lideri ulu öndər Heydər Əliyev və görkəmli dövlət xadimi Əziz Əliyev haqqında dediyi səmimi sözlərə və Əziz Əliyevə Mahaçqala şəhərində abidə ucaldılmasına dair qəbul edilən qərara görə Ramazan Abdulatipova minnətdarlığını bildirdi.*

*Azərbaycanla Rusiya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iyunda ölkəmizə səfəri zamanı da bunu bir daha təsdiqlədiyini diqqətə çatdırdı. Dövlət başçıları arasında mütəmadi keçirilən yüksək səviyyəli görüşlərin önəmini*

*qeyd edən prezident İlham Əliyev bu yaxınlarda Vladimir Putinlə Qazaxıstandakı görüşünü məmnunluqla xatırlatdı və uğurla inkişaf edən Azərbaycan–Rusiya münasibətlərini regionda sabitliyin təminatı kimi dəyərləndirdi. Əməkdaşlıq potensialının genişləndirilməsi məsələsinə toxunan dövlətimizin başçısı Rusiya Federasiyasının regionları, xüsusilə Dağıstan Respublikası ilə əlaqələrin iqtisadi, investisiya qoyuluşu, humanitar və digər sahələrdə daha da inkişaf etdirilməsinin önəmini vurğuladı.*

*Azərbaycanla Rusiya Federasiyasının Dağıstan Respublikası arasında əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını vurğulayan Ramazan Abdulatipov bu əlaqələrin inkişafında Rusiya prezidenti Vladimir Putinlə Azərbaycan prezidenti İlham Əliyev arasında mövcud olan səmimi münasibətlərin əhəmiyyətini qeyd etdi. Dövlət başçılarının vaxtaşırı olaraq görüşdüklərini vurğulayan Ramazan Abdulatipov özünün Rusiya Prezidenti ilə görüşləri zamanı da Vladimir Putinin Azərbaycanla əlaqələrin inkişafı ilə hər dəfə yaxından maraqlandığını və ölkəmizlə ən xoş və fəal münasibətlərin genişləndirilməsi ilə bağlı tövsiyələr verdiyini dedi. O, Azərbaycanın müxtəlif regionları ilə də əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirdi.*

*Dərbənd şəhərinin 2000 illik yubileyinə toxunan Ramazan Abdulatipov xalqlarımızın əsrlərboyu bir yerdə yaşadığını vurğulayaraq, birgə tariximizin böyük əhəmiyyət daşıdığını dedi. Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Azərbaycan Prezidentinin göstərişi ilə Dərbənd şəhərində yüksək keyfiyyətlə həyata keçirilən abadlıq və quruculuq işlərinin də böyük razılıqla qarşılandığını bildirdi.*

## BEYNƏLXALQ MÜLKİ AVİASİYA TƏŞKİLATININ PREZİDENTİ OLUMUİVA BENARD ALİU VƏ DÖVLƏTLƏRARASI AVİASİYA KOMİTƏSİNİN SƏDRİ TATYANA ANODİNA İLƏ GÖRÜŞ

*22 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Beynəlxalq Mülki Aviasiya Təşkilatının prezidenti Olumuiva Benard Aliunu və Dövlətlərarası Aviasiya Komitəsinin sədri xanım Tatyana Anodinanı qəbul etmişdir.*

Dövlətimizin başçısı Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) 70 illiyinə və Dövlətlərarası Şuranın icra orqanı olan Dövlətlərarası Aviasiya Komitəsinin 25 illiyinə həsr olunan Aviasiya və Hava Məkanından İstifadə üzrə Dövlətlərarası Şuranın 35-ci iclasının Bakıda keçirilməsinin önəmini vurğuladı. Azərbaycanın əlverişli coğrafi mövqeyinin regional nəqliyyat infrastrukturunun və logistik mərkəzin yaradılması baxımından yaxşı imkan yaratdığını deyən prezident İlham Əliyev mülki aviasiyanın daha da inkişaf etdirilməsinin iqtisadi strategiyamızın çox əhəmiyyətli hissəsi olduğunu vurğuladı. İnfrastruktur layihələrinə böyük həcmdə sərmayə yatırıldığını bildirən prezident İlham Əliyev son illər Azərbaycanda bir neçə hava limanının inşa edildiyini, Heydər Əliyev Beynəlxalq Aeroportunun isə tamamilə yenidən qurulduğunu, çoxlu sayda yeni təyyarələrin alındığını qeyd etdi. «Azərbaycan Hava Yolları»nın dünyanın uğurla fəaliyyət göstərən şirkətlərindən biri olduğunu deyən dövlətimizin başçısı məmnunluqla vurğuladı ki, Heydər Əliyev Beynəlxalq Aeroportu dünyada dörddulduzlu 10 hava limanı arasındadır. Ölkəmizdə turizmin və biznesin inkişafı ilə əlaqədar müxtəlif regionlara daxili reyslərin açıldığını bildirən prezident İlham Əliyev Azərbaycanın hava yükdaşımaları sahəsində də yaxşı nəticələr əldə etdiyini

*diqqətə çatdıraraq, yerli karqo şirkətinin də dünyanın aparıcı şirkətləri arasında olduğunu dedi.*

*Dövlətlərarası Aviasiya Komitəsinin fəaliyyətinə toxunan prezident İlham Əliyev Komitənin sədri xanım Tatyana Anodinanın Azərbaycan mülki aviasiyası ilə əməkdaşlıq işinə verdiyi töhfəni yüksək qiymətləndirdi.*

*Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin və Heydər Əliyev Beynəlxalq Aeroportunun gözəlliyinin onda dərin təəssürat yaratdığını bildirən Beynəlxalq Mülki Aviasiya Təşkilatının prezidenti Olumuiva Benard Aliu bunu ölkəmizin sosial-iqtisadi inkişafının göstəricisi kimi dəyərləndirdi.*

*Rəhbərlik etdiyi təşkilatın həyata keçirdiyi proqramlar barədə dövlətimizin başçısına məlumat verən qonaq ölkəmizin Beynəlxalq Mülki Aviasiya Təşkilatına verdiyi dəstəyi yüksək qiymətləndirərək Azərbaycanın bu qurumun əhəmiyyətli üzvü olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi- qəlbdən təbrik edirəm.

Azərbaycan–Türkmənistan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ölkələrimizi və xalqlarımızı birləşdirən ənənəvi dostluq əlaqələri, ikitərəfli əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkmənistan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2015-ci il*

**ÇEX RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİLOŞ ZEMANA**

Hörmətli cənab Prezident!

Çex Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Çex münasibətləri bu gün dinamik və hərtərəfli inkişaf yolundadır. Keçən ay ölkəmizə səfəriniz, ölkələrimiz arasında strateji tərəfdaşlığa dair imzaladığımız Birgə Bəyannamə ikitərəfli münasibətlərimizin inkişafına mühüm töhfədir.

Ümidvaram ki, əməkdaşlığımızın daha da dərinləşdirilməsi sahəsində qarşıya qoyduğumuz vəzifələrin həlli yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2015-ci il*

## DÜNYA BANKININ VİTSE-PREZİDENTİ SİRİL MÜLLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə yeni təyin olunmuş vitse-prezidenti Siril Müllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Vitse-prezident Siril Müller 1999-cu ildə Dünya Bankının nümayəndə heyətinin tərkibində ölkəmizə səfər etdiyini və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə keçirdikləri görüşü məmnunluqla xatırlatdı. O, 2 il bundan əvvəl ölkəmizə səfəri zamanı Azərbaycanın inanılmaz dərəcədə tərəqqi etdiyinin şahidi olduğunu vurğulayaraq respublikamızın son illərdə çox böyük uğurlar qazandığını dedi. Siril Müller Azərbaycanın gələcəkdə də çox firavan bir ölkə olacağına əminliyini bildirdi.*

*Azərbaycanda həyata keçirilən inkişaf proseslərinin bundan sonra yeni formatda davam etdiriləcəyini deyən prezident İlham Əliyev müstəqilliyimizin ilk illərində maliyyə-iqtisadi çətinliklərin mövcud olduğunu vurğuladı. Dövlətimizin başçısı sonrakı illərdə ölkəmizdə çox böyük nailiyyətlərin əldə olunduğunu məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda həyata keçirilən uğurlu enerji siyasəti nəticəsində əldə edilən gəlirlərdən məqsədyönlü şəkildə istifadə olunmaqla, infrastrukturun yaradılması, biznes imkanlarının genişləndirilməsi, yeni iş yerlərinin açılması, yerli istehsalın artırılması və digər istiqamətlərdə mühüm işlər görülüb. Azərbaycanın hazırda inkişafın yeni mərhələsində olduğunu vurğulayan dövlətimizin başçısı bu mərhələdə ölkəmizdə biznes mühitinin daha da yaxşılaşdırılması üçün institusional islahatların aparılmasının və sahibkarlığın stimullaşdırılmasının vacibliyini qeyd etdi. İqtisadiyyatın neftdən asılılığının*

*azaldılmasının zəruriliyini bildirən prezident İlham Əliyev hazırda ümumi daxili məhsulun 70 faizinin qeyri-neft sektorunun payına düşdüyünü vurğuladı. İxracın 90 faizinin enerji sektoruna aid olduğunu deyən dövlətimizin başçısı bunu indiyə qədər qeyri-neft sektorunda istehsal edilən məhsulların daxili bazara hesablanması ilə əlaqələndirərək bildirdi ki, asan olmasa da, növbəti mərhələdə ixracyönümlü istehsala önəm veriləcək.*

*Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında əmək-daşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SUMQAYITDA YÜKSƏKSIXLIQLI POLİETİLEN ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*25 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Sumqayıtda «SOCAR Polymer» layihəsi çərçivəsində inşa ediləcək yüksəksıxlıqlı Polietilen zavodunun təməlqoyma mərasimində iştirak etmişdir.*

*SOCAR-ın prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.*

*Burada inşa edilmiş inzibati binada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin həyata keçirdikləri neft siyasətindən, həmçinin ölkəmizin neft tarixindən bəhs edən fotolar sərgilənir.*

*Azərbaycan Prezidenti gələcəkdə müəssisədə istehsal ediləcək məhsulların nümunələrinə baxdı.*

*«SOCAR Polymer» layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək üçün 2013-cü ildə təsis edilən «SOCAR Polymer» şirkətinin polipropilen və yüksəksıxlıqlı polietilen qurğuları prezident İlham Əliyevin sərəncamı ilə yaradılan Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunur. Şirkətin 2 qurğusu hər il 180 min ton polipropilen və 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. Bu qurğular 2018-ci ildə istismara veriləcək. Hazırda ölkəmiz aşağısıxlıqlı polietileni ixrac, eyni zamanda, yüksəksıxlıqlı polietileni isə idxal edir. Layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır. İstehsal ediləcək məhsulların 30 faizi yerli bazara, 70 faizi isə Türkiyə və Avropa bazarlarına çıxarılacaq.*

*Prezident İlham Əliyev yüksəksıxlıqlı Polietilen zavodunun təməlini qoydu.*

*«SOCAR Polymer» şirkətinin məqsədi peşəkar mütəxəssislərdən ibarət işçi heyəti yaratmaqdır. Bu isə həmin işçilərin növbəti mərhələdə ölkədə böyük layihələrin icrasına cəlb olunmasına geniş imkanlar açır. Layihəyə ixtisaslı mütəxəssislərin cəlb edilməsi ilə yanaşı, tələbələrin də zavodda təcrübə qazanmalarına imkan yaranacaq. Bu layihənin icrası Azərbaycan iqtisadiyyatının inkişafına töhfə verəcək, çoxlu sayda yeni iş yerinin açılmasına gətirib çıxaracaq. «SOCAR Polymer» şirkəti layihənin ətraf mühit komponentinə də xüsusi əhəmiyyət verir.*

*Dövlətimizin başçısı layihə üzrə işlərin yüksək keyfiyyətlə görülməsinə dair tapşırıq və tövsiyələrini verdi.*

## Sumqayıt Kimya Sənaye Parkının ərazisində «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətin Texniki avadanlıqlar zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətin Texniki avadanlıqlar zavodunun açılışında iştirak etmişdir.*

*İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev dövlətimizin başçısına Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə bağlı məlumat verdi.*

*Azərbaycanda sənayeləşmə iqtisadi siyasətin prioritetlərindəndir. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi sənayeləşmə siyasətinin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycanda sənayeləşmənin tempi yüksəlib, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin 2014-cü ili «Sənaye ili» elan etməsi bu sahənin inkişafına yeni təkan verib.*

*Ölkəmizdə həyata keçirilən genişmiqyaslı sənayeləşmə strategiyasının əsas istiqamətlərindən biri də sənaye mərkəzlərinin yaradılmasıdır. Sənaye parkları yüksək rəqabətqabliyyətli iqtisadiyyatın müxtəlif sahələrinin daha sürətlə inkişaf etdirilməsinə təkan verir. Bu baxımdan prezident İlham Əliyevin iştirakı ilə 2013-cü*

*ildə təməli qoyulan Sumqayıt Kimya Sənaye Parkı xüsusi əhəmiyyət kəsb edir. Park Sumqayıt şəhərində əvvəllər ekoloji fəlakət zonası hesab olunan 296 hektar sahədə yaradılıb.*

*Parkın yaradılmasının əsas məqsədləri ölkədə innovasiyalı və yüksək texnologiyalar əsasında rəqabətqabliyyətli sənaye istehsalının inkişafı üçün münbit şəraiti formalaşdırmaq, bu sahə üzrə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır. Sənaye zonasında 40-dək müəssisənin yerləşdirilməsi nəzərdə tutulur. Burada 10 minə qədər daimi yeni iş yerinin açılması gözlənilir. Sumqayıt Kimya Sənaye Parkının investisiya cəlbediciliyinin artırılması məqsədilə parkın rezidentləri 7 il müddətinə mənfəət, torpaq, əmlak vergilərindən, eyni zamanda, buraya gətirilən texnika və texnoloji avadanlıqlar əlavə dəyər vergisindən azad olunub.*

*Sumqayıt Kimya Sənaye Parkında «bir pəncərə» sistemi tətbiq edilib. Burada artıq 4 rezident qeydiyyata alınıb. Parkın ərazisində ilk sərmayəçi olan «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətin artıq bir neçə zavodu fəaliyyət göstərir. Zavodların keyfiyyət siyasətinin əsasını «müştəri məmnuniyyəti» təşkil edir. Bu hədəfə əsaslanaraq müştərilərə yüksək standartlara uyğun keyfiyyətli məhsullar təqdim edilir. Bunun nəticəsidir ki, ABŞ-ın Neft İnstitutu tərəfindən «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətə beynəlxalq keyfiyyət sertifikatı verilib.*

*Bildirildi ki, Kimya Sənaye Parkında şirkətin 3 zavodu fəaliyyət göstərir. «Azertexnolayn»ın əsas istehsal sahələrindən biri Polad borular zavodudur ki, burada təyinatı üzrə beynəlxalq standartlara cavab verən keyfiyyətli spiral tikişli polad borular istehsal olunur. Zavodda polad boru istehsalı üzrə 3 xətt qurulub. Bu xətlərin hər birinin illik istehsal gücü 200 min tondur.*

*Şirkətin digər bir müəssisəsi isə Mexaniki məhsullar zavodudur. Bu zavodda əsasən polad armaturlu borular, metal hasar və plastik birləşdirici hissələr istehsal olunur. Artıq «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətin Texniki avadanlıqlar zavodu da istehsala tam hazırdır.*

*Dövlətimizin başçısı zavodu işə saldı.*

*Prezident İlham Əliyevə müəssisənin iqtisadi-texniki göstəriciləri barədə məlumat verildi. Azərbaycan Prezidenti istehsal prosesinə baxdı.*

*Bildirildi ki, zavodda metaltökmə və emal sahələri fəaliyyət göstərir. Metaltökmə sahəsində ən müasir standartlar səviyyəsində qurulan və saatda 10 ton metaləritmə gücünə malik olan 2 soba, saatda 50 qəlib hazırlama gücünə malik avtomatik qəlibləmə sistemi və avtomatik qum hazırlama xətti var. Burada beynəlxalq təcrübəyə malik yerli mühəndislər tərəfindən dizayn olunmuş qaz və su siyirtmələri, dairəvi siyirtmə, yanğın hidrantı, təkkürəli və cütkürəli hava təxliyyə vantuzu, menhol sistemi, siyirtmə qovşağı, müxtəlif növ quyu qapaqları kimi məhsulların istehsalı həyata keçiriləcək.*

*Qeyd edildi ki, zavodda ildə 6500 ton müxtəlifdiametrli və yüksək təzyiqə davamlı hidrotexniki avadanlıq istehsal olunacaq. Bu da onu göstərir ki, Azərbaycanda son dövrlərdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi istiqamətində çox mühüm və ardıcıl layihələr həyata keçirilib. Dövlətimizin başçısının müvafiq fərmanları ilə texnoparkların yaradılması, bu texnoparklarda müasir istehsal sahələrinin istifadəyə verilməsi ölkə iqtisadiyyatının gücləndirilməsinə, rəqabətədavamlı və keyfiyyətli məhsulların istehsalına geniş imkanlar açıb. Belə müəssisələr həm də rəqabətədavamlı məhsul istehsal etməklə, Azərbaycanda gedən iqtisadi inkişaf proseslərinə mühüm töhfə verir, bununla da son illərdə ölkəmizdə həyata keçirilən iqtisadi islahatların uğurlarına təminat yaradır.*

*Diqqətə çatdırıldı ki, Texniki avadanlıqlar zavodunun laboratoriyasında spektral analiz cihazı ilə analizlər aparılır. Burada, həmçinin qum və mikroquruluş laboratoriyaları var. Mərkəzləşdirilmiş laboratoriyada siyirtmə və hidrotexniki qurğuların istifadəyə tam yararlılığına əmin olmaq üçün onlar dartılma, uzanma və sinifləndirmə testlərindən keçirilir.*

*Zavodda üçnövbəli iş rejimində 250 nəfər işlə təmin olunacaq. Burada istehsal edilən məhsullar əsasən daxili bazarda olan tə-*

*ləbatın ödənilməsinə yönəldiləcək. Zavodun məhsulları, həmçinin xaricə, o cümlədən Türkiyəyə, MDB dövlətlərinə və digər ölkələrə ixrac olunacaq.*

*«Azertexnolayn» MMC 2015-ci ildə Türkmənistanın Türkmənbaşı Dəniz Limanının tikintisi tenderində qalib gəlib. Sumqayıt Kimya Sənaye Parkının rezidenti «Azertexnolayn» MMC tərəfindən dəyəri 45 milyon dollar olan 60 min ton boru məhsulunun Türkmənistana ixracı üzrə müqavilə bağlanıb. Eyni zamanda, şirkət Türkmənistanın su təchizatı qovşağı tenderində əsas iştirakçı qismində təmsil olunub.*

## «Azərikimya» İstehsalat Birliyinin Etilen-polietilen zavodunda yeni qurğuların işə salınması mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Sumqayıtda «Azərikimya» İstehsalat Birliyinin Etilen-polietilen zavodunda yeni qurğuların işə salınması mərasimində iştirak etmişdir.*

*Bu zavodun ərsəyə gəlməsində ulu öndər Heydər Əliyevin tarixi xidmətləri olub. 1994-cü ildə «EP-300» və «Polimer-120» qurğularının əsasında yaradılmış Etilen-polietilen zavodunun adı yeni bir müəssisə kimi, ölkəmizin sənaye xəritəsinə yazılıb.*

*Son 5 ildə zavodun enerji sistemində aparılan əsaslı təmir və yenidənqurma işləri nəticəsində istehsalatın elektrik enerjisi ilə fasiləsiz və etibarlı təchizatına imkan yaranıb, elektrik enerjisi, buxar və qaz itkilərinin qarşısı alınıb. Bu isə istehsal edilən əmtəəlik məhsullarda enerjidaşıyıcılarının xüsusi çəkisinin əhəmiyyətli dərəcədə azalması və maya dəyərinin minimuma enməsinə səbəb olub. Bu il zavodun istehsalata və keyfiyyətə nəzarət, həmçinin sənaye-sanitar sahələrini özündə birləşdirən və müasir cihazlarla təchiz edilən yeni laboratoriyası da əsaslı təmir olunub.*

*2013-cü ildə istismara verilən azot-oksigen kompleksi zavodun və təmir-tikinti idarəsinin azot-oksigenə olan tələbatını tam həcmdə ödəməyə imkan yaradıb. 1987-ci ildən istismar olunan köhnə qurğunun əvəzində yeni azot-oksigen kompleksində innova-*

siyalı texnologiyaların tətbiqi sayəsində minimum enerji sərfiyyatına malik müasir avadanlıqlar quraşdırılıb. Yeni kompleksin bütün sistemləri avtomatik idarə edilir.

Prezident İlham Əliyevin 2010-cu ildə imzaladığı «Neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında Sərəncamı»na əsasən «Azərikimya» Dövlət Şirkəti SOCAR-ın tabeliyinə verildikdən, «Azərikimya» İstehsalat Birliyi yaradıldıqdan sonra əsas hədəflərdən biri də bu sahədə fəaliyyətin gücləndirilməsi, neft-qaz emalı və neft-kimya sənayesinin səmərəliliyinin yüksəldilməsi, məhsulların rəqabətqabliyyətinin artırılması oldu.

Dövlətimizin başçısına maye qazlarını kükürdlü birləşmələrdən təmizləyəcək yeni qurğu barədə də məlumat verildi. İllik layihə gücü 87 600 ton olan qurğunun istismara verilməsi nəticəsində məqsədli məhsul olan propilenin digər məhsullara çevrilməsinin qarşısı alınacaq.

2013-cü ildə istismara verilmiş müasir tipli susoyutma qurğusu zavodda innovasiyalı texnologiyalar əsasında yaradılaraq, ümumilikdə kompleksin dayanıqlı və səmərəli işini təmin edib. Yeni qurğunun enerji sərfiyyatı köhnə qurğuya nisbətən daha aşağıdır. Bu da zavodun ümumi enerji sərfiyyatının azaldılması prosesinə müsbət töhfəsini verir.

Diqqətə çatdırıldı ki, zavodda istismara verilmiş yeni qurğulardan biri də mütləqləşdirilmiş izopropil spirti sahəsidir. 2010-cu ildən başlayaraq «Azərikimya» İstehsalat Birliyində zəhərli və zərərli, müasir standartlara cavab verməyən, iqtisadi cəhətdən qeyri-səmərəli və əsasən, ətraf mühitin ekologiyasına mənfi təsir göstərən istehsalatlar sökülərək yenidən qurulub. Çirklənmiş ərazilərdən külli miqdarda zəhərli maddə və kimyəvi tullantı utilləşdirilib. Təmizlənmiş ərazilərdə müasir tipli, ekoloji normalara uyğun yeni istehsal sahələrinin tikintisi aparılır.

Ulu öndər Heydər Əliyev 1998-ci ildə Yaponiyaya səfəri zamanı müstəqil Azərbaycanın tarixində ilk dəfə Buxar-Generator Kompleksinin alınmasına nail oldu ki, bu da ölkənin neft-kimya sənayesinin inkişafı tarixinə dahi rəhbərin ən böyük xidmətlərin-

*dən biri kimi yazıldı. Ümummilli lider 1999-cu ildə bu kompleksin təməlqoyma mərasimində, 2001-ci ildə isə açılışında iştirak edib. Bu kompleks nəinki kimya sənayesini tənəzzüldən xilas etdi, hətta «Azərikimya»nın bu günü üçün etibarlı enerji təminatının yaradılmasında mühüm vasitə oldu.*

*Diqqəti cəlb edən layihələrdən biri də gündəlik gücü 2600 kubmetr olan yeni istehsalat tullantı sularının təmizlənməsi qurğusunun tikintisidir. 2016-cı ildə istifadəyə veriləcək bu qurğunun inşa edilməsinin əsas məqsədi Xəzər dənizinə atılan suların maksimal təmizlik həddinin təmin edilməsi və təmizlənmiş suyun irriqasiya məqsədlərində istifadə olunmasıdır.*

*Sonra dövlətimizin başçısı zavodun kollektivi ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Bu gün Sumqayıt şəhərində əlamətdar bir gündür, yeni qurğular istifadəyə verilir. Kimyaçıları yubiley münasibətilə təbrik etmək istəyirəm. Biz bu il kimya sənayesinin 70 illik yubileyini qeyd edirik.

Kimya sənayesinin çox böyük ənənələri, böyük tarixi var. Bu gün isə kimya sənayesi yeni dövrə qədəm qoyur. Bu, müasir, yeni texnologiyalar dövrüdür. Çox şadam ki, son vaxtlar bu ərazidə görülən işlər ən yüksək standartlara cavab verir.

Sumqayıt kimyaçılar şəhəri kimi salınmışdır. Bu gün Sumqayıt Azərbaycanın böyük sənaye mərkəzinə çevrilibdir. Bu gün Sumqayıtda yeni müəssisələr, güclü sənaye potensialı yaradılır, iş yerləri açılır. Bu gün bir yeni zavodun açılışında, bir böyük zavodun təməlqoyma mərasimində iştirak etmişəm. Hər 2 zavod Azərbaycanın sənaye potensialının inkişafı üçün çox böyük əhəmiyyətə malikdir.

«SOCAR Polymer» zavoduna 750 milyon dollar sərmayə qoyulacaqdır və bu sərmayə öz növbəsində, yeni iş yerlərinin açılmasına, yeni sənaye sahələrinin yaradılmasına gətirib çıxaracaqdır. Bu çox böyük investisiya layihəsidir və əminəm ki, vaxtında icra ediləcək. Beləliklə, Azərbaycanda çox güclü sənaye potensialının inkişaf etdirilməsində növbəti önəmli addım atılacaqdır.

Bu gün Hidrotexniki avadanlıqlar zavodunun açılışını da qeyd etdik. Bütün bu işlər Sumqayıt Kimya Sənaye Parkında görülür. Bir neçə il bundan əvvəl mənim sərəncamımla Sumqayıtda Kimya Sənaye Parkının yaradılması haqqında işlər görülməyə başlanılmışdır. Bu gün artıq biz bu işlərin birinci nəticələrini görürük. Əminəm ki, Sumqayıt Kimya Sənaye Parkı bir neçə ildən sonra tam gücü ilə işləyəcək.

Parkın ərazisi tamamilə təmizlənib. Parkda artıq ilk müəssisələr yaradılır. Növbəti illərdə həm daxili, həm xarici investisiyalar hesabına milyardlarla dollar həcmində sərmayələr qoyulacaq. Artıq 1 milyard dollardan çox məbləğin qoyuluşu nəzərdə tutulur və bu da ölkəmizin ümumi inkişafını göstərir. Çünki həm xarici, həm yerli investorlar ölkəmizin gələcəyinə inanırlar. İnanırlar ki, Azərbaycan bundan sonra da inkişaf yolu ilə gedəcək.

Kimya sənayesi, müasir texnologiyalar, qeyri-neft sektorunun inkişafı ölkə iqtisadiyyatını irəliyə aparacaq əsas amillərdir. Ölkə iqtisadiyyatı isə ilk növbədə, sənaye istehsalından asılıdır və şadam ki, bu gün Azərbaycanda yaradılan müasir müəssisələr ən yüksək standartlara cavab verir. Bizim siyasətimiz bundan ibarətdir. Sənayeləşmə siyasətinin aparılması üçün bizdə güclü iradə var. Eyni zamanda, burada yaradılan və yaradılacaq şəraitdən özəl qurumlar da istifadə edəcəklər. Çünki biz artıq xammal yox, hazır məhsul ixrac edəcəyik. Kiçik və orta sahibkarlar üçün də çox böyük imkanlar yaradılacaq. O məhsullar ki, bu günə qədər idxal edilirdi, artıq Azərbaycanda istehsal olunacaq və bütün bu işləri görmək üçün çox böyük tədbirlər planı icra edilir. İlk növbədə, Azərbaycanda investisiya iqlimi müsbətdir, digər tərəfdən, dövlət vəsaiti qoyulur, özəl sektor da bu işlərdə fəal iştirak edir.

Bütün xoşagəlməz hallara qarşı daha da ciddi mübarizə aparılmalıdır. Sahibkarlığın inkişafı Azərbaycanın ümumi inkişafının əsas şərtidir. Ona görə sahibkarlara maksimum sərbəstlik verilməlidir və verilir. Son vaxtlar qəbul edilmiş qərarlar, qanunlar, verilmiş sərəncamlar bu məqsədi güdür ki, sahibkarlara heç kim mane olmasın, süni əngəllər aradan götürülsün, sahibkarlar maksimum dərəcədə sərbəst, rahat şəraitdə işləsinlər, ölkəmizə

vəsait qoysunlar, iş yerləri yaratsınlar və Azərbaycanda biznes mühiti daha da yaxşılaşsın.

Bu gün biznes mühitinin yaxşılaşması üçün bütün şərait yaradılır. Siyasi iradə var, qanunvericilikdə düzəlişlər edilibdir, yeni qaydalar tətbiq olunur və ictimai nəzarət daha da güclü olmalıdır. Çünki bəzi hallarda sahibkarlara qarşı ədalətsizliklər göstərilir, onların işinə müdaxilələr olur, onlara qarşı əsassız tələblər irəli sürülür, qanunsuz ödəmələr tələb olunur. Bütün bunlara son qoyulur və son qoyulacaq. Bütün hallarda həm inzibati tədbirlər, həm cəza tədbirləri davam etdiriləcək. Bu gün biznesə mane olmaq istəyən şəxslər Azərbaycana xəyanət edirlər. Çünki ölkəmizin uğurlu inkişafı biznesin inkişafından asılıdır. Dövlət siyasəti, prezidentin siyasi iradəsi var. Belə olan halda, dövlət qurumları burada maneçilik törətməməli, əskinə, kömək etməli, şərait, imkan yaratmalıdır ki, biznes inkişaf etsin.

Burada işlərin böyük hissəsi dövlətin və Dövlət Neft Şirkətinin vəsaitləri hesabına görülür ki, sənaye potensialımız inkişaf etsin. Özəl qurumlar da gəlib burada iş görəcəklər, bu imkanlardan istifadə edib öz fəaliyyətlərini genişləndirəcəklər, daha çox vəsait əldə edəcəklər və həmin vəsaiti Azərbaycana daha çox investisiya şəklində yatıracaqlar. Bax, bizim siyasətimiz bundan ibarətdir. Bir daha demək istəyirəm ki, Azərbaycanın bu istiqamətdəki siyasəti birmənalıdır. Mən dəfələrlə xəbərdarlıq etmişəm və bir daha deyirəm, kim ki söz başa düşmür, öz cəzasını alacaq. Bu gün həm ictimaiyyət, həm sahibkarlar görürlər ki, biz artıq konkret addımlar atmağa başlamışıq. Ona görə bu gün dünyada yaşanan böhran zamanı belə nəhəng qurğuların istifadəyə verilməsi, investisiyaların cəlb edilməsi və iqtisadi sahədə inkişafa nail olmağımız Azərbaycanın gücünü göstərir. Heç bir qüvvə bizim yolumuzda dayana bilməz. Çünki bizim yolumuz inkişaf, tərəqqi, sosial rifah, sosial ədalət yoludur.

Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bundan sonra da aparılacaq. İş adamlarının fəaliyyətinə müdaxilə edən dövlət qurumları bundan sonra da cəzalandırılacaq, artıq ictimaiyyət bunu görür və görəcək. Bizim çox güclü siyasi iradəmiz var. Bu iradənin

təməlində Azərbaycan xalqının dəstəyi dayanır. Xalq da bizim bütün təşəbbüslərimizi alqışlayır, bəyənir, dəstəkləyir. Əgər bu dəstək olmasa, biz heç bir iş görə bilmərik.

Əminəm ki, biz 2015-ci ili də uğurla başa vuracağıq. Bu gün burada təməl daşını qoyduğum «SOCAR Polymer» müəssisəsi nəinki Azərbaycanda, regionda ən böyük investisiya layihələrindən biridir. Əminəm ki, bu gözəl müəssisə digər qurumlar tərəfindən də bir nümunə kimi qəbul olunacaq. Mən bir daha bütün iş adamlarını Azərbaycana sərmayə qoymağa dəvət edirəm. Əgər onların işinə müdaxilələr varsa, onlara bir daha müraciət edib deyirəm ki, dərhal məlumat verin, dərhal səsinizi qaldırın. Cəmiyyətdə ictimai nəzarət daha da güclü olmalıdır və hər bir siqnala reaksiya verilir, araşdırılır və əgər təsdiqini tapırsa, onda ölçülər götürülür.

Mən bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Kimya sənayesi yeni dövrə qədəm qoyubdur. Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Bu gün Sumqayıtın potensialı artır, işsizlik aradan qaldırılır, şəhərin abadlaşdırılması üçün sosial sahədə əlavə tədbirlər görülür. Mən dəfələrlə demişəm, insanları narahat edən bütün məsələlər aradan qaldırılmalıdır. Sumqayıtda dəfələrlə olmuşam və istəyirəm ki, burada heç bir problem olmasın. Nə sosial sahədə, nə infrastruktur, nə idarəetmə sahələrində heç bir problem olmasın, insanlar rahat, rifah, əmin-amanlıq içində yaşasınlar.

Sumqayıt bundan sonra da ölkəmizin sənaye və iqtisadi inkişafı işində öz sözünü deyəcək. Bütün sumqayıtlıları bir daha salamlayıram, ən xoş arzularımı çatdırıram. Sizi bir daha təbrik edirəm.

* * *

*Azərbaycan Prezidenti butilen-butadien fraksiyasının hidrogenləşməsi və maye qazların kükürdlü birləşmələrdən təmizlənməsi qurğularını işə saldı.*

Bildirildi ki, hər 2 qurğunun layihəsi «Azərikimya» İstehsalat Birliyinin xüsusi konstruktor bürosu tərəfindən hazırlanıb. İnşası «Azərikimya»nın təmir-tikinti idarəsi tərəfindən icra edilən qurğular avtomatik idarəetmə sistemləri ilə təchiz olunub. Butilen-butadien fraksiyasının hidrogenləşməsi qurğusunun layihə gücü ilkin mərhələdə ildə 120 min tondur. Yaxın perspektivdə isə bu rəqəmin ildə 250 min tona çatdırılması nəzərdə tutulur.

«Azərikimya» İstehsalat Birliyinin 2015–2019-cu illər üçün hədəfi mövcud istehsalatı modernləşdirmək, yeni tikiləcək polipropilen və yüksəksıxlıqlı polietilen istehsalatlarını tələb olunan miqdarda və keyfiyyətdə xammalla təmin etmək və «EP-300» istehsalatının səmərəliliyini artırmaqdır.

Beləliklə, Azərbaycanda yeni zavod, fabrik, istehsalat sahələrinin yaradılması, mövcud müəssisələrin daha müasir qurğularla təchiz edilməsi bütövlükdə ölkə iqtisadiyyatının inkişafına töhfəsini verir. Bütün bu addımlar bir daha göstərir ki, dünyada hökm sürən iqtisadi böhrana baxmayaraq, Azərbaycanda başlanılan bütün layihələr uğurla icra edilir, yeni-yeni müəssisələr, istehsalat sahələri açılır.

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu gün Türkiyə güclü iqtisadiyyata, demokratik prinsiplərə əsaslanan siyasi sistemə malik müasir ölkə kimi, regionda və dünyada böyük nüfuz qazanmışdır. Biz Türkiyənin beynəlxalq aləmdə bütün uğurlarına sevinirik.

Azərbaycan ilə Türkiyəni dərin tarixi, milli köklərdən bəhrələnən möhkəm dostluq və qardaşlıq münasibətləri birləşdirir. Bu təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz müttəfiqliyimizi və birliyimizi bariz şəkildə ifadə edir.

Əminəm ki, siyasi, iqtisadi və mədəni sahələrdə genişmiqyaslı, səmərəli və fəal əməkdaşlığımız, beynəlxalq məsələlərdə qarşılıqlı maraq və mənafelərimizi üstün tutan ardıcıl mövqemiz bundan sonra da ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2015-ci il*

# YAPONİYANIN DÖVLƏT NAZİRİ AKİRA AMARİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Yaponiyanın İqtisadi Dirçəliş, Sosial Müdafiə və Vergilərin Ümumi İslahatı üzrə naziri, İqtisadi və Maliyyə Siyasəti üzrə Dövlət naziri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı Yaponiyanın İqtisadi Dirçəliş, Sosial Müdafiə və Vergilərin Ümumi İslahatı üzrə naziri, İqtisadi və Maliyyə Siyasəti üzrə Dövlət naziri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin bu əlaqələrin inkişafı istiqamətində yeni addım olacağına və əməkdaşlıqla bağlı imkanların araşdırılması baxımından yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, ölkəmizin dostu olan Akira Amarinin Yaponiya–Azərbaycan parlamentlərarası dostluq qrupuna rəhbərlik etməsi və Azərbaycanda gedən işlərlə yaxından tanış olması önəmlidir. Prezident İlham Əliyev nümayəndə heyətinin tərkibində böyük şirkətləri təmsil edən iş adamlarının olmasını da məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı Yaponiya şirkətlərinin ölkəmizdə uzun illər çox uğurla fəaliyyət göstərmələrinin, xüsusilə energetika sektoruna böyük sərmayələr yatırılmasının və eyni zamanda, Yaponiya kreditləri hesabına Azərbaycanda bir çox mühüm layihələrin icra olunmasının əhəmiyyətini vurğuladı.*

*İqtisadi Dirçəliş, Sosial Müdafiə və Vergilərin Ümumi İslahatı üzrə nazir, İqtisadi və Maliyyə Siyasəti üzrə Dövlət naziri Akira Amari prezident İlham Əliyev ilə sonuncu dəfə 2006-cı ilin martında dövlətimizin başçısının Yaponiyaya səfəri zamanı görüşdüyünü məmnunluqla xatırlatdı. O, Yaponiya–Azərbaycan parla-*

*mentlərarası dostluq qrupunun sədri kimi, özünün ölkəmizə 11 il əvvəl səfər etdiyini və ötən dövr ərzində sanki yeni bir şəhərə düşdüyünü vurğuladı, bütün bu nailiyyətləri prezident İlham Əliyevin uğurlu rəhbərliyinin nəticəsi kimi dəyərləndirdi. Yaponiya Baş nazirinin müavini, keçmiş Baş nazir Taro Asonun ölkəmizə səfərinə toxunan Akira Amari dedi: «Taro Aso Azərbaycana səfərindən sonra mənimlə görüşdü və Azərbaycanın nə qədər inkişaf etdiyini, Yaponiya ilə əlaqələrə nə qədər böyük önəm verdiyini bildirdi. Mən Azərbaycan ilə Yaponiya arasında münasibətlərin inkişaf etdirilməsinin vacibliyini bir daha dərk etdim».*

*Görüşdə Azərbaycan ilə Yaponiya arasında əməkdaşlığın enerji, neft-kimya, təhsil, səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 oktyabr 2015-ci il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 oktyabr 2015-ci il*

# MONTENEQRONUN BAŞ NAZİRİ MİLO ÇUKANOVİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Monteneqronun Baş naziri Milo Çukanoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan–Monteneqro ikitərəfli əlaqələrinin inkişafının razılıq doğurduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı dostluq münasibətlərinin qurulduğunu dedi. Prezident İlham Əliyev Monteneqronun Baş naziri Milo Çukanoviçin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əməkdaşlığımızın inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. Əlaqələrimizin genişləndirilməsində tez-tez həyata keçirilən yüksək səviyyəli səfərlərin önəmini qeyd edən dövlətimizin başçısı bu əlaqələrin bütün istiqamətlərdə, o cümlədən siyasi və iqtisadi sahələrdə davam etdiriləcəyinə ümidvar olduğunu vurğuladı. Prezident İlham Əliyev əməkdaşlığımızın sərmayə qoyuluşu, enerji təhlükəsizliyi, biznes və digər sahələrdə inkişaf etdirilməsinin də mühüm əhəmiyyət daşıdığını dedi.*

*Baş nazir Milo Çukanoviç prezident İlham Əliyevin Monteneqro ilə əlaqələrə verdiyi önəmi ölkəsinə olan böyük dostluq münasibətinin ifadəsi kimi dəyərləndirdi. İkitərəfli münasibətlərimizin səviyyəsindən razılığını bildirən Baş nazir Milo Çukanoviç son illər ərzində əməkdaşlığımızın uğurla inkişaf etdirilməsinin əhəmiyyətini vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında enerji, «Cənub Qaz Dəhlizi» layihəsi çərçivəsində əməkdaşlıq, nəqliyyat, infrastruktur, turizm və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## CEYRANBATAN ULTRASÜZGƏCLİ SUTƏMİZLƏYİCİ QURĞULAR KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*28 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə üzrə görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi Ceyranbatan gölündən suyun götürülməsi məqsədilə tikilən hidrotexniki qurğular, sutəmizləyici qurğunun özü və onun köməkçi infrastrukturu, emal olunan suyun optimal paylanması məqsədilə relyef baxımından hündürlükdə yerləşən anbarlardan və qurğudan anbara qədər magistral kəmərdən ibarətdir.*

*Qeyd olundu ki, əhalinin daha keyfiyyətli içməli su ilə təmin edilməsi, Bakıətrafı qəsəbə və yeni yaşayış massivlərinin içməli suya tələbatının ödənilməsi, Kür sutəmizləyici qurğusunda emal olunan suyun bir hissəsinin Aran və Muğan bölgəsinə yönəldilməsi, eyni zamanda, Ceyranbatan sutəmizləyici qurğusunun üçüncü növbəsinin köhnəlməsi yeni qurğunun inşasını zəruri edirdi. Bununla yanaşı, Taxtakörpü su anbarının və Taxtakörpü–Ceyranbatan su kanalının tikintisi nəticəsində Ceyranbatan gölündə kifayət həcmdə su ehtiyatının yaranması yeni qurğunun xam su ilə təminatına imkan verirdi. Bu məsələ «Abşeron yarımadasının içməli su təchizatı, kanalizasiya və yağış suları sisteminin Master Planı» layihəsində əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Master Planda 1-ci və 2-ci Bakı, Kür, Ceyranbatan, Oğuz–Qəbələ–Bakı su kəmərlərinin qidalandırdığı ərazilərin şəbəkə sistemlərini əlaqələndirəcək və yeni texnologiyaya əsasla-*

nacaq qurğunun tikilməsi də əksini tapmışdı. Kompleks layihələndirilərkən onun mövcud mənbələrlə əlaqələndirilməsi, hazırda istismar olunan magistral xətlərin təmiri və ya qəzalar zamanı su təchizatında dayanıqlığın təmin edilməsi əsas götürüldü. Mütəxəssislərin apardığı layihə-axtarış və texniki-iqtisadi əsaslandırmalar nəticəsində Ceyranbatan gölünün ehtiyatlarından istifadə etməklə, ən son – ultrasüzgəc texnologiyasına əsaslanan təmizləyici qurğunun tikintisi qərara alındı. Layihə-axtarış işləri çərçivəsində Ceyranbatan gölünün bütün göstəriciləri ətraflı təhlil edilərək, gölün dibinin batimetriyası işlənib hazırlandı. 2011-ci il sentyabrın 8-də isə prezident İlham Əliyevin iştirakı ilə Ceyranbatan su təchizatı idarəsinin ərazisində məhsuldarlığı saniyədə 6,6 kubmetr və ya sutkada 570 min kubmetr olan ultrasüzgəcli sutəmizləyici qurğunun təməli qoyuldu. Bu da onu göstərir ki, ölkədə su təchizatı infrastrukturunun yaradılması istiqamətində ulu öndər Heydər Əliyevin başlatdığı işlər prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Abşeron yarımadasının hər bir yaşayış massivinin fasiləsiz su ilə təmin olunması istiqamətində mühüm tədbirlər görülür.

Kompleksin ən mürəkkəb hissələrindən biri Ceyranbatan gölündən suyun götürülməsini təmin edən suqəbuledici qurğuların tikintisi olub. Layihəyə əsasən sugötürücü qurğu və boru xətlərinin bir hissəsi gölün dibində quraşdırılmalı idi. Gölün dibində suyun bulanıqlığının qarşısının alınması üçün xüsusi layihə hazırlandı və sugötürücü boruların qapalı, yəni mikrotunel üsulu ilə quraşdırılmasına qərar verildi. Tikinti-quraşdırma işlərinin etibarlı və təhlükəsiz aparılmasını təmin etmək üçün gölə 400 tonluq xüsusi təyinatlı, həmçinin yedəkçi gəmiləri buraxıldı. Xüsusi təyinatlı gəmi vasitəsilə suyun altında mürəkkəb hidrotexniki qurğuların qısa müddətdə və keyfiyyətlə quraşdırılması təmin edildi. Layihədə göldən lazımi həcmdə suyun götürülməsini təmin edəcək 3 iri diametrli kəmər, sugötürücü başlıqlar və bölüşdürücü kamera inşa olundu. Gölün içərisinə

doğru hər birinin uzunluğu 454 metr olan 3 kəmər çəkildi. Mikrotunel üsulu ilə quraşdırılan xətlərin tikintisində dəmir-beton borulardan istifadə edildi. Sonra əraziyə hazır dəmir-beton özül piltə yerləşdirilərək suqəbuledici başlıqlar onun üzərində quraşdırıldı. Suqəbuledici başlıqlar göldə hər hansı lillənmə baş vermədən quraşdırılıb və keçən əsrin 60-cı illərində tikilən mövcud sugötürücü qurğunun işinə heç bir maneə yaranmayıb. Burada tikilən subölüşdürücü kamerada toplanan su ultrasüzgəcli qurğuya hər birinin uzunluğu 913 metr olan 4 kəmərlə ötürülür. Bu xətlərin 245 metrlik hissəsi Ceyranbatan gölünü qidalandıran kanalın və mövcud boru xətlərinin altından keçməklə inşa edilib.

Təmizləyici qurğuya ötürülən suyun ilkin təmizlənməsi və onun həcminin müəyyən edilməsi mexaniki süzgəc binasında aparılır. Burada quraşdırılan avtomatik yuyulan torşəkilli süzgəclər suyun tərkibindəki iri hissəcikləri tutmaqla, ilkin təmizləmə prosesini həyata keçirir. Subölüşdürücü kameradan təmizləyici qurğuya çəkilən kəmərlərin hər birinin üzərində ultrasəs prinsipinə əsaslanan sayğaclar quraşdırılıb və onlar emala yönəldilən xam suyun həcmini dəqiq ölçməyə imkan verir. Mexaniki süzgəclərdə ilkin təmizləmədən keçən su 10 min kubmetr tutumu olan xam su anbarına toplanır. Burada quraşdırılmış səviyyəölçən və siyirtmələr daxil olan, eləcə də emala ötürülən suyun həcmini onlayn rejimdə tənzimləyir.

Yeni kompleksin əsas obyekti ultrasüzgəcli sutəmizləyici qurğudur. 5,6 hektar ərazidə yerləşən bu qurğu mürəkkəb geoloji ərazidə inşa olunub. Qruntun xarakteri nəzərə alınaraq, burada əvvəlcə bərkitmə işləri aparılıb, sonra dəmir-beton və metal konstruksiyadan ibarət əsas bina inşa edilib.

Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycanın su təchizatı sistemlərinin yaxşılaşdırılması istiqamətində gördükləri işləri əks etdirən fotoguşələr yaradılıb.

Məlumat verildi ki, xam su anbarından suyun süzgəclərə sabit təzyiqlə ötürülməsini 16 nasos təmin edir. Emal prosesinə verilən su əvvəlcə 200 mikronluq süzgəclərdən keçir, sonra qurğunun əsas

*təmizləyici modullarında süzülür. Süzgəclərə 4,5 atmosfer təzyiqlə ötürülən su modullarının içərisində quraşdırılan 0,02 mikronluq xüsusi süzgəclərdən keçməklə, cəmi 20 saniyədə təmizlənir. Hazırda dünyada azbulanıqlı suların emalı üçün ən səmərəli texnologiya məhz ultrasüzgəcli qurğular sayılır. Membran texnologiyasına əsaslanan belə qurğularda su heç bir kimyəvi təmizlənmə aparılmadan mexaniki üsulla emal olunur. Belə qurğuların ən böyük üstünlüyü suyun təbii mineral tərkibini saxlamaqla, onu asılı hissəciklərdən – bakteriya, virus, bəzi həll olunmamış duzlar və ağır metallardan təmizləməsi, bulanıqlıq, xoşagəlməz iy və dadın aradan qaldırılmasıdır. Tam qapalı, avtomatik rejimdə təmizlənən suda bulanıqlıq həddi bir litrdə maksimum 0,03 milliqram təşkil edir. Beləliklə, ultrasüzgəclərdə emal edilən su Dünya Səhiyyə Təşkilatının, digər beynəlxalq qurumların qəbul etdiyi standartlara tam cavab verir.*

*Qurğuda emal prosesinin fasiləsizliyini təmin etmək üçün süzgəclər müəyyən müddətdən bir yuyularaq asılı maddələr və lildən təmizlənir. Süzgəclərin təmizlənməsi geriyuma və kimyəvi dozalama nasoslarının köməyi ilə həyata keçirilir. Proses növbəli rejimdə aparılır, yəni qurğunun bir hissəsində geriyuma və kimyəvi dozalama aparılarkən, digər hissələrdə suyun emalı davam edir. Bu da öz növbəsində, emal prosesinin fasiləsizliyini təmin edir. Qurğuda quraşdırılan 5280 modulun məhsuldarlığı saniyədə 6,6 kubmetrdir. Gələcəkdə əlavə modulların quraşdırılması, eləcə də elektromexaniki sistemin köməyi ilə emal gücünün artırılaraq saniyədə 7,5 kubmetrə çatdırılması mümkündür. Süzgəclərdən çıxan içməli suyun keyfiyyətinə onlayn rejimdə nəzarət olunur. Bu məqsədlə xüsusi analiz panelləri quraşdırılıb ki, onlar suyun keyfiyyət parametrləri barədə siqnalları birbaşa SCADA otağına ötürür. Bununla yanaşı, burada yaradılmış laboratoriyada istər xam suyun, istərsə də emal olunmuş təmiz suyun vacib parametrləri daha dəqiq şəkildə öyrənilir və keyfiyyət göstəriciləri tam nəzarətdə saxlanılır.*

*Qeyd olundu ki, kompleksdə qurğunu idarə edəcək personal üçün işçi otaqları, tədbirlərin keçirilməsi üçün konfrans zalı da yaradılıb.*

*SCADA otağında yaradılan şəraitlə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, qurğuda bütün texnoloji proseslər – suyun həcmi, təzyiqi, emalı, hər bir mərhələdə keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması tam avtomatlaşdırılıb və bütövlükdə proses kiçik işçi heyəti ilə SCADA idarəetmə mərkəzindən idarə olunur.*

*Ultrasüzgəcli təmizləyici qurğuda emal olunan təmiz suyun nisbətən hündürlükdə yerləşən anbara qaldırılması üçün nasos stansiyası tikilib. Suyun optimal paylanması və elektrik enerjisindən asılılığın aradan qaldırılması məqsədilə dəniz səviyyəsindən 118 metr hündürlükdə 50 min kubmetr həcmində anbar kompleksi inşa olunub. Qurğudan anbara qədər 11 kilometr uzunluğunda kəmər çəkilib. Anbar layihələndirilərkən onun Oğuz–Qəbələ–Bakı su kəmərinin bölüşdürücü kamerası ilə əlaqəsinin yaradılması üçün yeni qaldırıcı nasos stansiyası quraşdırılıb. Bu işlər Ceyranbatan və Oğuz–Qəbələ–Bakı su mənbələrinin alternativ istismarına şərait yaratmaqla, Abşeron yarımadasının içməli su təchizatında etibarlılığın təmin olunmasını şərtləndirib.*

*Kompleksdə emal olunan su istehlakçılara Ceyranbatan–Zirə magistral kəməri ilə ötürülür. Kəmərin 61 kilometrlik Ceyranbatan–Balaxanı–Ramana–Qala hissəsinin tikintisi 2013-cü ildə, 22,5 kilometrlik Qala–Zirə hissəsinin tikintisi isə 2014-cü ildə başa çatdırılıb. Əsasən Abşeron yarımadasının qəsəbə və kəndlərinin su təchizatına hesablanan Ceyranbatan–Balaxanı–Ramana–Qala–Zirə kəməri ilə ötürülən suyun səmərəli paylanması, bu ərazilərdə əhalinin fasiləsiz su təminatına nail olunması üçün kəmərin marşrutu boyunca tutumu 90 min kubmetr olan Saray, Balaxanı, Ramana, Qala və Zirə anbarları tikilib. Gələcəkdə Masazır və Binəqədidə yeni anbarların tikilməsi, eləcə də mövcud anbarların genişləndirilməsi nəzərdə tutulur ki, bunun nəticəsində 200 min kubmetrdən artıq su ehtiyatı yaradılacaq. Bu da magistral kəmərdə və paylayıcı şəbəkələrdə sabit, dayanıqlı hidravlik rejimin təmin olunmasına, həmçinin qəza və planlı dayanmalar zamanı fasiləsiz su təchizatının aparılmasına imkan verəcək.*

*Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi və Ceyranbatan–Zirə magistral su kəməri layihəsi Pirallahı qəsəbəsi də daxil olmaqla, Bakı şəhəri və Abşeron yarımadasının digər yaşayış məntəqələrini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin edəcək.*

*Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin yaradılması layihəsi çərçivəsində, ümumilikdə 30 kilometr uzunluğunda müxtəlif diametrli boru, 116 nasos, 6 transformator quraşdırılıb, ərazidə yaşıllaşdırma işləri görülüb, 150 minə yaxın ağac və kol əkilib. Kompleksin ayrı-ayrı hissələrinin tikintisi və quraşdırılmasına dünyanın bu sahədə məşhur ixtisaslaşmış şirkətləri, həmçinin 30-dək yerli podratçı təşkilat cəlb olunub.*

*Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksini işə saldı.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Bu gün şəhərimizin həyatında çox əlamətdar və tarixi bir gündür. Biz Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışını qeyd edirik. Bu doğrudan da böyük və tarixi hadisədir. Bundan sonra Bakı şəhərinin, Abşeron rayonunun sakinlərinə veriləcək su Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verəcək.

Mən xatırlayıram ki, 4 il bundan əvvəl biz burada bu kompleksin təməl daşını qoyduq. Şadam ki, artıq bu nəhəng infrastruktur obyekti istismara verilir.

Bu Sutəmizləyici Qurğular Kompleksi dünyanın ən böyük təmizləyici infrastruktur obyektidir. Biz fəxr edirik ki, bu, Azərbaycanda, Bakıda yaradılıb. Bu kompleksin tikintisi üçün böyük həcmdə dövlət vəsaiti ayrılıb. Əlbəttə, bu günə qədər infrastruktur layihələrinin icrası da bu kompleksin işinə öz dəstəyini verir. İlk növbədə, Taxtakörpü su anbarı, Taxtakörpü–Ceyranbatan su kəmərinin tikintisi bu kompleksin fəaliyyətinə çox müsbət təsir göstərir.

Burada ən müasir texnologiyalar tətbiq olunur. Dünyanın aparıcı şirkətləri burada öz təcrübəsini bizimlə bölüşüb. Kompleksin istismarı işində də əminəm ki, heç bir problem olmayacaq və beləliklə, biz bu böyük sosial layihəni artıq başa çatdırırıq.

Ümumiyyətlə, Azərbaycanda infrastruktur layihələrinin icrası prioritet məsələdir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının əsas məqsədi də Bakıda və bütün bölgələrdə müasir infrastrukturun yaradılmasıdır. Bu istiqamətdə son illər ərzində çox böyük işlər görülmüşdür. Demək olar ki, elektrik enerjisi ilə bağlı bütün problemlər öz həllini tapmışdır. Biz əvvəlki illərdə xaricdən elektrik enerjisi alırdıqsa, bu gün nəinki öz tələbatımızı ödəyirik, eyni zamanda, xaricə də ixrac edirik. Vaxt var idi ki, biz qaz idxalı ilə məşğul idik, bizə qaz çatmırdı. Hazırda görülən işlər nəticəsində Azərbaycan nəinki regionda, dünyada qaz ixrac edən ölkəyə çevrilir. Biz bütün bunları son illər ərzində əldə etmişik. Kənd yollarının tikintisi, sosial infrastrukturun yaradılması həm Bakıda, həm bölgələrdə geniş vüsət almışdır.

Bu infrastruktur layihələrinin içində, əlbəttə ki, içməli su layihələri xüsusi əhəmiyyət daşıyır. Çünki içməli su insanların həyatına birbaşa təsir edən amildir. Şadam ki, bu gün Bakıda və bütün bölgələrdə içməli su layihələri icra edilir. Biz artıq bir çox şəhərlərimizdə mənim iştirakımla bu layihələrin açılışlarını etmişik. Hələ ki, bəzi rayonlarda işlər davam edir və qarşıya məqsəd qoyulmuşdur ki, Azərbaycanın bütün şəhərlərində təmiz içməli su fasiləsiz və bütün əhaliyə verilsin.

Biz bu məqsədə çatmaq üçün artıq çox önəmli addımlar atırıq. Bununla bərabər, hər il mənim sərəncamımla Prezidentin ehtiyat fondundan vəsait ayrılır və ən azı 300 subartezian quyusunun qazılması təmin edilir. Çaylar boyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırılır. Yəni biz bu məsələlərə kompleks şəkildə yanaşırıq və əlbəttə ki, burada əsas rolu «Azərsu» icra edir. Şadam ki, son illər ərzində bu sahədə görülən işlər əhali tərəfindən də yüksək qiymətləndirilir. Eyni zamanda, biz görürük ki, məsələlər öz həllini tapmaqdadır.

Əsrlərboyu Azərbaycan və xüsusilə Bakı şəhəri içməli su problemi ilə üz-üzə qalmışdır. Bunun təbii səbəbləri vardır. Əlbəttə, sovet dövründə böyük işlər görülmüşdür, Kür su kəməri çəkilmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə böyük infrastruktur layihələri icra edilmişdir. Ancaq müstəqillik illərinin ağır şəraiti, xüsusilə keçən əsrin 90-cı illərinin əvvəllərində yaranmış çox ağır sosial, iqtisadi və siyasi vəziyyət imkan vermirdi ki, biz müasir texnologiyaları Azərbaycana cəlb edək.

Bu məqsədlə çox böyük işlər görülmüşdür. Bəzi layihələr xaricdən götürülmüş kreditlər hesabına icra edilmişdir. Ancaq iqtisadi gücümüz artdıqca, biz bu vəsaiti ilk növbədə insanları ən çox narahat edən problemlərin həllinə yönəldə bilmişik və bu gün belə gözəl, nəhəng qurğuların istismara verilməsini qeyd edirik. Bir daha demək istəyirəm ki, bu kompleksdə ən müasir texnologiyalar tətbiq edilir, dünyanın ən böyük sutəmizləyici kompleksidir və Bakı şəhərinin, Abşeron rayonunun sakinlərinə xidmət edəcək. Bax, bu gün xəritədəki mənzərə onu göstərir ki, uzun illər içməli sudan korluq çəkən Bakı qəsəbələri bundan sonra bu təmiz suyu alacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli sudur.

Əlbəttə, Bakı şəhərinin su təsərrüfatı daha da sürətlə yeniləşməlidir. Şəbəkə sistemi hələ ki, bizim standartlarımıza tam uyğun deyil. Ancaq bu istiqamətdə də işlər aparılır və əlbəttə, biz hamımız istəyirik ki, tezliklə bütün şəhərimizdə hər bir vətəndaş kranı açıb oradan suyu birbaşa içə bilsin. Artıq biz buna yaxınlaşırıq və bu qurğunun xüsusi əhəmiyyəti ondan ibarətdir ki, bizə bu imkanı yaradacaq.

Son illər ərzində görülmüş işlər nəticəsində Bakıda fasiləsiz içməli suyun verilməsi təxminən 80 faizə çatmışdır. Bu, əvvəlki dövrlə müqayisədə çox böyük nailiyyətdir, ancaq bu bizi tam qane edə bilməz. Bakı kimi müasir, gözəl, inkişafda olan şəhərdə əhalinin 100 faizi 24 saat fasiləsiz təmiz içməli su ilə təmin edilməlidir. Əminəm ki, biz buna da nail olacağıq. Buna nail olmaq üçün isə iqtisadi potensial lazımdır və biz son illər ərzində apardığımız iqtisadi islahatlar, düşünülmüş siyasət nəticəsində

iqtisadi imkanlarımızı böyük dərəcədə artıra bilmişik. Bu gün Azərbaycan iqtisadiyyatı dünya miqyasında bir nümunə kimi göstərilir, hətta böhranlı illərdə bizim iqtisadiyyatımız artır, bu il də artacaqdır. Bizim kifayət qədər böyük maliyyə resurslarımız vardır, onlardan qənaətlə istifadə edirik, ölkəyə, xalqa lazım olan bu kimi layihələrə yönəldirik. Əlbəttə, iqtisadi inkişaf gələcəkdə də bizə imkan verəcək ki, bu günə qədər həllini tapmamış layihələr icra edilsin. Onların içində ilk növbədə, içməli su layihələridir. Çünki qeyd etdiyim kimi, elektrik enerjisi ilə bağlı problemlər, demək olar ki, həll olunub. Generasiya gücümüz tələbatdan artıqdır. İndi şəbəkələrdə işlər gedir, yeni qurğular quraşdırılır. Bakıda, bütün şəhərlərdə qazlaşdırma 100 faizdir. İndi kəndlərdə də – kəndlərin haradasa 50 faizi qazlaşdırılıb – bu istiqamətdə hələ işlər görüləcək. Azərbaycanda ümumi qazlaşdırma 90 faizə yaxınlaşır.

Belə olan halda növbəti illərdə içməli su, kanalizasiya layihələrinin davam etdirilməsi, başa çatdırılması əsas prioritet məsələ olacaqdır və gələn ilin investisiya proqramında da bu məqsədlər üçün kifayət qədər böyük vəsait nəzərdə tutulmalıdır. Çünki nəinki Bakıda və böyük şəhərlərdə, hər bir yaşayış məntəqəsində təmiz içməli su olmalıdır. Təmiz içməli su sağlam həyat deməkdir.

Bizim siyasətimizin təməlində Azərbaycan vətəndaşı dayanır. Azərbaycanın çox güclü düşünülmüş sosial siyasəti vardır və insan amili bu siyasətin mərkəzində dayanır.

İnsan sağlamlığı üçün əsas şərt təmiz içməli sudur. Biz bunu həll edirik. İkinci əsas şərt təmiz havadır. Bunu da həll edirik. Bakıda görülmüş işlər nəticəsində ekoloji vəziyyət böyük dərəcədə yaxşılaşıb. Vaxtilə Balaxanı zibilxanasından qalxan tüstü şəhərin böyük hissəsini əhatə edirdi. İndi nəhəng, müasir Zibilyandırma zavodunun inşasından sonra artıq bu problem aradan götürülüb. Artıq Balaxanı zibilxanası adlı yer yoxdur. Orada indi texnopark yaradılır, ərazi abadlaşdırılır, bu ərazidəki kimi ağaclar əkilir. 4 il əvvəl mən burada olanda heç bir ağac yox idi. İndi böyük bir meşə salınıb. Böyükşor gölü ekoloji təhlükə mənbəyi idi. Onun yanında

dayanmaq mümkün deyildi. Adam üfunətdən boğulurdu. İkinci dünya müharibəsi zamanı hətta ondan açıq neft anbarı kimi istifadə edirdilər. Ondan sonra lay, kanalizasiya suları, bütün axıntılar oraya tökülürdü. Böyükşor gölünün reabilitasiyası, abadlaşdırılması layihəsinin birinci hissəsini biz cəmi 1 il ərzində həll etdik. Gölün 300 hektarı indi tam təmizlənib, 1 kilometrdən də çox uzunluğu olan böyük bulvar salınıb, bənd tikilib və işlər davam etdirilir. Bir daha demək istəyirəm, vaxtilə onun yanında dayanmaq mümkün deyildi. İndi isə gölün üzərinə köçəri quşlar qonur. Bax, budur bizim yanaşmamız. Biz bunu nə üçün edirik, niyə bu qədər vəsait xərcləyirik? Ona görə ki, Bakıda ekoloji vəziyyət yaxşılaşsın, insanlar daha da rahat yaşasınlar, çoxlu ictimai yerlər yaradılsın, ekoloji problem yaradan yaranı sağalda bilək.

Böyükşor gölünün reabilitasiyasının ikinci mərhələsi həyata keçiriləcək və beləliklə, Bakıda çox gözəl, böyük, haradasa 700–800 hektar sahədə göl yaradılacaqdır. Gələcəkdə o gölün ətrafında yaşayış yerləri, yeni parklar da salınacaq. Ölü bir yeri insanlar üçün diriltdik və dirildirik. Zığ gölü də yaxın zamanlarda təmizlənəcək. O ərazini də tamamilə yaşıllaşdıracağıq və əhalinin sərəncamına verəcəyik. Bir daha deyirəm, biz bunları ona görə edirik ki, buna ehtiyac var. Bizim böyük problemlərimiz ondan ibarətdir ki, 100 ildən artıqdır Bakıda neft sənayesinin yaratdığı fəsadları aradan götürməliyik. Bibiheybət neft mədənləri – o bir ekoloji fəlakət mənzərəsi idi. Adam ona baxanda dəhşətə gəlirdi. İndi ora baxanda adam gözəl, abad mənzərə, ağaclar, parklar görür. Orada Su İdmanı Sarayı tikilib, I Avropa oyunlarının yarışlarının bir hissəsi orada keçirilib, bulvar, qazonlar, parklar salınıb. Hətta indi buruqlara o qədər gözəl xidmət göstərirlər ki, onlar da artıq gözəl mənzərənin bir elementlərinə çevrilib.

Bakıda vaxtilə fəaliyyət göstərən Yod zavodu böyük bir təhlükə mənbəyi idi. Artıq bu zavod oradan köçürüldü, bütün lazımi tədbirlər görüldü və bu təhlükə mənbəyindən də insanların canını qurtara bildik. Ona görə içməli su layihəsi bu istiqamətdə görülən

işlərin tərkib hissəsidir və bilavasitə insanların sağlamlığına təsir göstərən amildir.

Yenə də deyirəm, Azərbaycanda son vaxtlar ərzində güclü sosial siyasət sayəsində insanların ömrü uzanıb. Bu, gözəl göstəricidir. Diaqnostika aparılır, hər il dispanserizasiya keçirilir, milyonlarla insan bütün ölkə üzrə pulsuz müayinədən keçir və müalicə edilir. İçməli su, təmiz hava, sağlam ərzaq məhsulları, sağlam qida – bizim prioritetlərimiz, bax, bunlardır. Bu çox böyük sosial layihədir, çox böyük infrastruktur layihəsidir və biz bunu icra edirik. Mən çox şadam ki, bu gün Azərbaycan bu istiqamətdə də dünyada birincidir.

Son illər ərzində iqtisadi inkişaf templərinə görə dünyada bizə bərabər ölkələr azdır. Vaxtilə paxıllar, bəzi dairələr, bizim işimizə kölgə salmaq istəyənlər uğurlarımızı neftlə bağlayırdılar. İndi neftin qiyməti 2 dəfədən də aşağı düşüb, amma biz yenə də inkişaf edirik, yenə də nümunə göstəririk. Bu ilin 9 ayında Azərbaycanda qeyri-neft sənayesi 10 faizdən çox artmışdır. Ümumi daxili məhsul təxminən 4 faiz, qeyri-neft sektoru isə 6 faiz artmışdır. Bu qurğunun istifadəyə verilməsində də biz liderlik göstərmişik. Heç bir başqa ölkədə bu böyüklükdə və bu səviyyədə təmizləyici qurğu yoxdur. Bunu ancaq müstəqil Azərbaycan edə bilər və edir. Gələcəkdə bütün lazım olan infrastruktur layihələrini icra edəcəyik və əminəm ki, 2018-ci ildə başa çatması gözlənilən üçüncü regional inkişaf proqramının icrası nəticəsində Azərbaycanda bütün əsas infrastruktur layihələri icra ediləcəkdir. İnsanlar daha yaxşı, daha rahat, təhlükəsizlik, əmin-amanlıq, rifah içində yaşayacaqlar.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. «Azərsu»nun işçilərini təbrik etmək, öz minnətdarlığımı bildirmək istəyirəm ki, onlar bu böyük işləri görürlər. Bakının və Abşeron rayonunun bütün sakinlərini təbrik edirəm ki, nəhayət, bu məsələ də öz həllini tapdı. Sizi bir daha təbrik edirəm, yeni uğurlar arzulayıram.

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*28 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də ATƏT-in Minsk qrupunun həmsədrləri Pyer Andreni (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə prezident İlham Əliyev bildirdi ki, Ermənistan rəhbərliyi təxribatlardan əl çəkmir. Keçən ilin oktyabrında prezidentlərin Paris danışıqlarından 2 həftə keçməmiş, Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Ermənistan silahlı qüvvələrinə məxsus döyüş helikopterləri Azərbaycanın mövqelərinə hücumlar etmişdir. Azərbaycan tərəfi bir neçə gün buna cavab verməmişdir. Nəhayət, davamlı olaraq mövqelərimizə atəş açmağa cəhd etdikləri zaman Ermənistan silahlı qüvvələrinin hərbi helikopterləri məhv edilmişdir.*

*Dövlətimizin başçısı daha sonra qeyd etdi ki, bu ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin diversiya qrupunun ərazimizdə təxribat törətmək cəhdlərinin də qarşısı alınmış və işğalçılar xeyli sayda itki vermişlər. Prezident İlham Əliyev bildirdi ki, bütün bu təxribatlara görə Ermənistan prezidenti Serj Sarkisyan məsuliyyət daşıyır.*

*Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan hazırda regionda böyük təhlükə mənbəyinə çevrilib. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən dinc əhaliyə mütəmadi olaraq atəş açır, hətta toy məclislərində iştirak edən insanlar belə, atəşə tutulur və nəticədə mülki əhalimiz arasında itkilər olur. Azərbaycan tərəfi bu cür təxribatlara cavab*

*verdikdə isə bizi günahlandırırlar. Prezident İlham Əliyev təəssüf hissi ilə vurğuladı ki, beynəlxalq ictimaiyyət və xüsusilə də vasitəçilər Ermənistan tərəfinin bu azğınlaşmış hərəkətlərinə adekvat reaksiya vermirlər.*

*Azərbaycan Prezidenti bildirdi ki, bütün bunlar azmış kimi, bu yaxınlarda diktator Sarkisyan rejimi yeni bir siyasi təxribata əl atmış, Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olduğunu bildirmişdir. Bu, dözülməz, hətta Ermənistanın rəsmi mövqeyinə belə, zidd olan bəyanata da, əfsuslar olsun ki, vasitəçilər tərəfindən heç bir cavab verilməmişdir. Dövlətimizin başçısı vurğuladı ki, bütün bunlar Azərbaycan tərəfində böyük təəssüf hissi doğurur və vasitəçilərin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı missiyasına kölgə salır.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İnqilab Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Əlcəzair dostluğu və əməkdaşlığı bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2015-ci il*

## MİSİR ƏRƏB RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SUZANNE MƏHƏMMƏD GAMİL İLƏ GÖRÜŞ

*29 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Suzanne Məhəmməd Gamilin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Suzanne Məhəmməd Gamil Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Suzanne Məhəmməd Gamil etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin son vaxtlar daha fəal şəkildə həyata keçirilməsinin önəmini qeyd edərək bu təmasların əməkdaşlığımızın çox müsbət göstəricisi olduğunu dedi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrə toxunan prezident İlham Əliyev bu əlaqələri irəli aparmaq üçün prioritetlərin dəqiq müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi, iki ölkə arasında qarşılıqlı ticarətin səviyyəsinin artırılacağına ümidvar olduğunu bildirdi. Azərbaycanın Misir ilə əlaqələri bütün sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu deyən dövlətimizin başçısı enerji və təhlükəsizlik sahələrində əməkdaşlıq üçün də yaxşı potensialın olduğunu qeyd etdi. Ölkələrimizin yerləşdiyi regionlardakı vəziyyətə toxunan prezident İlham Əliyev hazırda təhlükəsizliyin bütün dünyada gündəlikdə duran ən vacib məsələlərdən biri olduğunu vurğuladı. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqdan danışan dövlətimizin başçısı Azərbaycan ilə Misirin daim bir-birini dəstəkləməkdə davam edəcəyinə ümidvar oldu-*

*ğunu bildirdi. Prezident İlham Əliyev səfirə ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzuladı.*

*Səfir Suzanne Məhəmməd Gamil Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəmizə səfir təyin olunmasından məmnunluğunu ifadə edən Suzanne Məhəmməd Gamil Azərbaycan ilə Misir arasında dost və qardaş münasibətlərin mövcud olduğunu dedi, ölkəsini beynəlxalq təşkilatlarda daim dəstəklədiyinə görə prezident İlham Əliyevə və Azərbaycan hökumətinə minnətdarlığını bildirdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi böyük insan və əsl lider kimi ehtiramla xatırladan səfir Suzanne Məhəmməd Gamil ulu öndərin qısa zaman ərzində dövlət quruculuğu sahəsində əldə etdiyi nailiyyətlərin xalqımız tərəfindən yüksək qiymətləndirildiyinin daim şahidi olduğunu dedi. Səfir, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində ölkəsinin hər zaman Azərbaycana dəstək nümayiş etdirdiyini vurğuladı.*

*Dövlətimizin başçısı İlham Əliyev prezident Əbdülfəttah əs-Sisinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Misir Ərəb Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## HİNDİSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SANJAY RANA İLƏ GÖRÜŞ

*29 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Sanjay Rananın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Sanjay Rana Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Sanjay Rana etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Sanjay Rana Hindistan Respublikasının Prezidenti Pranab Mukhercinin və Baş nazir Narendra Modinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Ölkələrimizin tarixi əlaqələrə malik olduğunu vurğulayan səfir Hindistanın Azərbaycan ilə əlaqələrə böyük maraq göstərdiyini bildirdi. O, qeyd etdi ki, Hindistan hökuməti prezident İlham Əliyevin müdrik rəhbərliyini yüksək qiymətləndirir. Səfir Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən iqtisadi və sosial sahələrdə böyük inkişafa nail olunduğunu dedi. Hindistanlı diplomat I Avropa oyunlarının ölkəmizdə uğurla təşkil olunmasının və keçirilməsinin önəmini də qeyd etdi. Ölkələrimiz arasında iqtisadi, ticarət, təhsil və texniki sahələrdə əlaqələrin genişləndiyini deyən Sanjay Rana bu əlaqələrin prezident İlham Əliyevin dəstəyi sayəsində daha yüksək səviyyəyə çatdırılması üçün əlindən gələni əsirgəməyəcəyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın Hindistan ilə tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın iqtisadi, enerji, ticarət, təhsil, mədəniyyət və digər sahələrdə böyük potensiala malik olduğunu qeyd etdi. Prezident İlham Əliyev biznes*

*sahəsində əlaqələrin genişləndirilməsi, qarşılıqlı sərmayələrin stimullaşdırılması, birgə müəssisələrin yaradılması və ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması üçün də böyük imkanların olduğunu vurğuladı. Hindistanın informasiya texnologiyaları sahəsində çox qabaqcıl ölkə olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanda da bu istiqamətdə işlərin görüldüyünü dedi və ölkələrimizin bu sahədə əməkdaşlığı üçün yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi və ticari sahələrdə əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi üçün səfirin Azərbaycanın müvafiq qurumları ilə yaxşı əlaqələr yaradacağına və diplomatik fəaliyyətinin səmərəli olacağına əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı Hindistan Respublikasının Prezidenti Pranab Mukhercinin və Baş nazir Narendra Modinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Hindistan Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiyaya məxsus «Airbus-321» sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 oktyabr 2015-ci il*

## RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ İLYAS UMAXANOV İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin müavini İlyas Umaxanovu qəbul etmişdir.*

*İlyas Umaxanov Azərbaycanda parlament seçkilərinin mükəmməl və ən yüksək beynəlxalq standartlara uyğun şəkildə təşkil olunması münasibətilə dövlətimizin başçısını təbrik etdi. 15 seçki məntəqəsində apardıqları müşahidələr zamanı seçicilərin çox yaxşı əhval-ruhiyyəsinin şahidi olduqlarını vurğulayan İlyas Umaxanov seçkilərin gedişini izləmək üçün müxtəlif siyasi partiyalar və beynəlxalq müşahidəçilər üçün bütün lazımi imkanların yaradıldığını qeyd etdi. İlyas Umaxanov eyni zamanda, xarici ölkələrdən gəlmiş həmkarları ilə seçki prosesinin təşkili sahəsində Azərbaycanın təcrübəsindən istifadə edilməsi barədə fikir mübadiləsi apardıqlarını da bildirdi.*

*Dövlətimizin başçısı Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin müavini İlyas Umaxanovun başçılıq etdiyi missiyanın Azərbaycanda seçkilərin gedişini izləmək üçün fəal şəkildə iştirak etməsindən məmnunluğunu ifadə etdi. Beynəlxalq müşahidəçilərin bütün seçki məntəqələrində müşahidələr aparmaları üçün ölkədə lazımi şəraitin yaradıldığını vurğulayan prezident İlham Əliyev Azərbaycanda seçki prosesinin maksimum şəffaf, keyfiyyətli və ən yüksək standartlara cavab verməsi üçün mühüm islahatların aparıldığını dedi. Dövlətimizin başçısı beynəlxalq müşahidəçilərdən ibarət böyük nümayəndə heyətlərinin, beynəlxalq təşkilatların, minlərlə yerli müşahidəçinin seçki prosesini izlədiyini, «exit-pol»ların keçiril-*

*diyini, seçki məntəqələrində veb-kameraların quraşdırıldığını vurğulayaraq, seçkinin daha mükəmməl şəkildə həyata keçirilməsi üçün böyük işlər görüldüyünü bildirdi.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra daha da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu.*

## ASİYA SİYASİ PARTİYALARI BEYNƏLXALQ KONFRANSI DAİMİ KOMİTƏSİNİN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Daimi Komitəsinin həmsədri, Filippin parlamentinin Nümayəndələr Palatasının keçmiş sədri Jose de Venesia və təşkilatın Daimi Komitəsinin həmsədri və baş katibi Çunq Eu Yonqu qəbul etmişdir.*

*Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Daimi Komitəsinin həmsədri Jose de Venesia Azərbaycana səfərdən məmnun olduqlarını bildirdi. Jose de Venesia Azərbaycanda parlament seçkilərinin yüksək səviyyədə təşkil olunduğunu və keçirildiyini dedi. Həmsədri olduğu təşkilatda Asiyanın 340-a qədər iqtidar və müxalifət partiyasının təmsil olunduğunu vurğulayan Jose de Venesia Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Qadınlar Qolunun əsasının Bakıda, həmçinin Gənclər Qolunun əsasının isə Azərbaycan paytaxtında və Kuala Lumpurda qoyulmasını məmnunluqla qeyd etdi. O dedi: «Sizin rəhbərliyiniz və Yeni Azərbaycan Partiyası sayəsində hökumətinizlə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı arasında çox güclü, sağlam və dinamik əlaqələr mövcuddur».*

*Asiyadan olan tərəfdaşlarımızla əməkdaşlığın əhəmiyyətli prioritet olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanın Asiya siyasi partiyaları ilə əlaqələri genişləndirməyə önəm verdiyini qeyd etdi, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının tədbirlərinin Bakıda uğurla keçirilməsindən məmnunluğunu bildirdi. Dost ölkələrlə əlaqələri gücləndirməyin zəruriliyini bildirən prezident İlham Əliyev partiyalar arasında siyasi dialoqun həyata keçirilməsinin əhəmiyyətini vur-*

*ğulayaraq,* bu *sahədə əməkdaşlığın genişləndirilməsinin ölkələrarası əlaqələrin möhkəmləndirilməsi işinə töhfə verəcəyini dedi.* Prezident *İlham Əliyev* Asiya Siyasi Partiyaları Beynəlxalq *Konfransı* Daimi *Komitəsinin həmsədrlərinin Azərbaycana səfərinin tərəfdaşlığımızı gücləndirmək üçün* yeni im*kanların müəyyənləşdirilməsi* baxımından *fikir mübadiləsi* aparmaq *üçün* yaxşı *fürsət yaratdığını* bildirdi. *Dövlətimizin başçısı Azərbaycanın* bundan sonra da Asiyada siyasi partiyalar *arasında əməkdaşlığı genişləndirmək üçün əhəmiyyətli* rol *oynayacağını* qeyd etdi.

## PAKİSTAN İSLAM RESPUBLİKASI SENATININ MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ MÜSAHİD HÜSEYN SEYİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Pakistan İslam Respublikası Senatının Müdafiə Komitəsinin sədri Müsahid Hüseyn Seyidin başçılıq etdiyi, Pakistan Senatının üzvlərindən ibarət olan nümayəndə heyətini qəbul etmişdir.*

*Müsahid Hüseyn Seyid Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarını və ən xoş arzularını prezident İlham Əliyevə çatdırdı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəsinə ilk səfərini ehtiramla xatırladan Pakistan Senatının Müdafiə Komitəsinin sədri ulu öndərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı istiqamətində gördüyü işləri xüsusi vurğuladı. Müsahid Hüseyn Seyid Azərbaycanda parlament seçkilərinin yüksək səviyyədə təşkil olunduğunu və keçirildiyini qeyd edərək, seçkilərin nəticələrinin Azərbaycan xalqı və ümumilikdə region üçün uğurlu olacağına əminliyini ifadə etdi. Azərbaycan–Pakistan ikitərəfli münasibətlərinə toxunan Müsahid Hüseyn Seyid Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya Pakistanda baş vermiş təbii fəlakətlər zamanı göstərdiyi yardımlara görə minnətdarlığını bildirdi. Azərbaycan ilə dostluq münasibətlərindən qürur duyduqlarını vurğulayan Pakistan Senatının Müdafiə Komitəsinin sədri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəsinin Azərbaycanın ədalətli mövqeyini tam dəstəklədiyini dedi.*

*Prezident İlham Əliyev Pakistanın bütün siyasi partiyalarının Azərbaycana münasibətdə güclü birlik nümayiş etdirməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı dost və qardaş Pakistanın Azərbaycanın ən yaxın müttəfiqlərindən biri olduğunu vurğulayaraq, hər iki ölkə arasında uğurlu əməkdaşlıq əlaqələrinin qurulduğunu dedi. Yüksək səviyyəli qarşılıqlı münasibətlərin əhəmiyyətinə toxunan dövlətimizin başçısı Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfərini xatırladaraq bu səfərin ikitərfəli əlaqələrimizin daha da gücləndirilməsi işinə xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev qardaş Pakistan dövlətinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyinə verdiyi güclü dəstəyi ölkələrimiz arasında mövcud olan qardaşlıq münasibətlərinin bariz nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında daim qarşılıqlı dəstəyin olmasının və iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etməsinin əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistan İslam Respublikasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ KOMİTƏ SƏDRİ LEONİD SLUTSKİ İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının MDB, Avrasiya İnteqrasiyası və Həmvətənlərin İşləri üzrə Komitəsinin sədri Leonid Slutskini qəbul etmişdir.*

*Azərbaycanda müxtəlif ölkələrdən və təşkilatlardan müşahidəçilər missiyasının olduğunu vurğulayan Leonid Slutski Rusiya Federasiyası Dövlət Dumasından və MDB Parlament Assambleyasından ibarət müşahidəçi missiyaya rəhbərlik etdiyini deyərək onların avqust ayından başlayaraq seçkilərə hazırlıq prosesi ilə bağlı monitorinqlər apardıqlarını bildirdi. Bu gün bir neçə məntəqədə səsvermənin gedişini müşahidə etdiklərini vurğulayan Leonid Slutski bildirdi ki, Qərbin bəzi dairələrinin verdiyi proqnozlardan fərqli olaraq, məntəqələrdə heç bir qanun pozuntusunun qeydə alınmadığının, əksinə, əvvəlki seçkilərlə müqayisədə daha böyük irəliləyişlərə nail olunduğunun şahidi olublar. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçkiləri müşahidədən imtina etməsi məsələsinə toxunan Leonid Slutski qeyd etdi ki, bu təşkilat qəbul etdiyi qərarla siyasi baxımdan Avropa ictimaiyyətinə bir institut kimi, artıq öz dövrünü başa vurduğunu göstərdi.*

*ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçkiləri müşahidədən imtina etməklə bağlı təkbaşına qərar vermək hüququna malik olmadığını vurğulayan dövlətimizin başçısı bu qurumun bütün qaydaları və reqlamenti pozduğunu bildirdi. Prezident İlham Əliyev dedi: «ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun vəzifəsi seçkini müşahidə etməkdir. Bildiyiniz kimi, biz onları dəvət etdik və ayrı-ayrı ölkələrə müşahidəçilərin sayının müəyyən edilməsi*

*metodologiyası ilə bağlı izahat vermələrini xahiş etdik. Onlar bizə cavab vermək əvəzinə, ümumiyyətlə, müşahidəçi göndərməməyi qərara aldılar». Dövlətimizin başçısı bütün bu hərəkətlərin qəbuledilməz olduğunu bildirdi.*

## MALTA PARLAMENTİNİN SƏDRİ ANQLU FARUCA İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Malta parlamentinin Sədri Anqlu Farucanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

Prezident İlham Əliyev Malta parlamentinin Sədri Anqlu Farucanın ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.

Spiker Anqlu Faruca Malta ilə Azərbaycan arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu və əlaqələrimizin gücləndirilməsinin zəruriliyini vurğuladı. Anqlu Faruca Azərbaycana səfərlərini, həmçinin 4 il bundan əvvəlki ATƏT və Avropa Şurasından olan nümayəndə heyətinin tərkibində Azərbaycana səfəri zamanı prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlatdı.

Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif səviyyələrdə çox fəal təmasların olduğunu vurğulayaraq Malta Baş nazirinin ölkəmizə səfərləri zamanı onunla səmərəli müzakirələrin aparıldığını dedi. Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini deyən prezident İlham Əliyev Azərbaycan və Maltanın həyata keçirdikləri müxtəlif layihələrin önəmini qeyd etdi. Ölkələrimiz arasında çox yaxın və dost münasibətlərin olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın Malta ilə tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək istəyində olduğunu dedi.

Azərbaycanda keçirilən parlament seçkilərinə toxunan prezident İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosuna Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə etmək üçün dəvət göndərildiyini, lakin həmin quru-

*mun bu məsələni ATƏT-in Parlament Assambleyasının daimi komitəsində müzakirəyə çıxarmadan və ATƏT-in baş katibini məlumatlandırmadan öz mandatını kobud şəkildə pozaraq parlament seçkilərini müşahidə etməmək barədə qərar qəbul etdiyini bildirdi.*

## MİLLİ MƏCLİSƏ SEÇKİLƏRLƏ BAĞLI 6 SAYLI MƏNTƏQƏDƏ SƏSVERMƏDƏ İŞTİRAK

*1 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının tarixində noyabrın 1-də növbəti parlament seçkiləri keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-i səhər saat 10-da xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi.*

*Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.*

*Sonra Mehriban Əliyeva və ailə üzvləri də səs verdilər.*

*Məntəqə seçki komissiyasının sədri Rüfət Həsənov ilk dəfə səs verməsi münasibətilə Heydər İlham oğlu Əliyevi Mərkəzi Seçki Komissiyasının adından təbrik etdi.*

## AVSTRALİYA PARLAMENTİ ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Avstraliya parlamenti Nümayəndələr Palatasının üzvü Luke Simpkinsin başçılıq etdiyi Avstraliya parlamenti üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Avstraliya parlamentində Azərbaycan dostluq qrupunun işini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirən prezident İlham Əliyev qrupun fəaliyyətinin ikitərəfli əlaqələrimizin gücləndirilməsində vacib rol oynadığını qeyd etdi. Avstraliyada fəal azərbaycanlı icmasının yaşadığını deyən dövlətimizin başçısı 2000-ci ildə Avstraliyanın Sidney şəhərində keçirilən XXVII Yay Olimpiya oyunlarında iştirakı zamanı onlarla keçirdiyi görüşü xatırlatdı. Avstraliyada Azərbaycan səfirliyinin artıq bir neçə ildir ki, fəaliyyət göstərdiyini deyən prezident İlham Əliyev ölkəmizin Avstraliya ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi.*

*Avstraliya parlamentində Azərbaycan dostluq qrupunun tərkibində fəaliyyət göstərməsindən məmnun olduğunu qeyd edən Luke Simpkins Azərbaycanın iqtisadi və sosial sahələrdə, demokratiyanın inkişafı istiqamətində əldə etdiyi uğurların böyük əhəmiyyət daşıdığını vurğuladı. O, müşahidə apardıqları məntəqələrdə seçkilərin yüksək səviyyədə təşkil edildiyini və keçirildiyini qeyd etdi. Avstraliya parlamentinin Nümayəndələr Palatasının üzvü Azərbaycanda sürətli inkişaf proseslərinin getdiyini dedi, ölkəmizin yerləşdiyi mürəkkəb regionda belə, nailiyyətlər əldə etməsinin önəmini vurğuladı, bu barədə Avstraliya ictimaiyyətini məlumatlandırmağın əhəmiyyətini bildirdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD DAVUDOĞLUNA**

Hörmətli cənab Baş nazir!

Rəhbərlik etdiyiniz Ədalət və İnkişaf Partiyasının Türkiyə Böyük Millət Məclisinə seçkilərdə qazandığı inamlı qələbə münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Seçkilərin nəticələri Türkiyə cəmiyyətinin sabitliyə, əmin-amanlığa və inkişafa dəstəyinin və milli iradəsinin parlaq təzahürüdür.

Əminəm ki, zamanın sınaqlarından çıxmış strateji tərəfdaşlıq əlaqələrimiz və müstəsna xarakter daşıyan münasibətlərimiz xalqlarımızın rifahı və ölkələrimizin maraqlarına uyğun olaraq bundan sonra daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Zəfər sevincinizi Sizinlə bölüşür, Sizə, Ədalət və İnkişaf Partiyasının bütün üzvlərinə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2015-ci il*

## MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ SERGEY LEBEDEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də MDB İcraiyyə Komitəsinin sədri, Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə MDB-dən müşahidəçi missiyasının rəhbəri Sergey Lebedevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev bu il rəhbərlik etdiyi missiyanın MDB-nin müxtəlif ölkələrində öz fəaliyyətlərini uğurla həyata keçirdiyini dedi. Azərbaycandakı seçkilərdə rəhbərlik etdiyi təşkilatdan 147 nəfərdən ibarət nümayəndə heyətinin iştirak etdiyini vurğulayan Sergey Lebedev bildirdi ki, missiya, adətən, nümayəndələrin sayını ölkələrlə razılaşma əsasında müəyyənləşdirir və öz müşahidələrini həmin ölkənin qanunvericiliyinin tələblərinə uyğun şəkildə həyata keçirir. Milli Məclisə seçkilərdən danışan Sergey Lebedev dedi: «Biz məmnunluqla və birmənalı şəkildə bildiririk ki, Milli Məclisə seçkilər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilib və ölkə vətəndaşları azad seçim imkanı ilə tam təmin olunub».*

*Dövlətimizin başçısı MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedevin rəhbərlik etdiyi təşkilatın ölkə qanunvericiliyinə əsaslanan obyektiv yanaşmasının və qətiyyən siyasiləşdirilməmiş mövqeyinin önəmini qeyd etdi. Daha sonra prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın dəvətinə baxmayaraq ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu əsassız sayda müşahidəçilərin ölkəyə gəlməsini israr etdi. Dövlətimizin başçısı dedi ki, onlara müşahidəçilərin sayının ölkə əhalisinin sayına uyğunlaşdırılması təklif olunduqda seçkiləri müşahidə*

*etməkdən imtina etdilər. Prezident İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun bu hərəkətinin qəbuledilməz olduğunu dedi. Dövlətimizin başçısı bütün bunlara baxmayaraq Avropa Şurası Parlament Assambleyasını, Müstəqil Dövlətlər Birliyini, digər beynəlxalq strukturları və ölkələri təmsil edən çoxsaylı müşahidəçilərin seçki prosesini izlədiklərini vurğuladı.*

## ZAQATALA RAYONUNA SƏFƏR

*4 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Zaqatala rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı Zaqatala şəhərindəki Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə prezident İlham Əliyevə parkda aparılan abadlıq işləri barədə məlumat verdi. İndi bu park Zaqatala sakinlərinin, rayona gələn qonaqların ən sevimli istirahət mərkəzinə çevrilib.*

### Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş «Qızılgül» körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş «Qızılgül» körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı uşaq bağçasının binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Ümumi sahəsi 1280 kvadratmetr olan bina 100 uşaq üçün nəzərdə tutulub. İkimərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlara göstərdikləri diqqət və qayğını əks etdirən fotolar sərgilənir. Körpələr evi-uşaq bağçasında 5 qrup fəaliyyət göstərəcək. Burada 1 yaşdan 6 yaşadək uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Binada müəllimlər, tibb, qəbul, yataq, kompüter otaqları, idman, oyun, musiqi zalları yaradılıb.*

*Körpələr evi-uşaq bağçasında 28 pedaqoji işçinin çalışması nəzərdə tutulub. Bir sözlə, uşaqların gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün binada hərtərəfli şərait yaradılıb. Qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları əsas götürülüb. Körpələr evi-uşaq bağçasında uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar var. Bütün otaqlar lazımi avadanlıqlarla təchiz edilib. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanacaq.*

*Bina havalandırma sistemi, camaşırxana, transformator yarımstansiyası, nasosxana ilə təchiz olunub. Ərazidə geniş yaşıllıq zolağı salınıb.*

## Zaqatala–Danaçı–Aşağı Çardaqlar avtomobil yolunun əsaslı yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Zaqatala–Danaçı–Aşağı Çardaqlar avtomobil yolunun əsaslı yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Bu yolun yenidən qurulması üçün 2013-cü ilin fevralında dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 5,5 milyon manat vəsait ayrılıb. Həmin ilin iyununda tikinti işlərinə başlanılıb. Ümumi uzunluğu 28 kilometr olan yolun 24,5 kilometri artıq istismara hazırdır. Dördüncü texniki dərəcəli yolun eni 10 metrdir. Ərazidən asılı olaraq onun 6,5 metrini asfalt örtüyü, 3-4 metrini çiyin təşkil edir. Avtomobil yoluna 10 santimetr hündürlüyündə 2 qatdan ibarət asfalt-beton örtüyü döşənib.*

*Yolun əhəmiyyətini artıran əsas amil onun 12 yaşayış məntəqəsini birləşdirməsidir. Bu isə 15,6 min insanın rahatlığını təmin edəcək.*

*Prezident İlham Əliyevə Zaqatala şəhərinin 28 May və Qarabağ küçələrində aparılan yenidənqurma və bərpa işləri ba-*

*rədə də məlumat verildi. Görülən işlər 2011-ci ildən həyata keçirilən layihənin – Zaqatala şəhərinin qədim hissəsinin – tarixi mərkəzinin bərpası və yenidən qurulması layihəsinin davamıdır. Bu ərazidəki binaların böyük əksəriyyəti XIX əsrdə inşa edilib. 2014-cü ildən başlanılan yenidənqurma və bərpa işləri çərçivəsində 28 May və Qarabağ küçələrində 60-dan çox yaşayış binasında, sahibkarlıq obyektlərində bərpa işləri aparılıb, 5400 kvadratmetr asfalt örtüyü salınıb, yağış sularının axıdılması üçün arxlar qazılıb, yaşıllıq və işıqlandırma işləri görülüb. Binaların fasadları təbii çay daşı və kərpiclə üzlənib ki, bu da əraziyə xüsusi gözəllik verir.*

*Burada dövlətimizin başçısına, həmçinin Zaqatala rayonunun Yuxarı Tala və Aşağı Tala kəndlərinin və Zaqatala şəhərinin ərazisindən keçən avtomobil yolunun genişləndirilməsi və abadlaşdırılması işləri barədə məlumat verildi.*

*İcra olunan layihələrlə tanışlıqdan sonra prezident İlham Əliyev Zaqatala – Danaçı – Aşağı Çardaqlar avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ ZAQATALA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Zaqatala şəhərində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Əvvəlcə dövlətimizin başçısı Mərkəzin binasının ətrafında aparılan yenidənqurma və abadlıq işləri ilə tanış oldu.*

*Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, inşasına 2013-cü ildə başlanılan binanın ümumi sahəsi 2765 kvadratmetrdir. Mərkəzin girişində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Birinci mərtəbədə ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət zəngin ekspozisiya yaradılıb. Burada dünya şöhrətli siyasi və dövlət xadiminin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, fəxri diplomlar, digər sənədlər nümayiş etdirilir. Ekspozisiyada ulu öndərin və prezident İlham Əliyevin müxtəlif dövrlərdə Zaqatala rayonuna etdikləri səfərlər zamanı çəkilən fotolar da böyük maraqla qarşılanır. Ümummilli liderin dövlətçilik fəlsəfəsinin öyrənilməsi, onun zəngin irsinin tədqiqi və təbliği, bütün sahələrin inkişafına xidmət edən layihələrin həyata keçirilməsini öyrənmək baxımından bu Mərkəzin böyük əhəmiyyəti var. Burada, həmçinin 350 yerlik konfrans zalı, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat otağı, kinozal, kulinariya və rəsm otaqları, heykəltəraşlıq studiyası, poliqrafiya emalatxanası fəaliyyət göstərəcək.*

*Mərkəzin ikinci mərtəbəsi elektron kitabxana, arxiv, virtual sinif və kompüter otaqları, dizayn və xalq sənətkarlığı studiyaları, xarici dil dərnəyi və 44 nəfərlik dairəvi konfrans zalından ibarətdir. Bu Mərkəzin istifadəyə verilməsi rayon gənclərinin ilkin peşə vərdişlərinə yiyələnmələrində və asudə vaxtlarını səmərəli keçirmələrində mühüm rol oynayacaq.*

*Binanın ətrafında geniş abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb.*

*Mərkəzin binası ilə tanışlıqdan sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Sabahınız xeyir olsun!

Mən sizi səmimiyyətlə salamlayıram. Zaqatalada yenidən olmağımdan çox məmnunam. Bu mənim prezident kimi, Zaqatalaya yeddinci səfərimdir. Bu onu göstərir ki, Zaqatala rayonunun inkişafına, burada gedən işlərə çox böyük diqqət və dəstək verilir.

Bu gün Zaqatala üçün çox əlamətdar bir gündür. Gözəl bina – Heydər Əliyev Mərkəzi açılır. Yadımdadır ki, 2 il bundan əvvəl elə bu yerdə bu binanın təməl daşını qoyduq və indi biz bunun açılışına toplaşmışıq. Doğrudan da həm memarlıq, həm də funksionallıq baxımından çox gözəl binadır. Ulu öndərin adına yaraşan bir binadır.

Burada Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən materiallar, fotoşəkillər nümayiş etdirilir. Eyni zamanda, burada bir çox dərnəklər və studiyalar da var. Bu mərkəzin çox böyük mənası var, funksional tərəfi çox gözəldir, müasirdir. Əminəm ki, Zaqatala sakinləri bu Mərkəzdən səmərəli şəkildə istifadə edəcəklər.

Zaqatalanın inkişafı ilə bağlı xüsusi tədbirlər görülür. Rayonda infrastruktur layihələrinin icrası uğurla gedir. Sənaye potensialı möhkəmlənir, güclənir. Bir sözlə, bu gün Zaqatala müasir şəhərdir. Əminəm ki, şəhərin və rayonun gələcək inkişafı da müsbət olacaqdır. Çünki biz çalışırıq ki, ilk növbədə əsas infrastruktur layihələrini icra edək. 2 il bundan əvvəl Zaqatalanın içməli su problemi həllini tapmışdır. Bu gün bu layihələr ölkəmizdə geniş vüsət alıb. Ancaq Zaqatala ilk rayonlardandır ki, içməli su problemi şəhərdə və bir neçə kənddə öz həllini tapıb. İndi şəhərə fasiləsiz içməli su verilir və bu, əlbəttə ki, insanların normal yaşaması üçün çox önəmli bir hadisədir.

Qazlaşdırma ilə bağlı işlər gedir. Şəhər demək olar ki, tam qazlaşdırılıbdır. Kəndlərdə hələ ki, görüləcək işlər var. Ancaq Zaqatalanın relyefini nəzərə alsaq görərik ki, burada hər bir kəndə qaz çəkmək o qədər də asan məsələ deyil. Buna baxmayaraq, Dövlət Neft Şirkətinə göstəriş verilmişdir ki, kəndləri maksimum dərəcədə, mümkün qədər qazlaşdırsın və bu problem də öz həllini tapsın.

Kənd yollarının tikintisi aparılır. Bu gün bir kənd yolunun rəsmi açılışı oldu, digər layihələr də var. Bilirəm ki, hələ kənd yollarının tikintisinə böyük ehtiyac var. Gələcək illərdə bu məsələlər də imkan daxilində öz həllini tapacaq.

Belə gözəl memarlıq abidələri yaradılır. Bu gün biz Müəllimlər İnstitutunun filialının açılışını qeyd edəcəyik. Məktəblər, uşaq bağçaları tikilir. Əlbəttə, mən istərdim ki, işlər daha da sürətlə getsin. Ancaq bildiyiniz kimi, imkan daxilində bütün bu işləri görürük, özü də hər bir yerdə, hər bir şəhərdə, hər bir rayonda.

Zaqatala aeroportunun yenidən qurulması və zolağın uzadılması prosesi başa çatdıqdan sonra bu aeroport beynəlxalq status alacaqdır. Ümumiyyətlə, Zaqatala aeroportunun inşa edilməsi mənim təşəbbüsüm idi və aeroport tikildi. İndi isə qarşıya vəzifə qoyulubdur ki, zolaq daha da uzadılsın, bütün növ təyyarələr buraya enə bilsin. Belə olan halda, həm bey-

nəlxalq uçuşlar həyata keçiriləcək, həm də turistlərin axını daha da artacaq.

Zaqatalanın çox gözəl təbiəti var, görməli yerləri, tarixi və qədim memarlıq abidələri çoxdur. Mən çox istəyirəm ki, Azərbaycan vətəndaşları bunu görsünlər və ilk növbədə, daxili turizm inkişaf etsin, xarici turistlər də gəlsinlər, görsünlər ki, Azərbaycanda nə qədər gözəl işlər gedir və necə səfalı, gözəl yerlər vardır.

Ölkəmizdə bütövlükdə işlər uğurla gedir. Biz 2015-ci ili uğurla başa vuracağıq, bütün sosial-iqtisadi göstəricilərimiz yüksək səviyyədədir. Baxmayaraq ki, bu gün dünyada böhran hələ də davam edir. Əslində dünyada maliyyə və iqtisadi sahədə yaşanan böhran bir neçə ildir ki, davam edir. İndi bu böhrana siyasi və hərbi böhran əlavə olunubdur və dünyada gedən prosesləri siz də izləyirsiniz. Görürsünüz ki, dünyanın müxtəlif yerlərində, bizim qonşuluğumuzda çox narahatedici proseslər gedir. Həm Avropada, həm MDB məkanında, Yaxın Şərqdə qanlı toqquşmalar, qarşıdurmalar baş verir, qan tökülür. Belə olan halda, hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında daha da ciddi düşünməlidir. Əslində biz bu barədə həmişə düşünmüşük. Azərbaycan xalqının təhlükəsiz şəraitdə yaşaması bizim üçün birinci prioritet məsələ olub. Əgər biz buna nail ola bilməsəydik, heç bir inkişafdan söhbət gedə bilməzdi. Sabitlik olmayan yerdə inkişaf mümkün deyil.

Ancaq indiki şəraitdə buna daha da böyük diqqət göstərilir. Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə təmin edilir. Sabitlik möhkəmlənir, xalq ilə iqtidar arasındakı birlik daha da güclənir. Son parlament seçkiləri bunu bir daha təsdiqlədi. Qeyd etməliyəm ki, parlament seçkiləri yüksək fəallıqla müşahidə olunurdu. Bütün demokratik normalar təmin edilmişdir. Ədalətli, şəffaf keçirilən seçkilər Azərbaycanın demokratik inkişafa nə qədər sadiq olduğunu bir daha göstərdi, 500-dən çox xarici, on minlərlə yerli müşahidəçi dediyim bu sözləri təsdiqlədilər. Bütün beynəlxalq müşahidəçilər seçkilərin yüksək

səviyyədə keçirildiyini qeyd etdilər. Onu da qeyd etdilər ki, bu seçkilər Azərbaycan xalqının iradəsini ifadə edib.

Bu doğrudan da böyük nailiyyətdir, böyük uğurumuzdur. Bu bir daha onu göstərir ki, Azərbaycan xalqı ölkədə aparılan siyasəti bəyənir, dəstəkləyir və seçkilər vasitəsilə öz fikrini ifadə edir. Biz də çalışmalıyıq ki, bundan sonra da xalqın etimadını doğruldaq, ölkəmizdə aparılan prosesləri sürətləndirək ki, bir dənə də olsun sosial və iqtisadi problem qalmasın.

Son illər ərzində bu istiqamətdə çox böyük işlər görülmüşdür. Bütün beynəlxalq qurumlar bunu təsdiqləyir. Ölkələrin rəqabətqabliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 40-cı yerdədir, bir çox inkişaf etmiş ölkələri də qabaqlayır. Eyni zamanda, yoxsulluğa, işsizliyə qarşı mübarizəmiz beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilir. Bu yaxınlarda – sentyabr ayında BMT Azərbaycanı bu nailiyyətlərə görə yüksək mükafatla təltif etmişdir.

Cəmi 10 il ərzində Azərbaycanda yoxsulluq 50 faizdən 5 faizə düşüb. Mən, ümumiyyətlə, qarşıya vəzifə qoymuşam ki, Azərbaycanda yoxsulluq olmamalıdır. Azərbaycanda yoxsul şəraitdə yaşayan bir nəfər də olmamalıdır və biz bu hədəfə yaxınlaşırıq.

Son vaxtlar işsizliklə bağlı böyük addımlar atılmışdır. İşsizlik çox aşağı səviyyədədir. Ancaq dünyada gedən maliyyə böhranı nəticəsində işsizlik bir qədər arta bilər. Bəzi iş yerləri bağlanıb. Ancaq açılan iş yerləri bağlananlardan daha da çoxdur və müsbət dinamika burada da özünü göstərmişdir. Əgər 30 min iş yeri bağlanıbsa, 67 min iş yeri açılıbdır.

Əlbəttə, gələcəkdə iqtisadi islahatların aparılması da prioritet olaraq qalacaq – sahibkarlığın, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi. Bu sahələrdə Zaqatala rayonunun çox böyük potensialı var. Biz indi çalışmalıyıq ki, öz təbii imkanlarımızdan maksimum dərəcədə istifadə edək. Biz sahibkarlara daha da yaxşı şərait yaratmağa çalışmalıyıq ki, onlar daha da çox məhsul yetişdirsinlər və məhsulu daxili və xarici bazarlarda sata bilsinlər. Bu məqsədlə çox ciddi addımlar atılmışdır, mənim tərəfimdən sərəncam imzalanmışdır, qanun

qəbul edilmişdir ki, biznes mühitini biz daha da yaxşılaşdıraq, sahibkarlara heç kim mane olmasın, onların işinə heç kim müdaxilə etməsin.

Mən əminəm ki, görülən işlər nəticəsində Azərbaycan gələcəkdə də müsbət iqtisadi inkişaf dinamikasını saxlaya biləcək. Bunu etmək indiki şəraitdə o qədər də asan deyil. Dünyada bir çox ölkələrdə, o cümlədən qonşuluqda iqtisadi tənəzzül, Azərbaycanda isə iqtisadi inkişaf yaşanır. Bu ilin 9 ayında iqtisadiyyat təxminən 4 faiz, qeyri-neft iqtisadiyyatı 6 faizdən çox artmışdır. Bu, görülən işlər nəticəsində mümkün olub. Ancaq əldə edilmiş nailiyyətlər bizi arxayınlaşdırmamalıdır. Bizim hər birimiz daha da fəal olmalıyıq, çalışmalıyıq ki, doğma Vətənimizi daha da irəliyə aparaq, Azərbaycanda bu gözəl ictimai-siyasi mühit daimi olsun. Əminəm ki, belə də olacaq.

Bir çox beynəlxalq təşkilatlar, siyasətçilər, politoloqlar, alimlər Azərbaycanda dinlərarası, millətlərarası münasibətləri nümunə kimi göstərirlər. Bu həqiqətən də belədir və Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir millətin nümayəndəsi dəyərli vətəndaşdır, eyni hüquqlara malikdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma olmayıb və biz bu siyasətə sadiqik. Harada ki, bu məsələlər müsbət istiqamətdə getmir, o ölkələr fəlakətlə üzləşir. Azərbaycanda isə bu sahədə mövcud olan vəziyyət, ilk növbədə ölkəmizi gücləndirir, digər tərəfdən, başqa ölkələrə də yol göstərir ki, bu mümkündür – birgə yaşamaq, bir-birinə dəstək olmaq, bir-birinin dininə, adət-ənənələrinə, milli dəyərlərinə hörmət etmək mümkündür.

Baxın, bu gün Avropada mənəvi böhran yaşanır. Avropa bəyan etdiyi dəyərlərə sadiq çıxa bilmir, miqrantlara – müsəlman qaçqınlarına nə qədər böyük əzab-əziyyət verilir, onların ləyaqəti alçaldılır, onlara qarşı çox dözülməz, qəbuledilməz addımlar atılır. Mən dəfələrlə demişəm, o insanların heç bir günahı yoxdur. Xarici müdaxilə nəticəsində onların ölkələri darmadağın edildi, onlar on minlərlə, yüz minlərlə yaxınlarını itirdilər, milyonlarla insan qaçqın vəziyyətinə düşdü və indi

onlar Avropaya pənah aparırlar. Orada isə onların qarşısında sədlər tikilir, tikanlı məftillər çəkilir, onlara itlərlə hücum edilir, onlar qəfəsə salınır. Sonra isə insana yaraşmayan o qəfəsin üstündən onlara yemək atılır. XXI əsrdə bu qədər dözülməz hərəkət heç kimə şərəf gətirmir. Bu bir sınaq dövrüdür. Avropa indi bu sınaqdan çıxmalıdır, bəyan etdiyi dəyərlərə sadiq qalmalıdır. Əgər bu vəziyyət davam edərsə, heç bir başqa ölkə qarşısında heç bir tələb qoyula bilməz. İlk növbədə, sən özün daxildə bu prosesləri normal məcraya salmalısan, özün daxildə bəyan etdiyin dəyərlərə sadiq çıxmalısan, ondan sonra kimdənsə nəsə tələb edə bilərsən.

Bu proseslər bizi çox narahat edir, incidir, ürəyimizi ağrıdır. O yazıq insanları bu vəziyyətdə görəndə əminəm ki, hər bir normal insan çox ağır hisslər yaşayır. Digər tərəfdən, bu, dini qarşıdurmadır – mən bunu belə adlandırardım – bu, miqrant böhranı deyil, dini qarşıdurmadır, islamofobiyanın əlamətidir. Son illər ərzində antimüsəlman təbliğatının nəticəsidir və bu daha da böyük problemlərə və dünyada sivilizasiyalararası toqquşmaya gətirib çıxara bilər.

Biz Azərbaycanda multikulturalizm dəyərlərini təbliğ edirik. Biz müxtəlif forumlar, konfranslar, beynəlxalq tədbirlər keçiririk və sübut edirik ki, bir yerdə yaşamaq mümkündür. Azərbaycanın timsalında bunu hər kəs görə bilər.

Ancaq bu gün biz görürük ki, dini zəmində qarşıdurma daha da böyük problemlərə gətirib çıxara bilər. Biz də bunu bilməliyik. Bəzi hallarda belə sözlər işlədilir ki, biz inteqrasiya etməliyik, Avropaya inteqrasiya etməliyik. Mən artıq dəfələrlə demişəm, biz heç yerə inteqrasiya etməməliyik. Biz öz milli dəyərlərimiz üzərində möhkəm dövlət, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Xüsusilə indiki ayrı-seçkilik, islamofobiya dövründə inteqrasiya etməyə heç bir ehtiyac yoxdur. Biz hansı formada inteqrasiya edə bilərik. Bizi orada qəbul edə bilərlərmi? Yox! Bu reallıqdır, acı reallıqdır. Ona görə biz bundan sonra da ancaq daxili resurslar hesabına yaşamalıyıq.

Onsuz da heç kim bizə heç vaxt kömək etməmişdir. Nəyi əldə etmişiksə, öz hesabımıza əldə etmişik. Biz heç kimdən heç bir yardım gözləmirik, buna ehtiyac yoxdur. Sadəcə olaraq, bizim işimizə də heç kim qarışmasın, bizimlə diktat dili ilə danışmağa cəhd etməsin. Onsuz da bu səylər əbəsdir.

Hesab edirəm ki, Azərbaycan xalqı bu gün öz milli ləyaqətini qoruya bilir, bunu sübut edib. Bizim gücümüz xalqla iqtidar arasındakı birliyimizdədir. Ona görə də dünyada gedən acınacaqlı proseslərə baxmayaraq, biz Azərbaycanda inkişaf görürük. Yeni binalar, yeni sənaye müəssisələri tikilir, insanlar rahat yaşayır, seçkilər gözəl şəraitdə keçirilir. Bax, budur Azərbaycanın uğurlu inkişaf modeli. Mən əminəm ki, biz gələcəkdə də bu uğurlu yolla gedəcəyik.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm.

## Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialının yeni inşa olunmuş binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialının yeni inşa olunmuş binasının açılışında iştirak etmişdir.*

*2012-ci il mayın 7-də ölkənin şimal-qərb bölgəsində baş vermiş zəlzələ Zaqatala rayonunda da ciddi fəsadlar törətmişdi. Çoxlu sayda evlər, sosial təyinatlı binalar dağılmış və ya qəzalı vəziyyətə düşmüşdü. Hadisədən dərhal sonra fəlakət zonasına gələrək zəlzələnin törətdiyi fəsadlarla şəxsən tanış olan prezident İlham Əliyev zərərçəkmiş insanlara təcili yardım göstərmək, dağılmış binaların yerində yeni tikililərin inşası üçün sərəncam və tapşırıqlarını vermişdi.*

*Zəlzələ zamanı Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialının binası da tamamilə qəzalı vəziyyətə düşmüşdü. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, 2012-ci ildə filial üçün yeni binanın tikintisinə başlanıldı. Fövqəladə Hallar Nazirliyinin*

*sifarişi ilə dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilən tikinti işləri bu ilin sentyabrında başa çatdırılıb.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Filialın direktoru Orucəli Rzayev Azərbaycan Prezidentinə məlumat verdi ki, bina 6700 kvadratmetr ərazini əhatə edir. Beşmərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsil sahəsinin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət stend yaradılıb. Burada linqafon otağı, kompüter mərkəzi tələbələrin ixtiyarına veriləcək. Təhsil ocağının bütün otaqları, auditoriyaları zəruri avadanlıqlarla təchiz olunub. Tədris prosesində müasir informasiya-kommunikasiya sistemlərindən istifadəyə diqqət yetirilib. Filialın yeni binasında kitabxana, akt zalı və muzey fəaliyyət göstərəcək, tələbələr tibb və iaşə xidmətlərindən istifadə edəcəklər.*

*Binanın ətrafında geniş abadlıq və yaşıllaşdırma işləri görülüb, tamamilə yeni infrastruktur yaradılıb. Transformator yarımstansiyası, su və kanalizasiya şəbəkəsi quraşdırılıb, istilik təchizatı üçün qazanxana tikilib. Yüksəkixtisaslı pedaqoji kadrların hazırlanmasında öz yeri olan Müəllimlər İnstitutunun Zaqatala filialının yeni binada daha səmərəli işləməsi üçün hərtərəfli şərait yaradılıb.*

## ŞƏKİ ŞƏHƏRİNƏ SƏFƏR

*4 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Zaqatala rayonuna səfərini başa çatdıraraq Şəki şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı Şəki şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov Azərbaycan Prezidentinə məlumat verdi ki, ulu öndərin abidəsinin ucaldıldığı Heydər Əliyev parkında geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb.*

### Yevlax–Balakən magistral yolu üzərində yerləşən, Yuxarı və Aşağı Tala kəndlərinin, həmçinin Zaqatala şəhərinin ərazisindən keçən hissəsinin genişləndirilməsi və abadlaşdırılması işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Yevlax–Balakən magistral yolu üzərində yerləşən, Yuxarı və Aşağı Tala kəndlərinin, həmçinin Zaqatala şəhərinin ərazisindən keçən hissəsinin genişləndirilməsi və abadlaşdırılması işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, əsaslı təmir zamanı Yuxarı Tala kəndinə girişdə yol qovşağı inşa edilib, ərazi abadlaşdırılıb. Ümumilikdə 4 kilometr uzunluğu olan yolda görülən işlər çərçivəsində müasir dayanacaqlar qoyulub, işıqlandırma sistemi quraşdırılıb. Hazırda yolun digər hissələrinin genişləndirilməsi və abadlaşdırılması işləri davam etdirilir.*

*Dövlətimizin başçısı işlərin yüksək səviyyədə görülməsi üçün tapşırıq və tövsiyələrini verdi.*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə Şəkidə inşa olunmuş 160 yerlik körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Şəkidə inşa olunmuş 160 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış oldu.*

*Burada ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizin gələcəyi olan uşaqlara göstərdikləri qayğıdan bəhs edən fotolardan ibarət guşələr yaradılıb.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, rayonun tələbatı nəzərə alınaraq, biri 160, digəri isə 100 yerlik olmaqla, 2 yeni məktəbəqədər təhsil müəssisəsi üçün binaların inşası yekunlaşdırılıb və istifadəyə hazırdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 160 yerlik körpələr evi-uşaq bağçasının inşasına ötən ilin dekabrında başlanılıb və tikinti işləri yüksək səviyyədə başa çatdırılıb. Ümumi sahəsi 3490 kvadratmetr olan bina üçmərtəbəlidir. Burada 8 qrup fəaliyyət göstərəcək. Uşaqlar üçün 8 yataq otağı, yeməkxana, tibb otağı, oyun və musiqi zalı, metodiki kabinet və digər müxtəlif təyinatlı otaqlar yaradılıb. Körpələr evi-uşaq bağçasında 35 nəfərin işlə təmin edilməsi nəzərdə tutulub. Binanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, attraksionlar quraşdırılıb. Diqqətə çatdırıldı ki, Şəkidə fəaliyyət göstərən 61 məktəbəqədər təhsil müəssisəsində 2760 uşaq təlim-tərbiyə prosesinə cəlb olunub.*

## Şəki–Qax–Zaqatala avtomobil yolunun Şəki–Qax hissəsinin yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Şəki–Qax–Zaqatala avtomobil yolunun Şəki–Qax hissəsinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*«Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sədr əvəzi Saleh Məmmədov dövlətimizin başçısına Şəki–Qax–Zaqatala avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Şəki–Qax avtomobil yolu Böyük Qafqaz sıra dağlarının cənub ətəyində yerləşir və respublikanın ən böyük turizm marşrutlarından olan yolun bir hissəsidir. Uzunluğu 35 kilometr olan yolun 26 kilometri Şəki rayonunun, 9 kilometri isə Qax rayonunun ərazisinə düşür. Bu avtomobil yolu Şəki və Qax şəhərləri arasında nəqliyyat əlaqəsinin yaxşılaşmasına, hazırda istifadə olunan 77 kilometrlik məsafənin 42 kilometr qısalmasına imkan verir. Yolun əsas üstünlüyü isə onun 39 min nəfər əhalinin yaşadığı 22 yaşayış məntəqəsini əhatə etməsidir. 2011-ci ildən icrasına başlanan layihə 2 mərhələdə həyata keçirilib. Birinci mərhələdə yolun uzunluğu 35 kilometr olan Şəki–Qax hissəsi, ikinci mərhələdə isə uzunluğu 28 kilometr olan Qax–Zaqatala hissəsi yenidən qurulub. Üçüncü texniki dərəcəli, ikizolaqlı yolun eni 12 metrdir.*

*Diqqətə çatdırıldı ki, yenidənqurma işləri zamanı yol üzərində 20 körpü, uzunluğu 1074 metr olan suötürücü borular, 12 avtobus dayanacağı tikilib, 176 yol nişanı quraşdırılıb. Bu yolun istismara verilməsi Bakıdan və digər bölgələrdən Zaqatala, Balakən rayonlarına, həmçinin qonşu Gürcüstana və əks istiqamətdə nəqliyyat vasitələrinin Qax şəhərinə daxil olmadan hərəkətinə imkan yaradacaq, Qax şəhərinin ekoloji təmizliyinə müsbət təsir göstərəcək.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi və inşaatçılarla xatirə şəkli çəkdirdi.*

## 840 şagird yerlik Qoxmuq kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də 840 şagird yerlik Qoxmuq kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məktəbdə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin həyat və fəaliyyətlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb.*

*Burada yaradılan şəraitlə tanışlıq zamanı Azərbaycan Prezidentinə məlumat verildi ki, Qoxmuq kənd tam orta məktəbinin binası 1967-ci ildə inşa edilmişdi. O vaxtdan təmir olunmayan bina tədris üçün yararsız vəziyyətə düşmüşdü. Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət, bu sahədə aparılan islahatlar Qoxmuq kənd tam orta məktəbinin həyatında da mühüm rol oynadı. 2013-cü ilin oktyabrında Şəki Şəhər İcra Hakimiyyətinin sifarişi ilə dövlət büdcəsi vəsaiti hesabına 840 şagird yerlik Qoxmuq kənd tam orta məktəbi üçün yeni binanın inşasına başlanıldı. Yüksək keyfiyyətlə tikilən binada təlim-tədris üçün bütün zəruri şərait yaradılıb. Sahəsi 5277 kvadratmetr olan bina üçmərtəbəlidir.*

*Bildirildi ki, 108 müəllimin çalışdığı məktəbdə 42 sinif otağı yaradılıb, müasir standartlara cavab verən və əyani vasitələrlə təchiz olunan fənn laboratoriyaları qurulub. İnformatika kabineti kompüter avadanlığı ilə təchiz edilib. Hərbi kabinetdə şagirdlərin hərbi biliklərə yiyələnmələri üçün hər cür şərait yaradılıb. Məktəbin kitabxanası dərs vəsaitləri ilə təmin olunub və şagirdlərin istifadəsinə verilib. İdman zalında da müasir qurğular quraşdırılıb. Binanın 240 yerlik akt zalında isə müxtəlif tədbirlərin keçirilməsinə hər cür imkan var.*

*Hazırda Şəki rayonunda 97 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir və həmin məktəblərdə 24 minə yaxın şagird təhsil alır.*

## «Marxal» Müalicə-İstirahət Kompleksində tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Şəkidə «Marxal» Müalicə-İstirahət Kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin 2012-ci ildə «Marxal» Müalicə-İstirahət Kompleksinin yaradılması haqqında imzaladığı sərəncamdan sonra başlayan inşaat işləri sürətlə davam etdirilir. Ərazisi 30 hektar olan kompleksdə 412 yerdən ibarət 178 otaqlı yeddimərtəbəli mehmanxana binası inşa olunur. Burada 126 birotaqlı, 52 ikiotaqlı nömrələr olacaq.*

*Dövlətimizin başçısı kompleksdə hazır nümunəvi otaqlara baxdı.*

*Diqqətə çatdırıldı ki, kompleksdə 250 nəfərlik restoran, lobbi bar, 6 ticarət mağazası, 2 kinoteatr zalı, konfrans, uşaqlar üçün əyləncə zalları qonaqların ixtiyarında olacaq. Ərazidə 600 nəfərlik restoran, 40 nəfərlik yay kafesi, həmçinin 164 yerlik 27 ikimərtəbəli kottec də olacaq.*

*Prezident İlham Əliyev hazır kotteclərdə yaradılan şəraitlə tanış oldu. Kotteclərin hər biri müasir standartlar səviyyəsində inşa olunub. Bildirildi ki, burada yaradılacaq süni göl kompleksə xüsusi yaraşıq verəcək. Kompleksin ərazisində uşaqlar üçün su attraksionları və böyük hovuz qurulacaq. Kompleks istifadəyə veriləndən sonra burada müxtəlif əyləncə bölmələri də fəaliyyət göstərəcək. Məsələn, 6 boulinq xəttinin olduğu mərkəz, mini-futbol, tennis və basketbol meydançaları, 500 nəfərlik amfiteatr, SPA mərkəzi, qapalı hovuz, sauna, fitnes zalı, müxtəlif müalicə prosedurlarının aparılacağı otaqlar kompleksin özəlliyini daha da artırır. Bu müalicə və istirahət kompleksinin inşasının gələn il başa çatdırılması nəzərdə tutulub. Kompleks istifadəyə veriləndən sonra burada 310 nəfər işlə təmin ediləcək.*

*Dövlətimizin başçısı inşaat işlərinin gedişi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## ŞƏKİ MƏHKƏMƏ KOMPLEKSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*4 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Şəki Məhkəmə Kompleksinin yeni inzibati binasının açılışı mərasimində iştirak etmişdir.*

*Ədliyyə naziri Fikrət Məmmədov yeni binanın inşası və burada yaradılan yüksək şərait barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, ümumi sahəsi 19,8 min kvadratmetr olan beşmərtəbəli kompleksin inşasına 2012-ci ilin noyabrında başlanılıb və bu ilin oktyabrında başa çatdırılıb. Tikinti işləri ən müasir standartlara uyğun aparılıb. «Əlillərin hüquqlarının qorunması haqqında Konvensiya»nın tələblərinə müvafiq olaraq binada onlar üçün bütün zəruri şərait yaradılıb. Əlillərin binaya daxil olması üçün xüsusi qurğu quraşdırılıb.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi və kompleksdə yaradılan şəraitlə tanış oldu.*

*Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində tikilən binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb.*

*Bildirildi ki, Şəki Məhkəmə Kompleksi Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində inşa olunmuş ikinci Məhkəmə Kompleksidir. Kompleksdə Şəki Apelyasiya Məhkəməsi, Şəki İnzibati-İqtisadi Məhkəməsi, Şəki Ağır Cinayətlər Məhkəməsi və Şəki Rayon Məhkəməsi yerləşir. Burada 250 nəfər, o cümlədən 42 hakim, 170-dən çox məhkəmə aparatı əməkdaşı və 35 ədliyyə işçisi çalışacaq. Digər yeni məhkəmə binalarında olduğu kimi, müasir*

informasiya-kommunikasiya qurğularının quraşdırıldığı bu bina da inzibati və ictimai zonalara bölünür və hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar, dövlət ittihamçıları və vəkillər üçün nəzərdə tutulub. Bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.

Binada gözdən əlil vətəndaşların sərbəst hərəkəti üçün hər mərtəbənin döşəməsinə xüsusi örtük salınıb. İctimai zonada bütün otaqların adlarını əks etdirən lövhələrdə gözdən əlil insanlar üçün də xüsusi yazılar var. Buradakı müasir elektron məlumat daşıyıcıları vətəndaşlara məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakim və digər məsələlərlə bağlı informasiyanı maneəsiz əldə etməyə imkan yaradır.

Prezident İlham Əliyev məhkəmə zallarında yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, kompleksin əsas binasında 16 məhkəmə iclas zalı – cinayət işlərinin baxıldığı 7 və mülki işlərin baxıldığı 9 zal fəaliyyət göstərir. Kompleksdə Azərbaycan Prezidentinin «Elektron məhkəmə» informasiya sisteminin yaradılması haqqında sərəncamına əsasən bütün zəruri tədbirlər görülüb. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən və audio-video yazılışları aparan «Femida» sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıb. Təqsirləndirilən şəxslər zalda beynəlxalq standartlara uyğun xüsusi ayrılan şüşə otaqda saxlanılırlar. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğu da var. Məhkəmə zalında əcnəbi şəxslərin iştirakı ilə işlərə baxılan zaman tərcümə xidmətlərinin göstərilməsi üçün xüsusi yer düzəldilib. Zalların qarşısında vəkillər, dövlət ittihamçıları, şahidlər və icra məmurları üçün otaqlar ayrılıb. Burada, həmçinin konfrans zalları, o cümlədən Şəki Apelyasiya Məhkəməsi Rəyasət Heyətinin zalı, böyük akt zalı da var. İnzibati zonada

*hakimlər və məhkəmə aparatı işçiləri üçün lazımi şərait yaradılıb.*

*Konfrans zalı ilə tanışlıq zamanı dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, müasir avadanlıqlarla təchiz edilən zalda hakimlərə və məhkəmə işçilərinə Ali Məhkəmənin Plenumuna, Məhkəmə-Hüquq Şurasının, həmçinin Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına birbaşa qoşulmaq imkanı yaradılıb. Kompleksin böyük iclas zalında isə həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Yeməkxana və kitabxana da ən yüksək səviyyədə hazırlanıb. Binanın alt qatında təqsirləndirilən şəxslərin müvəqqəti saxlanması üçün kameralar, onların vəkillərlə görüş otağı və konvoy maşını üçün yeraltı dayanacaq fəaliyyət göstərir. Binada, həmçinin arxiv otaqları, tibb və poçt məntəqələri, ana və uşaq otağı, maddi sübutlar otağı, hakimlər və işçilərin avtomobilləri üçün yeraltı qaraj, eləcə də vətəndaşlar üçün avtodayanacaqlar var.*

*Bir sözlə, burada yaradılan şərait göstərir ki, son illərdə ölkədə bütün sahələrə olduğu kimi, ədalət mühakiməsinin səmərəsinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, məhkəmə sisteminin daha da müasirləşdirilərək beynəlxalq standartlara tam uyğunlaşdırılması işləri uğurla aparılır.*

*Diqqətə çatdırıldı ki, Şəki Məhkəmə Kompleksinin yerləşdiyi ərazidəki rayon məhkəməsinin köhnə inzibati binası yenidən qurulub. İkimərtəbəli binada Şəki rayonu üzrə icra şöbəsinin, Şəki rayon qeydiyyat şöbəsinin və Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin Şəki regional bölməsinin fəaliyyəti üçün hər cür şərait var. Burada yaradılan yüksək şərait, həmçinin təntənəli nikah mərasimlərinin keçirilməsinə imkan verəcək.*

*Prezident İlham Əliyev kompleksdə məhkəmə və ədliyyə orqanlarının əməkdaşları ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Bu gün biz Şəki Məhkəmə Kompleksinin açılışını qeyd edirik. Bu münasibətlə sizi təbrik edirəm. Möhtəşəm binadır. Həm memarlıq, həm funksionallıq baxımından ən yüksək standartlara cavab verir. Bütün lazımi şərait yaradılıb, müasir avadanlıqlarla təchiz edilib. Bir sözlə, bu Məhkəmə Kompleksi ən yüksək standartlara cavab verir.

Son illər ərzində Azərbaycanda məhkəmə binalarının tikintisi uğurla davam etdirilir. Biz bu yaxınlarda Bakıda Sabunçu Məhkəmə Kompleksinin açılışını qeyd etmişik. Verilən məlumata görə, 10 rayonda yeni məhkəmə binaları inşa edilir. Beləliklə, məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi işində çox ciddi addımlar atılır. Bu binalar həm dövlət vəsaiti hesabına, eyni zamanda, Dünya Bankının köməyi ilə tikilir. Bu da bizim beynəlxalq maliyyə qurumları ilə uğurlu əməkdaşlığımızın nəticəsidir.

Azərbaycanda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi prosesi uğurla gedir. Məhkəmə-Hüquq Şurasının fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Artıq 10 ildir ki, Şura fəaliyyət göstərir. Bu sahədə aparılan islahatlar, əldə edilmiş nailiyyətlər Azərbaycanda məhkəmə-hüquq sisteminin möhkəmlənməsinə, şəffaflığın artırılmasına gətirib çıxarmışdır.

Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Hüquqi dövlət quruculuğu prosesinin təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Onun təşəbbüsü ilə keçən əsrin 90-cı illərinin əvvəllərində çox ciddi addımlar atılmışdır. Müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. O vaxt belə bir strateji istiqamət müəyyən edilmişdir ki, Azərbaycanda hüquqi dövlət qurulmalıdır, qanunun aliliyi təmin edilməlidir və məhkəmə sistemi dünyada mövcud olan ən mütərəqqi təcrübəyə əsaslanmalıdır.

Hesab edirəm ki, son illər ərzində bu istiqamətdə böyük nailiyyətlər əldə edilib. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi sürətlə gedir. Əlbəttə ki, məhkəmələrin işi, şəffaflığı

burada xüsusi rol oynayır. Verilən məlumata görə, son vaxtlar məhkəmə qərarları ilə bağlı daxil olan şikayətlərin sayı azalır. Bu onu göstərir ki, qərarların böyük əksəriyyəti ədalətli qərarlardır. Çünki biz daim ictimai rəyi öyrənirik. Həm Prezident Administrasiyasına, həm də digər dövlət orqanlarına gələn müraciətlərə çox diqqətlə baxılır və hər bir şikayət əsasında araşdırma aparılır. Deməyə əsas var ki, son vaxtlar bu sahədə müsbətə doğru dəyişikliklər göz qabağındadır.

Hesab edirəm ki, görüləcək tədbirlər və gələcəkdə aparılacaq islahatlar nəticəsində biz məhkəmə sistemində şəffaflığı maksimum dərəcədə artıra bilərik. Son vaxtlar bu sahədə qəbul edilmiş qərarlar mühüm rol oynayır. Xüsusilə «Elektron məhkəmə» informasiya sisteminin yaradılması – bu binada artıq bu sistem tətbiq olunur – həm şəffaflığı təmin edəcək, həm bürokratik əngəlləri aşacaq. Bir sözlə, məhkəmə sistemini daha da müasir və daha da böyük inama malik olan sistemə çevirəcəkdir.

Hazırda bütün yeni tikilmiş məhkəmə komplekslərində «Elektron məhkəmə» informasiya sistemi quraşdırılır və bu da çox ciddi islahatdır. Çünki məhkəmələrin qərarları ədalətli olmalıdır. Ümumiyyətlə, həyatda hər şey ədalət əsasında qurulmalıdır. Ədalət pozulduqda, əlbəttə ki, həm narazılıq yarana, həm də, ümumiyyətlə, cəmiyyətin müsbət inkişafı çətinliklərlə üzləşə bilər. Ədalətli qərarlar həm insanlarda dövlətə inamı artırır, eyni zamanda, həyatımızı tənzimləyir. Bütün qərarlar ədalətli olmalıdır. Məhkəmə sistemində qəbul edilmiş qərarlar, aparılan islahatlar, bax, bu məqsədi güdür.

Qərəzli yanaşma olmamalıdır. Korrupsiya hallarına qarşı mübarizə daha da ciddi aparılmalıdır. Bir sözlə, məhkəmə-hüquq sistemi maksimum dərəcədə şəffaf olmalıdır. Bu sahədə beynəlxalq təcrübənin Azərbaycanda tətbiq edilməsinin çox böyük mənası var. Çünki inkişaf etmiş ölkələrdə bir çox hallarda biz məhkəmələrin şəffaflığını görürük. Əlbəttə ki, hər bir ölkədə əsassız qərarlar da qəbul edilə bilər. Ancaq bütövlükdə götürdükdə inkişaf etmiş ölkələrdə, Avropa ölkələrində məhkəmə sistemi şəffafdır, ədalətlidir. Bu da demokratik inkişaf üçün çox önəmli bir şərtdir.

Əlbəttə, hər bir ölkədə problemlər də, qüsurlar da, mənfi hallar da var. Bəzi hallarda biz Azərbaycanda, Avropada mövcud olan vəziyyətlə, qüsurlarla bağlı fikirlərimizi ifadə edirik. Biz də tənqidə açığıq və hər bir ölkə tənqidə açıq olmalıdır. Heç bir ölkə kamil deyil. Hər bir ölkədə qüsurlar, nöqsanlar var. Son vaxtlar Avropa qitəsində siyasi sahədə, beynəlxalq məsələlərin həllində çox ciddi səhvlər buraxılıbdır. Ancaq hesab edirəm ki, Avropa ölkələrində məhkəmə sistemi nümunə ola bilər. Burada biz bunu açıq deməliyik. Bu müsbət təcrübəni biz Azərbaycanda tətbiq etməliyik. Yəni bu praktika göz qabağındadır. Burada heç bir şey icad etməyə ehtiyac yoxdur. Sadəcə olaraq, işin icrası qəbul edilmiş qərarlarla uzlaşmalıdır. Qəbul edilmiş qərarlar, atılan addımlar düzgün istiqamətdə olmalıdır. Bunu qanunvericilik də, prezident tərəfindən imzalanan sərəncamlar da tənzimləyir. Əsas odur ki, bu, həyatda öz əksini tapsın. Bu qərarların düzgün icrası Azərbaycanda məhkəmə sisteminin şəffaflığını artıracaq və xoşagəlməz hallara qarşı bizim siyasətimizi daha da təsirli edəcək.

Azərbaycanda korrupsiyaya və rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır. Mən bu məsələlərlə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm, müvafiq göstərişlər verilmişdir. Burada biz öz işimizi 3 istiqamət üzrə davam etdirməliyik. Əlbəttə ki, inzibati tədbirlər, cəza tədbirləri görülür və görüləcək. Son vaxtlar Azərbaycan ictimaiyyəti görür ki, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq korrupsiyaya, rüşvətxorluğa, qanunsuzluğa yol vermiş şəxslər ciddi şəkildə cəzalandırılır. Çünki cəmiyyətdə heç kim toxunulmaz ola bilməz. Heç kimin immuniteti ola bilməz. Qanun qarşısında hər kəs bərabərdir. Ona görə cəza tədbirləri davam etdiriləcək.

Çünki əfsuslar olsun ki, buna hələ ehtiyac var. Ancaq bununla bərabər, əlbəttə ki, sistem xarakterli, institusional islahatların aparılmasına böyük ehtiyac var. Biz korrupsiya, rüşvətxorluq üçün, əgər belə demək mümkündürsə, meydanı daraltmalıyıq. Azərbaycanda hazırda elə islahatlar aparılmalıdır və aparılır ki, bu meydan daha da daralsın və bu bəla, bu yara aradan götürülsün.

Hesab edirəm ki, son illər ərzində şəffaflıqla, institusional islahatlarla bağlı atılan addımlar korrupsiya, rüşvətxorluq üçün

meydanı xeyli daraldıb. Ancaq hələ ki, görüləsi işlər çoxdur və məhkəmə-hüquq sisteminin bu sahədəki fəaliyyəti çox önəmlidir. İlk növbədə, məhkəmə sistemində korrupsiya halları tam aradan qaldırılmalıdır. Buna yol verilməməlidir. Məhkəmə qərarları elə olmalıdır ki, bu böyük bəla ilə bizim mübarizəmiz daha da səmərəli olsun.

Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində böyük işlər görülüb, böyük nailiyyətlər var. Məhkəmə sistemində şəffaflıq və ədalətin tam bərqərar olması ümumi demokratik inkişafımıza müsbət təsir göstərir. Azərbaycan demokratiya yolu ilə gedir. Azərbaycanda bütün azadlıqlar – söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, vicdan, din azadlığı, siyasi fəaliyyət azadlığı təmin edilir, heç bir məhdudiyyət yoxdur. Azərbaycanda yaşayan vətəndaşlar bunu gündəlik həyatda görürlər.

Azərbaycanda yüzlərlə mətbu orqan, azad internet mövcuddur. Əhalinin 75 faizi internet istifadəçisidir. Sərbəst toplaşma azadlığı tam şəkildə təmin edilir. O, başqa məsələdir ki, bəzi siyasi qrupların mitinqlərinə 200–300 adam yığışır. Ancaq fakt budur ki, heç bir məhdudiyyət yoxdur.

Son parlament seçkiləri bir daha onu göstərir ki, Azərbaycan demokratiya yolu ilə inamla, uğurla gedir. Son parlament seçkiləri Azərbaycan xalqının iradəsini tam şəkildə ifadə edibdir. Yüzlərlə xarici müşahidəçi seçkilərə çox müsbət qiymət verib. MDB-nin, Avropa Şurası Parlament Assambleyasının müşahidəçi missiyaları seçkilərin demokratik, ədalətli, şəffaf keçirilməsi ilə bağlı öz rəsmi rəylərini açıqlayıblar. Digər beynəlxalq qurumların nümayəndələri də seçkiləri yüksək qiymətləndiriblər. Bu, dövlətimizin, xalqımızın növbəti böyük qələbəsidir və bir daha onu göstərir ki, Azərbaycanda demokratik inkişaf sürətlə gedir.

Bu gün Azərbaycan o ölkələrdəndir ki, burada gedən proseslər xalq tərəfindən müəyyən edilir. Xalq da öz sözünü seçkilər vasitəsilə ifadə edir. Xalq–iqtidar birliyi, gözəl ictimai iqlim və demokratik proseslər ölkəmizi gücləndirir. Məhz buna görə Azərbaycanda sabitlik maksimum dərəcədə təmin edilir, ölkəmizin inkişafı ilə bağlı heç bir fikir ayrılığı yoxdur. Çünki bizim apardığımız siyasət xalqın

maraqlarını tam ehtiva edir. Bizim siyasətimiz xalqın maraqları üzərində qurulubdur. Təhlükəsizlik, daxili sabitlik, iqtisadi inkişaf, sosial ədalət, demokratiya, azadlıqlar, müstəqil xarici siyasət – bizim əsas prinsiplərimiz bunlardan ibarətdir və hər istiqamət üzrə biz çox uğurlu mənzərənin uğurlu nəticələrini görürük.

Bu gün Azərbaycan dünya miqyasında iqtisadi və sosial inkişafla bağlı seçilən ölkələrdəndir. Heç bir böhran bizim iqtisadi inkişafımıza ciddi təsir edə bilməz. Amma müəyyən dərəcədə təsir edə bilər. Bütövlükdə builki iqtisadi-sosial göstəricilərimiz göz qabağındadır. İqtisadiyyat artır, sosial layihələr, infrastruktur layihələri icra edilir, o cümlədən bu bölgədə. Bu gün Zaqatalada infrastruktur layihələrinin açılışını qeyd etmişik, Şəkidə, bütün bölgələrdə, bütün şəhər və rayonlarımızda tikinti-quruculuq işləri aparılır.

Bununla bərabər, beynəlxalq nüfuzumuz artır, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi, öz rolunu oynayır. Bizim siyasətimizə çox böyük maraqla və rəğbətlə yanaşırlar. İlk növbədə ona görə ki, biz müstəqil xarici siyasət aparırıq və bizim siyasətimizin təməlində, bir daha demək istəyirəm, Azərbaycan xalqının iradəsi dayanır. Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz. Belə cəhdlər olub, var və düzdür, amma azalır. Ancaq buna baxmayaraq, biz öz yolumuzla gedirik və nəticə də göz qabağındadır.

Bu gün dünyada gedən proseslər, qanlı toqquşmalar, müharibələr artıq dünya gündəmini zəbt edir. Yəni bu, adi hala çevrilib. Ona görə Azərbaycanda sabitliyi, təhlükəsizliyi qorumaq, möhkəmləndirmək doğrudan da çox təqdirəlayiq bir haldır. Bu şəraitdə müstəqil siyasət yürütmək, iqtisadi-sosial inkişafa nail olmaq onu göstərir ki, düzgün siyasət aparılır, xalq da bunu görür, bəyənir və seçkilərdə öz sözünü deyir.

Ona görə Azərbaycanda aparılan işlər və gələcəkdə bizim planlarımızın reallaşması ölkəmizi daha da gücləndirəcəkdir. Mən gələcəkdə sosial və iqtisadi inkişafla bağlı heç bir ciddi problem görmürəm. Bizim maliyyə vəziyyətimiz, manatın məzənnəsi

sabitdir, kifayət qədər valyuta ehtiyatlarımız var, bütün sosial layihələr – infrastruktur layihələri, tikinti-quruculuq işləri icra edilir.

Enerji sektorunda Azərbaycanın dünyadakı rolu getdikcə artmaqdadır və bu gün biz «Cənub Qaz Dəhlizi» kimi nəhəng layihəni – Avropanın bir nömrəli enerji layihəsini icra edirik və həm də liderlik göstəririk. Yəni bütün bu işlər davam etdiriləcək. Bu işləri sürətləndirmək və daha da böyük nəticələr əldə etmək üçün cəmiyyətdə hələ ki, mövcud olan, bizi – iqtidarı və xalqı narahat edən problemlər aradan qaldırılmalıdır. Bunların içində korrupsiya, rüşvətxorluq birinci yerdədir. Çünki korrupsiya dövlətimizin dayaqlarını sarsıdır, inkişafı, azad rəqabəti əngəlləyir, müəyyən dərəcədə inamsızlıq yaradır. Ona görə məhkəmə işçilərinin burada çox böyük rolu vardır. Bir daha demək istəyirəm, ilk növbədə, məhkəmə sistemində korrupsiyaya, rüşvətxorluğa yol verilməməlidir.

İslahatlar arasında onu da qeyd etməliyəm ki, hakimlərin maddi təminatı da son illər ərzində böyük dərəcədə yaxşılaşıbdır. Nəyə görə? Ona görə ki, normal yaşasınlar. Yəni dövlət tərəfindən təminat yüksək səviyyədədir, imkan daxilində daha da artırılacaqdır. Məhkəmə sistemi elə olmalıdır ki, korrupsiyaya, rüşvətxorluğa, ədalətsizliyə qarşı bizim mübarizəmiz daha da təsirli, səmərəli olsun və inkişafımıza mane olan bu əngəllər aradan götürülsün.

Buna nail olmaq üçün çox güclü siyasi iradə var – dövlət tərəfindən göstərilən iradə. Eyni zamanda, çox böyük ictimai dəstək var – xalq tərəfindən göstərilən dəstək. O ki qaldı dövlət məmurlarına – vəzifəli şəxslər öz vəzifə borclarını şərəflə yerinə yetirsinlər, nöqsanlara yol verməsinlər, insanları incitməsinlər, əsassız tələblər irəli sürməsinlər. Əfsuslar olsun, biz hələ ki, bu xoşagəlməz mənzərə ilə üzləşirik. Ancaq ədalətli istintaq və ədalətli məhkəmə qərarları, hesab edirəm ki, bu sahədə də ciddi irəliləyişə gətirib çıxaracaqdır.

Son vaxtlar sahibkarlarla bağlı faktlar üzə çıxır. Bu, dəhşətli faktlardır. Dövlət nümayəndələri tərəfindən sahibkarlara qarşı nə qədər böyük ədalətsizliklər edilib. Onlara qarşı əsassız tələblər irəli

sürülüb. Onların əmlakı bəzi hallarda əllərindən alınıb. Onlardan külli miqdarda rüşvət alınıb, bəzi hallarda reketlik edilib. Ona heç rüşvət də demək olmaz. Rüşvət o vaxt verilir ki, kimsə nə isə etmək istəyir, işi asanlıqla getsin deyə rüşvət verir. Amma bəzi hallarda sadəcə olaraq, sahibkarların əlindən əmlak, vəsait alınır, onlara hədə-qorxu gəlirdilər, işgəncələr verirdilər. Ona görə ədalətli məhkəmə sistemi bu faktlara adekvat qiymət verməlidir.

Heç bir cəmiyyət kamil deyil. Hər bir ölkədə pozuntular var. Misal üçün, inkişaf etmiş ölkələrdə gizli həbsxanalar yaradılmışdır. Bu, neçə il bundan əvvəl böyük bir beynəlxalq qalmaqala çevrilmişdir. İnkişaf etmiş ölkələr, demokratiyanın beşiyi sayılan ölkələr, bax, bu işlərlə məşğuldur. İnsanlar qanunsuz, məhkəmə qərarı olmadan illərlə həbsxanalarda saxlanılır. Bu yaraşarmı inkişaf etmiş ölkələrə?! Əlbəttə, yaraşmaz. Bəzi hallarda inkişaf etmiş ölkələrdə insanlar siyasi fəaliyyətə görə həbs edilir, saxlanılır. Bəzi hallarda onları neçə il girov kimi saxlayırlar. Bəzi hallarda inkişaf etmiş ölkələrdə əsassız, ədalətsiz hökmlər çıxarılır. Bu, göz qabağındadır. Kimin pulu varsa, gedir güclü vəkil tutur və məsuliyyətdən boyun qaçırır.

Bu hər bir ölkədə var. Amma mən istəyirəm ki, Azərbaycanda olmasın. Mən istəyirəm ki, Azərbaycanda hər şey ədalətli olsun. Əminəm ki, siz də bunu istəyirsiniz, Azərbaycan xalqı da bunu istəyir.

Ona görə də məhkəmə işçilərinin fəaliyyətindən çox şey asılıdır. Yenə də demək istəyirəm, son vaxtlar bu sahədə aparılan islahatlar və verilmiş qərarlar, onların icrası müsbət dinamikanı təmin edir. Ancaq hələ görüləsi işlər çoxdur. Əminəm ki, məhkəmə işçiləri öz vəzifə borclarını bundan sonra da şərəflə yerinə yetirəcəklər və cəmiyyətdə məhkəmələrin fəaliyyəti ilə bağlı heç bir narazılıq olmayacaq. Nə vaxt ki, məhkəmə qərarları ilə bağlı şikayətlər daxil olmayacaq, o vaxt biləcəyəm ki, biz artıq istədiyimizə nail ola bilmişik.

Mən sizi bu gözəl hadisə – Şəki Məhkəmə Kompleksinin açılışı münasibətilə bir daha təbrik edirəm, sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

## Ədliyyə naziri Fikrət Məmmədovun çıxışı

Möhtərəm cənab Prezident!

İlk növbədə, məhkəmə və ədliyyə orqanlarının inkişafına mühüm əhəmiyyət verərək, Şəki Məhkəmə Kompleksinin açılışını şəxsən həyata keçirdiyinizə görə bütün ədliyyə işçiləri adından Sizə dərin minnətdarlığımı bildirirəm.

Zati-aliləri, dövlət başçısı seçildiyiniz ilk gündən ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi hüquq siyasətini uğurla inkişaf etdirərək, ədalət mühakiməsinə xüsusi diqqət yetirmisiniz, tapşırıqlarınız bu sahədə köklü islahatlara geniş vüsət vermişdir. Təşəbbüsünüzə əsasən qəbul edilmiş yeni qanunlarla məhkəmə hakimiyyətinin müstəqilliyi daha da möhkəmlənmiş, onun özünüidarə orqanı kimi yaradılmış Məhkəmə-Hüquq Şurası bu il fəaliyyətinin 10 illiyini qeyd etmişdir.

Qərarlarınıza əsasən bütün regionlarda 20-dək yeni məhkəmənin, o cümlədən apelyasiya, ağır cinayətlər, iqtisad və xüsusilə dövlət orqanları ilə bağlı iddialara baxan inzibati məhkəmələrin təsis edilməsi vətəndaşların müraciət imkanlarının asanlaşmasına, insan haqlarının etibarlı müdafiəsinə və bölgələrdə hüquq institutlarının inkişafına təkan vermişdir. Hakim ştatlarını 2 dəfə artırmağınız ədalət mühakiməsinin səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərmişdir.

«Elektron məhkəmə» informasiya sisteminin yaradılması haqqında sərəncamınız isə məhkəmə fəaliyyətində inqilabi təkamülün əsasını qoymuşdur.

Sizə təqdim edilmiş və artıq sınaq rejimində istifadəsinə başlanılan bu sistemin tətbiqi nəticəsində insanlar məhkəməyə gəlmədən, elektron formada müraciət edəcək, məhkəmə prosesləri, qərarlar, onların icra vəziyyəti və s. məlumatları əks etdirən elektron «şəxsi kabinetə» malik olacaqlar.

Müasir məhkəmə infrastrukturunun yaradılması üzrə tədbirlər xüsusi qeyd olunmalıdır. Təkcə Dünya Bankı ilə birgə layihə çərçivəsində 40-dək məhkəmə binası müasir standartlara uyğun

layihələndirilib, qısa müddətdə 11 məhkəmə üçün yeni, müasir binalar istifadəyə verilib, bir o qədər də məhkəmə üçün, o cümlədən dövlət büdcəsi hesabına yeni binalar inşa olunmaqdadır.

Bu binalarda vətəndaşların rahatlığı məqsədilə hər cür imkanların yaradılması bir çox problemləri, habelə korrupsiya üçün şəraiti aradan qaldırır. Yeri gəlmişkən, cənab Prezident, Azərbaycan hökuməti ilə birgə həyata keçirilən bu layihəni Bank dünyada ədliyyə sahəsində ən uğurlu layihə kimi qiymətləndirir.

Möhtərəm cənab Prezident, Azərbaycan ədliyyəsinin yüksək diqqətinizdə olduğu daim hiss edilir. Bu mənada təşəbbüsünüzlə ədliyyə fəaliyyətini tənzimləyən Qanunun, nazirliyin yeni Əsasnaməsinin, ədliyyənin inkişafına dair ayrıca Fərman və Dövlət Proqramının qəbul edilməsini, regional şöbələrin, Ədliyyə Akademiyasının yaradılmasını, nəhayət, son 10 ildə nazirlik və məhkəmələr üçün ayrılan büdcə vəsaitinin 6 dəfəyədək artırılmasını xüsusi qeyd etmək istərdim.

Qanun yaradıcılığında fəal iştirak edən nazirlik tərəfindən son illər ictimai həyatın müxtəlif sahələrinə dair 3500-dək layihə hazırlanıb, 23 min layihə ekspertizadan keçirilib, əhalinin sərbəst və kütləvi istifadə etdiyi qanunvericiliyin elektron bazası yaradılıbdır.

Sahibkarlığın inkişafına əngəllərin aradan qaldırılması ilə bağlı əhalidə böyük rəğbət doğuran qəti və prinsipial tədbirlərinizə uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən yoxlamaların reyestrinin yenidən, daha mükəmməl qurulması üzrə işlər görülür.

Ədalət mühakiməsinin ayrılmaz tərkib hissəsi olan məhkəmə qərarlarının icrası işi də yenidən təşkil edilib, icra məmurlarının səlahiyyətləri genişləndirilməklə, daha təsirli icra mexanizmləri yaradılıb. İcra işinin vəziyyətinə diqqətiniz və bu barədə mütəmadi məlumatlandırılmağınız müsbət nəticəsini verir, icra prosesi iştirakçılarının məsuliyyətini artırır.

Məhkəmə ekspertizasına diqqətiniz sayəsində nazirliyin Ekspertiza Mərkəzi ən müasir avadanlıqlarla təchiz edilib. Elm və texnikanın son nailiyyətlərinin və yeni texnologiyaların tətbiqi nəticəsində hər il məhkəmə və istintaq orqanlarının 100

minədək sualı cavablandırılır. Ekspert rəylərinin bugünkü səviyyəsi onların beynəlxalq miqyasda tanınmasına səbəb olub. Həmçinin bölgələrdə, o cümlədən Naxçıvan, Gəncə, Şirvan və Şəkidə ekspertiza filiallarının yaradılması araşdırmaların operativliyini təmin edir. Penitensiar sistemdə aparılan islahatlar nəticəsində məhkumların hüquqları genişləndirilib, onların saxlanma şəraiti, ərzaq və tibbi təminatı yaxşılaşdırılıb, xüsusilə bu sahədə ictimai nəzarət gücləndirilib.

Beynəlxalq standartlara uyğun inşa edilən Bakı İstintaq Təcridxanasının açılışı zamanı verdiyiniz tapşırıqlar penitensiar infrastrukturun müasirləşdirilməsinə xüsusi təkan verib, vətəndaşların rahatlığı üçün respublikanın müxtəlif regionlarında, o cümlədən Şəkidə müasir penitensiar müəssisələr inşa olunubdur.

Korrupsiyaya qarşı barışmaz mövqenizə, o cümlədən son dövrdə verdiyiniz göstərişlərə uyğun olaraq, ədliyyə və məhkəmə sistemində bu sosial bəla ilə qəti mübarizə aparılır, təsirli tədbirlər görülür. Şəffaf prosedurlar əsasında yeni notarius korpusunun formalaşdırılması, nazirlik tərəfindən 20-dən çox elektron xidmətlərin göstərilməsi vətəndaş məmnunluğu doğurur.

Xüsusilə qeyd etmək istərdim ki, zati-alinizin təşəbbüsü ilə yaradılaraq, əhalinin böyük rəğbətini qazanmış və ötən dövrdə 6 milyon insanın faydalandığı «ASAN xidmət» çərçivəsində 1 milyon yarım əməliyyat məhz ədliyyə orqanları tərəfindən həyata keçirilibdir.

Dövlət gənclər siyasətinizə uyğun olaraq, son 10 ildə ədliyyə orqanlarına açıq müsabiqələrlə 2 mindən çox gənc qulluğa qəbul edilib.

Həmçinin hakimlərin ən şəffaf və obyektiv üsullarla seçimi nəticəsində 300-dən çox hazırlıqlı hüquqşünas şərəfli hakim vəzifəsinə təyin edilib, bu sahədə Azərbaycan təcrübəsi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bütün Avropa dövlətlərinə nümunə kimi tövsiyə olunubdur. Artıq bir çox xarici həmkarlarımız bu təcrübə ilə yerində tanış olub yararlanırlar.

Çıxışımın sonunda, cənab Prezident, ədliyyə və məhkəmə sahəsində mütərəqqi islahatlara, habelə bu möhtəşəm məhkəmə kompleksinin açılışını həyata keçirdiyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

Sizi əmin etmək istəyirəm ki, dövlətçilik amallarına daim sadiq olan ədliyyə və məhkəmə işçiləri fəaliyyətlərinin yüksək tələbləriniz səviyyəsində qurulması, mövcud nöqsanların aradan qaldırılması üçün bütün səy və bacarıqlarını səfərbər edəcək, ölkəmizin daha da qüdrətlənməsi naminə şərəfli işinizdə Sizə yardımçı olmaq üçün əllərindən gələni əsirgəməyəcəklər.

Diqqətinizə görə minnətdaram.

## Ali Məhkəmənin sədri Ramiz Rzayevin çıxışı

Möhtərəm cənab Prezident!

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şəki şəhərində Məhkəmə Kompleksinin Sizin tərəfinizdən açılması dövlətimizin iqtisadi yüksəlişinə, vətəndaşların hüquq və azadlıqlarının təminatına xüsusi qayğınızın təcəssümüdür.

Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu və Sizin uğurla davam etdirdiyiniz siyasət nəticəsində son illər ədalət mühakiməsinin inkişafında mühüm dəyişikliklər baş vermiş, vətəndaşların məhkəmələrə müraciət imkanları asanlaşmışdır.

Məhkəmə sistemində ardıcıl olaraq həyata keçirilən islahatlar insan hüquqlarının müdafiəsini, ədalət mühakiməsinin müasir standartlara uyğunlaşdırılmasını, məhkəmə hakimiyyətinin müstəqilliyinin və səmərəliliyinin artırılmasını təmin etmişdir.

Məhkəmə qərarlarının ədalətliliyi, ədalət mühakiməsinə çıxışın mümkünlüyü və məhkəmə fəaliyyətinin səmərəliliyi ictimaiyyətin məhkəmə hakimiyyətinə etimadını yaradan əsas amillərdir.

Cəmiyyətdə qanunun aliliyinin və demokratik dəyərlərin bərqərar olması, həmçinin ədalət mühakiməsinin təməl prinsipləri olan həmin tələblərə riayət edilməsindən də asılıdır.

Ölkəmizdə həyata keçirilən islahatlar və qanunvericiliyin əsaslı şəkildə dəyişdirilməsi nəticəsində məhkəmələrdə baxılan işlərin sayı xeyli artıb. Yeni məhkəmə sistemimizin fəaliyyətə başladığı 2000-ci illə müqayisədə mülki xarakterli işlərin sayı 12 dəfə artaraq 250 mini keçib. Fikrimcə, bu həm də insanların məhkəmə hakimiyyətinə olan inamının artması ilə bağlıdır.

İnsan hüquqlarının təminatı baxımından çox mühüm bir institut olan inzibati məhkəmələr 2011-ci ildə ölkəmizdə fəaliyyətə başlamışdır. Vətəndaşlarla dövlət orqanları arasındakı münasibətlərdə yeni mərhələ olan inzibati məhkəmələrdə baxılan işlərdə mübahisələrin 85 faizi vətəndaşların xeyrinə həll olunaraq, onların hüquqları bərpa edilmişdir.

Ədalət mühakiməsinin səmərəliliyini təmin etmək məqsədilə Ali Məhkəmə tərəfindən mütəmadi olaraq məhkəmələrdə baxılan müxtəlif problemli məsələlər üzrə ümumiləşdirmələr aparılır, vahid məhkəmə təcrübəsi formalaşdırılır, qərarlar qəbul edilir və məhkəmələrə tövsiyələr verilir.

Son illər ərzində Ali Məhkəmənin Plenumu tərəfindən vətəndaşların azadlıq, mülkiyyət və sair hüquqlarının səmərəli təmin edilməsinə yönəlmiş 20-dək belə qərar qəbul olunub.

Ali Məhkəmədə hər həftə beynəlxalq məhkəmələrin təcrübəsinin öyrənilməsi ilə əlaqədar İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları müzakirə edilir, o cümlədən apelyasiya və birinci instansiya məhkəmələrində hakimlərin davamlı tədrisi təşkil olunur.

Son illər məhkəmələrdə işlərə baxılmasında da əhəmiyyətli keyfiyyət dəyişiklikləri baş vermişdir. Yuxarı məhkəmələr tərəfindən ləğv olunan qərarların sayı azalaraq, ölkə üzrə təqribən 5 faiz təşkil edir. Bu göstərici məhkəmə qərarlarının 95 faizinin sabitliyinin və ümumən hüquqi müəyyənliyin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Bundan başqa, məhkəmə fəaliyyətində şəffaflığın və aşkarlığın təmin edilməsi üçün məhkəmənin icraatındakı işlər barədə ətraflı məlumatlar və qərarların məhkəmələrin internet səhifələrində

yerləşdirilməsi təmin olunur, bununla da istənilən şəxsin həmin məlumatları və qərarları əldə etmək imkanları asanlaşır.

Artıq 2009-cu ildən etibarən Ali Məhkəmədə, eləcə də bir sıra birinci və apelyasiya instansiyası məhkəmələrində müasir informasiya texnologiyalarına əsaslanan infrastruktur yaradılıb. Ali Məhkəmədə bütün məhkəmələrin istifadə edə biləcəkləri «Elektron kitabxana» layihəsi ilə bağlı işlər də yekunlaşmaq ərəfəsindədir.

Ədalət mühakiməsinin keyfiyyətinin artırılması davamlı proses kimi, qarşımızda əsas məqsəd olaraq durur. Biz demokratiya və insan hüquqlarına dair standartların inkişafını nəzərə alaraq mütəmadi olaraq qanunvericiliyin müvafiq sahələrinin təkmilləşdirilməsinə yönəlmiş təkliflərlə çıxış edirik.

Məhkəmədə işlərin idarə olunması sahəsində səmərəli mexanizmlərin yaradılmasına yönəlmiş işlər də davam etdirilir.

Bununla bağlı olaraq, cənab Prezident, Sizin «Elektron məhkəmə» informasiya sisteminin yaradılması haqqında sərəncamınız bilavasitə məhkəmələrin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi ilə elektron kargüzarlıq və elektron sənəd dövriyyəsinin təmin edilməsinə, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin səmərəliliyinin artırılmasına xidmət edir.

Möhtərəm cənab Prezident, məhkəmə fəaliyyətində müəyyən nöqsanlar da mövcuddur və biz onların aradan qaldırılması üçün çalışırıq. Məhkəmə fəaliyyətində korrupsiya hüquq pozuntularına şərait yaradan halların qarşısının alınması həmişə qarşımızda əsas məqsəd kimi durur. Bildirmək istəyirəm ki, biz öz fəaliyyətində belə pozuntulara yol vermiş hakimlər barədə Məhkəmə-Hüquq Şurası qarşısında məsələ qaldıraraq, onları müvafiq intizam tənbehinə cəlb etmişik.

Möhtərəm Prezident, görəcəyimiz işlər çoxdur. Bu, məhkəmə hakimiyyətinə olan inam və etimadı daha da möhkəmləndirəcək. Əsas məqsədimiz qanunun aliliyinə nail olmaq, ədalət mühakiməsinin Azərbaycan Respublikasının Konstitusiyasında

təsbit edilmiş insan hüquq və azadlıqlarının müdafiəsi naminə həyata keçirilməsini bundan sonra da təmin etməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

*Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yekun nitqi söylədi.*

## YEKUN NİTQİ

Bir daha qeyd etmək istəyirəm ki, bu kompleks doğrudan da göz oxşayır. Həm memarlıq, həm funksionallıq baxımından ən yüksək standartlara cavab verir. Onu da qeyd etməliyəm ki, Bakıdan sonra birinci belə böyük kompleks Şəki şəhərində yaradılıbdır.

İndi burada məruzədə deyildi ki, artıq bir çox komplekslərin tikintisi nəzərdə tutulur. Ancaq birinci böyük kompleks Şəki şəhərində istifadəyə verilib. Bu da təsadüfi deyil. Çünki Şəki qədim Azərbaycan diyarıdır. Şəkinin çox zəngin tarixi, mədəniyyəti vardır. Şəki nəinki Azərbaycanda, dünya miqyasında gözəlliyi ilə seçilən şəhərlərdəndir. Bir çox şəhərlər memarlıq, yaxud da şəhərsalma baxımından bir-birinə oxşayır. Şəki isə heç bir şəhərə oxşamır. Buranın gözəl təbiəti gözəl memarlığı və şəhərsalma prinsipləri ilə tamamlanır. Şəkinin çox zəngin tarixi, mədəniyyəti vardır. Şəki bizim böyük sərvətimizdir. Ona görə təsadüfi deyil ki, birinci kompleks məhz Şəki şəhərində istifadəyə verilir. Bu kompleks şəhərə əlavə yaraşıq verəcəkdir.

Şəkiyə mənim səfərlərim müntəzəm olaraq həyata keçirilir. Bu, prezident kimi, Şəkiyə yeddinci səfərimdir. Ondan əvvəl də dəfələrlə Şəkidə olmuşam. Burada gedən işlərə daim diqqət göstəririrəm. İstəyirəm ki, bütün infrastruktur, sosial-iqtisadi layihələr daha da sürətlə getsin. Bu gün Şəki–Qax avtomobil yolunun açılışını qeyd etdik. Siz yaxşı bilirsiniz ki, əvvəllər buradan Qaxa getmək üçün təxminən 80 kilometr yolu qət etmək lazim idi. Bu gün isə 35 kilometrlik yeni yol istifadəyə verildi. Tapşırıq verildi ki, yolun davamı da olmalıdır – Zaqatalaya, ondan sonra Balakənə qədər. Artıq Şəki–Bakı yolu da ən yüksək standartlara cavab verir.

İnfrastruktur layihələri icra edilir. Qazlaşdırma prosesi gedir, ilin sonuna qədər daha da sürətlə gedəcək. Ümumi qazlaşdırma ilin sonuna qədər təxminən 80–85 faizə çatmalıdır. Bir məsələ məni bir qədər narahat edir. O da içməli su layihəsinin hələ də həll olunmamasıdır. Bizdən asılı olmayan səbəblərə görə belə vəziyyət yaranıb.

Bildiyiniz kimi, içməli su, kanalizasiya layihələri bütün şəhər və rayonlarımızda icra edilir. Onların bir çoxu dövlət büdcəsi vəsaiti hesabına icra edilir və bu halda, heç bir yubanmaya da yol verilmir. Ancaq bəzi layihələr beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşdirilir və bizdən asılı olmayan səbəblərə görə bəzi hallarda yubanmalar olur. Əfsuslar olsun, hələ ki, Şəkinin içməli su problemi öz həllini tapmayıb. Mənə verilən məlumata görə, bu layihənin başa çatması 2017-ci ildə gözlənilir. Hesab edirəm ki, biz gələn il bu layihəni icra etməliyik. Çünki Şəki kimi şəhərdə əhali sutkada 24 saat fasiləsiz təmiz içməli su ilə təmin edilməlidir. Hazırda bu belə deyil və Şəki sakinləri bundan əziyyət çəkirlər. Bu, dözülməz haldır. Artıq göstərişlər verilib ki, müvafiq qurumlar bu işi sürətlə icra etsinlər və tezliklə bu məsələ öz həllini tapsın.

Digər infrastruktur layihələri ilə bağlı Şəki şəhərində və ətraf kəndlərdə lazımi tədbirlər görüləcək – kənd yolları, elektrik enerjisi ilə təchizat, qeyd etdiyim kimi, qazlaşdırma layihələri və əlbəttə ki, iş yerlərinin yaradılması. Şəkinin çox böyük kənd təsərrüfatı, sənaye potensialı var. Əlbəttə ki, turizm potensialı da böyükdür. Şəkiyə gələn turistlərin axını dayanmır. Amma istərdim daha da çox qonaq gəlsin, görsün ki, Azərbaycanda belə gözəl şəhər var. Şəki şəhəri tarixi, mədəni abidədir.

Gələcəkdə də Şəki şəhərinin və rayonun inkişafı ilə bağlı lazımi göstərişlər veriləcək. Bir daha demək istəyirəm ki, ölkəmizin maliyyə vəziyyəti sabitdir, müsbətdir. Maddi problemlərimiz yoxdur. Əlbəttə, neftin qiymətinin 2 dəfə aşağı düşməsi bizim bəzi planlarımıza maneçilik törədib. Ancaq əsas sosial və infrastruktur layihələri icra edilir. Bizim kifayət qədər böyük maddi maliyyə bazamız vardır. Heç bir maliyyə problemimiz yoxdur və əminəm

ki, Azərbaycan iqtisadiyyatı 2016-cı ildə də inkişaf edəcək, bütün rayonlar, şəhərlər, o cümlədən Şəki şəhəri daha da gözəlləşəcək, abadlaşacaq.

Mən şəkililəri bir daha bu gözəl hadisə münasibətilə təbrik edir, onlara yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev Şəki rayon qeydiyyat şöbəsinin inzibati binasında yaradılan şəraitlə tanış oldu.*

## GÜRCÜSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Gürcüstan Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Gürcüstanın dövlət bayraqlarının dalğalandığı Tbilisi Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidentini Gürcüstanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## TBİLİSİ ŞƏHƏRİNDƏ QƏHRƏMANLAR MEMORİALINI ZİYARƏT

*Tbilisi*

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Tbilisi şəhərində Qəhrəmanlar Memorialını ziyarət etmişdir.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev Qəhrəmanlar Memorialının önünə əklil qoydu. Sonra Azərbaycanın və Gürcüstanın dövlət himnləri səsləndirildi.*

## TBİLİSİ ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*Tbilisi*

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Tbilisi şəhərindəki Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı abidənin önünə əklil* qoydu.

## GÜRCÜSTAN RESPUBLİKASININ MƏRHUM DÖVLƏT BAŞÇISI EDUARD ŞEVARDNADZENİN MƏZARINI ZİYARƏT

*Tbilisi*

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Tbilisidə Gürcüstanın mərhum dövlət başçısı Eduard Şevardnadzenin məzarını ziyarət etmiş və ailə üzvləri ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev əvvəlcə Eduard Şevardnadzenin və onun xanımının məzarları önünə gül dəstələri qoydu.*

*Dövlətimizin başçısı Tbilisidə Gürcüstanın mərhum prezidenti Eduard Şevardnadzenin evinə gəldi, ailə üzvləri ilə görüşdü. Eduard Şevardnadze ilə bağlı xatirələrini bölüşən dövlətimizin başçısı qeyd etdi ki, onun xatirəsi Azərbaycanda daim böyük hörmətlə anılır. Vaxtilə ulu öndər Heydər Əliyev ilə Eduard Şevardnadzenin yaxın dostluq münasibətlərindən danışan prezident İlham Əliyev bildirdi ki, hər iki lider Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin inkişafında müstəsna rol oynayıblar. Eduard Şevardnadzenin ailə üzvləri prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.*

*Qeyd olundu ki, dövlətimizin başçısının Eduard Şevardnadzenin xatirəsinə olan hörməti çox yüksək qiymətləndirilir. Bildirildi ki, Eduard Şevardnadze də daim ulu öndər Heydər Əliyevə, prezident İlham Əliyevə və Azərbaycan xalqına böyük hörmətlə yanaşıb, ölkələrimiz arasındakı münasibətlərin inkişafına həmişə töhfə verməyə çalışıb.*

*Prezident İlham Əliyev Eduard Şevardnadzenin müxtəlif illərdə çəkdirdiyi fotolara və layiq görüldüyü mükafatlara, ona bağışlanan hədiyyələrə baxdı.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Tbilisi*

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 5-də Gürcüstan Respublikası Prezidentinin iqamətgahında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Gürcüstanın dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Gürcüstan prezidenti Giorgi Marqvelaşvili qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Gürcüstanın dövlət himnləri səsləndirildi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Gürcüstanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti prezident Giorgi Marqvelaşviliyə təqdim olundu.*

*Sonra prezidentlər xarici ölkələrin Tbilisidə akkreditə olunan səfirləri ilə görüşdülər.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GİORGİ MARQVELAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Tbilisi*

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvilinin noyabrın 5-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan Prezidentinin Gürcüstana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından önəmi vurğulandı. Ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı beynəlxalq, ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Tbilisi*

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvilinin təkbətək görüş başa çatdıqdan sonra noyabrın 5-də geniş tərkibdə görüşü olmuşdur.*

**Giorgi Marqvelaşvili:** Zati-aliləri cənab Prezident!

Hörmətli nümayəndə heyəti!

İcazə verin, Sizi Tbilisidə bir daha ürəkdən salamlayım. Bu səfəri mən şəxsən çox intizarla gözləyirdim. Bizim mehriban qonşuluğumuz və strateji əməkdaşlığımız nümunəvidir.

Cənab Prezident, mən əminəm ki, Sizin bu rəsmi səfəriniz Azərbaycan və Gürcüstan əlaqələrinin dərinləşməsinə yeni təkan verəcək.

**İlham Əliyev:** Çox sağ olun, hörmətli cənab Prezident!

Göstərilən qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən Gürcüstanda olmağımdan çox məmnunam. Əminəm ki, səfərimin nəticələri iki ölkə arasındakı əlaqələrin inkişafına çox müsbət təsir göstərəcək.

Bizim üçün Gürcüstan çox yaxın ölkədir, strateji tərəfdaşdır. Biz müxtəlif sahələrdə uğurla əməkdaşlıq edirik və bu əməkdaşlıq getdikcə daha da dərinləşir. Çox istəyirik ki, ikitərəfli əlaqələr daha da sürətlə inkişaf etsin və bütün sahələri əhatə etsin. Gündəlikdə duran məsələlər çoxdur. Hər məsələ ilə bağlı konkret proqramlar var və icra mexanizmləri də mövcuddur. İndi biz bu məsələləri geniş tərkibdə məmnuniyyətlə müzakirə edəcəyik.

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin iştirak etdiyi geniş tərkibdə görüşdə iqtisadiyyat, infrastruktur, energetika, dəmir yolu, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında müzakirələr aparıldı.*

## BİRGƏ BƏYANNAMƏNİN İMZALANMASI MƏRASİMİ

*Tbilisi*

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvili geniş tərkibdə görüş başa çatdıqdan sonra noyabrın 5-də Birgə Bəyannamə imzalamışlar.*

# GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GİORGİ MARQVELAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Tbilisi*

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvili Birgə Bəyannamənin imzalanması mərasimindən sonra noyabrın 5-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin bəyanatı

Əvvəla, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Gürcüstana səfər etdiyi üçün təşəkkürümü bildirirəm. Bu səfər çox mühüm səfərdir. Bizim ölkələrimiz arasında strateji əməkdaşlığın və gələcək əlaqələrimizin dərinləşməsi baxımından çox vacib bir səfərdir. Xalqlarımız arasındakı mövcud münasibətlər ölkələrimizi strateji tərəfdaşa çevirmişdir. Bu da öz növbəsində, həm Azərbaycan, həm Gürcüstan, həm də bütövlükdə Qafqaz regionu üçün çox böyük rol oynamışdır.

Bugünkü görüşdə bizi birləşdirən strateji əməkdaşlıq barədə, həmçinin Xəzər dənizi ilə Qara dənizi birləşdirən əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Nəqliyyat və enerji dəhlizi layihələrinin və bu sahədə əməkdaşlığın dərinləşməsi barədə söhbət etdik. Biz Birgə Bəyannamə imzaladıq. Bu da öz növbəsində, bizim təhlükəsizlik, iqtisadiyyat, ticarət, tranzit və mədəniyyət sahələrində əlaqələrimizin genişlənməsinə töhfə verəcək.

*Gürcüstan Prezidenti ölkələrimiz arasındakı əlaqələrin mehriban qonşuluq münasibətlərinə söykəndiyini vurğuladı:*

– Sözsüz ki, bu əlaqələr hökumətlər arasında da davam edir, birgə layihələr həyata keçiririk. Biz Azərbaycana təkcə tərəfdaşlıq münasibətlərinə görə deyil, həm də Gürcüstanda bir çox layihələri həyata keçirdiyinə görə minnətdarlığımızı bildiririk. Azərbaycan hər zaman Gürcüstana nəinki iqtisadi, həmçinin humanitar sahələrdə də dəstək verir. Hər bir gürcü yaxşı bilir ki, Azərbaycan bizə hansı yardımları göstərir. Bunlara misal olaraq, uşaq bağçalarına, kilsələrə, idmançılarla bağlı xeyriyyə layihələrinin həyata keçirilməsinə verilən dəstəyi və köməyi qeyd edə bilərik. Bu əməkdaşlığa görə də biz Azərbaycana öz təşəkkürümüzü bildiririk. Gürcü xalqı da hər zaman dost Azərbaycan xalqının yanında olacaq.

*Gürcüstan Prezidenti Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri layihələrin Avropa üçün mühüm əhəmiyyət daşıdığını bildirdi, enerji və nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətlərindən danışdı. Giorgi Marqvelaşvili Azərbaycan Prezidenti ilə regiondakı hazırkı vəziyyət barədə fikir mübadiləsi apardıqlarını söylədi. O, Azərbaycanda keçirilən parlament seçkilərinə də toxundu:*

– Bir daha Azərbaycanda çox uğurla keçən parlament seçkiləri münasibətilə şəxsən İlham Əliyevi və azərbaycanlı dostlarımızı təbrik edirəm. Seçkilərdən keçən qısa zaman kəsiyində ölkəmizə səfər etdiyi üçün cənab Prezidentə təşəkkürümü bildirirəm. Bütün bunlar Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlərin bariz nümunəsidir və bizim əməkdaşlığımızın genişlənməsinə yeni perspektivlər açır.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Gürcüstan torpağında yenidən olmağımdan çox məmnunam.

Hörmətli cənab Prezident, Siz də qeyd etdiniz ki, bu yaxınlarda Azərbaycanda parlament seçkiləri keçirilmişdir. Seçkilərdən sonra mənim ilk rəsmi səfərim qardaş Gürcüstana həyata keçirilir. Bu özlüyündə ikitərəfli əlaqələrə nə qədər böyük qiymət verməyimizi ifadə edən bir haldır.

Bu gün imzaladığımız Birgə Bəyannamə əlaqələrimizin inkişaf perspektivlərini müəyyən edir. Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, birgə tariximiz və qardaşlığımız dayanır. Bəyannamədə isə inkişaf perspektivləri haqqında çox konkret müddəalar əksini tapmışdır. Demək olar ki, Gürcüstan və Azərbaycan bütün sahələrdə sıx əməkdaşlıq edir. Biz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik. Bütün məsələlərdə, xüsusilə ölkələrin ərazi bütövlüyü ilə bağlı məsələlərdə bir-birimizə daim dəstək, arxa oluruq. Beynəlxalq təşkilatlarda gələcək əməkdaşlıq üçün də çox gözəl imkanlar var. Əminəm ki, iki ölkə gələcəkdə də bir-birinin mövqeyini daim dəstəkləyəcək.

Bəyannamədə münaqişələrin həlli ilə bağlı çox dəqiq ifadələr əksini tapıb. Bütün münaqişələr, o cümlədən Gürcüstan və Azərbaycan ərazilərində baş vermiş münaqişələr ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı çərçivəsində həllini tapmalıdır. Beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında öz həllini tapmalıdır. Uzun illərdir ki, Azərbaycanın əzəli, tarixi torpağı – Dağlıq Qarabağ və ətrafda yerləşən 7 rayon işğal altındadır. Əfsuslar olsun ki, bu münaqişə bu günə qədər həllini tapmayıb, baxmayaraq ki, bütün mötəbər beynəlxalq təşkilatlar bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması ilə bağlı qərar və qətnamələr qəbul etmişdilər.

Bizim iqtisadi sahədə çox uğurlu əməkdaşlığımız var. Çox istəyirik ki, ticarət dövriyyəsi daha da artsın və əlbəttə, qarşılıqlı maraq kifayət qədər böyükdür. Azərbaycan Gürcüstana böyük həcmdə sərmayə qoyur. Gürcüstan sərmayə qoyuluşu üçün çox cazibədar ölkədir. Sizin ölkənizdə çox gözəl sərmayə iqlimi yaradılıb. Bu münasibətlə Sizi ürəkdən təbrik etmək istəyirəm.

Əlbəttə, bu gün biz enerji və nəqliyyat məsələlərini geniş şəkildə müzakirə etdik. Bir daha öz iradəmizi ortaya qoyduq ki, bu

məsələlər, bu layihələr tezliklə həllini tapsın. Xüsusilə «Cənub Qaz Dəhlizi» ki, bu gün uğurla icra edilir. Əgər vaxtilə Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum kimi neft-qaz kəmərləri tikilməsəydi, bu gün «Cənub Qaz Dəhlizi» üçün heç bir əsas olmayacaqdı. «Cənub Qaz Dəhlizi»nin bu gün həm Gürcüstan, həm Azərbaycan, həm Avropa üçün böyük iqtisadi və siyasi mənası vardır. Bu layihə uğurla icra edilir. Əminəm ki, Azərbaycan qazı artıq 2018-ci ildə Türkiyəyə, 2020-ci ildə isə Avropaya daha böyük həcmdə çatdırılacaq. Bu çox böyük layihədir. Hesab edirəm ki, bu gün Avropada reallaşan ən böyük energetika layihəsidir. «Cənub Qaz Dəhlizi»nin reallaşmasına ən azı 45 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur.

Azərbaycanın çox zəngin və böyük qaz ehtiyatları vardır. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr səviyyəsindədir. Bu o deməkdir ki, bundan sonra ən azı 100 il ərzində Azərbaycan həm özünü, həm qonşu ölkələri, eyni zamanda, Avropa ölkələrini böyük həcmdə təbii qazla təmin edə biləcək.

Əlbəttə ki, Gürcüstanın və Azərbaycanın birgə fəaliyyəti, gələcəkdə bir mövqedən çıxış etməyimiz bu dəhlizi çox etibarlı dəhliz kimi ortaya qoyacaq. Beləliklə, ölkələrimizin geosiyasi əhəmiyyəti artacaq. Əlbəttə, bizim gəlirlərimiz də çoxalacaq.

Bu gün geniş tərkibdə keçirilən görüşdə məlumat verdim ki, bu yaxınlarda Azərbaycanda tranzit yüklərlə bağlı Koordinasiya Şurası yaradılıb. Biz çox istəyirik ki, Gürcüstan və Azərbaycan yükdaşıma sahəsində bir mövqedən çıxış etsinlər. Biz ölkə ərazisindən keçən yüklərin həcmini böyük dərəcədə artırmaq üçün vahid tarif siyasəti apara bilərik. Bu mümkündür. Hesab edirəm ki, gələcəkdə yük göndərməsi mümkün olan ölkələrdə birgə təqdimat mərasimləri də keçirilə bilər. Bu gün dünyada yüklər uğrunda mübarizə gedir. Əsas məsələ ondan ibarətdir ki, bu, sağlam mübarizə, sağlam rəqabət olsun. Əgər belə olarsa, onda Gürcüstanın və Azərbaycanın təklif etdiyi tranzit imkanları, əlbəttə ki, üstünlük təşkil edəcək.

Əlbəttə, bu gün digər məsələlər də müzakirə edildi. Mən çox şadam ki, müzakirə olunan bütün məsələlərlə bağlı bizim heç bir fikir ayrılığımız yoxdur. Biz dostuq, qardaşıq. Mənim uğurlu

səfərim bizim gələcək dinamik əməkdaşlığımız üçün də gözəl bir addımdır.

Bir daha mənə, nümayəndə heyətinə göstərdiyiniz diqqətə və qonaqpərvərliyə görə Sizə minnətdaram. Sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*Tbilisi*

*5 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə noyabrın 5-də Tbilisidə Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvilinin adından rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin çıxışı

Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İcazə verin, Sizi bir daha salamlayım. Bizə dost olan Azərbaycan Respublikasından təşrif buyuran nümayəndə heyətini və Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevi burada qəbul etməkdən məmnunluq hissi keçirirəm.

Bu səfər Gürcüstan və Azərbaycan arasında strateji əməkdaşlığın, habelə tərəfdaşlığın dərinləşməsinə doğru atılan növbəti addımı təcəssüm etdirir.

*Prezident Giorgi Marqvelaşvili qeyd etdi ki, Gürcüstan və Azərbaycan xalqlarının ortaq tarixi, ən önəmlisi bu tarix boyunca xalqlarımız tərəfindən əsası qoyulan və münasibətlərimizin möhkəm təməlini əks etdirən nadir dostluq əlaqələri var.*

– Bu möhkəm dostluq münasibətləri Azərbaycanın və Gürcüstanın sabiq rəhbərləri cənab Heydər Əliyevə və cənab Eduard Şevardnadzeyə regional əməkdaşlıq üçün çox əhəmiyyətli strateji layihələri həyata keçirmək işində mühüm dəstək olub. Bu səylər bizim ölkələrə və ümumilikdə, regiona geosiyasi əhəmiyyət verib. Bu

önəmli təşəbbüsün həyata keçirilməsinə başlanmasından, demək olar ki, 20 il ötür. Həmin müddət ərzində möhkəm dostluq və yaxın əməkdaşlığımız sayəsində biz çoxsaylı çağırışlara lazımınca cavab verə bilmişik.

*Gürcüstan Prezidenti ölkəsində yaşanan çətin anlarda Azərbaycan xalqının və dövlətinin göstərdiyi qardaşlıq köməyinin gürcü xalqı tərəfindən daim rəğbətlə xatırlandığını vurğuladı, prezident kimi, Bakıya ilk səfərini xatırlatdı:*

– Cənab Prezident, mən heç vaxt Sizin və Azərbaycan xalqının dostluq ruhu ilə aşıb-daşan səxavətli qonaqpərvərliyinizi unutmayacağam. Səmimi görüşlərimiz və müzakirələrimiz zamanı bizə göstərdiyiniz həmişə hiss olunan səmimi münasibətə görə Sizə təşəkkürümü bildirirəm.

Hazırda biz müasir Azərbaycanın daha da inkişaf etdiyinin şahidiyik. Bu yenidənqurma prosesində prezident İlham Əliyevin rolu vacib və əhəmiyyətlidir. Bunu müvəffəqiyyətlə baş tutan son parlament seçkiləri bir daha sübuta yetirdi. Fürsətdən istifadə edərək, dost ölkənin daha da inkişaf etməsi və çiçəklənməsi istiqamətində atılan bu vacib addım münasibətilə cənab Prezidenti və Azərbaycan xalqını təbrik etmək istəyirəm. Əminəm ki, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha böyük uğurlara imza atacaq.

Hörmətli cənab Prezident, Sizi əmin edirəm ki, Gürcüstan həmişə dost Azərbaycanın yanında olacaq. Bizim strateji əməkdaşlığımız dəyişməz olaraq qalır.

*Prezident Giorgi Marqvelaşvili Azərbaycanın enerji ehtiyatlarının və məhsullarının Avropaya nəqli üçün daha çox imkanların yaradılmasına Gürcüstanın böyük önəm verdiyini diqqətə çatdırdı. Gürcüstan ilə Avropa İttifaqı arasında azad ticarət üzrə razılaşmadan ümumi nailiyyət kimi faydalanmağa çalışmaqla, Azərbaycan sərmayəçiləri və iş adamlarının bu imkanlardan yararlanmasını təmin etməyə Gürcüstanın maraqlı olduğunu söylədi:*

– Cənab Prezident, əminəm ki, Sizin Gürcüstana etdiyiniz bugünkü səfər dövlətlərimiz arasında siyasi, iqtisadi, enerji, ticarət, nəqliyyat, təhsil və humanitar sahələrdə əməkdaşlığın daha da

inkişaf etməsi üçün yeni imkanlar yaradacaq. Bu, Gürcüstan və Azərbaycan arasında tərəfdaşlığın daha da dərinləşməsinə yeni təkan verəcək.

Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqının və dövlətinin rifahına xidmət edəcək bütün işlərinizdə uğurlar arzu edirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, səfər zamanı mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Gözəl ölkənizi yenidən ziyarət etməyimdən çox məmnunam. Ölkələrimiz və xalqlarımız uzun əsrlərboyu mehriban qonşuluq və dostluq şəraitində yaşamışlar. Müstəqillik qazandıqdan sonra da biz bu münasibətləri strateji tərəfdaş olaraq uğurla davam etdiririk. Azərbaycan ilə Gürcüstan arasında yüksək siyasi dialoq mütəmadi qarşılıqlı səfərlərlə müşayiət olunur. Mən keçən ilin fevral ayında Sizin Azərbaycana rəsmi səfəriniz, həmçinin həmin ilin may ayında Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli Sammitində iştirak etmək üçün mənim Gürcüstana səfərim zamanı keçirdiyimiz görüşləri, apardığımız fikir mübadiləsini xoş təəssüratlarla xatırlayıram. Hesab edirəm ki, yüksək səviyyəli səfərlər gündəlikdə olan məsələlərin müzakirəsi və həlli üçün faydalıdır.

Bu gün də biz ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrimizin bir çox aspektlərini nəzərdən keçirdik. Əminəm ki, keçirdiyimiz görüşlər və apardığımız müzakirələr, həmçinin imzaladığımız Birgə Bəyannamə əməkdaşlığımızın inkişafına və genişlənməsinə töhfə verəcəkdir. Bizim siyasi, iqtisadi, enerji, nəqliyyat, sərmayə qoyuluşu, humanitar və digər sahələrdə uğurlu əməkdaşlığımızın gözəl nailiyyətləri var. Amma hesab edirəm ki, iqtisadi əlaqələrimizi daha da genişləndirmək, ticarət dövriyyəsini daha da artırmaq üçün potensial böyükdür.

Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından və Gürcüstanda əsas investorlardan biridir. Azərbaycan şirkətləri Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkətlər sırasında yer alır. Birgə həyata keçirdiyimiz irimiqyaslı enerji, nəqliyyat layihələri, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, «Cənub Qaz Dəhlizi», Bakı–Tbilisi–Qars ölkələrimizin nəinki regionda, hətta dünyada əhəmiyyətini və nüfuzunu artırır. Bu layihələr regionun inkişafına xidmət etməklə yanaşı, tarixi İpək yolunun bərpasına mühüm töhfədir. Azərbaycan öz tərəfdaşları ilə birgə Avropanın enerji daşıyıcılarına olan tələbatının ödənilməsində mühüm rol oynayır. Biz artıq etibarlı tərəfdaş olduğumuzu sübut etmişik, birgə səylərimizlə həyata keçirdiyimiz neft-qaz və nəqliyyat infrastrukturunun fasiləsiz, davamlı və təhlükəsiz fəaliyyətinin təmin edilməsi isə bütün tərəflər üçün mühüm əhəmiyyət kəsb edir.

Humanitar sahədə də münasibətlərimiz uğurla davam etməkdədir. Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər bu sahədə əlaqələrin inkişafında körpü rolunu oynayır. Bu baxımdan onların vətəndaşı olduqları ölkənin ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması xalqlarımız və ölkələrimiz arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsi üçün çox əhəmiyyətlidir.

Ölkələrimiz BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlarda qarşılıqlı dəstəyə əsaslanan çoxtərəfli əməkdaşlığımızın davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır.

Məlum olduğu kimi, regionun inkişafı üçün ən böyük təhlükə mənbəyi həll olunmamış münaqişələrdir. Azərbaycan 20 ildən çoxdur ki, Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır və bunun nəticəsində ərazilərimizin 20 faizi – tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafdakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Beynəlxalq təşkilatlar münaqişə ilə bağlı öz mövqelərini bildirmişlər. BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş

ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılması ilə bağlı 4 qətnaməsi, ATƏT, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Lakin işğalçı Ermənistan beynəlxalq hüquq normalarına məhəl qoymur, beynəlxalq təşkilatların qərarlarına riayət etmir. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun həll olunmalıdır.

Hörmətli cənab Prezident, Gürcüstana səfər etməyimdən məmnun olduğumu bir daha bildirir, qardaş Gürcüstan xalqına yeni uğurlar arzulayıram.

# GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Tbilisi*

*6 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 6-da Gürcüstan Respublikasının Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olmuşdur.*

*Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimizin uğurla inkişaf etdiyi bildirildi. Energetika, infrastruktur, nəqliyyat və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Gürcüstanın Baş naziri ölkəmizdə parlament seçkilərinin yüksək səviyyədə keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Tbilisi*

*6 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin təkbətək görüş başa çatdıqdan sonra noyabrın 6-da nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

İrakli Qaribaşvili ölkələrimiz arasında qardaşlıq münasibətlərinin mövcud olduğunu bildirdi.

Yenidən Gürcüstanda olmaqdan məmnunluğunu ifadə edən dövlətimizin başçısı İlham Əliyev Baş nazir İrakli Qaribaşvili ilə Bakıdakı və indiki görüşlərinin çox yaxşı göstərici olduğunu vurğuladı. Əlaqələrimizin inkişafı üçün gözəl imkanların mövcud olduğunu deyən prezident İlham Əliyev birgə həyata keçirilən layihələrin münasibətlərimizin daha da genişlənməsinə təkan verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə energetika, elektroenergetika, nəqliyyat, dəmir yolu, infrastruktur, humanitar, qarşılıqlı sərmayə qoyuluşu sahələrində əməkdaşlığın inkişafı məsələləri müzakirə edildi.

Söhbət zamanı Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi ilə də bağlı fikir mübadiləsi aparıldı.

Sonra dövlətimizin başçısı Tbilisi şəhərinin mənzərəsini seyr etdi.

## GÜRCÜSTAN RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ BİDZİNA İVANİŞVİLİ İLƏ GÖRÜŞ

*Tbilisi*

*6 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Tbilisidə Gürcüstan Respublikasının sabiq Baş naziri Bidzina İvanişvili ilə görüşmüşdür.*

## GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ DAVİD USUPAŞVİLİ İLƏ GÖRÜŞ

*Tbilisi*

*6 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Tbilisidə Gürcüstan parlamentinin Sədri David Usupaşvili ilə görüşmüşdür.*

*David Usupaşvili Azərbaycan Prezidentini parlamentin binası önündə qarşıladı. Gürcüstan parlamentinin deputatları prezident İlham Əliyevə təqdim olundu. Dövlətimizin başçısı və Gürcüstan parlamentinin Sədri xatirə şəkli çəkdirdilər.*

*Görüşdə David Usupaşvili Gürcüstana rəsmi səfəri çərçivəsində parlamentə gəldiyinə görə deputatlar adından Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirdi. David Usupaşvili prezident İlham Əliyevin təkcə regionun deyil, dünyanın nüfuzlu şəxsiyyətlərindən biri kimi, Gürcüstana rəsmi səfərindən şərəf duyduqlarını vurğuladı.*

*Gürcüstan parlamentinin Sədri ölkələrimiz arasında dostluq əlaqələrinin çox intensiv və güclü olmasına baxmayaraq, bu münasibətləri daha da möhkəmləndirmək baxımından Azərbaycanın dövlət başçısının bu səfərinin mühüm önəm daşıdığını söylədi. David Usupaşvili prezident İlham Əliyevi rəhbərlik etdiyi partiyanın parlament seçkilərində qələbəsi münasibətilə Gürcüstan parlamenti adından təbrik etdi və yeni tərkibdə Azərbaycan parlamenti ilə münasibətləri davam etdirəcəklərini bildirdi.*

*Prezident İlham Əliyev Gürcüstan parlamentinin Sədri ilə Bakıda keçirdiyi görüşləri xatırlatdı. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin ən yüksək səviyyədə olmasını prezidentlər tərəfindən imzalanan Birgə Bəyannamənin bir daha təsdiq etdiyini vurğuladı. «Bizim əlaqələrimizin təməlində xalqlarımızın bir-birinə*

*olan hörməti, rəğbəti dayanır» – deyən prezident İlham Əliyev siyasi, iqtisadi, sosial və humanitar sahələrdə Gürcüstan ilə Azərbaycanın hazırkı əməkdaşlığının bir çox ölkələr üçün nümunə ola biləcəyini söylədi, dostluq münasibətlərinin dərinləşməsində parlamentlərarası əlaqələrin önəmindən danışdı.*

*Sonra dövlətimizin başçısı Gürcüstan parlamentinin Xatirə kitabına ürək sözlərini yazdı.*

# GÜRCÜSTAN PRAVOSLAV KİLSƏSİNİN PATRİARXI II İLİYA İLƏ GÖRÜŞ

*Tbilisi*

*6 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Tbilisidə Gürcüstan pravoslav kilsəsinin patriarxı II İliya ilə görüşmüşdür.*

*Azərbaycan Prezidentini səmimiyyətlə salamlayan Gürcüstan pravoslav kilsəsinin patriarxı II İliya ulu öndər Heydər Əliyev və prezident İlham Əliyev ilə şəxsi münasibətlərini yüksək dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər nümunə xarakteri daşıyır. Hər iki dövlət Qafqazda sülhü və əmin-amanlığı qorumaq üçün səylərini əsirgəmir. Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Gürcüstan pravoslav kilsəsinin patriarxı bundan sonra da xalqlarımızın sülh və firavanlıq şəraitində yaşayacaqlarını bildirdi. II İliya ölkələrimizin dini sahədə münasibətlərinin də çox yaxşı olduğunu dedi.*

*Gürcüstanda 300-dən çox məscidin fəaliyyət göstərdiyini deyən pravoslav kilsəsinin patriarxı Azərbaycan prezidenti İlham Əliyevə ölkəmizdə yaşayan gürcülərə göstərilən yüksək diqqətə görə minnətdarlığını bildirdi. O, Azərbaycanda Gürcüstanın yepiskopunun olması və bir sıra digər dini məsələlərlə bağlı fikirlərini çatdırdı. Gürcüstana Azərbaycandan təbii qazın verilməsi ilə bağlı prezident İlham Əliyevə təşəkkürünü çatdıran patriarx II İliya ölkələrimiz arasında bundan sonra da münasibətlərin yüksək səviyyədə olacağına inamını ifadə etdi.*

*Gürcüstan pravoslav kilsəsinin patriarxı ilə Bakıdakı səmimi görüşlərini xatırladan prezident İlham Əliyev Azərbaycanda II İliyaya böyük hörmət bəsləndiyini vurğuladı. Dövlətimizin başçısı*

*Gürcüstanın dini liderinin fəaliyyətinin hər zaman regionda sülhün bərqərar olmasına, bütün münaqişələrin həllinə, dünyadakı dinlərarası münasibətlərdə qarşılıqlı anlaşmaya, qarşılıqlı hörmətə və sülhə əsaslandığını dedi. Prezident İlham Əliyev çoxmillətli və çoxkonfessiyalı Azərbaycan və Gürcüstanın digər ölkələr üçün ümumbəşəri dəyərlərə sadiqlik nümunəsi olduqlarını xüsusi vurğuladı. Marneulidə Azərbaycan icması ilə görüşünə toxunan dövlətimizin başçısı ölkəmizdə yaşayan gürcülərə də yüksək münasibət göstərildiyini bildirdi. Müstəqillik dövründə ölkələrimiz arasında strateji münasibətlərin formalaşdığını deyən prezident İlham Əliyev bu baxımdan Gürcüstana rəsmi səfəri zamanı dövlət başçılarının imzaladıqları Birgə Bəyannamənin əhəmiyyətini xüsusi qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünün bərpasının hər iki ölkənin dinamik inkişafı üçün zəruriliyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq qurumlar çərçivəsində fəal qarşılıqlı fəaliyyətinin mövcud olduğunu bildirdi.*

*SOCAR-ın Gürcüstandakı fəaliyyətini yüksək dəyərləndirən prezident İlham Əliyev hər iki ölkənin uğurlu gələcəyinin yalnız sıx qarşılıqlı əməkdaşlıq sayəsində mümkün olduğunu dedi. Dövlətimizin başçısı Gürcüstana rəsmi səfərinin iki ölkə arasında əməkdaşlıq və qardaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini vurğuladı.*

*Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.*

## MARNEULİDƏ SOYUDUCU ANBAR KOMPLEKSİ İLƏ TANIŞLIQ

*6 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvili noyabrın 6-da Marneuli rayonunda fəaliyyət göstərən Soyuducu Anbar Kompleksi ilə tanış olmuşlar.*

*Dövlət başçılarına məlumat verildi ki, «Aqroinvest 146» Məhdud Məsuliyyətli Cəmiyyətin Soyuducu Anbar Kompleksi bu il aprelin 18-də azərbaycanlıların yığcam yaşadıqları Marneuli rayonunun Candar qəsəbəsində istifadəyə verilib. 2 hektar ərazini əhatə edən kompleksə ofis və yardımçı binalar, 12 soyuducu və 1 saxlama kamerası, transformator və təhlükəsizlik binaları, çəki məntəqəsi və su anbarı daxildir. Bu müəssisə Gürcüstanda fəaliyyət göstərən ən böyük Soyuducu Anbar Kompleksidir.*

*Soyuducu kameraların sahəsi 4250 kvadratmetrdir. Ət və balıq məhsulları üçün nəzərdə tutulan 2 kameranın -5°C-dən – 20°C-dək soyutma imkanı var. Digər 10 kamerada isə meyvə-tərəvəz və çərəz saxlanılacaq. Soyuducu Anbar Kompleksi 2100 ton müxtəlif-çeşidli kənd təsərrüfatı məhsulları və 1000 ton çərəzin saxlanılması üçün nəzərdə tutulub.*

*Kvemo-Kartli regionuna xidmət göstərən kompleks Azərbaycanın Gürcüstanda həyata keçirdiyi investisiya layihələri çərçivəsində istifadəyə verilib.*

## MARNEULİDƏ «ÇAY EVİ» TƏDRİS MƏRKƏZİ İLƏ TANIŞLIQ

*6 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvili noyabrın 6-da Marneuli rayonunda «Çay evi» Tədris Mərkəzi ilə tanış olmuşlar.*

*Burada müxtəlif yaradıcılıq kollektivlərinin və dərnəklərin fəaliyyəti ilə tanış olan dövlət başçılarına məlumat verildi ki, 2012-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Gürcüstan nümayəndəliyinin dəstəyi ilə Marneuli rayonunda istifadəyə verilən «Çay evi» Tədris Mərkəzinin binası müasir memarlıq üslubunda inşa olunub. Tədris mərkəzində il ərzində Marneuli, Bolnisi, Dmanisi və Qardabani rayonlarından olan gənclərə gürcü, ingilis və fransız dilləri pulsuz tədris edilir. Burada, həmçinin şahmat kursları, rəqs dərnəyi və xalçaçılıq kimi qədim milli sənətimizin sirləri öyrədilir.*

*Qeyd edildi ki, layihə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Gürcüstan nümayəndəliyi və Marneuli Gənclər Mərkəzi arasında bağlanmış Memoranduma əsasən həyata keçirilib. 3 mərtəbədən ibarət olan mərkəzin ümumi sahəsi 1300 kvadratmetrə yaxındır. Burada Azərbaycan mətbəxinin təbliğinə də mühüm önəm verilir. Mərkəzdəki «Muğam» restoranında milli mətbəximizin təamları təqdim edilir.*

*Bildirildi ki, «Çay evi» memarlıq layihəsi 2013-cü ildə Londonda keçirilən və Avropanın nüfuzlu beynəlxalq qurumu olan «European Property Awards»ın təsis etdiyi «Sosial memarlıq» nominasiyasında qalib gələrək, birinci yerə layiq görülüb.*

*«Çay evi» Tədris Mərkəzi ilə tanışlıqdan sonra prezident İlham Əliyev və prezident Giorgi Marqvelaşvili Gürcüstanda yaşayan Azərbaycan icmasının nümayəndələri ilə görüşdülər.*

*Dövlət başçıları görüşdə çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, mən dünən Gürcüstana rəsmi səfərə gəlmişəm. Deyə bilərəm ki, səfər çox uğurlu keçir. Dünən apardığım danışıqlar bir daha göstərir ki, Gürcüstan–Azərbaycan əlaqələri yüksək sürətlə inkişaf edir.

Dünən biz Birgə Bəyannamə imzaladıq. Bəyannamədə əməkdaşlığımızın bütün aspektləri öz əksini tapıb. Bizim əməkdaşlığımızın böyük tarixi və gözəl gələcəyi var. Bu gün Gürcüstan və Azərbaycan – iki dost, qardaş ölkə birgə fəaliyyət göstərir, regionda mühüm layihələr icra edir. Bizim əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır və biz bundan sonra da əlaqələrin inkişafı üçün əlimizdən gələni edəcəyik.

Bu gün səfər çərçivəsində mən Marneuliyə sizinlə görüşə gəlmişəm. Mən əminəm ki, sizin Gürcüstanda fəaliyyətiniz də Gürcüstan–Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm rol oynayacaqdır. Çünki Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər bizim əməkdaşlığımızı daha da möhkəmləndirirlər. Həm Gürcüstan, həm Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bizim ölkələrimizdə bütün xalqlar sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşayır və bu bizim böyük uğurumuzdur, böyük nailiyyətimizdir. Biz çox istəyirik ki, həm Azərbaycanda yaşayan gürcülər, həm Gürcüstanda yaşayan azərbaycanlılar bundan sonra da ölkələrin ictimai, siyasi, iqtisadi həyatında öz rolunu oynasınlar, həm öz ölkələrinin dəyərli vətəndaşları kimi töhfə versinlər, eyni zamanda, əlbəttə, öz tarixi köklərini də unutmasınlar. Mən istəyirəm ki, Gürcüstanda yaşayan azərbaycanlılar rahat yaşasınlar. Onların iş yerləri ilə təmin edilməsi istiqamətində daha da ciddi addımlar atılsın, onlar öz dəyərlərini yaxşı hiss etsinlər və Gürcüstanın dəyərli vətəndaşları kimi, bu ölkənin ümumi inkişafına öz töhfələrini versinlər.

Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə həmişə dəstək olmuş və Gürcüstanın yaxşı vətəndaşları olmuşlar. Belə də olmalıdır, çünki siz bu torpaqlarda əsrlərboyu yaşamısınız.

Bu gün xalqlarımızı birləşdirən həm tarixi əlaqələr, həm çoxəsrlik dostluq, qardaşlıq münasibətləri, eyni zamanda, bugünkü Gürcüstan–Azərbaycan əlaqələri, əlbəttə ki, sizin də həyatınızda müsbət təsirini göstərir.

Mən çox şadam ki, bu gözəl mərkəzdə uşaqlar müxtəlif dərnəklərdə təhsil alırlar. Biz burada həm azərbaycanlı, həm də gürcü uşaqlarını görürük. Onlar birlikdə bu işlərlə məşğul olurlar. Bu da birliyi, dostluğu möhkəmləndirir. Əlbəttə, bu «Çay evi» Mərkəzinin çox böyük funksional tərəfi var. Xüsusilə məni sevindirən odur ki, burada gürcü dili kursları təşkil edilibdir. Mən bunu dəfələrlə demişəm və bir daha deyirəm – biz istəyirik ki, Gürcüstanda yaşayan bütün azərbaycanlılar gürcü dilini mükəmməl bilsinlər, öz ana dili kimi bilsinlər. Ancaq o təqdirdə siz Gürcüstanda layiqli yer tuta bilərsiniz. Yəni azərbaycanlılar Gürcüstanda təcrid edilmiş vəziyyətdə yaşamamalıdırlar, yaşaya bilməzlər. Siz bu dövlətin dəyərli vətəndaşlarısınız, öz əməyinizlə Gürcüstanın inkişafına töhfə verirsiniz. Gürcü dilini bilmək birinci şərtdir və çox yaxşı ki, bu kurslar təşkil edilib. Burada həm uşaqlar və bildiyimə görə, digər kateqoriyadan olan insanlar da dərs alırlar. Bu çox vacibdir və əlbəttə ki, siz Azərbaycan dilini, öz tarixi köklərinizi heç vaxt unutmamalısınız. Hər bir millət öz tarixi-mədəni kökləri əsasında inkişaf edir. Azərbaycan dövləti bundan sonra da əlindən gələni edəcək ki, sizin həm rahat yaşamanız təmin edilsin, eyni zamanda, siz tarixi kökləri daim uca tutasınız.

Bu gün Azərbaycan sürətlə inkişaf edir, Azərbaycanın imkanları genişlənir və mən həm dövlət şirkətlərinə, həm özəl sektorun nümayəndələrinə daim tövsiyə edirəm ki, burada yaşayan azərbaycanlılar üçün daha da yaxşı şərait yaratsınlar, Gürcüstana investisiya qoysunlar, iş yerləri, logistika mərkəzləri, ictimai yerlər yaradılsın və şadam ki, bu gün biz bunu görürük.

Mən axırıncı dəfə Marneulidə 2004-cü ildə olmuşam, vətəndaşlarla görüşmüşəm və indi də gəlmişəm. Mən, bax, bu yerləri xatırlamıram, çünki o vaxt yox idi və burada – girişdə, foyedəki şəkillər göstərir ki, əvvəlki «Çay evi»nin vəziyyəti necə idi, indi necədir. Bu, böyük inkişafdır. Eyni zamanda, bu gün biz

Soyuducu Anbar Kompleksinin də işi ilə tanış olacağıq. Bu da kənd təsərrüfatı ilə məşğul olanlar üçün əvəzolunmaz bir infrastruktur obyektidir, iqtisadi inkişaf üçün çox lazımdır. Yəni əminəm ki, bundan sonra həm SOCAR, həm Azərbaycanın digər şirkətləri, özəl qurumların nümayəndələri Gürcüstana investisiya qoyacaqlar və burada yaşayan azərbaycanlılar, gürcülər üçün yeni imkanlar yaradacaqlar.

Mən öz həmkarıma minnətdarlığımı bildirmək istəyirəm ki, o sizə daim diqqət göstərir. Bilirəm ki, cənab Prezident sizinlə ən azı ildə bir dəfə görüşür, sizə dəstək olur. Bu çox önəmlidir, siz Gürcüstan dövlətinin, Gürcüstan Prezidentinin dəstəyini, diqqətini hiss edirsiniz və buna görə mən öz həmkarıma minnətdaram. Bir daha demək istəyirəm ki, dünən keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi Gürcüstan–Azərbaycan qardaşlığını daha da möhkəmləndirir. Əminəm, bu sizin üçün də çox önəmlidir və biz gələcəkdə də çalışacağıq ki, siz daim özünüzü rahat hiss edəsiniz, yaxşı yaşayasınız, dolanışıq da yaxşı olsun, iş yerləri də olsun, həm Azərbaycanı sevəsiniz, həm də Gürcüstanı. Sizi bir daha salamlayıram.

## Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin çıxışı

Mən Sizi və Marneuli ictimaiyyətinin nümayəndələrini salamlayıram. Mən şadam ki, bu gün cənab İlham Əliyev ilə birgə burada sizinlə – Gürcüstanın azərbaycanlı vətəndaşları ilə görüşmək imkanı əldə etmişik. Bu ictimaiyyət bizim vətəndaşlar kimi, dövlətimizin tərkib hissəsidir. Bu rayonun sakinlərinə, burada yaşayan azərbaycanlılara Gürcüstanın inkişafına və Azərbaycan–Gürcüstan əlaqələrinin genişlənməsinə verdikləri töhfələrə görə minnətdarlığımı bildirirəm.

Ötən gün cənab Əliyev ilə bizim mehriban dostluq əlaqələrimizi daha da inkişaf etdirmək üçün müzakirələr apardıq. Azərbaycan–Gürcüstan əlaqələri nümunəvidir. Bu nümunə hər iki ölkəni daha da möhkəmləndirəcək.

Biz buraya gələndə mərhum prezidentlər Heydər Əliyevin və Eduard Şevardnadzenin uzaqgörənliklə bu dostluğa verdikləri önəmi xatırladıq. Onlar bizim əlaqələrimizin strateji istiqamətini müəyyən etmişlər. Bu gün bir daha əmin olduq ki, 20–25 il əvvəl onların qoyduqları bünövrə bizim gələcəyimizin əsas yolunu müəyyən edib.

Mən çox sevinirəm ki, bu gün sizinlə görüşə gəlmişəm. Əminliklə deyə bilərəm ki, bütün Gürcüstan xalqı İlham Əliyevə məhəbbətlə yanaşır. Bilirəm ki, siz də İlham Əliyevi ikiqat istəyirsiniz. Mən sevinirəm ki, rayonda böyük inkişaf var. Bu yeniliklər sizin və Azərbaycanın bölgəyə, iqtisadiyyata dəstəyi vasitəsilə yaranıb. Mən qeyd etmək istəyirəm ki, bu dəstək təkcə Marneulidə deyil, hər yerdə nəzərə çarpır. Gürcüstanın iqtisadiyyatının gücləndirilməsində Azərbaycan ilə tərəfdaşlıq mühüm rol oynayır. Bu dəstək sosial layihələrin reallaşdırılmasında da nəzərə çarpır. Bu gün bütün bağçalarda istilik sistemi mövcuddur. Mən deyərdim ki, bir çox kilsələr və digər müəssisələr istiliklə təmin olunub. Bundan başqa, bir çox mədəni, idman və elmi layihələrə kömək göstərilir. Bunu görməmək mümkün deyil. Bütün bunları bizim dost Azərbaycan dost Gürcüstan üçün edir. Mən iftixar hissi ilə deyə bilərəm ki, bölgədə həyata keçirilən bütün layihələr öz bəhrəsini verir.

Bizim xalqlarımız və dövlətlərimiz daha çox inkişafa impuls verən layihələrin reallaşdırılmasını istəyir. Bu layihələrin reallaşmasına İlham Əliyevin istəyi təkan verir. İlham Əliyev çox ürəyiaçıq insandır və mən prezident kimi, Azərbaycana səfər edəndə məni çox mehribanlıqla qəbul etdi. Mən də çalışıram ki, cənab İlham Əliyevin Tbilisiyə səfəri zamanı az da olsa, sizdə gördüyüm qonaqpərvərliyin qarşılığını verə bilim.

Bu yaxınlarda Azərbaycanda seçkilər keçirildi. Cənab Prezident bu siyasi prosesdən dərhal sonra vaxt taparaq Gürcüstana səfər edib. Bu, gözəl jestdir. Ona bu jestinə görə təşəkkürümü bildirirəm. Bunu bütün dünya görür və bütün dünya başa düşür ki, Azərbaycan–Gürcüstan əlaqələri necə böyük əhəmiyyət kəsb edir. Çox şadam ki, bizim istəkli qonağımız İlham Əliyev ilə buradayıq. Hər zaman sizin xidmətinizdə durmağa hazırıq.

***

**M a h i r  D ə r z i y e v** *(Gürcüstan parlamentinin deputatı):* Cənab Prezident, Sizin Gürcüstana səfəriniz bütün gürcü ictimaiyyətinin diqqət mərkəzindədir. Gürcüstanda yaşayan minlərlə soydaşımız neçə gündür Sizin bu səfərinizi bir bayram kimi gözləyir. Mən tam məsuliyyətlə deyirəm ki, bu gün hər bir evdə bayramdır. Mən bütün soydaşlarımızın sevgilərini, salamlarını Sizə çatdırmaq istəyirəm.

Təbii ki, mən bir deputat kimi, həm də Azərbaycan ilə Gürcüstan arasında olan mövcud əlaqələrin yüksək səviyyəsini dərin məmnunluq hissi ilə ifadə etmək istəyirəm. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu münasibətlər Sizin prezidentliyiniz dövründə bütün istiqamətlərdə – həm iqtisadi, həm siyasi, həm də humanitar sahələrdə yüksələn xətlə inkişaf edir. Mən əminəm ki, Sizin Gürcüstana bu səfəriniz də münasibətlərin inkişafına yeni töhfə verəcək.

Azərbaycanın haqq işi Gürcüstanda həmişə müdafiə olunub. Biz çox məmnunuq ki, beynəlxalq aləmdə, bütün beynəlxalq qurumlarda Gürcüstan və Azərbaycan bir-birinin haqq işini dəstəkləyir. Azərbaycan ilə Gürcüstan arasında olan bu əlaqələr bu gün nəinki region çərçivəsindən çıxır, hətta mən deyərdim ki, artıq dünya əhəmiyyəti kəsb edir. Bu əlaqələrin möhkəmlənməsi, daha da inkişaf etməsi bütün gürcü cəmiyyətinin arzusudur.

*Gürcüstandakı Azərbaycan icmasının həmişə Azərbaycan dövlətinin qayğısını öz gündəlik həyatında hiss etdiyini deyən Mahir Dərziyev əsrlərboyu bu torpaqda yaşayan soydaşlarımızın Azərbaycana sıx bağlı olmaqla yanaşı, Gürcüstan dövlətinə və dövlətçiliyinə sadiqlik nümayiş etdirdiklərini bildirdi. Gürcüstan parlamentinin üzvü prezident İlham Əliyevin bu bölgəyə əvvəlki səfəri zamanı qaldırılan məsələlərin həlli üçün göstərdiyi səylərin müsbət nəticələrindən danışdı:*

– Fürsətdən istifadə edərək, cənab Prezident, Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbəyə görə bütün soydaşlarımız adından Sizi təbrik etmək istəyirəm. Bu qələbə Azərbaycan xalqının

iradəsinin ifadəsi, Sizin uğurlu daxili və xarici siyasətinizə göstərdiyi etimadın nəticəsidir.

Bizim Azərbaycan sevgimiz, xaricdə yaşayan azərbaycanlıların Azərbaycan sevgisi, istəyi təbiidir, başadüşüləndir. Biz də Gürcüstanda yaşayan azərbaycanlılar olaraq, Azərbaycan dövlətinə çiçəklənmə, tərəqqi arzu edirik. Arzu edirik ki, iki dost, qardaş ölkələrimiz arasındakı münasibətlər daha geniş, daha yüksək səviyyəyə qalxsın. Çox sağ olun. Bir daha xoş gəlmisiniz!

**F a z i l H ə s ə n o v** *(Marneulidə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin sədri):* Cənab Prezident, Gürcüstana xoş gəlmisiniz! Gürcüstan Prezidentinə də «Xoş gəlmisiniz!» – deyirik. Bizim icma ilə görüşə vaxt ayırdığınıza görə Sizə minnətdarıq.

2004-cü ildə Marneuliyə səfəriniz zamanı biz müəyyən təkliflərlə çıxış etdik. Həmin dövrə nəzər yetirsək görərik ki, Gürcüstan–Azərbaycan münasibətlərində yeni mərhələnin təməli qoyulub. Azərbaycan investisiyası daha inamla Gürcüstana gəlib çıxıbdır. Gürcüstanın hər bir yerində iş yerləri açılmağa başlayıb. Bundan bizim soydaşlarımız da yararlana biliblər. Bu gün bizim iştirak etdiyimiz bu görüş də, bu «Çay evi»nin açılması da gənclərimizin inkişafı istiqamətində atılan bir addımdır. Bütün gənclərimiz bundan bəhrələnirlər. İdman Kompleksinin açılışı Sizin gəlişinizdən sonra oldu. Eyni zamanda, bu gün Siz özünüz də dediyiniz kimi, Soyuducu Anbar Kompleksinin açılması bizim bölgəyə böyük hədiyyədir.

Burada bizim məktəb direktorları da əyləşiblər. Ötən müddət ərzində SOCAR-ın, xüsusilə Heydər Əliyev Fondunun dəstəyi ilə bir çox məktəblərimiz təmir edilib. Bəzi məktəblərimiz isə yenidən qurulub. Əminik ki, gələcəkdə bu münasibətlərin fonunda belə sosial layihələrimiz davam etdiriləcək.

Cənab Prezident, bir daha bizim bu gözəl ölkəmizə xoş gəlmisiniz! Yeni Azərbaycan Partiyasının parlament seçkilərindəki qələbəsi münasibətilə Sizi və bütün Azərbaycan xalqını təbrik edirik. Xüsusi vurğulamaq istəyirəm ki, Gürcüstan azərbaycanlıları həm öz Vətəni Gürcüstan, həm də Azərbaycan ilə nəfəs alırlar. Üstəlik arzumuz ondan ibarətdir ki, Gürcüstanda və Azərbaycanda əmin-

amanlıq olsun, insanlarımız xoşbəxt, sülh içində yaşasınlar. İki qardaş ölkə arasında dünyada örnək ola biləcək bu münasibət Cənubi Qafqazın gələcək inkişafına böyük təkan versin.

*İş adamı İspəndiyar Məmmədov çıxış edərək, Gürcüstana səfəri çərçivəsində azərbaycanlıların kompakt yaşadığı Borçalı bölgəsinə gəldiyinə görə Azərbaycan Prezidentinə sakinlərin dərin minnətdarlığını çatdırdı.*

**İspəndiyar Məmmədov:** Ulu öndər Heydər Əliyev hər dəfə Gürcüstana rəsmi səfərə gələndə bizlərin həmişə onun diqqət mərkəzində olduğunu vurğulayırdı və bunu əməli işində də təsdiq edirdi. Heydər Əliyev məktəbinin davamçısı kimi, bu missiyanı layiqincə həyata keçirdiyinizə görə Sizə bir daha minnətdarıq.

Bu günlərdə Azərbaycanda növbəti parlament seçkiləri keçirildi. Seçkilərin demokratik prinsiplərə uyğun keçirilməsi Azərbaycanın dünyəvi dövlət olduğunu bir daha təsdiq etdi. Şübhəsiz ki, bu hadisə bizi – Gürcüstan azərbaycanlılarını ikiqat sevindirir. O ki qaldı Gürcüstanla bağlı məsələlərə, bütün kəndlərə təbii qazın verilməsi, SOCAR-ın göstərdiyi fəaliyyət və kənd təsərrüfatı məhsullarının saxlanılması üçün tikilmiş böyük bir Soyuducu Anbar Kompleksi xalqın maddi və sosial vəziyyətinin inkişafına xidmət edir. Ona görə də Sizə və Azərbaycan dövlətinə minnətdarıq. Diqqətinizə görə çox sağ olun.

**Heydər Musayev** *(sahibkar):* Azərbaycan prezidenti İlham Əliyevi Marneuli torpağında və Gürcüstanda salamlayıram. Mən bizim prezidentimiz Giorgi Marqvelaşvilini də salamlayıram. Hər ikiniz Marneuliyə xoş gəlmisiniz! Sizin buraya gəlişiniz bizə həmişə böyük sevinc bəxş edir.

Mən yaşadığım kənddə və bizim bölgədə bütün sosial layihələr yüksək səviyyədə həyata keçirilib. Hər bir evə içməli su xətti çəkilib, kəndimizin yolları asfaltlanıb, küçələr işıqlandırılıb. Mən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə dərin minnətdarlığımı bildirmək istəyirəm ki, demək olar, bütün kəndlərimiz yüksəkkeyfiyyətli qazla təmin olunub. Heç bir problemimiz yoxdur. Biz yalnız gələcək inkişafımız üçün çalışmalıyıq. Gür-

cüstanın və Azərbaycanın strateji tərəfdaş olması biz sadə insanları çox sevindirir. Ona görə bir daha Sizə minnətdarlığımızı bildirmək istəyirəm. Bir daha Gürcüstan torpağına «Xoş gəlmisiniz!» – deyirəm.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, əziz dostlar! Burada qeyd edildiyi kimi, keçən dəfə mən Marneulidə olanda yerli sakinlər bir neçə məsələ qaldırdılar və mən də Bakıya qayıdandan sonra müvafiq göstərişlər, tapşırıqlar verdim ki, bu məsələlər tezliklə öz həllini tapsın. Şadam ki, son illər ərzində bir neçə mühüm məsələ öz həllini tapıb.

Əlbəttə, 2004-cü ildə Azərbaycanın imkanları bugünkü kimi deyildi. Bizim o qədər böyük maliyyə imkanlarımız da yox idi. Ancaq imkan daxilində çalışırdıq ki, burada – Gürcüstanda yaşayan azərbaycanlılar da Azərbaycanın inkişafından bəhrələnsinlər.

Qaldırılan məsələlərin bir çoxu artıq bu gün öz həllini tapıb. Əlbəttə, gələcəkdə daha da böyük işlər görülməlidir. Amma ilk növbədə, göstəriş verilmişdir ki, infrastruktur layihələri – qaz, içməli su təminatı öz həllini tapsın, kənd yolları abadlaşdırılsın. Bildiyiniz kimi, son illər ərzində SOCAR nəinki azərbaycanlıların yaşadıqları bölgələrdə, ümumiyyətlə, Gürcüstanın müxtəlif yerlərində böyük qazlaşdırma proqramlarını icra edir və böyük vəsait, investisiya qoyur ki, Gürcüstanda qazlaşdırma maksimum dərəcədə sürətlə getsin. Keçən dəfə mən burada olanda Dövlət Neft Şirkətinin bir dənə də olsun yanacaqdoldurma məntəqəsi yox idi. Mənə verilən məlumata görə, bu gün 100-dən çox yanacaqdoldurma məntəqəsi vardır. SOCAR Gürcüstanın Qara dəniz limanında böyük terminal əldə edibdir, energetika layihələrinə investisiya qoyubdur. Dünən müzakirə etdiyimiz layihələr arasında elektroenergetika layihələri də var. Elektrik xətlərinin birləşməsi, «Cənub Qaz Dəhlizi»nin inşası – bütün bunlar yeni iş yerlərinin açılmasına gətirib çıxaracaq.

Təhsillə bağlı məsələlər xüsusi əhəmiyyət daşıyır. Minnətdaram ki, siz bu məsələləri qaldırırsınız. Mən şəxsən istəyirəm ki, Gürcüstanda bir dənə də təmirsiz Azərbaycan məktəbi olmasın. Düzdür, hələ ki, Azərbaycanda da təmirsiz, qəzalı vəziyyətdə olan məktəblər var. Son 10 ildə Azərbaycanda 3000-dən çox məktəb tikilib və təmir

edilib. Azərbaycanda təxminən 5000 məktəbin olduğunu nəzərə alsaq, görərsiniz ki, nə qədər böyük işlər görülüb. Amma yenə də mən bu gün Azərbaycanın müxtəlif bölgələrində olarkən vətəndaşlar məsələ qaldırırlar ki, o məktəb qəzalı vəziyyətdədir, bu məktəb təmirsizdir. Yəni bu problem bizdə də, sizdə də var. Amma biz çalışacağıq ki, bu məsələ öz həllini tapsın. Hesab edirəm ki, Dövlət Neft Şirkəti burada əsas investor kimi, öz rolunu oynayacaqdır.

Ümumiyyətlə, Dövlət Neft Şirkətinin həm Azərbaycanda, həm işlədiyi bütün ölkələrdə çox böyük sosial məsuliyyəti vardır. İndi SOCAR müxtəlif ölkələrdə fəaliyyət göstərir və o ölkələrdə, o cümlədən Gürcüstanda da məktəb, uşaq bağçalarının tikintisi, infrastruktur layihələrinin icrası ilə məşğuldur. İlk növbədə bunu Gürcüstanda etməlidir, çünki burada böyük sayda azərbaycanlı əhali yaşayır.

Təhsil Nazirliyinə də göstəriş verilmişdir ki, kitablarla, dərsliklərlə bağlı məsələlər öz həllini tapsın. Bilirəm ki, bəzi hallarda məktəblərdə müəllim qıtlığı vardır. Yəni bu məsələ də öz həllini tapmalıdır ki, uşaqlar normal şəraitdə oxusunlar, qeyd etdiyim kimi, həm Azərbaycan dilini, həm gürcü dilini mükəmməl bilsinlər.

Gələcəkdə iş yerlərinin yaradılması, kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər də görülməlidir. Əlbəttə, biz bu məsələləri Gürcüstan dövləti və hökuməti ilə məsləhətləşmələr əsasında görəcəyik. Bax, Soyuducu Anbar Kompleksinin tikintisi birinci addımdır. Şadam ki, Gürcüstan dövləti də güzəştli kreditlər ayırır və siz burada istixanalar yaradırsınız. Hesab edirəm, Azərbaycan investisiyaları hesabına bu bölgədə emal müəssisəsi də yaradıla bilər ki, siz kənd təsərrüfatı məhsullarını emal edib hazır məhsul kimi, dünya bazarlarına sata biləsiniz. Digər məsələlər, yeni iş yerlərinin yaradılması həm Gürcüstanda, həm Azərbaycanda lazımdır. Yeni iş yerləri həm bizdə yaradılır, həm sizdə. Ona görə burada mütləq birgə səylər vacibdir.

Ümumiyyətlə, dünən apardığımız danışıqlar əsnasında biz bir çox məsələləri bir daha müzakirə etdik. Amma əsas məsələ odur ki, Gürcüstan ilə Azərbaycan arasında daha sıx koordinasiya aparılmalıdır. Çünki həm təhlükəsizlik, həm inkişaf baxımından

bizim ölkələrimiz bir-birinə sıx bağlıdır. Bizim uğurlu inkişafımız Gürcüstansız mümkün deyil. Çünki Gürcüstan bizim üçün Avropaya çıxış yoludur. Əlbəttə ki, Azərbaycan nə qədər güclü olsa, Gürcüstanın da inkişafı o qədər sürətlə gedəcək. Çünki biz çox yaxın dostuq, tərəfdaşıq, birgə layihələr icra edilir. Dünən razılığa gəldik ki, nəqliyyat sahəsində həm bölgədə, həm dünyada birgə siyasət aparaq. Belə olan halda, ölkələrimizin ərazisindən yükdaşımaların həcmi bir neçə dəfə artacaq. Bu dəhliz buradan, bu bölgədən keçir. Əlbəttə ki, burada yaşayan hər bir insan bundan da faydalanacaq. Çünki yeni iş yerləri yaradılır, yeni sənaye müəssisələri yaradılacaqdır.

Əlbəttə, sosial sahəyə daha da ciddi, böyük diqqət yetirilməlidir. O ki qaldı gömrükdə, sərhəddə gediş-gəlişin asanlaşdırılması ilə bağlı məsələlərə, bu da müvafiq qaydada öz həllini tapacaq. Nazir buradadır. Siz bu məsələni dərindən araşdırın. Azərbaycan tərəfindən nə lazımdırsa ediləcək ki, burada heç bir problem olmasın. İnsanlar rahat, maneəsiz gedib-gələ bilsinlər. Onsuz da bizim ölkələrimiz arasında viza rejimi yoxdur, ola da bilməz. Ona görə bu məsələlər də öz həllini tapacaq. Ümumiyyətlə, əgər bundan başqa hansısa məsələ varsa, xahiş edirəm onu da mənə çatdırın. Biz bütün məsələləri imkan daxilində həll edəcəyik.

Bir xahişim də var. Bu gün burada bu bölgənin seçilmiş, tanınmış, böyük hörmətə malik insanları əyləşib. Ancaq Gürcüstanda yaşayan azərbaycanlıların sayı on minlərlə, yüz minlərlə ölçülür. Xahiş edirəm, Gürcüstanda yaşayan bütün soydaşlarımıza mənim səmimi salamlarımı çatdırın. Bilin ki, mən onlar haqqında daim düşünürəm, onlar mənim üçün çox əzizdir, doğmadır. Ən böyük arzum ondan ibarətdir ki, onlar bu torpaqda rahat, firavan və rifah içində yaşasınlar. Sağ olun.

*Sonra çıxış edən Gürcüstan prezidenti Giorgi Marqvelaşvili bölgədə gürcü dilinin öyrənilməsi layihəsinin həyata keçirilməsi prosesindən danışdı və bildirdi ki, bu amil azərbaycanlı əhalinin ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal mövqe tutmaları üçün əsas şərtdir. «Gürcüstan öz mədəniyyətini, adət-ənə-*

*nələrini qoruyan azərbaycanlı vətəndaşları ilə güclüdür» – deyən Prezident daha sonra burada həyata keçirilən layihələrdən danışdı.*

**Giorgi Marqvelaşvili:** Mən burada uğurla həyata keçirilən infrastruktur layihələrini görürəm. Əsasən kənd təsərrüfatı sahəsində olan layihələri. Gürcüstan böyük potensiala malik aqrar ölkədir. Təəssüf ki, bəzi səbəblərə görə bizim ərzağa olan tələbatımızın 9 faizi daxili istehsal hesabına təmin edilir. Bu çox kiçik göstəricidir. Lakin elə bu 9 faizdə də bizim azərbaycanlı vətəndaşlarımızın rolu böyükdür. Biz bu sahədə layihələri elə reallaşdırmalıyıq ki, Avropa bazarına çıxa bilək. Biz keçən il Avropa İttifaqı ilə «Azad ticarət haqqında» Müqaviləyə imza atdıq. Bu bizə böyük imkanlar yaratdı. Ancaq təbii, Avropa standartlarına cavab verən məhsul istehsal etməliyik və dünyaya məhsul çıxaran ölkələrlə rəqabətə girməliyik. Burada bu potensial var və biz bunu həyata keçirməliyik. Bunun üçün bizə müasir texnologiya və avadanlıq lazımdır.

Mən çox sevinirəm ki, bu sahədə də cənab İlham Əliyev bizə dəstək verir. Ən müasir istixanaları misal gətirmək istəyirəm. Daha bir sahəni də qeyd etmək istəyirəm. Bu, turizm və onunla bağlı xidmətlərin göstərilməsidir. Bununla əlaqədar rayonun icra hakimiyyəti və digər qurumlar birləşib bu sahədə potensialı araşdırıb öyrənməli, təkliflərini təqdim etməlidirlər. Turizm çox gəlirli sahədir. Bundan başqa, çox mühüm geosiyasi və geostrateji layihələr reallaşdırılacaq. Dünən biz bu məsələ ilə bağlı cənab Əliyevlə müzakirə apardıq. Bu layihələr bizə yüklərin, enerji daşıyıcılarının tranzitini artırmağa, logistik mərkəzlərin yaradılmasına imkan verə bilər.

Burada gördüyüm canlanmaya görə təşəkkür edirəm. Buradakı əhval-ruhiyyə bizim gələcək əməkdaşlığımızın daha uğurlu olacağı ümidini verir. Mən bir daha cənab İlham Əliyevə «Çox sağ olun!» – demək istəyirəm. Onu bir daha gözəl Marneulidə salamlayıram.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana rəsmi səfəri noyabrın 6-da başa çatmışdır.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Tbilisi Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və digər yüksəkvəzifəli şəxslər yola saldılar.*

## KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİHAMONİYƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Kamboca münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kamboca xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2015-ci il*

## ABŞ HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KATİBİ REY MAYBUSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də ABŞ Hərbi Dəniz Qüvvələrinin katibi Rey Maybusun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*ABŞ Hərbi Dəniz Qüvvələrinin katibi Rey Maybus ilə 4 il bundan əvvəlki görüşünü məmnunluqla xatırladan prezident İlham Əliyev onun ölkəmizə bu səfərinin Azərbaycan ilə ABŞ arasında müdafiə sahəsində əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün yaxşı imkan yaradacağını dedi. Müdafiə sahəsində əməkdaşlığın uzun tarixə malik olduğunu vurğulayan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan tərəfi regionda sabitliyin təmin olunması istiqamətində səylərini əsirgəmir. Prezident İlham Əliyev ötən dövr ərzində regionda vəziyyətin xeyli dəyişdiyini də qeyd etdi.*

*Ölkəmizə ötən səfərini məmnunluqla xatırladan Rey Maybus Azərbaycan Silahlı Qüvvələrinin Beynəlxalq Sülhməramlı Missiyanın tərkibində Kosovoda, İraqda, hazırda isə Əfqanıstanda uğurla əməkdaşlıq etdiyini vurğuladı, treninqlərin, qarşılıqlı təcrübə mübadiləsinin, hərbi təhsil sahəsində əməkdaşlığın önəmini qeyd etdi.*

## AMEA-nın 70 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ ÜMUMİ YIĞINCAQDA İŞTİRAK

*9 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda iştirak etmişdir.*

*Dövlətimizin başçısı AMEA-nın ümumi yığıncağında nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

İlk növbədə, mən sizi və bütün Azərbaycan xalqını Dövlət Bayrağı Günü münasibətilə ürəkdən təbrik edirəm. Biz bu əziz gündə Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyini qeyd edirik. Bu münasibətlə də bütün Azərbaycan alimlərini ürəkdən təbrik edirəm, onlara yeni uğurlar, nailiyyətlər arzulayıram.

Bu 70 ildə Akademiya böyük və uğurlu yol keçib. Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin intellektual potensialının möhkəmlənməsinə, kadr hazırlığı işinə çox dəyərli töhfələr verib. Bu gün də Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır, alimlər öz elmi araşdırmalarını apararaq ölkəmizin gələcək inkişaf dinamikasını sürətləndirirlər.

Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır. Bu gün yeni texnologiyalar əsridir. O ölkələr ki, bu texnologiyaların sahibidir, əlbəttə, onlar dünya miqyasında öz maraqlarını daha böyük dərəcədə müdafiə edə bilirlər.

Azərbaycan da o ölkələrin sırasında olmalıdır. Bu gün biz çalışırıq ki, həyatımızın müxtəlif istiqamətlərində ən müasir texnologiyalar Azərbaycana gətirilsin, tətbiq edilsin və bizim alimlərimiz də gələcəkdə öz işlərini bu texnologiyalar əsasında daha səmərə ilə qura bilsinlər.

Bildiyiniz kimi, müstəqilliyimizin ilk illərində Akademiyanın işinə münasibət o qədər də müsbət deyildi. Alimlər yaxşı xatırlayırlar ki, 1992-ci ildə o vaxtkı hakimiyyət hətta Akademiyanın bağlanması ilə bağlı təklif də irəli sürmüşdü. Ümumiyyətlə, o vaxtkı rəhbərlik hesab edirdi ki, Azərbaycanda Milli Elmlər Akademiyasına ehtiyac yoxdur.

Bu çox səhv bir yanaşma idi. Xoşbəxtlikdən 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, əlbəttə, bütün bu söhbətlərə son qoyuldu. Ulu öndərin ictimaiyyətlə ilk görüşü məhz alimlərlə Milli Elmlər Akademiyasının binasında olmuşdu. O vaxtdan bu günə qədər Azərbaycan elminin inkişafına çox böyük diqqət göstərilir. Bu sahə bu gün də prioritet sahələrdən biridir.

Əlbəttə ki, müstəqilliyimizin ilk illərində bizim maliyyə vəziyyətimiz indiki kimi deyildi. Azərbaycan çox ağır dövr yaşayırdı. Həm siyasi böhran, hərbi böhran, həm vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi və iqtisadi tənəzzül, əlbəttə, imkan vermirdi ki, Akademiyanın inkişafına lazımi səviyyədə maliyyə vəsaiti ayrılsın. Ancaq o vaxt da imkan daxilində bu məsələlər öz həllini tapırdı.

İndiki dövrdə Azərbaycan artıq dünya miqyasında öz iqtisadi inkişaf modelini ortaya qoyub və iqtisadi inkişaf templərinə görə çox böyük rəğbətlə qarşılanır. Ona görə də bu gün biz Akademiyanın işinə daha da böyük həcmdə vəsait ayıra bilirik və bunu edirik. Onu da qeyd etməliyəm ki, bu sahədə alimlərin, elmi ictimaiyyətin təklifləri də nəzərə alınır. Mən xatırlayıram, 4 il bundan əvvəl bu binada, bu salonda çıxış edərək fikirlərimi bildirmişdim. O vaxt çıxış edən alimlər də təkliflərini irəli sürmüşdülər. O təkliflərin, demək olar ki, hamısı ya icra edilib, ya da icra edilir.

Son illər ərzində Akademiyanın maddi-texniki bazası möhkəmlənib, gözəl bina əsaslı təmir edilib. Akademiya institutlarının təmirinə vəsait ayrılıb. Elmi kitabxana kompleksi yaradılıb. Şamaxı Astrofizika Rəsədxanası əsaslı təmir edilib. Milli Ensiklopediya üçün gözəl bina tikilibdir. Bütün bunlar Azərbaycan dövlətinin siyasətini ifadə edir. Biz çox istəyirik ki, elmi inkişaf üçün daha da gözəl şərait yaradılsın. Bununla bərabər, elmin inkişafı üzrə milli strategiya və Dövlət Proqramı artıq 5-6 ildir ki, qəbul edilib və icra olunur. Hesab edirəm ki, Elmin İnkişafı Fondunun yaradılması da bu istiqamətdə atılan çox önəmli addımdır. Çünki bu fond imkan yaradır ki, həm gənc alimlərə qrantlar verilsin, həm də elmi araşdırmalar aparılsın. Ümumiyyətlə, bu, elmin inkişafına, əlbəttə, müsbət təsir göstərir.

Bu gün bu salonda alimlər qarşısında çıxış edərkən ölkəmizin gələcək inkişafı və alimlərin bu inkişafda rolu ilə bağlı bəzi fikirlərimi bölüşmək istəyirəm.

Bu gün dünyada yeni bir dövr yaşanır. Televiziyadan və kütləvi informasiya vasitələrindən hər bir vətəndaş görür ki, həm bölgədə, həm dünyada inkişaf, əfsuslar olsun, müsbət istiqamətdə getmir. Yeni təhlükələr, təhdidlər, risklər, qarşıdurmalar, müharibələr yaranır. Əfsuslar olsun ki, gələcəklə bağlı proqnoz verərkən nikbinlik üçün heç bir əsas yoxdur. Belə bir şəraitdə hər bir ölkə ilk növbədə, daxili resurslara arxalanmalı, öz təhlükəsizliyini daha da böyük dərəcədə təmin etməli, dünyada yaşanan maliyyə və iqtisadi böhran zamanı öz iqtisadi modelində müəyyən düzəlişlər aparmalıdır.

Azərbaycan artıq neçə ildir ki, müstəqil siyasət apararaq həm siyasi, həm iqtisadi, həm beynəlxalq münasibətlər sahəsində müstəqil fəaliyyət göstərir. Bizim fəaliyyətimiz xalqın milli maraqları üzərində qurulubdur. Bu bizim üçün əsas şərtdir, əsas vəzifədir və bütün səylərimiz bu məqsədə xidmət göstərir.

Əlbəttə, biz də dünyada, bölgədə gedən prosesləri izləyərək çalışmalıyıq ki, ölkəmiz üçün riskləri nə qədər mümkünsə minimum səviyyəsinə endirək və buna nail ola bilirik. Bu gün alovlanan bölgədə Azərbaycan sabitlik adasıdır, sülh, əmin-amanlıq məkanıdır. Azər-

baycan vətəndaşları əmin-amanlıq şəraitində yaşayırlar, yaradırlar. Əminəm ki, görülən və görüləcək tədbirlər nəticəsində bu müsbət dinamika, müsbət ab-hava Azərbaycanda daha da güclənəcək.

Bu gün dünyada yaşanan iqtisadi böhran hələ ki, davam edir, sonu görünmür. Belə olan halda, biz iqtisadi sahədə daha da ciddi islahatlar aparmalıyıq.

Ümumiyyətlə, son illər ərzində bizim siyasətimiz ondan ibarət idi ki, neft-qaz amilindən asılılığımızı maksimum dərəcədə aşağı salaq, ölkə iqtisadiyyatının şaxələndirilməsinə nail olaq, bölgələrdə yeni iş yerlərinin, sənaye müəssisələrinin yaradılması məsələlərini həll edək. Hələ 2004-cü ildə birinci regional inkişaf proqramının qəbulu məhz bu məqsədi güdürdü. Şadam ki, bu proqramlar artıq ardıcıllıqla icra edilir və bölgələrin siması dəyişilib. Yeni müəssisələr, sosial obyektlər, infrastruktur layihələri ölkəmizi gücləndirir və neft-qaz amilindən asılılığımızı böyük dərəcədə azaldır. Əgər ümumi daxili məhsulumuzun strukturuna baxsaq görərik ki, hazırda neft-qaz sektoru burada təqribən 30 faiz təşkil edir, gələcəkdə bu rəqəm daha da aşağı düşməlidir.

Ancaq bununla bərabər, bu gün biz iqtisadiyyatın yeni modeli haqqında düşünürük. Hökumətə, dövlət qurumlarına müvafiq göstərişlər verilmişdir və çox istərdim ki, bizim alimlərimiz də bu işlərdə fəal iştirak etsinlər.

Əminəm ki, bizim iqtisadi inkişaf dinamikamız davam edəcəkdir. Çünki bunun təməlində həm görülmüş işlər, infrastruktur layihələri, gözəl investisiya iqlimi dayanır, eyni zamanda, dünyanın mötəbər iqtisadi qurumları da fəaliyyətimizi yüksək qiymətləndirir. Həm Dünya Bankı, həm Beynəlxalq Valyuta Fondu hesab edir ki, bu bölgədə – Şərqi Avropada gələcək illərdə ən yüksək iqtisadi templərlə inkişaf edən ölkə Azərbaycan olacaqdır. Təsadüfi deyil ki, Dünya Davos İqtisadi Forumu ölkə iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinə görə Azərbaycanı 40-cı yerə layiq görüb. Bu çox böyük nəticədir. 200 ölkənin arasında 40-cı yeri tutmaq, bir çox inkişaf etmiş ölkələri qabaqlamaq doğrudan da böyük nailiyyətdir və bunu biz neftin, qazın hesabına əldə etməmişik. Düşünülmüş siyasət, iqtisadi islahatlar bunu mümkün etmişdir. Biz çalışmalıyıq ki, bu

yüksək templəri növbəti illərdə də saxlayaq və beləliklə, iqtisadi inkişafı uzunmüddətli, dayanıqlı edək.

Çünki bizim iqtisadi uğurlarımız və iqtisadi müstəqilliyimiz dövlət müstəqilliyimizin əsasıdır. Əgər biz başqa ölkələrdən asılı vəziyyətdə olsaydıq, müstəqil siyasət apara bilməzdik. Bizim gücümüz məhz bundadır. Çalışırıq ki, daxili resurslardan maksimum dərəcədə istifadə edək və heç kimdən asılı olmayaq. Asılı oldunsa, gərək başqasının sifarişlərini yerinə yetirəsən, yaxud da ki, əziyyət çəkəsən. Biz heç kimdən asılı olmaq istəmirik. İstəyirik ki, öz yolumuzla gedək, xalqımız daha da yaxşı yaşasın, dövlətimiz daha da güclənsin. Bir daha demək istəyirəm ki, iqtisadi müstəqillik dövlət müstəqilliyinin əsasıdır. Ona görə hesab edirəm ki, alimlər bu yeni vəziyyətlə bağlı öz dəyərli təkliflərini verməlidirlər və verəcəklər.

Bir məsələni də əlavə etmək istəyirəm. Azərbaycanda çox müsbət demoqrafik vəziyyət mövcuddur. Bu da son illər ərzində ölkənin inkişafı ilə bağlıdır. Əgər biz demoqrafiyanın statistikasına nəzər yetirsək görərik ki, ölkəmiz üçün ən ağır illərdə demoqrafik vəziyyət çox mənfi idi. Ancaq ölkə iqtisadiyyatı inkişaf etməyə başlayandan, sabitlik tam bərqərar olandan sonra demoqrafik vəziyyət yaxşılaşdı. Bu gün Azərbaycan əhalisi sürətlə artır, bir neçə ildən sonra 10 milyon səviyyəsinə çatacaqdır. Bu bizim böyük sərvətimizdir. Əhalimiz nə qədər çox olarsa, ölkəmiz də o qədər güclü olacaqdır. Ancaq bu vəziyyət eyni zamanda, bir çox məsələlərin həllini diktə edir. Artan əhali artan iş yerləri deməkdir. Son 10 il ərzində 1 milyondan artıq daimi iş yeri açmışıq. Ancaq bu proses davam etməlidir. İş yerlərinin açılması üçün həm dövlət investisiyaları, həm də xarici investisiyalar qoyulmalıdır. İndi bizim gəlirlərimiz azalır, bu təbiidir, neftin qiyməti 100 dollardan 50 dollara, ondan da aşağı səviyyəyə düşübdür. Biz gələn ilin dövlət büdcəsində ixtisarlar etmişik, bəzi investisiya layihələrini təxirə salmışıq. Ona görə iş yerlərinin yaradılması gələcəkdə investisiya iqliminin daha da yaxşılaşması ilə bağlı olacaq. Biz çalışmalıyıq ki, Azərbaycana daha çox xarici sərmayə cəlb edək. Ümumiyyətlə, hesab edirəm ki, bizim alimlərimiz demoqrafik vəziyyətlə bağlı daha da fəal işləməlidirlər.

Burada sosial yük artacaq, yeni uşaq bağçaları, yeni məktəblər tikilməlidir, yeni sənaye müəssisələri yaradılmalıdır, binalar, evlər, o cümlədən fərdi evlər inşa edilməlidir. Bunun üçün torpaq sahələri lazımdır. Biz o torpaq sahələrini haradan əldə edək? Şəhərsalma ilə bağlı yeni çağırışlar üzə çıxır. Nəqliyyatın yükü böyük olacaqdır. Bütün bunlar reallıqdır. Əgər biz bunlar barədə fikirləşməsək, gün gələcək ki, böyük problemlərə gətirib çıxaracaq. Ona görə biz indidən bütün bu demoqrafik inkişafı əsas götürərək, bütün istiqamətlər üzrə yeni strategiyamızı buna uyğun şəkildə müəyyən etməliyik.

Bu günə qədər və hətta bu gün bizim əsas vəzifəmiz infrastruktur layihələri idi. Biz onları Bakıda və bölgələrdə icra edirik. Əlbəttə, elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su, meliorasiya, kənd yolları, magistral yollar, təmir işləri bundan sonra da davam etdiriləcək. Ancaq bunlarla bərabər, mütləq yeni yanaşma da olmalıdır.

Son illər ərzində sənayenin inkişafı ilə bağlı çox ciddi addımlar atılıb. Bunun nəticəsidir ki, bu ilin 9 ayında bizim qeyri-neft sənayemiz 10 faizdən çox artıbdır. İndiki şəraitdə bu, tarixi nailiyyətdir. Hazırda Azərbaycanda reallaşan və planlaşdırılan böyük sənaye layihələri gələcəkdə qeyri-neft potensialımızı gücləndirəcək, ixrac potensialımızı böyük dərəcədə artıracaq. Texnoparklar yaradılır. Kimya Sənaye parkının artıq təməli qoyulubdur. Orada ilk müəssisələr yaradılıb. Azərbaycan alimləri bütün bu işlərdə fəal iştirak etməlidirlər. Bu istiqamətdə inşaat və mühəndislik işlərini xarici podratçılar icra edirlər. Müvafiq dövlət qurumlarına göstəriş verilib ki, Azərbaycan alimlərini də bu işə cəlb etsinlər. Xahiş edirəm, alimlər özləri də bu işlərdə fəallıq göstərsinlər.

Azərbaycanda ərzaq təhlükəsizliyi ilə bağlı çox böyük işlər görülübdür. Biz özümüzü bütün əsas ərzaq məhsulları ilə, demək olar ki, ya 100 faiz, ya 90 faiz təmin edirik. Bu proses davam etdiriləcəkdir. Son illər ərzində taxılçılıqda 20-yə yaxın iri fermer təsərrüfatı yaradılıb. Bu təsərrüfatlarda 1 hektarda məhsuldarlıq 55–60 sentnerdir. Yəni ümumi məhsuldarlıqdan 2 dəfə çoxdur. Nəyə görə? Çünki orada elmi yanaşma, müasir texnologiyalar tətbiq

olunur, onlardan istifadə edilir. Bu nəticələrin qazanılmasında alimlərin çox böyük zəhməti var. Nəzərə alsaq ki, əhalimizin təxminən 50 faizi aqrar bölgələrdə yaşayır, gələcəkdə kənd təsərrüfatının inkişafı həm iqtisadi, həm sosial məsələ kimi daim gündəlikdə olacaqdır.

Təsadüfi deyil ki, bu il Azərbaycanda «Kənd təsərrüfatı ili» elan edilib. Bu ilin 9 ayında kənd təsərrüfatı təxminən 7 faiz artıb. Bu da çox böyük göstəricidir. İndi Azərbaycan dövləti suvarma, meliorasiya işlərinə böyük sərmayə qoyur. 2 böyük su anbarı – Taxtakörpü və Şəmkirçay su anbarları tikilib. Bu, tarixi nailiyyətdir. İndi suvarılan torpaqların sahəsi böyük dərəcədə artır və artacaq. Yeni suvarılan və suvarılması yaxşılaşdırılan torpaq sahələri 100 min hektarla ölçüləcək. Burada mütləq elmi yanaşma olmalıdır. Biz burada xaotik vəziyyətə imkan verə bilmərik. İşlər planlı şəkildə görülməlidir ki, hansı sahələrdə hansı məhsullar yetişdirilsin. O məhsulların yetişdirilməsi üçün dövlət hansı işləri görməlidir? Burada alimlərin sözü əsas olmalıdır. Müvafiq qurumlara – həm İqtisadiyyat və Sənaye Nazirliyinə, həm də Kənd Təsərrüfatı Nazirliyinə tapşırılıb ki, görüləcək bütün işlər elmi əsaslar üzərində qurulmalıdır. Xahiş edirəm, Azərbaycan alimləri də, Milli Elmlər Akademiyası da bu işlərə çox fəal qoşulsunlar.

Biz ixrac potensialımızı xeyli artıra bilərik. Biz dünya bazarlarına daha böyük həcmdə kənd təsərrüfatı məhsulları ilə çıxa bilərik. Beləliklə, fermerlərin həyat səviyyəsini də xeyli yaxşılaşdıra bilərik. Bizim gələcək inkişafımızı sənaye və kənd təsərrüfatı sahələri müəyyən edəcək. Ona görə dövlət siyasəti birmənalıdır. Dövlət qurumlarına göstərişlər verilib. Alimlərdən xahiş edirəm ki, bu məsələ ilə çox ciddi məşğul olsunlar.

Ötən illər ərzində Azərbaycanda çox əlamətdar hadisələrdən biri də kosmik sənayenin yaradılmasıdır. Birinci telekommunikasiya peyki orbitə çıxarıldı. Ondan sonra Yer səthini müşahidə etmək üçün orbitə peyk buraxıldı. İndi biz üçüncü peykin buraxılması ilə məşğuluq. Doğrudan da ölkədə yeni sənaye istiqaməti, yeni elmi sahə yaradılıb. Əlbəttə ki, bu sahədə ilk növbədə, beynəlxalq əməkdaşlıq daha da dərinləşməlidir. Çünki bu sahə bizim üçün

yenidir. Xarici tərəfdaşlarla mütləq müxtəlif tədbirlər – seminarlar, konfranslar, elmi-praktiki tədbirlər keçirilməlidir. Biz kadr potensialının hazırlanması işində daha da fəal olmalıyıq. Çünki bu yeni kosmik sənaye artıq yaradılıbdır. Azərbaycan üzvlərinin sayı o qədər də çox olmayan dünya kosmik klubuna üzv olub. Bu bizim siyasətimizi əks etdirir. Biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi. Bunlar olmasa, biz istədiyimiz qədər inkişaf edə bilmərik. Biz isə istəyirik ki, inkişaf etmiş ölkələrin sırasına daxil olaq və imkanlar da var. Çünki kadr potensialı güclüdür. Təhsil lazımi səviyyədədir. Savadlılıq təxminən 100 faizdir. Bu, elmin inkişafı üçün əsas bazadır. Elmin inkişafına diqqət və qayğı göstərilir. Bütün bu amillər var. Əsas məsələ ondan ibarətdir ki, bütün bu strategiyamızı düzgün planlaşdıraq və addımlarımızı düzgün ataq ki, Azərbaycan bu sahədə də birincilər sırasında olsun.

Azərbaycanda hərbi sənaye yaradılıbdır. Artıq 10 ildir ki, Müdafiə Sənayesi Nazirliyi yaradılıbdır. Əgər o vaxt bu qərar qəbul edilməsəydi, bu gün biz sənayenin bu sahəsinin inkişafından bəhrələnə bilməzdik. Biz hazırda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edirik.

Ordumuzun tələbatının böyük hissəsini Azərbaycan özü təmin edir. Xüsusilə nəzərə alsaq ki, biz müharibə şəraitindəyik, bu, tarixi nailiyyətdir. Lazım olan texnikanı, silahları bəzi hallarda əldə edə bilmirik. Bəzi hallarda embarqolar var. Onların heç bir əsası yoxdur. Amma bu, başqa məsələdir. Biz bunu bilirdik. Bu gün Azərbaycan Ordusunun əsas təminatı daxili istehsal sayəsində mümkündür. Bilirəm, alimlər burada iştirak edirlər, amma daha da fəal iştirak etməlidirlər. Biz, əlbəttə ki, müasir texnologiyalar alırıq. Onları aldıqca biz o texnologiya ilə tanış oluruq. Bizə lazım olan bütün növ silahları gələcəkdə özümüz istehsal edə bilərik. Heç olmasa o nümunələrdən istifadə edə bilərik. Ona görə burada Azərbaycan alimlərinin fəaliyyəti üçün çox geniş bir meydan var. Azərbaycan dövləti də öz tərəfindən çalışacaq ki, alimləri bu işlərə daha sox cəlb etsin.

İqtisadi inkişafımızın ənənəvi neft-qaz sahəsi haqqında da bir neçə kəlmə demək istəyirəm. Alimlər yaxşı bilir ki, Xəzər dənizinin bütün neft-qaz yataqlarını Azərbaycan alimləri kəşf ediblər. Azərbaycanın elmi məktəbi olmasaydı, bu yataqlar kəşf edilməyəcəkdi, yaxud da ki, nə vaxtsa kəşf ediləcəkdi. Bu gün Azərbaycan alimləri ölkədə aparılan neft-qaz əməliyyatlarının uğurla həyata keçirilməsində mühüm rol oynayırlar. Həm xarici tərəfdaşlarla əməkdaşlıqda, həm də Azərbaycan Dövlət Neft Şirkətinin həyata keçirdiyi layihələrdə iştirak edirlər. Bizim üçün bu sahə də strateji sahədir. Bizim neft-qaz yataqlarımız kifayət qədər böyükdür. Qaz yataqlarımızın ehtiyatları azı 100 il özümüzə və tərəfdaş ölkələrə ixrac etmək üçün kifayət edəcək. Əlbəttə, bizim alimlərimiz də dünyada bu sahədə mövcud olan və yeni yaranan texnologiyalarla tanış olmalıdırlar. Çünki son illər ərzində bu sahədə böyük bir inkişaf müşahidə olunur. Əvvəlki illərdə qaza bilmədiyimiz dərinliklərdə indi biz nəinki asanlıqla quyular qazırıq, hətta Bakıda yerin ən dərin qatında qazma işləri apara biləcək böyük qazma qurğuları inşa edilir. Ona görə bu sahə həm bizim üçün, həm də tərəfdaşlarımız üçün strateji sahədir.

Azərbaycan bu gün dünyada etibarlı tərəfdaş kimi tanınır, neft-qaz sektorunda, bəzi ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynayır. Bir neçə ildən sonra bizim tərəfdaşlarımızın sayı daha da artacaq. Çünki «Cənub Qaz Dəhlizi»nin icrasından sonra 10-a yaxın, gələcəkdə ondan da çox ölkə Azərbaycan qazını əldə etmək üçün imkan qazanacaq. Ona görə ki, bu sahədə də Azərbaycan liderliyi öz üzərinə götürüb. «Cənub Qaz Dəhlizi»nin, TANAP layihəsinin nəinki təşəbbüskarı, aparıcı qüvvəsi də Azərbaycandır. Biz öz maliyyə resurslarımızı da bu sahəyə yönəldirik.

Əlbəttə, alimlərin qarşısında duran vəzifələr çoxdur. Mən burada hər bir vəzifə haqqında öz fikirlərimi desəm yəqin ki, çox vaxt gedər. Hesab edirəm ki, dediklərim kifayətdir. Çünki mənim əsas istəyim ondan ibarətdir ki, ilk növbədə, Azərbaycan elmi inkişaf etsin, digər tərəfdən, ölkəmizin ümumi inkişafına öz töhfəsini versin. Elmi araşdırmalar sadəcə olaraq, araşdırmalar üçün deyil, ölkə

iqtisadiyyatının təhlükəsizlik potensialının güclənməsinə yönəlməlidir.

Çıxışımın sonunda humanitar elmlər haqqında bir neçə kəlmə demək istəyirəm. Bu sahə daim diqqət mərkəzindədir. Azərbaycanda son illər ərzində keçirilən müxtəlif tədbirlər – Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu artıq Azərbaycanı dünyada multikulturalizmin mərkəzi kimi təqdim edibdir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, ictimai sifarişdir. Çünki bu bizim üçün normal həyat tərzidir. Halbuki, biz indi bəzi ölkələrdə fərqli mənzərə görürük. Hətta bəzi siyasi liderlər çox təhlükəli ifadələr işlədirlər ki, multikulturalizm iflasa uğrayıb, bunun gələcəyi yoxdur. Bu həm yanlış, həm də təhlükəli fikirlərdir. Çünki multikulturalizmin alternativi yoxdur. Nədir alternativ – ksenofobiya, diskriminasiya, ayrı-seçkilik, irqçilik! Əfsuslar olsun ki, biz bütün bunları hər gün televizorda görürük. Azərbaycan bu sahədə də öz modelini ortaya qoyur. Hesab edirəm ki, Azərbaycan alimləri bu mövzu ilə bağlı daha da fəal ola bilərlər. Azərbaycanda multikulturalizmin tarixi, ənənələri, bugünkü reallıqları haqqında elmi əsaslandırmalar və dövlət siyasəti əsasında həm Azərbaycan dilində, həm xarici dillərdə daha da böyük elmi əsərlər yaradıla bilər. Hesab edirəm ki, bu sahədə elmi araşdırmalar həm çox maraqlı, həm də bizim üçün çox faydalı olacaqdır.

Əsrlərboyu Azərbaycan xalqını bir xalq kimi qoruyan mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlərboyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu məni doğrudan da çox narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki,

biz əsrlərboyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər çox xarici dil bilsələr, o qədər yaxşıdır. Ancaq ilk növbədə, öz ana dilini bilməlidir. Digər tərəfdən, imkan verməməlidir ki, ana dilimizə yad kəlmələr daxil olsun. Buna ehtiyac yoxdur. Ancaq biz bunu görürük. Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Buna ehtiyac yoxdur. Əlbəttə, mən bu sahədə mütəxəssis deyiləm, ancaq bir vətəndaş kimi, hesab edirəm ki, yeni kəlmələrin icad edilməsinə heç bir ehtiyac yoxdur. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək, bu bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır.

Sonda tarix elmi ilə bağlı bir neçə kəlmə demək istəyirəm. Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilir. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. «Erməni alimləri» xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlərboyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir ki, hər kəs görsün – indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq. İrəvan xanlığının əhalisinin 70–80 faizi azərbaycanlılar olubdur. Çox şadam ki, mənim tövsiyəmlə İrəvan xanlığı haqqında çox sanballı elmi əsər yaradılıb, bir neçə xarici dilə tərcümə edilibdir. Bu əsərlər faktlar, həqiqətlər üzərində yaradılır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Qarabağ, Xankəndi Azərbaycan sözləridir. Mən dəfələrlə bildirmişəm ki, əgər Xankəndinin hər hansı bir tarixi adı olsaydı, ermənilər o adı bərpa edərdilər. Onun Stepanakert adı bolşevik erməni quldur dəstəsinin rəhbəri Stepan Şaumyanın şərəfinə qoyulubdur. Bunu biz hamımız bilirik, amma dünya da bilməlidir. Hər yerdə bilməlidirlər ki, bu bizim torpağımızdır, bizim haqqımız var o torpaqda yaşamağa. Beynəlxalq hüquq təbii ki, bizim mövqemizi müdafiə edir. Ancaq bütün dünya ictimaiyyəti bilməlidir ki, təkcə beynəlxalq hüquqla məsələ məhdudlaşmır. Bu bizim tarixi, əzəli torpağımızdır. Ermənilər Dağlıq Qarabağa və bəzi başqa yerlərə XIX əsrdə İrandan, Şərqi Anadoludan köçürülmüşlər. Hansı məqsədlə köçürülmüşlər, biz bunu yaxşı bilirik. Bütün bunları biz gərək kitablar formasında daha da geniş şəkildə yayaq və beləliklə, bütün dünyaya sübut edək ki, bu bizim tarixi, əzəli torpağımızdır.

Hesab edirəm, vaxt gəlib çatıb ki, müstəqillik dövrünə həsr edilən sanballı elmi əsər də yaradılsın. Gələn il biz müstəqilliyimizin 25 illiyini qeyd edəcəyik. O vaxta qədər əgər belə sanballı elmi əsər yaradılarsa, bayramımıza çox yaxşı töhfə ola bilər.

Əziz dostlar, Akademiya üzvləri, alimlər, mən sizi bir daha salamlayıram, Akademiyanın 70 illiyi münasibətilə təbrik edirəm. Sizi əmin edirəm ki, mən gələcəkdə də Akademiyanın inkişafına daim diqqət göstərəcəyəm və Akademiya qarşısında duran bütün vəzifələrə daim dəstək olacağam.

Sağ olun.

## AMEA-nın prezidenti, akademik Akif Əlizadənin çıxışı

Möhtərəm cənab Prezident!

İcazə verin, ilk növbədə, dərin məzmunlu nitqinizə görə Sizə bütün Azərbaycan alimləri adından təşəkkürümü bildirim. Müəyyən etdiyiniz hədəflər, qaldırdığınız problemlər və qarşıya qoyduğunuz vəzifələr bizim gələcək fəaliyyət proqramımızın əsasını təşkil edəcək. Sözsüz ki, bütün bunları gerçəkləşdirmək üçün bizə mövcud potensialımızla yanaşı, kreativ düşüncəyə malik gənclər, yeni

texnologiyalara və innovasiyalara yiyələnməyə qadir insanlar, maddi-texniki bazamızın müasir tələblər səviyyəsinə qaldırılması və bir sıra sosial problemlərimizin həlli gərəkdir. Əminəm ki, Akademiyaya göstərdiyiniz diqqət və qayğı sayəsində bunların hamısı həyata keçiriləcəkdir. Bir daha Sizə dərin təşəkkür və minnətdarlığımı bildirirəm.

Hörmətli cənab Prezident, hörmətli alimlər, əziz qonaqlar!

9 noyabr – Azərbaycanda gözəl bayram günüdür. Bu, Dövlət Bayrağı Günüdür. Onun rəngləri bizi daim müasirləşməyə, milli-mənəvi dəyərlərimizi qorumağa və Azərbaycanın müstəqilliyinin keşiyində dayanmağa sövq edir. Akademiyanın ilk üzvlərindən olan Üzeyir bəy Hacıbəylinin bəstələdiyi himn, Dövlət gerbimiz kimi, Akademiya da dövlətçiliyimizin əsas rəmzlərindən biridir. Fərəhli haldır ki, Azərbaycan Milli Elmlər Akademiyasının yubileyini biz belə gözəl gündə qeyd edirik. Bunun dərin rəmzi mənası vardır. Çünki Azərbaycan elmi də əslində bayrağımız kimi, dövlətçiliyimizin rəmzlərindəndir. Bu mənada Akademiyanın yubileyi bizim üçün ikiqat bayramdır.

Bizim bu yubileyi xüsusi rövnəqləndirən həm də odur ki, Azərbaycan prezidenti İlham Əliyev bu günlərdə Akademiyanın 70 illiyi münasibətilə alimlərimizin böyük bir qrupunun təltifi haqqında xüsusi sərəncamlar imzalayıb. Bu gün isə cənab Prezident bizim əziz qonağımızdır.

İcazə verin, sizin hamınızı elmimizin bayramı münasibətilə təbrik edim. Hər birinizə cansağlığı, uzun ömür və Azərbaycan Respublikasının inkişafı, onun elminin yüksəlişi naminə böyük uğurlar diləyim.

Hörmətli yığıncaq iştirakçıları, qədim sivilizasiyanın əsas məskənlərindən olan Azərbaycanda uzun əsrlərdən bəri folklor, ədəbiyyat, fəlsəfə, incəsənət, riyaziyyat, etika, coğrafiya, fizika, kimya, tibb və sair elm sahələri bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf edib. Bugünkü Elmlər Akademiyası əsrlərboyu inkişaf etmiş və püxtələşmiş Azərbaycan elminin varisidir. Qədim dövrlərdən orta əsrlərə qədər Azərbaycan elminin səviyyəsini dolğun əks etdirən güzgü Nizaminin əsərləridir. Nizami əyani surətdə sübut etdi ki, bir

tərəfdən, Yunan-Roma mədəniyyətinin varisləriyik, digər tərəfdən isə müsəlman intibahını yaradan və Avropaya renessansı ərməğan edən mədəniyyətlərdən biriyik.

Azərbaycan Elmlər Akademiyası qədim və zəngin ənənələr əsasında 1945-ci ilin mart ayında yaradılıb. 1945-ci il martın 31-də isə Azərbaycan Elmlər Akademiyası yaranma tarixini böyük ümumi yığıncaqla qeyd edib. Bu, Azərbaycanın həyatında yeni atributun yaranmasını göstərən təntənəli hadisə idi.

Azərbaycan elminin ənənələrini davam etdirən Akademiyanın ilk üzvləri bütün ömürləri boyu yüksək fədakarlıqla elmə xidmət ediblər. Mən onların adlarını bir daha səsləndirərək, böyük hörmətlə hər birinin parlaq xatirəsini yad etmək istərdim. Onlar dahi Üzeyir Hacıbəyli, Mirəsədulla Mirqasımov və Səməd Vurğun, Yusif Məmmədəliyev və Aleksandr Qrossheym, Heydər Hüseynov və Mustafa Topçubaşov, İosif Yesman və Mirzə İbrahimov, Mikayıl Hüseynov və Şamil Əzizbəyov, Mirəli Qaşqay və Sadıq Dadaşov, Ələşrəf Əlizadə və İvan Şirokoqorovdur. Bu adlar elmimizin tarixinə qızıl hərflərlə yazılıb.

Akademiya inkişaf etdikcə onun sovet və dünya elminə töhfələri, respublika qarşısında duran problemlərin həllindəki rolu da artmaqda idi. 70 il ərzində Azərbaycan alimləri çoxlu sayda elmi nailiyyətlərə imza atıblar. Onların şərəfli əməyi layiqincə qiymətləndirilib, Azərbaycan alimləri yüksək dövlət mükafatlarına, müxtəlif orden və medallara layiq görülüblər. Bu proses – alimlərimizin əməyinin qiymətləndirilməsi, onların mükafatlandırılması bu gün də davam etməkdədir.

Azərbaycan Elmlər Akademiyasının 70 illik tarixində ən parlaq mərhələ 1970–1985-ci illəri əhatə edən dövrdür. Akademiya tarixinin bu mərhələsi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Bu dövrdə Azərbaycan Elmlər Akademiyasında neft və qaz yataqlarının kəşfi, işlənməsi, mürəkkəb geoloji mühitlərdə dərin qazmanın elmi problemlərinin həlli, həmçinin kimyanın, neft-kimya sənayesinin inkişafı üçün xammal bazasının, kimya texnologiya komplekslərinin yaradılması, coğrafi, geoloji və geofiziki tədqiqatlar, filiz və qeyri-filiz, həmçinin digər

faydalı qazıntı yataqlarının tədqiqi, energetika, mexanika, fizika, riyaziyyat, astronomiya, informatika sahələrində mühüm əhəmiyyətə malik tədqiqatların aparılması və nüfuzlu elmi məktəblərin yaradılması və s. istiqamətlərdə nailiyyətləri qeyd etmək olar.

Ötən əsrin 90-cı illərinin əvvəllərindən Akademiyanın həyatında çətin, mürəkkəb və dramatik bir mərhələ başlandı. SSRİ-nin dağılması, ənənəvi dövlət və ictimai institutların iflasa uğraması, dərin iqtisadi böhran, hüquqi vakuum Akademiyanın üzləşdiyi problemlərin yalnız bir qismi idi. Həmin dövrdə Elmlər Akademiyasını cəmiyyətin gözündən salmaq kampaniyası, totalitarizmlə mübarizə adı altında İttifaq strukturlarının ləğvi kimi, Akademiyanı da ləğv etmək cəhdləri vəziyyəti daha da kəskinləşdirmişdi.

Xoşbəxtlikdən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dahiyanə siyasəti sayəsində Elmlər Akademiyası öz bütövlüyünü qoruyub saxlaya bildi.

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi özümüzə və gələcəyimizə inam hissini qaytarmaqla, xalqımızın tarixi yaddaşında milli ideallara fədakarcasına xidmətin nümunəsi kimi qalacaqdır. İki faktı qeyd etmək kifayətdir. Biz iqtisadiyyatımızın ən çətin dövründə YUNESKO çərçivəsində dahi Məhəmməd Füzulinin 500 illiyini və möhtəşəm Azərbaycan eposu «Kitabi-Dədə Qorqud»un 1300 illiyini böyük təntənə ilə qeyd etdik. Bütün bunlar əslində Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə xidmət edərək, xalqımıza onun milli-mənəvi irsinin qaytarılması yolunda çox mühüm addımlar idi.

Hörmətli tədbir iştirakçıları, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər ərzində başqa sahələrdə olduğu kimi, akademik elmdə də nailiyyətlər və uğurlar əldə olunub. Möhtərəm prezident İlham Əliyevin elmin inkişafı ilə bağlı qəbul etdiyi qərarlar sırasında «2009–2015-ci illərdə Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli Strategiya» və 2012-ci ilin dekabr ayında xüsusi fərmanla təsdiq etdiyi «Azərbaycan–2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası mühüm yer tutur. Bu sənədlər qloballaşma prosesinin və informa-

siya cəmiyyətinin qarşımızda yeni hədəflər qoyduğu bir mərhələdə bizi dövrün çağırışlarına cavab verməyə səfərbər edir.

Hörmətli cənab Prezident, Sizinlə bu zalda, Akademiyanın ümumi iclasında 4 il bundan əvvəl görüşmüşdük. Bu illər ərzində həm Akademiya institutlarının xarici görkəmi kəskin surətdə dəyişib, həm də islahatlar proqramlarının böyük qismi gerçəkləşdirilib. Gözəlləşmiş Akademiya şəhərciyinə xüsusi rövnəq verən Elmi Kitabxananın və Milli Ensiklopediyanın yeni binalarının qısa zamanda tikilib istifadəyə verilməsi ölkəmizdə elmin inkişafına yüksək diqqət və qayğınızın göstəricisidir.

Möhtərəm cənab Prezident, o görüşümüz zamanı qaldırılmış bir çox məsələlər də artıq ya öz həllini tapıb, yaxud tapmaqdadır. Elmə yüksək qayğınıza görə Sizə bir daha bütün alimlər adından dərin minnətdarlığımı bildirirəm.

Hazırda Akademiyada həyata keçirilən islahatların mühüm istiqamətlərindən birini elm və təhsilin inteqrasiyası təşkil edir. Milli Elmlər Akademiyası ənənələrə sadiq qalaraq, elm və təhsilin inteqrasiyasına ciddi diqqət yetirir. Hazırda AMEA institutlarında müxtəlif universitetlərin kafedralarının onlarla filialı fəaliyyət göstərir. Akademiyanın çoxsaylı üzvləri və yüzlərlə alimi təhsil prosesində yaxından iştirak edirlər.

Hörmətli cənab Prezident, məhz Sizin dəstəyinizlə Akademiyanın tarixində ilk dəfə olaraq magistratura təsis olunub və 9 ixtisas üzrə magistrlərin qəbulu keçirilib. İnstitutlarımızın ali məktəblərlə sıx əməkdaşlığı akademik fəaliyyətin strateji xəttidir. Bu istiqamətdə Sizin bizə böyük yardımınız və dəstəyiniz üçün təşəkkürümüzü bildiririk.

Hörmətli həmkarlar və qonaqlar, 70 illik yubileyə Akademiyanın kollektivi əliboş gəlməyib, dəyərli elmi əsərlər və monoqrafiyalar hazırlanıb. Bu əsərlərin nəşrini Akademiya tarixinin müvafiq mərhələlərdə fəaliyyətinin bir növ yekunu hesab etmək olar. Bu bizim yubiley hədiyyəmizdir. Amma bu çoxsaylı nəşrlərin sırasında bir nəşr bizim üçün xüsusilə əzizdir.

Mən «Azərbaycan Milli Elmlər Akademiyası simalarda» kitab-albomunu nəzərdə tuturam. Burada 70 il ərzində öz əməyi ilə respublika

elminin nailiyyətlərini artıran şəxsiyyətlərin fəaliyyətini görmək olar. Bu bizim tariximizdir. Məhz həmin tarix bizi həm gələcəyə aparır, həm də keçmişə qaytarır. Buna görə də bizim diqqətimizi çəkən bu tarix gələcək nəsilləri də maraqlandıracaq.

Hamıya məlumdur ki, elmdə aparılan islahatlar ən çətin və ən mürəkkəb bir prosesdir. Akademiyanın 70 illik yubileyi günlərində qürurla deyə bilərik ki, səylərimizi birləşdirməklə Azərbaycanın bu əvəzsiz sərvətini qoruyub saxlaya bilmişik. Bu gün bu müqəddəs elm ocağı yaşayır və inkişaf edir.

Möhtərəm cənab Prezident, bu inkişafa, elmə göstərdiyiniz diqqət və qayğıya görə Azərbaycan elmi ictimaiyyəti adından Sizə dərin təşəkkürümü bildirirəm.

Sizi əmin edirəm ki, Azərbaycan alimləri milli maraqlara uyğun həyata keçirdiyiniz dövlət siyasətinə daim dəstək verəcək, ölkəmizdə biliklər iqtisadiyyatı və vətəndaş cəmiyyətinin qurulması işində yaxından iştirak edəcək, bu amal uğrunda həmrəyliyini artıracaq, səylərini daha da gücləndirəcəkdir. Bir daha Sizə səmimi minnətdarlığımı və dərin təşəkkürümü bildirirəm.

Cənab Prezident, bəlkə də yeri deyil, amma ürəyim yenə şeir istəyir. İcazə verin, bir şeir deyim:

Bu gün Vətənimdə fərəhli gündür,
Gəzir dodaqlarda yubiley səsi.
Alimlər diyarı şənlik üçündür,
Gözəl yurdumuzun gülür çöhrəsi.

Sağ olun.

* * *

*Yığıncaqda çıxış edən Nobel mükafatı laureatı, professor Corc Ficerald Smut Azərbaycan Milli Elmlər Akademiyasının tarixi, elmi fəaliyyəti və alimləri haqqında kifayət qədər məlumatlı olduğunu dedi. Qonaq Azərbaycan alimlərinin fizika və biofizika sahəsində araşdırmalarının, ölkəmizin kosmik sənayeyə yiyələnməsinin dünyanın elmi ictimaiyyətinin diqqət mərkəzində olduğunu vurğuladı.*

**C o r c  F i c e r a l d  S m u t**: Fizika sahəsində böyük işlər aparılıb. Materialların hazırlanması işində araşdırmalar çoxdur. Bu halda yeni materialların, yeni sensorların və istifadə edəcəyimiz cihazların istehsalı xüsusi əhəmiyyət kəsb edir. Lakin bir çox digər sahələr də var. Onları qeyd etmirəm. Biofizika elmini xüsusilə vurğulamalıyam. Eyni zamanda, fizika və biofizika hesablama üsullarını qeyd etmək lazımdır. Bu gün kompüterlərin gücü, demək olar ki, elmin bütün sahələrində hiss olunur və elmin inkişafı üçün böyük imkanlar açır. Elmin bir çox sahələri var ki, yeni yaranır. Onlar isə öz növbəsində, texnologiya və iqtisadiyyatda dəyişikliklərdən irəli gəlir. Prezident Əliyev bunları çıxışında qeyd etdi.

*Corc Ficerald Smut elmi kadrların yetişdirilməsində Azərbaycan Milli Elmlər Akademiyasının səmərəli işinə toxundu, Akademiyada magistr kurslarının təşkilini təqdirəlayiq hal kimi dəyərləndirdi, səhiyyəni siyasi, iqtisadi və sosial xarakterli məsələ kimi səciyyələndirdi.*

*Dünyada müxtəlif xəstəliklərə qarşı mübarizədə tibb elminin son nailiyyətlərindən danışan Corc Ficerald Smut Azərbaycanda insan sağlamlığına göstərilən qayğıdan da söhbət açdı. Ölkəmizdə bəzi xəstəliklərin qarşısının alınması istiqamətində görülən tədbirləri mühüm nailiyyət kimi dəyərləndirən qonaq bildirdi:*

– Qeyri-keçici xəstəliklər deyildikdə diabet, qan dövranı, ürək-damar problemləri nəzərdə tutulur. Yəni bu xəstəliklər bir insandan digər insana keçmir, daha çox həyat tərzi, həyat şəraiti ilə bağlıdır, keçici xəstəliklərdən, vərəm xəstəliyi kimi bəladan fərqlidir. Azərbaycanda bu xəstəliklərin qarşısı alınır. Bu ölkədə keçici xəstəliklər ciddi şəkildə müşahidə edilmir.

*Nobel mükafatı laureatı təbabətdə nanotexnologiyanın tətbiqi sahəsində dünya elminin araşdırmaları və son nailiyyətləri barədə də məlumat verdi:*

– Monitorda digər bir nümunə görürsünüz. Burada hesablama üsulları, insan biliyi və texnologiyanın bir yerdə istifadə nümunəsi verilir. Bu nümunədə cərrahiyyə əməliyyatı real və ya virtual xəstə üzərində aparılır. Bu üsuldan istifadə edərək, cərrahlarınızı

təlimlərdən keçirə bilərsiniz. Daha təkmil üsullarla robot əlləri həmin əməliyyatı aparır. Həkimlər və tibb heyəti üçün təkmilləşdirmə kursları sayəsində nəticələr daha böyük ola bilər. İnsan orqanizmi daxilində vəziyyət tam təkmil şəkildə görünür. Kiçik dəlik açılır, orqanizmə aparat daxil edilir və əməliyyat aparılır.

Bu nümunədə fizika və biofizikanın nailiyyətlərinin tibb sahəsinə yardım etməsini göstərməyə çalışacağam. Burada söhbət tibbi və bioloji sistemlərdə istifadə olunacaq yeni materiallardan və nanohissəciklərdən gedir. Həmin materiallar müxtəlif məqsədlər üçün istifadə oluna bilər. İnsan sümüklərinə nanohissəciklərin daxil edilməsi, yaxud nanohissəciklərdən hazırlanmış dərmanlar tətbiq edilə bilər.

**V i k t o r  M a t v e y e v:** *(Rusiyanın Dubna şəhərindəki Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, akademik):* Çox hörmətli Azərbaycan Respublikasının Prezidenti!

Azərbaycan Milli Elmlər Akademiyasının çox hörmətli prezidenti!

Əziz dostlar!

Etiraf edim ki, mən həyəcanlıyam. Dubna Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun təmsilçisi kimi, mənim üçün əlamətdar tarixə – Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyinə həsr olunan belə ali, təntənəli iclasda iştirak etmək böyük şərəfdir. Bilirsiniz, aeroportdan gələndə və son illər daha da gözəlləşən, qədim sivilizasiyanın, müasir və dinamik inkişaf edən dövlətin paytaxtı olan gözəl Bakı şəhərini görəndə həqiqətən də məndə bugünkü əlamətdar hadisə olan Azərbaycan Milli Elmlər Akademiyasının yubileyi ilə ahəngdarlıq təşkil edən hisslər yarandı.

Bizim çoxmillətli institutun kollektivinin tapşırığını yerinə yetirmək, Nüvə Tədqiqatları İnstitutunun rəhbərliyi və çoxmillətli kollektivi adından Milli Elmlər Akademiyasının 70 illiyi ilə əlaqədar sizi və Azərbaycan Respublikasının bütün ictimaiyyətini təbrik etmək şərəfinə nail olmuşam.

Azərbaycanın Milli Elmlər Akademiyası öz keçmişi və bu günü ilə fəxr edə bilər və etməlidir. Akademiyanın gələcək üçün gözəl perspektivləri var. Dövlətin inkişafını əksər hallarda elmin vəziyyəti,

onun nailiyyətləri, həmçinin Elmlər Akademiyası tərəfindən hazırlanan yüksəkixtisaslı mütəxəssislər, gənc alimlər və mühəndislər müəyyən edir.

Qeyd etmək xoşdur ki, Azərbaycan rəhbərliyi, şəxsən prezident İlham Heydər oğlu Əliyev ölkədə elmə və elmi qurumlara çox yüksək diqqət və dəstək göstərir. Son illər Azərbaycan Milli Elmlər Akademiyasında elmi infrastrukturun modernləşdirilməsinə və qabaqcıl texnologiyaların tətbiqinə, elmin, təhsilin, istehsalın inteqrasiyasına yönələn iri, vacib dəyişikliklər baş verib. Müasir inkişafın mühüm amilinə çevrilən gənc alimlərə böyük diqqətin yetirildiyini müşahidə etmək çox xoşdur. Azərbaycan Respublikası bizim beynəlxalq hökumətlərarası elmi təşkilatımızın fəaliyyətində tam gücü ilə iştirak edir və onun inkişafına birgə töhfə veririk. Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun laboratoriyalarında həm artıq öz sözünü demiş alimlər, həm də gənc mütəxəssislər çalışırlar. Gənc mütəxəssislər müasir sürətləndirici qurğularda, reaktorlarda, cihazlarda onlar üçün vacib olan təcrübə keçirlər. Bu insanlar artıq uzun müddətdir ki, Dubna Birləşmiş Nüvə Tədqiqatları İnstitutuna üzv ölkələrin alimlərinin böyük Volqa çayı sahilində «bizim ümumi evimiz» adlandırdıqları Birləşmiş İnstitut ilə bağlıdırlar. Bir çox azərbaycanlı alimlərin taleləri möhkəm və uzun müddətə bizim Birləşmiş Nüvə Tədqiqatları İnstitutu ilə bağlıdır. Biz ümid edirik ki, fundamental və tətbiqi tədqiqatlar sahəsində əməkdaşlıq möhkəmlənəcək və dünya elminə, eləcə də Azərbaycan Respublikasının firavanlığına layiqli töhfə verəcək. Müasir Azərbaycanın tərəqqisi naminə təkmilləşmə yolunda Milli Elmlər Akademiyasına uğurlar arzulayırıq.

*Viktor Matveyev dünyanın 18 ölkəsini birləşdirən Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun yaranma tarixindən, fundamental və tətbiqi araşdırmalarından danışdı. O, üzv ölkələrin dünya elminə inteqrasiyasında ən səmərəli vasitə olan bu məşhur institutda Azərbaycan alimlərinin də uğurla təmsil olunduğunu diqqətə çatdırdı:*

– Sadəcə, bir misal çəkim. Azərbaycan Milli Elmlər Akademiyasının Həsən Abdullayev adına Fizika İnstitutunun əməkdaşları Dubnanın əməkdaşları ilə birgə sıx əməkdaşlıq edirlər. Onlar

fundamental fizikanın vacib və müasir layihələrindən birinin reallaşmasına böyük töhfə veriblər. Bu, Cenevrədəki nəhəng adron kollayderində atlas kompleksinin yaradılmasıdır. Beləliklə, onlar Nobel mükafatı ilə təltif edilən şəxslərlə tamhüquqlu həmmüəlliflərdir. Bu, fundamental elmdə son dövrlərin mühüm kəşfidir. Bu, müasir fundamental elmin təntənəsidir və əlbəttə ki, Azərbaycan öz alimləri ilə fəxr edə bilər.

*Daha sonra Viktor Matveyev elm sahəsində çalışan yeni nəslin yetişdirilməsinin bütövlükdə elmin müxtəlif sahələrinin inkişafındakı ardıcıllığın və davamlılığın təmin edilməsindəki əhəmiyyətinə toxundu, bununla əlaqədar yeni təşəbbüsləri təqdirəlayiq hesab edərək bildirdi:*

– Bu gün Azərbaycan Milli Elmlər Akademiyasında magistraturanın tətbiqi ilə bağlı xəbəri eşitmək mənim üçün çox xoşdur. Çünki biz öz təcrübəmizdə əmin olduq ki, bu gün çox vacib məsələ olan gənc, yüksəkixtisaslı alimlərin və mühəndislərin hazırlanması müasir bazanın, yeni və yüksək texnologiyaların mənimsənilməsinin reallığa çevrildiyi institutlarda mümkündür. Həmin institutlarda bu texnologiyalar, necə deyərlər, barmaqların ucu ilə, yalnız nəzəri deyil, virtual laboratoriyalar vasitəsilə mənimsənilir. Bu da çox vacibdir. Buna görə də üzv ölkələr üçün vacib olan bu cəhəti nəzərə alaraq, biz Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda müasir təhsilin infrastrukturunu inkişaf etdiririk, gənc alimlərə, mühəndislərə biliklərini artırmaq üçün xüsusi siniflər yaradırıq. Əsasən də bu, mühəndislərə təcrübə aparmağa, cihazlar, sürətləndiricilər, sürətlənmiş yüngül və ağır hissəciklər, ionlarla birbaşa işləməyə imkan yaradır. Bu mənada, düşünürəm ki, Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutu və digər institutları ilə bizim institutun qarşısında birgə böyük vəzifə durur. Biz Azərbaycan və digər üzv ölkələr üçün gənc mütəxəssislərin, mühəndislərin hazırlanması məqsədilə birgə proqram işləyib hazırlamalıyıq.

Fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının rəhbərliyinə, İlham Heydər oğlu, şəxsən Sizə, Azərbaycanın Milli Elmlər Akademiyasına və Azərbaycan hökumətinin Birləşmiş Nüvə Tədqiqatları İnstitutundakı səlahiyyətli nümayəndəsinə daimi

dəstəyə, münasibətlərin inkişafına, səmərəli və qarşılıqlı maraq doğuran əməkdaşlığın dərinləşdirilməsinə görə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istəyirəm. Düşünürəm ki, Birləşmiş Nüvə Tədqiqatları İnstitutunu inkişaf etdirməklə, biz ümumi sərvətimizi inkişaf etdiririk.

Çıxışımın sonunda Azərbaycan Milli Elmlər Akademiyasının bütün üzvlərini, bütün elmi ictimaiyyəti və Azərbaycan Respublikasını bu gözəl hadisə – Milli Elmlər Akademiyasının yaradılmasının 70 illiyi münasibətilə səmimi-qəlbdən təbrik etmək istəyirəm. Çox sağ olun. Azərbaycanın və Milli Elmlər Akademiyasının inkişafı naminə sizə böyük uğurlar arzulayıram.

## KOREYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KİM ÇANQ-GYU İLƏ GÖRÜŞ

*10 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Kim Çanq-gyunun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Kim Çanq-gyu Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Kim Çanq-gyu etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycanın Koreya ilə dostluq əlaqələrini genişləndirmək niyyətində olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında inşaat və digər ənənəvi sahələrdən başqa, əməkdaşlığımızın yeni istiqamətlərinin də mövcud olduğunu dedi. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin rolunu xüsusi qeyd etdi. Qarşılıqlı sərmayə qoyuluşuna toxunan dövlətimizin başçısı Azərbaycanın daha çox sayda Koreya şirkətlərinin ölkəmizdə fəaliyyət göstərməsində maraqlı olduğunu vurğulayaraq, investisiya qoyuluşu üçün Azərbaycanda yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev səfirin diplomatik fəaliyyəti müddətində ikitərəfli əlaqələrimizin daha da gücləndirilməsi işində səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycanın yüksək nailiyyətlər əldə etməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin rolunu xüsusi qeyd edən səfir Kim Çanq-gyu qazanılan uğurlar münasibətilə prezident İlham Əliyevə və Azərbaycan xalqına böyük ehtiramını ifadə etdi. O, ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda dərin*

*təəssürat yaratdığını* dedi. *Səfir ölkəmizdəki* diplomatik *fəaliyyəti dövründə əlaqələrimizin* daha da inkişaf *etdirilməsi ilə bağlı* Koreya *və Azərbaycan rəhbərlərinin göstərişlərinin yerinə yetirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın sərmayə* qoyu-*luşu, yüksək* texnologiyalar, *sənaye, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## FRANSA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ORELİA BUŞEZ İLƏ GÖRÜŞ

*10 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri xanım Orelia Buşezin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Orelia Buşez Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Xanım Orelia Buşez etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə Fransa arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən prezident İlham Əliyev bu əlaqələrin bir çox sahələrdə dinamik şəkildə inkişaf etdiyini vurğuladı. Fransa prezidenti Fransua Ollandın 1 il ərzində 2 dəfə Azərbaycana, özünün isə Fransaya səfərlərinə toxunan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Siyasi əlaqələrimizin uğurla inkişaf etdiyini qeyd edən prezident İlham Əliyev parlamentlər səviyyəsində də yaxşı əməkdaşlığın mövcud olduğunu vurğuladı. Ölkələrimiz arasında əlaqələrin böyük əhəmiyyət daşıdığını və getdikcə daha da möhkəmlənəcəyini bildirən dövlətimizin başçısı bunu qarşılıqlı anlaşmanın və dəstəyin çox yüksək səviyyəsi kimi dəyərləndirdi.*

*Xanım Orelia Buşez bildirdi ki, o, Fransanın Azərbaycanda səfiri olmasından məmnundur və şərəf hissi keçirir. Azərbaycanın gözəl ölkə, Bakının isə ecazkar şəhər olduğunu vurğulayan fransalı diplomat paytaxtımızda qədim və müasir arxitekturanın uğurlu sintezinə valeh olduğunu bildirdi. Ölkəmizdə iqtisadi sahədə əldə olunan nailiyyətlərin də onda dərin təəssürat yaratdığını deyən səfir*

*Azərbaycandakı* sabitliyi *və* dini *tolerantlığı yüksək* qiymət*ləndirərək*, bunun Avropa *ölkələri üçün də nümunə* ola *biləcəyini vurğuladı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ* münaqişə-sinin *tezliklə və ədalətli həll olunması, ölkələrimiz* arasında *əmək-daşlığın müxtəlif istiqamətlərdə*, o *cümlədən* enerji, investisiya qo-*yuluşu, yüksək* texnologiyalar, kosmik *sənaye*, infrastruktur, *nəq-*liyyat, *mədəniyyət və digər sahələrdə* genişləndirilməsi *ilə bağlı məsələlər ətrafında* fikir *mübadiləsi aparıldı.*

## BMT-nin AZƏRBAYCANDAKI REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ ANTONİUS BROEK İLƏ GÖRÜŞ

*11 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Antonius Broeki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

Antonius Broekin ölkəmizdəki uğurlu diplomatik fəaliyyətini yüksək qiymətləndirən dövlətimizin başçısı Birləşmiş Millətlər Təşkilatının yaradılmasının 70 illik yubileyi münasibətilə, BMT-nin Azərbaycanda müxtəlif sahələrdə layihələrin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə onun Azərbaycanın «Tərəqqi» medalı ilə təltif edildiyini bildirdi və medalı diplomata təqdim etdi. Ölkəmiz ilə BMT arasında əməkdaşlığa toxunan prezident İlham Əliyev tərəfdaşlığımızın səviyyəsindən və müxtəlif əhəmiyyətli layihələrin praktiki surətdə həyata keçirilməsindən məmnunluğunu ifadə etdi.

Azərbaycanın «Tərəqqi» medalına layiq görüldüyünə görə dövlətimizin başçısına minnətdarlığını bildirən BMT-nin rezident əlaqələndiricisi Antonius Broek bunu onların fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirdi.

Görüşdə Azərbaycan ilə BMT arasında əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik ifadə olundu.

# MÜDAFİƏ NAZİRLİYİ HƏRBİ HAVA QÜVVƏLƏRİNİN HƏRBİ ŞƏHƏRCİYİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*11 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 11-də Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin N hərbi hissəsinin hərbi şəhərciyində yaradılan şəraitlə tanış olmuşdur.*

*Müdafiə naziri Zakir Həsənov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev hərbi şəhərciyin baş planı ilə tanış oldu. Məlumat verildi ki, ərazidə əsgər yeməkxanası, yataqxana, anqarlar, təlim-məşq sinfi, tibb məntəqəsi inşa olunub. Hərbi hissənin ərazisində qarovul binası, komanda məntəqəsi, qazanxana, elektrik yarımstansiyası yaradılıb. Burada tikinti işlərinə 2014-cü ilin aprelində başlanılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb, əsgər və zabitlərin istirahəti üçün guşələr yaradılıb.*

*Dövlətimizin başçısı əsgər yeməkxanasında yaradılan şəraitlə tanış oldu.*

*Sonra Ali Baş Komandan əsgər yataqxanasında oldu. Yataqxananın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin əsgər və zabitlərlə görüşlərini əks etdirən fotostend yaradılıb. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bütün ərazi tam mühafizə olunur və nəzarətdədir. Quraşdırılan xüsusi kameralar kənar şəxslər əraziyə daxil olarkən həmin istiqamətə yönəlir və avtomatik siqnalizasiya işə düşür. Əsgər yataqxanasında ideoloji, məişət xidməti və yataq otaqları ən müasir səviyyədə qurulub. Yataqxanada əşya anbarları, hamam və digər zəruri otaqlar var.*

*Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin N hərbi hissəsinin hərbi şəhərciyində yaradılan şərait bir daha təsdiq edir ki, Azərbaycan dövlətinin iqtisadi qüdrəti artdıqca, hərbi sahənin daha da müasirləşdirilməsi, əsgər və zabitlərin xidmət şəraitlərinin yax-*

*şılaşdırılması, onların hərbin sirlərinə dərindən yiyələnmələri istiqamətində mühüm layihələr yerinə yetirilir.*

*Prezident İlham Əliyevə texnika parkı haqqında da məlumat verildi. Buradakı müasir texnikalar döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Parkda, həmçinin texnikaya texniki xidmət, təmir və yanacaqdoldurma məntəqələri fəaliyyət göstərir.*

*Sonra Ali Baş Komandan hərbi hissənin raket anbarına baxdı. Dövlətimizin başçısı S-300 PMU-2 Favorit Zenit Raket Briqadasına baxış keçirdi, şəxsi heyətin praktiki fəaliyyəti və döyüş növbətçiliyi ilə tanış oldu. Prezident İlham Əliyevə anbar, raketlər və raketlərin döyüş mövqeyinə daşınması üçün nəzərdə tutulan texnikalar barədə məlumat verildi.*

*Dövlətimizin başçısı bu il sentyabrın 15-də cəbhənin Ağdam istiqamətində hərbçilərimiz tərəfindən məhv edilmiş Ermənistanın X-55 pilotsuz uçan aparatının qalıqlarına baxdı.*

*Ali Baş Komandana Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin bir sıra hərbi texnikası barədə məlumat verildi. Bildirildi ki, döyüşün idarəetmə məntəqəsi də ən müasir hərbi avadanlıqlarla təchiz edilib.*

*Dövlətimizin başçısı təlim-məşq kompleksi ilə tanış oldu. Kompleksdə döyüş növbətçiliyinin aparılmasının təşkili, şəxsi heyətin döyüş texnikası ilə işləmə səriştələri yoxlanılır. Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan raketlərin start mövqeyinə gəldi, burada atıcı qurğulara baxdı.*

*Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin N hərbi hissəsinin hərbi şəhərciyində görülən işlər ölkəmizin hərbi qüdrətini bir daha nümayiş etdirir. Ümumiyyətlə, son illər ərzində ordumuzun maddi-texniki bazası daha da möhkəmlənib. Son illər ordumuzun qüdrətinin artırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Ordusu nəinki regionun, eləcə də dünyanın ən güclü ordularından biridir. Ordumuz ən müasir silah-sursat, texnika, avadanlıq ilə təchiz edilib. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə istənilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdir.*

## BMT-nin ƏHALİ FONDUNUN İCRAÇI DİREKTORU BABATUNDE OSOTİMEHİN İLƏ GÖRÜŞ

*12 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də BMT-nin Əhali Fondunun icraçı direktoru, BMT Baş katibinin müavini Babatunde Osotimehini qəbul etmişdir.*

*BMT ilə uğurlu əməkdaşlığa görə dövlətimizin başçısına minnətdarlığını bildirən Babatunde Osotimehin əlaqələrimizin inkişaf etdirilməsinə Azərbaycan hökuməti tərəfindən yaradılan şəraitdən məmnunluğunu ifadə etdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə BMT-nin Qahirədə keçirilmiş Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirak etdiyini böyük ehtiramla xatırladan Babatunde Osotimehin ölkəmizin insan haqları və uşaq hüquqları məsələsində böyük nailiyyətlər qazandığını və gender bərabərliyinə, qadın və ana hüquqlarının qorunmasına önəm verdiyini vurğuladı, Azərbaycanda bu istiqamətdə görülən işləri yüksək dəyərləndirdi. Ölkəmizin əlverişli coğrafi mövqeyinə və əldə etdiyi uğurlara toxunan qonaq Azərbaycanın regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi baxımından da rolunu xüsusi qeyd etdi. Təmsil etdiyi təşkilatın Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirən Babatunde Osotimehin birgə proqramların hazırlanmasının və BMT-nin müxtəlif təsisatları ilə əməkdaşlığın əhəmiyyətini vurğuladı. O, ölkəmizlə təhsil, səhiyyə, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlıq etmək niyyətində olduqlarını dedi.*

*Dövlətimizin başçısı ölkəmiz haqqında və əldə olunan nailiyyətlərlə bağlı dediyi xoş sözlərə görə BMT-nin Əhali Fondunun icraçı direktoru, BMT Baş katibinin müavini Babatunde Osotimehinə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini bərpa etməsindən ötən müddət ərzində sosial siyasətin*

həmişə prioritet məsələlərdən biri olduğunu və əsas diqqətin ölkənin ehtiyaclarının ödənilməsinə yönəldiyini qeyd etdi. Sosial siyasətin icra olunmasında iqtisadiyyatın rolunu xüsusi qeyd edən dövlətimizin başçısı bildirdi ki, güclü iqtisadiyyat olmadan sosial proqramların həyata keçirilməsi mümkün deyildir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanda insanların gündəlik həyatına mənfi təsir göstərmədən iqtisadi islahatlar həyata keçirilməklə, sosial proqramlar da paralel olaraq icra edildi və nəticədə iqtisadiyyat gücləndikcə insanların həyat şəraiti də yaxşılaşmağa başladı. Səhiyyə sahəsində islahatlara toxunan dövlətimizin başçısı ölkədə 500-dən artıq müasir xəstəxananın inşa olunaraq ən yeni tibbi avadanlıqlarla təchiz edildiyini, hər il milyonlarla insanın pulsuz tibbi müayinə olunduğunu vurğulayaraq, bütün bunları ölkədə həyata keçirilən sosial siyasətin əhəmiyyətli bir hissəsi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Azərbaycanın BMT və onun ayrı-ayrı təsisatları ilə əməkdaşlığı müxtəlif sahələrdə genişləndirməkdə maraqlı olduğunu dedi.

Sonra Babatunde Osotimehin BMT-nin 1994-cü ildə Qahirədə keçirilmiş Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransından irəli gələn məsələlərin reallaşdırılmasında siyasi iradə, yorulmaz fəaliyyət və böyük səylər göstərdiyinə, eləcə də Davamlı İnkişaf Proqramının Azərbaycanda dəstəklənməsi, o cümlədən qadınların və gənclərin sağlam həyat şəraiti imkanlarının genişləndirilməsi istiqamətindəki xidmətlərinə görə BMT-nin Əhali Fondu adından mükafatı prezident İlham Əliyevə təqdim etdi.

## BÖYÜK BRİTANİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Böyük Britaniya Lordlar Palatasının üzvü, Leyboristlər Partiyasının nümayəndəsi, «Senate Consulting Ltd» şirkətinin təsisçisi, «Discover Azerbaijan: Baku–2015 edition» kitabının layihə direktoru Lord Devid Evansdan, Mühafizəkarlar Partiyasının nümayəndəsi Lord Riçard Rizbidən, Böyük Britaniya parlamentinin üzvləri, Leyboristlər Partiyasının nümayəndələri Rocer Dankan Qodsifdən, Stiv Ceyms Makkabedən, xanım Patrisia Skotlanddan və «Senate Consulting Ltd» şirkətinin icraçı direktoru xanım Karolin Minşeldən ibarət Böyük Britaniya nümayəndə heyətini qəbul etmişdir. Dövlətimizin başçısı Böyük Britaniya nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağına və uğurla inkişaf edən ikitərəfli əlaqələrimizin gücləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev əməkdaşlığımızın kifayət qədər geniş istiqamətləri, o cümlədən siyasi, iqtisadi, enerji, təhlükəsizlik və digər sahələri əhatə etdiyini vurğulayaraq ölkələrimiz arasında parlamentlərarası əlaqələrin də böyük əhəmiyyət daşıdığını dedi.*

*Böyük Britaniya Lordlar Palatasının üzvü, Mühafizəkarlar Partiyasının nümayəndəsi Lord Riçard Rizbi ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi. Qonaq Azərbaycan prezidenti İlham Əliyevin beynəlxalq məsələlərə dair fikirlərinin onlar üçün hər zaman böyük maraq doğurduğunu dedi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

Paris şəhərində törədilmiş amansız terror aktları nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Bu ağır anlarda biz Fransa xalqı ilə, Sizinləyik.

Baş vermiş bu facià ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Fransa xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 noyabr 2015-ci il*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*Antalya*

*14 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Böyük İyirmilik»in (G20) Antalya şəhərində keçirilən Sammitində iştirak etmək üçün noyabrın 14-də Türkiyə Respublikasına işgüzar səfərə gəlmişlər.*

*Antalya Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentini və xanımını Türkiyənin yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## ALİ QONAQLARIN ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*Antalya*

*14 noyabr 2015-ci il*

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın adından noyabrın 14-də «Böyük İyirmilik»in (G20) Antalya şəhərində keçirilən Sammitində iştirak edən dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin və onların xanımlarının şərəfinə nahar verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva naharda iştirak etmişlər.*

*Nahardan sonra ənənəvi türk əl sənətləri olan ebru və şüşə işləmələrindən nümunələr nümayiş etdirildi.*

*Sərgini izləyən dövlət başçılarına, beynəlxalq təşkilatların nümayəndələrinə və onların xanımlarına bu sənətlər barədə məlumat verildi. Bildirildi ki, ebru ənənəvi türk təsviri sənəti növüdür. Təsvir əvvəlcə xüsusi boyalarla su səthində çəkilir, sonra kağıza hopdurulur.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ebrulardan birinin hazırlanması prosesində iştirak etdi.*

# «BÖYÜK İYİRMİLİK» ÖLKƏLƏRİ LİDERLƏRİNİN SAMMİTİNDƏ İŞTİRAK

*Antalya*

*15 noyabr 2015-ci il*

*Türkiyənin Antalya şəhərində noyabrın 15-də «Böyük İyirmilik» ölkələri liderlərinin Sammiti öz işinə başlamışdır.*

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Sammitdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və digər ölkələrin dövlət başçılarını, həmçinin beynəlxalq təşkilatların rəhbərlərini qarşıladı.*

*Zirvə görüşünün iştirakçıları birgə foto çəkdirdilər.*

*«Böyük İyirmilik» ölkələri liderlərinin Sammitində iştirak etmək üçün Antalyaya 13 min nümayəndə gəlib. 2 gün davam edəcək Sammit çərçivəsində 7 böyük toplantı keçiriləcək. Sammitin gündəliyinə qlobal iqtisadiyyat məsələləri ilə yanaşı, terrorçuluğa qarşı mübarizə, qaçqın problemi kimi aktual mövzular da daxildir.*

*Sayca 10-cu dəfə keçirilən bu Sammitdə Azərbaycan xüsusi dəvətli qonaq statusunda təmsil olunur. Tədbirin ənənəsinə görə, toplantıya ev sahibliyi edən ölkə tərəfindən fəxri qonaq dəvət edilir. Türkiyənin fəxri qonaq qismində Azərbaycanı seçməsi ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinin bir daha təsdiqi olmaqla yanaşı, Azərbaycanın iqtisadi potensialına verilən önəmin göstəricisidir. Qlobal iqtisadiyyata töhfə verəcək, Cənub-Şərqi Asiya regionundan Avropaya qədər geniş bir ərazini əhatə edən iki böyük layihənin – Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin və TACIS proqramının təşəbbüskarı və iştirakçısı kimi, Azərbaycanın bu Sammitdə iştirakına böyük əhəmiyyət verilir. Çünki Azərbaycan güclü iqtisadi potensiala malik ölkə və sabitlik adası kimi, Qərbin, ümumiyyətlə,*

dünyanın diqqət mərkəzindədir. Etibarlı tərəfdaş kimi, Azərbaycan regionla yanaşı, dünya iqtisadiyyatına da böyük töhfələr verir.

«G20»nin Antalya Sammiti Ankarada və Parisdə törədilmiş terror aktları qurbanlarının xatirəsinin yad olunması ilə başlandı.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan dedi ki, Fransa paytaxtında baş verən terror hadisəsi iqtisadiyyat və təhlükəsizlik arasındakı əlaqənin bir-biri ilə sıx bağlı olduğunu göstərir. Son illər Suriyada, bu ilin son 4 ayında Türkiyədə, daha sonra Parisdə törədilən terror aktları göstərdi ki, terrorizm bütün dünyada sülh və təhlükəsizliyə təhdid olmaqda davam edir. Terrorla mübarizədə qəti addımlar atılmalıdır və bu baxımdan Antalya Sammiti xüsusi əhəmiyyət daşıyır.

Türkiyə Prezidenti bildirdi ki, «Böyük İyirmilik»in diqqət mərkəzində əsasən iqtisadiyyat, siyasət, sosial məsələlər olsa da, insan amili məsələsini bunlardan ayırmaq düzgün deyil. Son hadisələr bir daha göstərir ki, dünyada sülhün bərqərar olması üçün əməkdaşlığı gücləndirməliyik.

Prezident Rəcəb Tayyib Ərdoğan diqqəti humanitar problemə çevrilmiş və ağır nəticələr verən qaçqın böhranına yönəltdi. Bildirdi ki, qaçqın məsələsi beynəlxalq səviyyədə müzakirə olunmalı və bu sahədə əməkdaşlıq daha da möhkəmləndirilməlidir. Beynəlxalq birliyin bu sahədə fəaliyyəti lazımi səviyyədə deyil. «G20»nin Antalya Sammiti bu məsələnin həllində tarixi rol oynaya bilər.

Türkiyə dövlətinin başçısı təəssüflə vurğuladı ki, «G20»nin Sammiti təkcə böhran zamanlarında xatırlanacaq bir platforma olmamalıdır. Qlobal iqtisadi böhranın başlandığı 2008-ci ildən bəri bu problemi həll etmək mümkün olmur. Atılan bütün addımlara baxmayaraq, hələ də güclü iqtisadi uğurlara nail olmamışıq. Bu baxımdan beynəlxalq birliyin atacağı addımlar getdikcə daha çox əhəmiyyət kəsb edir.

Prezident Rəcəb Tayyib Ərdoğan Antalya Sammitində müzakirə olunacaq məsələlərin müsbət nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Qeyd edək ki, «Böyük İyirmilik»ə daxil olan ölkələr dünya sənayesinin 85 faizini, ümumi daxili məhsulun 90 faizini, dünya

*ticarətinin 80 faizini təmsil edir. Dünya əhalisinin üçdə iki hissəsi «Böyük İyirmilik»in üzvü olan ABŞ, Böyük Britaniya, Türkiyə, Yaponiya, Kanada, Almaniya, Fransa, İtaliya, Rusiya, Avstraliya, Braziliya, Hindistan, Çin, İndoneziya, Meksika, Səudiyyə Ərəbistanı, Cənubi Afrika Respublikası, Argentina, Koreya Respublikası və Avropa İttifaqı ərazisində yaşayır.*

# «BÖYÜK İYİRMİLİK»İN SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ MÜZAKİRƏLƏRDƏ ÇIXIŞ

*Antalya*

*15 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Türkiyənin Antalya şəhərində «Böyük İyirmilik» ölkələri liderlərinin Sammiti çərçivəsində iqtisadi inkişaf, sərmayələr, məşğulluq mövzularında keçirilən müzakirələrdə çıxış etmişdir.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsi dəvəti ilə Azərbaycanın ilk dəfə olaraq belə mötəbər beynəlxalq tədbirdə iştirak etdiyini vurğulayaraq, bu dəvətə görə Türkiyə dövlətinin başçısına minnətdarlığını bildirdi.*

*Azərbaycan Prezidenti son vaxtlar Türkiyədə və Fransada baş vermiş terror aktları ilə əlaqədar bu ölkələrin xalqlarına başsağlığı verdi və dedi ki, Azərbaycan Türkiyənin və Fransanın yanındadır.*

*Sonra prezident İlham Əliyev çıxışında son illər Azərbaycanın iqtisadi inkişaf yolunda əldə etdiyi mühüm nailiyyətləri diqqətə çatdırdı, ölkəmizdə yaradılmış əlverişli sərmayə mühiti, işsizliyin aradan qaldırılması, yoxsulluğun kəskin şəkildə azaldılması istiqamətində görülən işlərdən danışdı.*

## «G20»NİN SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN İŞÇİ NAHARDA TERRORİZMƏ QARŞI MÜBARİZƏ VƏ QAÇQINLAR BÖHRANI MÖVZUSUNDA MÜZAKİRƏLƏRDƏ ÇIXIŞ

*Antalya*

*16 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da «Böyük İyirmilik»in (G20) Antalya Sammiti çərçivəsində keçirilən işçi lançda çıxış etmişdir.*

*Dövlətimizin başçısı çıxışında Azərbaycan ilə Türkiyə arasında yüksək səviyyəli əlaqələrin inkişaf etdiyini vurğulayaraq, Türkiyənin Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olduğunu xatırlatdı. Ölkələrimiz arasında energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirən prezident İlham Əliyev Azərbaycan ilə Türkiyənin birgə reallaşdırdıqları mühüm energetika və digər layihələrin yalnız regionda deyil, dünya miqyasında da böyük əhəmiyyətə malik olduğunu dedi. Bu baxımdan «Cənub Qaz Dəhlizi» layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin olunması işində önəmini vurğulayaraq, həmin layihənin həyata keçirilməsində əlaqələndirmənin gücləndirilməsinin əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın energetika sahəsində əldə etdiyi uğurlara toxundu. Ölkəmizin neft hasilatı sahəsində böyük tarixə və təcrübəyə malik olduğunu söyləyən dövlətimizin başçısı dünyada sənaye üsulu ilə dənizdə neftin ilk dəfə Azərbaycanda çıxarıldığını bildirdi.*

*Azərbaycan Prezidenti müstəqillik dövründə həyata keçirilən enerji layihələri, xüsusilə 1994-cü ildə imzalanan «Əsrin müqaviləsi» və bu müqavilənin dünyanın enerji xəritəsində tutduğu*

*mühüm yer, Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri haqqında da danışdı. Prezident İlham Əliyev vurğuladı ki, həmin illərdən ötən dövr ərzində Azərbaycanın energetika sahəsində beynəlxalq əməkdaşlığı daha da genişlənib və bu gün də uğurla davam edir.*

**İ l h a m Ə l i y e v:** Ölkələrimiz arasında tərəfdaşlıq daim artmaqdadır. O cümlədən Türkiyə ilə energetika sahəsində regional tərəfdaşlıqdan qlobal tərəfdaşlığa keçib. Biz Türkiyə ilə birgə mühüm energetika layihələrini çox uğurla həyata keçiririk.

Azərbaycan XIX əsrin ortalarında neftin çıxarıldığı ilk ölkədir. Sonra – XX əsrin ortalarında Abşeronda neft hasilatı geniş vüsət aldı. İndi, XXI əsrdə biz «Cənub Qaz Dəhlizi» layihəsini həyata keçiririk. Artıq xeyli hissəsi gerçəkləşdirilmiş bu layihə Azərbaycanın və Türkiyənin fəal iştirakı ilə uğurla reallaşır. Mən Türkiyə və Azərbaycanı, Xəzər və Aralıq dənizlərini birləşdirən layihəni nəzərdə tuturam. Bu, tarixdə ilk hadisədir. Həmçinin Türkiyə və Azərbaycanı birləşdirən qaz boru kəmərini qeyd edirəm. Beləliklə də, biz təkcə neft deyil, həm də qaz ixrac edən ölkəyə çevrilirik. Hər 2 layihə təxminən 10 il bundan əvvəl həyata keçirilməyə başlanıb. Onların fəaliyyəti bizə daha çox neft və qaz satmağa, tərəfdaşlarımıza isə alternativ enerji mənbələrindən istifadə etməyə kömək edir.

Məlum olduğu kimi, Xəzər dənizinin dünya okeanına çıxışı yoxdur. Buna baxmayaraq, Azərbaycan ilk ölkədir ki, belə bir şəraitdə öz təbii ehtiyatlarını dünyaya çatdıra bilir. Biz şadıq ki, 1994-cü ildə tərəfdaşlarımızla birgə işə başladıq. O vaxtdan bu tərəfdaşlıq uğurla davam edir. Mən həmçinin demək istəyirəm ki, ölkələrimiz və dostlarımız arasında olan bu tərəfdaşlıq bizə bu layihələri həyata keçirməyə imkan verib. Biz ümid edirik ki, «Cənub Qaz Dəhlizi» layihəsi də uğurla gerçəkləşəcək. Mən dəstəyə və eyni istiqamətdə irəli hərəkət etməyimizə görə prezident Ərdoğana təşəkkürümü bildirmək istəyirəm. Bizim yaxşı investorlarımız var. Həmçinin Birləşmiş Ştatların bütün reallaşan layihələrə dəstək verdiyinə görə prezident Obamaya minnətdarlığımı bildirmək istərdim. Bu dəstək olmadan biz xüsusilə keçən əsrin 90-cı illərinin

ortalarında əldə etdiyimiz uğurlara nail ola bilməzdik. Həmçinin Böyük Britaniyanın Baş naziri Kemerona təşəkkür etmək istərdim. Böyük Britaniya artıq 20 ildən çoxdur ki, Azərbaycanda ən böyük sərmayədardır. Bu bizə həm ticarətdə, həm də investisiya və digər sahələrdə tərəfdaşlığımızı çox yüksək səviyyəyə çatdırmağa imkan verdi. Mən dostum Renziyə bununla bağlı təşəkkür etmək istərdim. İtaliya bundan sonra da bu qazın ən böyük idxalçısı olacaq. Bu layihənin həyata keçirilməsi bizə İtaliya vasitəsilə digər ölkələrin bazarlarına çıxmağa imkan verəcək. 45 milyard dollar məbləğində olan sərmayələr hasil edilən qazın Xəzər dənizi sahilindən nəqlini mümkün edəcək vahid qaz şəbəkəsini yaratmağa imkan verəcək. Həmin qaz Gürcüstan və Türkiyə ərazisindən keçərək Yunanıstana, Bolqarıstana, daha sonra Albaniyaya və nəhayət, Adriatik dənizindən İtaliyaya daxil olacaq. Bu layihə müvafiq ölkələrin hökumətlərinin və şirkətlərinin göstərdiyi səylərin əlaqələndirilməsini tələb edir və biz artıq həmin əlaqələndirmənin, əməkdaşlığın nəticələrini görürük.

Azərbaycanın qaz ehtiyatları 2,6 trilyon kubmetr həcmində qiymətləndirilir. Bu, təsdiqlənmiş rəqəmdir. Potensial ehtiyatların həcmi isə 5 trilyon kubmetr təşkil edir. Belə həcm bizim üçün, qonşularımız və Avropa istehlakçıları üçün ən azı 100 ilə kifayətdir. Bu, enerji təhlükəsizliyi layihəsidir. Bu gün enerji təhlükəsizliyi məsələsinə ölkənin milli təhlükəsizliyindən ayrı baxıla bilməz. Bu, şaxələndirmə layihəsidir. Bu halda şaxələndirmə tək marşrutların deyil – halbuki bu əhəmiyyətlidir – həm də mənbələrin şaxələndirilməsi deməkdir. Bu baxımdan bizim mənbə Avropa üçün yenidir. Bizim marşrut Avropa üçün yeni marşrutdur. Layihə Avropanın enerji xəritəsini tam dəyişəcək. Azərbaycan özünü artıq etibarlı tərəfdaş kimi göstərib. Əlbəttə ki, biz tranzit, istehlakçı və hasilatçı ölkələrin maraqlarını təmin etməliyik. Bu məqsədlərə nail olmaqdan ötrü biz bütün tərəflər üçün əlverişli şərait yaratmalıyıq. Çox sağ olun.

* * *

*«Böyük İyirmilik»in Sammiti çərçivəsində prezident İlham Əliyevin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, ABŞ prezidenti Barak Obama, Rusiya prezidenti Vladimir Putin, Böyük Britaniyanın Baş naziri Devid Kemeron, Almaniyanın Kansleri Angela Merkel, İtaliyanın Baş naziri Matteo Renzi, Malayziyanın Baş naziri Nacib Rezak, Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə ikitərəfli münasibətlərin inkişafına dair qısa söhbətləri oldu.*

*«Böyük İyirmilik»in Antalya Sammitində Azərbaycanın təmsil olunması, dövlətimizin başçısının dünya liderləri ilə birlikdə müasir dövrün ən aktual məsələlərinin müzakirələrində yaxından iştirak etməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunun getdikcə artmasını sübut edən daha bir amildir. Bu həm də dünya miqyasında Azərbaycana verilən önəmin daha bir nümunəsidir.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri noyabrın 16-da başa çatmışdır.*

*Antalya Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Türkiyənin yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RAYMONDS VEYONİSƏ**

Hörmətli cənab Prezident!

Latviya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Latviya arasındakı ənənəvi dostluq münasibətləri, qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Latviya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2015-ci il*

**OMAN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Oman xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2015-ci il*

## İLHAM ƏLİYEV: «G20»NİN ANTALYA SAMMİTİNDƏ QƏBUL EDİLMİŞ QƏRARLAR QLOBAL PROBLEMLƏRİ HƏLL EDƏN BİRGƏ FƏALİYYƏTƏ DƏSTƏK OLACAQ»

*16 noyabr 2015-ci il*

*Türkiyənin Antalya şəhərində noyabrın 15–16-da keçirilən «Böyük İyirmilik»in (G20) üzvü olan dövlət və hökumət başçılarının Sammiti ilə bağlı xüsusi nəşr buraxılmışdır. Xüsusi nəşrdə Sammitdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Ümumi strategiyanın formalaşdırılması» məqaləsi dərc olunmuşdur. Məqalə «G20»nin saytında da verilib. Məqaləni təqdim edirik.*

* * *

Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş və inkişafda olan dövlətlərinin birləşdiyi «Böyük İyirmilik» (G20) qlobal dünyanı narahat edən müxtəlif çağırışlara cavab vermək gücünə malik əlverişli platformadır. 2015-ci ildə «G20»yə Türkiyənin sədrlik etməsi bizim region ölkələri, o cümlədən Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Türkiyə ötən dövrdə həm «Böyük İyirmilik»in üzvü olan dövlətlər, həm də «G20» ilə digər ölkələr arasında əlaqələrin inkişafına böyük diqqət yetirmiş, qarşılıqlı əməkdaşlıq şəraitində müsbət nəticələr əldə olunmasına sanballı töhfə vermişdir. Son dövrlərdə həyata keçirdiyi uğurlu siyasət nəticəsində Türkiyə dünyanın inkişaf etmiş dövlətlərindən birinə və təsirli güc mərkəzinə çevrilmişdir. Azərbaycan öz strateji müttəfiqinin uğurlarından, onun bölgədə getdikcə sülhün və təhlükəsizliyin əsas qarantlarından biri kimi çıxış etməsindən xüsusi məmnunluq duyur. Azərbaycan həm də bugünkü toplantıda Türkiyənin birbaşa dəvəti ilə tamhüquqlu üzv

qismində iştirak edir və buna görə də mən şəxsən prezident Rəcəb Tayyib Ərdoğana dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan 24 illik müstəqilliyi dövründə özünəməxsus inkişaf yolu keçib. 1995-ci ildə ölkədə demokratik normalara cavab verən yeni Konstitusiya qəbul olunub, çoxpartiyalı sistem əsasında parlament formalaşdırılıbdır. Bunun ardınca hüquqi dövlət quruculuğu çərçivəsində hakimiyyətlərin bölünməsi və demokratik idarəçilik təmin edilib, həyata keçirilən islahatlar nəticəsində liberal iqtisadi sistem formalaşıb, insan hüquqları, plüralizm, söz və məlumat azadlığı, azad internet bərqərar olub, vətəndaş cəmiyyəti institutlarının inkişafına hərtərəfli dövlət dəstəyi göstərilibdir.

Bu gün Azərbaycan möhkəm daxili sabitliyə, cəmiyyətdə hökm sürən vətəndaş birliyinə və həmrəyliyinə, millətlər və dinlərarası sülhə, tolerantlıq mühitinə, liberal, dayanıqlı və dinamik iqtisadiyyata söykənərək özünün inkişaf modelini dünyaya təqdim edir.

1994-cü ildə Azərbaycanın təşəbbüsü ilə dünyanın qabaqcıl ölkələrini təmsil edən şirkətlərlə Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına ixracı sahəsində «Əsrin müqaviləsi» imzalanmış, sonrakı mərhələdə isə Avropanın və dünyanın enerji təhlükəsizliyində mühüm rol oynayan Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz boru kəmərləri kimi nəhəng enerji layihələri reallaşdırılmışdır. Bu layihələr həm dünya iqtisadiyyatı, həm də Azərbaycanın müstəqil inkişafı üçün mühüm əhəmiyyət daşımış, ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmlənməsində müstəsna rol oynamışdır.

**Şaxələndirilmiş iqtisadiyyat.** Öz enerji təhlükəsizliyinə nail olan Azərbaycan bu gün başqa ölkələrin etibarlı enerji təminatında mühüm rol oynayır. Hazırda «Cənub Qaz Dəhlizi» çərçivəsində Türkiyə və avropalı tərəfdaşlarımızla inşasına başladığımız TANAP və TAP kimi transmilli qaz ixracı layihələri vasitəsilə Xəzərin zəngin təbii qaz ehtiyatlarının Avropaya nəqli üzərində ciddi iş aparırıq. «Şahdəniz-2» layihəsinin işlənməsi və Xəzər hövzəsinin zəngin təbii qaz yataqlarının dövriyyəyə buraxılması həm Azər-

baycanın bundan sonrakı dövrdə davamlı inkişafını təmin edəcək, həm də Avropanın enerji təhlükəsizliyinə ciddi töhfə verəcəkdir.

Azərbaycan regionda və daha geniş coğrafiyada transmilli kommunikasiya xətlərinin, müasir infrastruktura malik nəqliyyat-tranzit dəhlizlərinin yaradılması işində fəal rol oynayır və artıq, demək olar ki, bölgənin nəqliyyat-logistika mərkəzinə çevrilməkdədir. Keçən il istifadəyə verdiyimiz Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, yaratdığımız müasir beynəlxalq hava nəqliyyatı sistemi və nəhayət, bu yaxınlarda istifadəyə veriləcək Bakı–Tbilisi–Qars dəmir yolu Azərbaycanı Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin, Avropa–Asiya əlaqələrinin mərkəzi ölkəsinə çevirəcəkdir.

Reallaşdırılan səmərəli iqtisadi siyasətin nəticəsi olaraq, son 12 ildə Azərbaycanda ümumdaxili məhsul 3,4 dəfə, qeyri-neft sektoru və sənaye istehsalı 3 dəfə artıb, iqtisadiyyatda qeyri-neft sektorunun çəkisi ildən-ilə yüksələrək, 2015-ci ilin 8 ayının göstəricilərinə görə 68,4 faizə çatıb. Bu, ölkədə iqtisadiyyatın şaxələndirildiyini və neft amilindən asılılığın xeyli azaldığını açıq şəkildə göstərir. 2003-cü ildən ötən dövr ərzində Azərbaycan iqtisadiyyatına 200 milyard dollara yaxın investisiya qoyulub ki, bunun da mühüm bir hissəsini xarici sərmayə təşkil edir. İqtisadiyyatın ənənəvi sahələri modernləşdirilib, ölkədə turizm, kosmik sənaye, müdafiə sənayesi, informasiya-kommunikasiya texnologiyaları və digər yeni istiqamətlər yaradılıb. Azərbaycan özünün 2 süni peykini orbitə buraxaraq, dünyanın kosmik dövlətləri sırasına qatılıbdır.

Azərbaycanda sosial məsələlərin həlli, əhalinin rifahının yüksəldilməsi və məşğulluğunun artırılması dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində regionlarda minlərlə istehsal obyekti yaradılıb, həmçinin ölkədə 1,4 milyon yeni iş yeri açılıb ki, bunun da 1 milyonu daimi iş yeridir. Bu dövr ərzində əhalinin gəlirləri 6,5 dəfə artıb, işsizlik səviyyəsi 4,9 faizə, yoxsulluq isə 5 faizə enib.

**Mühüm məsələlərin həlli.** Azərbaycanda ərzaq təhlükəsizliyi məsələsinin həlli, əhalinin əsas ərzaq məhsulları ilə daxili istehsal hesabına etibarlı təminatı prioritet vəzifə kimi müəyyən edilib. Mühüm dövlət proqramlarının qəbul olunması və uğurlu icrası

nəticəsində kənd təsərrüfatının davamlı inkişafı təmin edilib və ərzaq təhlükəsizliyi sahəsində qarşıya qoyulan vəzifələr əsasən yerinə yetirilib. 2005–2014-cü illərdə Azərbaycanda kənd təsərrüfatı 48,9 faiz, ərzaq məhsulları istehsalı isə 39 faiz artıb.

Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, investorların hüquq və mənafelərinin qorunması, yerli və xarici sahibkarlara əlverişli iş şəraitinin təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib, ölkə iqtisadiyyatında özəl sektorun payı 82 faizə yüksəlibdir. 2002-ci ildən bu günə kimi Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə iş adamlarına 2 milyard dollardan çox güzəştli kredit verilib, təkcə 2014-cü ildə bu rəqəm 380 milyon dollar təşkil edib.

Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 10 faizindən bir qədər çoxdur ki, bu da dünyada ən aşağı göstəricilərdən biri hesab olunur. Nüfuzlu beynəlxalq iqtisadi, maliyyə və reytinq mərkəzləri Azərbaycan iqtisadiyyatının davamlı şəkildə inkişafını proqnozlaşdırır, bu məqsədlə həyata keçirilən tədbirləri təqdirəlayiq hesab edirlər. Davos Dünya İqtisadi Forumunun 2014–2015-ci illər üçün Qlobal Rəqabətlilik Hesabatına əsasən, Azərbaycan rəqabətqabliyyətlilik indeksi üzrə dünyanın 144 ölkəsi arasında 38-ci yerə yüksəlib.

Azərbaycanda bütün tədbirlər dünya iqtisadiyyatının inkişaf meyilləri nəzərə alınmaqla, konkret proqramlar əsasında və müasir texnologiyalar tətbiq olunmaqla gerçəkləşdirilir. Ölkəmiz həm dünyadakı mövcud innovasiyaları mənimsəyir, həm də ayrı-ayrı sahələri əhatə edən yeniliklərin təşəbbüskarı kimi çıxış edir. Bu mənada Azərbaycanın «brendi» olan Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini və onun tabeliyində yaradılan «ASAN xidmət» mərkəzlərini xüsusi qeyd etmək lazımdır. «ASAN xidmət» dövlət–vətəndaş münasibətlərinə yeni yanaşmanın, ictimai xidmətlərin mütərəqqi modelidir və bürokratik əngəllərin, mümkün korrupsiya hallarının aradan qaldırılmasına olduqca müsbət təsir göstərir. Hazırda «ASAN xidmət» nümunəsi digər ölkələr tərəfindən də yaxından öyrənilir və bu təcrübə geniş yayılır.

**Multikulturalizm.** Bu gün Azərbaycan beynəlxalq arenada müstəqil siyasət yürüdən, öz prinsipial mövqeyi ilə seçilən, ümumbəşəri problemlərin həllinə dəyərli töhfə verən nüfuzlu ölkə kimi tanınır. Azərbaycan dünya ölkələri və beynəlxalq təşkilatlarla bərabərhüquqluluq, qarşılıqlı etimad, faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli və çoxtərəfli əlaqələrini daim inkişaf etdirir. Məhz bunun nəticəsidir ki, 2012–2013-cü illərdə Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının üzvü seçilmiş, dünyada sülhün və təhlükəsizliyin təmin edilməsinə, qlobal problemlərin həllinə öz töhfəsini vermişdir. Ölkə çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi edərək, regionda və daha geniş arealda mərkəz statusunu ildən-ilə gücləndirir. 2015-ci ildə ilk Avropa oyunlarını yüksək səviyyədə təşkil etməklə, idman tarixində yeni maraqlı səhifə açan Azərbaycan 2017-ci ildə İslam Həmrəyliyi oyunlarını keçirəcəkdir. 2 il ərzində bir ölkədə həm Avropa, həm də İslam Həmrəyliyi oyunlarının təşkil olunması Azərbaycanda multikulturalizm ideyalarının bütün sahələrdə özünü büruzə verdiyini təsdiq edir.

Hesab edirəm ki, müstəqillik illərində Azərbaycanın milli inkişaf strategiyası və inkişaf modeli «G20» üzvləri üçün də maraqlı ola və yeni perspektivlər aça bilər. Əminəm ki, əgər Azərbaycan 24 ildə Ermənistanla müharibə vəziyyətində yaşamasaydı və ərazisinin 20 faizi işğala məruz qalmasaydı, əldə edilmiş uğurların miqyası daha böyük olardı. Nəzərinizə çatdırmaq istərdim ki, həmin ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirilmiş, sosial və iqtisadi infrastruktur, mədəniyyət abidələri dağıdılmış, 1 milyondan artıq insan qaçqın və məcburi köçkünə çevrilmişdir. Təəssüf ki, bu dövr ərzində beynəlxalq birlik münaqişənin həlli ilə bağlı qəti iradə nümayiş etdirməmiş, BMT Təhlükəsizlik Şurası başda olmaqla, dünyanın aparıcı təşkilatlarının qərar və qətnamələri icra olunmamış, beynəlxalq hüququn tələbləri yerinə yetirilməmişdir.

Bununla yanaşı, hazırda postsovet məkanı, Yaxın Şərq və Afrikada yaranmış münaqişələr, vətəndaş qarşıdurması bu regionların inkişafını təhdid edir, milli iqtisadiyyatların çökməsinə, sosial fəlakətə, şəhər və kəndlərin dağılmasına və böyük qaçqın axınının

yaranmasına yol açır. Əlbəttə, sülhü, sabitliyi, təhlükəsizliyi təhdid edən proseslər fonunda istər qlobal, istərsə də regional səviyyədə iqtisadi və maliyyə məsələlərinin tənzimlənməsi mürəkkəb və hətta mümkünsüz görünür. Buna görə də Sammitin gündəliyinə daxil edilmiş məsələlər aktual siyasi proseslər kontekstində nəzərdən keçirilməli, mövcud siyasi böhranların aradan qaldırılması, münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli əməli şəkildə dəstəklənməlidir.

2014-cü ilin ortalarından dünya bazarlarında enerji resurslarının qiymətinin kəskin şəkildə aşağı düşməsi və bu sahədə qeyri-sabit vəziyyətin yaranması ortamüddətli perspektivdə bir çox ölkələri iqtisadi mühitin daha da pisləşməsi, hətta staqnasiya, tənəzzül kimi çağırışlarla üz-üzə qoya bilər. Artıq bəzi ölkələrin nümunəsində bu prosesin ciddi fəsadlara səbəb olduğu müşahidə edilir. Buna görə də dünya enerji bazarında sabitləşdirici addımlar atılmalı, həm enerji ixrac edən, həm də onu idxal edən ölkələr üçün əlverişli durum təmin edilməlidir.

Azərbaycan dünyanın ayrı-ayrı bölgələrinin etibarlı enerji təchizatı, aztəminatlı ölkələrdə ərzaq təhlükəsizliyi probleminin həlli ilə bağlı planları alqışlayır. Azərbaycan ölkələr arasında səmərəli və proqnozlaşdırıla bilən ticarət rejiminin yaradılması, qlobal səviyyədə insanların sosial vəziyyətinin yaxşılaşdırılması, investisiyaların təşviqi, gender bərabərliyi, qadınların məşğulluğunun gücləndirilməsi və digər məsələlərə dair irəli sürülmüş təşəbbüslərə qoşulur, bu istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulan əməli tədbirləri dəstəkləyir.

Paralel şəkildə qlobal iqtisadi böhranın qarşısının alınması məqsədilə reallaşdırılmış tədbirlərin səmərəliliyi qiymətləndirilməli, sabitləşdirici addımların daha da dərinləşdirilməsi, böhrandan sonrakı dövrdə dünya iqtisadiyyatının təhdidlərə qarşı dayanıqlığının yüksəldilməsi və digər məsələlərə dair ciddi müzakirələr aparılmalı və adekvat rəylər yekun sənəddə öz əksini tapmalıdır.

Hesab edirəm ki, «Böyük İyirmilik»in Antalya Sammitində aparılan müzakirələr və qəbul edilən qərarlar bir çox qlobal məsələlərə dair ümumi strategiyanın formalaşdırılması, hazırda müşahidə

olunan problemlərin həlli ilə bağlı real və təsirli tədbirlərin həyata keçirilməsi baxımından əhəmiyyətli olacaqdır.

## FRANSA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*Paris*

*16 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak etmək üçün noyabrın 16-da Fransa Respublikasına işgüzar səfərə gəlmişlər.*

*Parisin Orli Beynəlxalq Aeroportunda dövlətimizin başçısını və xanımını Fransanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## YUNESKO BAŞ KONFRANSININ 38-ci SESSİYASININ LİDERLƏR FORUMUNDA İŞTİRAK

*Paris*

*17 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva noyabrın 17-də Parisdə YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak etmək üçün təşkilatın mənzil-qərargahına gəlmişlər.*

*Bu il YUNESKO-nun Nizamnaməsinin qəbulundan 70 il ötür. Təşkilatın yaradılmasının 70 illiyi münasibətilə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumu da təşkilatın yaradılmasının 70 illiyinə həsr edilib.*

*Əvvəlcə prezident İlham Əliyev YUNESKO-nun Qonaq kitabına ürək sözlərini yazdı.*

*Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın YUNESKO-nun sabiq baş direktoru Koişiro Matsuura ilə qısa söhbətləri oldu.*

*YUNESKO Baş Konfransının 38-ci sessiyasının sədri, Namibiyanın İnformasiya və Kommunikasiya Texnologiyaları nazirinin müavini Stanley Mutumba Simataa tədbiri açaraq Forumun gündəliyi barədə məlumat verdi.*

*Maltanın prezidenti xanım Mari-Luiz Koleyro Forumda çıxış edərək, YUNESKO-nun yarandığı 70 il ərzində dünyanın xeyli dəyişdiyini bildirdi. Qeyd etdi ki, bu Forum YUNESKO-nun gələcəyini müəyyənləşdirmək üçün yaxşı tədbirdir. Malta Prezidenti dedi ki,*

*inkişaf real mədəni mühitlə bağlıdır. O, mədəni müxtəliflik, təhsil, yoxsulluq, savadsızlıq, gender bərabərliyi məsələlərinə toxundu, qlobal problemlərin həllində YUNESKO-nun rolunu və birgə fəaliyyətin əhəmiyyətini qeyd etdi.*

*Sonra Slovakiya Respublikası Baş nazirinin müavini, Xarici İşlər naziri Miroslav Layçak çıxış etdi. O, Parisdə baş vermiş terror aktlarını pisləyərək, terrorçuların bütün bəşəriyyətin düşməni olduğunu vurğuladı, terrorla birgə mübarizənin önəmini diqqətə çatdırdı. Baş nazirin müavini vurğuladı ki, YUNESKO terrorizm və ekstremizmin yer almadığı dünyanın qurulmasında mühüm əhəmiyyətə malikdir. Miroslav Layçak qlobal problemlərin həllində birgə səylərin göstərilməsinin zəruriliyini vurğuladı.*

*Foruma sədrlik edən Stanley Mutumba Simataa prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın davamlı iqtisadi inkişafından, beynəlxalq aləmdə qazandığı böyük nüfuzdan danışdı. O, ölkəmizin YUNESKO-nun etibarlı tərəfdaşına çevrildiyini bildirdi.*

**Stanley Mutumba Simataa:** Zati-aliləri, xanımlar və cənablar!

İndi isə bizim növbəti mötəbər qonağımızı, zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi məmnuniyyətlə salamlamaq istəyirəm. Onun rəhbərliyi ilə Azərbaycan Respublikası sürətli iqtisadi artıma nail olaraq YUNESKO-nun etibarlı tərəfdaşına çevrilmiş və təşkilatımızın mandatına uyğun bütün sahələrdə YUNESKO-ya dəstək göstərmişdir.

Zati-alilərinin «Bakı prosesi» təşəbbüsü ilə çıxış etməsini xüsusi vurğulamaq istəyirəm. Bu təşəbbüs iki fərqli coğrafi regiona mənsub olan mədəniyyət nazirlərini bir araya gətirməklə, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatını əhatə edir. Ötən illər ərzində Azərbaycan mədəniyyətlərarası dialoq üzrə 3 dünya forumuna müvəffəqiyyətlə ev sahibliyi edib və yaxın gələcəkdə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu təşkil edəcək. Bütün bunlar Azərbaycanın mədəniyyətlərarası dialoqun təşviqinə sadiq qalmasının göstəricisidir.

Cənab Prezident, Sizi YUNESKO-da salamlamaqdan məmnunluq hissi keçiririk və Sizin bizə söyləyəcəklərinizi səbirsizliklə eşitmək istəyirik. İndi isə böyük məmnuniyyətlə sözü Sizə verirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Baş Konfransın cənab sədri!
İdarə Heyətinin cənab prezidenti!
Xanım baş direktor!
Hörmətli dostlar, xanımlar və cənablar!

Əvvəlcə, noyabrın 13-də Parisdə baş vermiş dəhşətli terror hadisəsi ilə bağlı Azərbaycan xalqı adından Fransa xalqına dərin hüznlə başsağlığı vermək istəyirəm. Azərbaycan xalqı Fransa xalqının kədərini bölüşür və Fransa Respublikasının tarixində bu faciəli məqamda Fransa xalqı ilə çiyin-çiyinə dayanır. Bu dəhşətli terror hadisəsi bir daha göstərir ki, beynəlxalq ictimaiyyət bu bəla ilə mübarizə aparmaq üçün səylərini birləşdirməlidir. Dünyanın heç bir ölkəsinə bu cür hücumlara məruz qalmayacağı barədə 100 faiz zəmanət verilə bilməz. Buna görə də beynəlxalq ictimaiyyətin birgə səyləri bizə bu bəla ilə mübarizə aparmağa kömək edə bilər. Keçmişdə çoxsaylı terror hadisələrinin qurbanı olmuş bir ölkə kimi, Azərbaycan terrorizmə qarşı mübarizədə öz rolunu oynayır və bu rol beynəlxalq ictimaiyyət tərəfindən qiymətləndirilir.

Azərbaycan YUNESKO-nun fəal üzvüdür. 23 ildən artıqdır – demək olar ki, müstəqilliyini bərpa etdikdən dərhal sonra – Azərbaycan YUNESKO-nun üzvü olmuşdur və bəşəri dəyərlərin təşviqində öz rolunu oynamaqdadır. Azərbaycan, demək olar ki, YUNESKO-nun bütün konvensiyalarını və digər hüquqi aktlarını imzalamış və ratifikasiya etmişdir. 2003-cü ildə Azərbaycan ilə YUNESKO arasında mədəniyyət, elm, təhsil və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi imzalanmışdır. Bu da Azərbaycana YUNESKO donorlarından birinə çevrilmək imkanı vermişdir. Bu, ən zəif inkişaf etmiş ölkələr qarşısında bizim öhdəliyimizdir.

Müstəqillik dövrünün əvvəlində Azərbaycan özü yoxsulluq, siyasi böhran, işğal və iqtisadi tənəzzüllə üzləşmişdi və o zaman biz

beynəlxalq yardım alırdıq. İndi isə bu yaxşılığın əvəzini ödəmək və dünyanın inkişaf məramına töhfə vermək növbəsi bizimdir. Tamamilə əminəm ki, YUNESKO-nun təhsil, mədəniyyət və əlbəttə, elm kimi fəaliyyət sahələri bəşəriyyətin inkişafı üçün əsas istiqamətlərdir. Bu sahələrin inkişafı dünyamızı daha da təhlükəsiz edəcək.

Dünya irsi siyahısına daxil olan İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan qayaüstü rəsmləri kimi tarixi abidələrimizin YUNESKO tərəfindən qorunan abidələr sırasında yer alması bizi fərəhləndirir. Azərbaycan qədim mədəniyyət, tarix, adət-ənənələr diyarıdır. Lakin eyni zamanda, müstəqil dövlət kimi yalnız 24 il yaşayan çox gənc bir dövlətdir. Bu illər bir siyasi sistemdən digər siyasi sistemə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid illəri olmuşdur. Bu illər ərzində ölkəmiz uğurlar əldə edə bilmişdir.

Bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş və təmsil olunduğu təşkilatların fəal üzvüdür. Bizim ən böyük siyasi və diplomatik uğurumuz 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz olub. Bu da beynəlxalq ictimaiyyət tərəfindən qlobal arenada Azərbaycanın rolunun, uğurlu fəaliyyətinin tanınması və bizim nailiyyətlərimizə hörmət, etimad və minnətdarlıq əlaməti idi. Beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi, Təhlükəsizlik Şurasında sədrlik etdiyimiz 2 il ərzində biz diqqəti 2 vacib məsələyə yönəltdik. Bunlar beynəlxalq terrorizmə qarşı mübarizə və mədəniyyətlərarası dialoqdur. Əfsuslar olsun ki, müstəqillik illərinin lap əvvəllərindən Azərbaycan erməni təcavüzünün qurbanına çevrilmişdir. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistan tərəfindən işğalı bu günə kimi davam edir. Ermənistan tərəfindən yürüdülən etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. 250 min azərbaycanlı Ermənistandan deportasiya olunmuş və etnik təmizləməyə məruz qalmışdır, 750 min nəfər isə öz ölkəmizdə məcburi köçkünə çevrilmişdir.

Biz humanitar fəlakətlə üzləşmişdik. Biz o zaman iqtisadi cəhətdən o qədər də inkişaf etməmişdik, çox kasıb ölkə idik. Bu gün

televiziyada Avropanın üzləşdiyi miqrasiya böhranı ilə bağlı reportajları izləyərkən, əlbəttə ki, biz evlərini tərk etmək məcburiyyətində qalan insanların ağrısını başa düşürük. Biz bu prosesin Avropada yaşayanlar üçün çətinliklər törətdiyini də anlayırıq. 1992-ci, 1993-cü illəri xatırlayırıq. Bu illər ərzində biz Azərbaycanda 1 milyondan çox insanı yerləşdirməli idik. O vaxtlar Azərbaycanın əhalisi təxminən 8 milyondan bir az artıq idi. Beləliklə, bu, dünya miqyasında adambaşına düşən qaçqın və məcburi köçkünlərin sayının ən yüksək göstəricisi idi. Qaçqın və məcburi köçkünlərin cəmiyyətimizə inteqrasiyası üçün əlimizdən gələni etdik. Bu gün onlar ölkəmizin inkişafında çox vacib rol oynayırlar.

Ermənistan nəinki beynəlxalq hüquq normalarını, həm də tarixi ədaləti pozur. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, o dövrdən 20 ildən artıq vaxt ötmüşdür və bu qətnamələr icra olunmur. Burada biz beynəlxalq arenada qlobal təhlükəsizlik və qlobal konfiqurasiya ilə bağlı çox vacib məsələ ilə üzləşirik. Söhbət aparıcı beynəlxalq təşkilatların qərarları və qətnamələrinə məhəl qoyulmamasından və buna görə heç bir cəzanın tətbiq edilməməsindən gedir. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir və bu hərəkətinə görə heç bir təzyiqlə qarşılaşmır.

Bu məsələ ciddi şəkildə nəzərdən keçirilməlidir. Biz Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icra mexanizmlərini təkmilləşdirməliyik ki, ikili standartlara yol verilməsin. Çünki biz hamımız bilirik ki, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günə, hətta bir neçə saata icra olunur. Lakin bizim timsalımızda 20 ildən artıqdır ki, danışıqlar masasında heç bir irəliləyiş yoxdur, çünki Ermənistan sülh istəmir. Onlar bizimlə sülh şəraitində yaşamaq istəmirlər. Onlar imkanları olduğu qədər işğalçılıq siyasətini davam etdirmək istəyirlər və əfsuslar olsun ki, bu günə qədər buna nail ola biliblər.

Lakin zaman bizim tərəfimizdədir, zaman ədalətin tərəfindədir, beynəlxalq hüququn tərəfindədir və mən əminəm ki, Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa

edəcəkdir. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi, eyni dəyərə malikdir. İşğal nəticəsində bizim tarixi, memarlıq və dini abidələrimiz məhv edilmişdir.

Siz bu vəziyyətlə video və rəsmlərlə, internet vasitəsilə tanış ola bilərsiniz. Azərbaycanın 600-dən çox tarixi və memarlıq abidəsi erməni silahlı qüvvələri tərəfindən tamamilə məhv edilmişdir. Daxilində 40 min eksponat sərgilənən 22 muzey məhv edilmişdir. O cümlədən bizim tarixi irsimizə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılmışdır. Erməni işğalçıları tərəfindən 10 məscid yerlə yeksan olunmuşdur. Buna baxmayaraq, siz bu gün Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən bərpa olunmuş erməni kilsəsini görə bilərsiniz. Bu, multikulturalizmə olan yanaşmada bir fərqdir, bu, dini tolerantlığa olan yanaşmada bir fərqdir və bu bir daha terrorizmin heç bir dinə, milli mənsubiyyətə aid olmadığını nümayiş etdirir.

İslamı terrorizmlə əlaqələndirmək tamamilə qəbuledilməzdir. Mən müsəlman ölkəsini, erməni terrorizmindən, işğalından, tarixi abidələrinin məhv edilməsindən əziyyət çəkən bir ölkəni təmsil edirəm. Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərlərimizi bərpa edəcəyik, orada yeni məktəb və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməyəcəyik. Ermənilər bizim tarixi irsimizi məhv ediblər, lakin onlar bizim iradəmizi, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünlərin, Bakıda və Azərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ilə yaşayan insanların nəvə və nəticələrinin iradəsini məhv edə bilməzlər. Onlar geri qayıdacaqlar! Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edəcəyik. Bir daha qeyd etmək istəyirəm ki, beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini tamamilə dəstəkləyir. Eyni zamanda, Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Qarabağ sözünün mənşəyi Azərbaycana məxsusdur. Bu, qara bağ deməkdir, bunun erməni dilində heç bir mənası yoxdur.

Ermənilər bu ərazidə XIX əsrin ortalarında məskunlaşıblar. Çar Rusiyasının XX əsrin əvvəllərinə təsadüf edən xəritələrinə baxsanız

görəcəksiniz ki, Ermənistanın bugünkü ərazisinin, bütün şəhərlərinin və kəndlərinin, bütün toponimlərinin mütləq əksəriyyətinin adları öz mənşəyini Azərbaycan dilindən götürüb. Rusiya imperiyasının süqutundan sonra 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaradılmışdı. Bu respublikanın qəbul etdiyi ilk qərarlardan biri İrəvanı Azərbaycandan Ermənistana vermək oldu. Ermənistanın bugünkü paytaxtı XX əsrin əvvəllərində əhalisinin 80 faizini azərbaycanlılar təşkil edən bizim tarixi İrəvan şəhərimizdir. Bu gün bu şəhər tamamilə etnik təmizlənməyə məruz qalıb. Beləliklə, tarix və beynəlxalq hüquq bizim mövqemizi dəstəkləyir və sizin də təsəvvür edə bildiyiniz kimi, bu məsələ Azərbaycan üçün, Azərbaycanın hər bir vətəndaşı üçün bir nömrəli məsələdir. Bu faciəvi hadisələrə və bu günədək davam edən işğala baxmayaraq, Azərbaycan transformasiyada böyük uğura imza ata bilmişdir.

Biz güclü demokratik təsisatlar yaratmışıq, müasir siyasi və çoxpartiyalı sistem qurmuşuq. Azərbaycan bütün azadlıqlara hörmət edildiyi bir ölkədir. Söhbət siyasi fəaliyyət azadlığından, mətbuat azadlığından, toplaşma azadlığından gedir. Dünya Bankının qiymətləndirməsinə əsasən 2008-ci ildə azərbaycanlıların yalnız 17 faizi internet istifadəçisi idi, 2015-ci ildə bu göstərici artıq 75 faiz təşkil edir. Bizim planımız bütün ölkə ərazisini genişzolaqlı pulsuz internet rabitəsi ilə əhatə etməkdir. Bu, mətbuat azadlığının, informasiya azadlığının bizim üçün prioritet məsələlər sırasına daxil edildiyini aydın nümayiş etdirir.

Cənab sədrin qeyd etdiyi kimi, Azərbaycan iqtisadi inkişaf sahəsində böyük irəliləyiş əldə edib. Buna üzərimizdə olan qaçqın və məcburi köçkün yükünə rəğmən nail olunmuşdur. Ötən onillikdə iqtisadi inkişaf dünyada ən sürətlilər sırasında idi – 300 faizdən çox. İnsan kapitalına sərmayə yatırmaqla, biz 10 il müddətində yoxsulluğun səviyyəsini əhəmiyyətli dərəcədə – demək olar ki, 50 faizdən 5 faizə qədər azalda bildik. İşsizlik səviyyəsi hətta 5 faizdən azdır. Bizim çox az xarici borcumuz var, ümumi daxili məhsulun yalnız 12 faizini təşkil edir. Dünya Davos İqtisadi Forumunun hesabatına əsasən Azərbaycan iqtisadiyyatı qlobal rəqabətliliyinə görə 40-cı yerdədir. Beləliklə, iqtisadi islahatlar bizə maliyyə eh-

tiyatlarımızı toplamağa, onları sosial inkişafa və infrastrukturun inkişafına yönəltməyə imkan verdi.

Biz gələcəyə, təhsilə investisiya yatırırıq. Azərbaycanda məktəblərin ümumi sayı 5 minə qədərdir. Bunların 3 mindən çoxu ötən 10 il ərzində inşa edilib. Biz, demək olar ki, 100 faizlik savadlılığa nail olmuşuq. Bu da öz növbəsində, bizim gələcəyimizin çox güclü intellekt mənbəyidir. Ötən 10 il ərzində tikilmiş 500-dən artıq xəstəxana və digər səhiyyə müəssisəsi insanlarımıza müasir tibb xidmətlərindən faydalanmaq imkanı verir. Beləliklə, insan kapitalının inkişaf etdirilməsi bizim üçün həmişə ciddi qəbul edilən prioritet məsələ olub və olmaqda davam edir.

Cənab sədrin qeyd etdiyi kimi, Azərbaycan sivilizasiyalararası və mədəniyyətlərarası dialoqda çox fəal rol oynayır. Biz mədəniyyətlərarası dialoq mövzusunda keçirilən 3 forumda YUNESKO-nun rəsmi tərəfdaşımız olmasından və Azərbaycanın Şərq ilə Qərbin qovuşuğunda yerləşən, əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən, eyni zamanda, dünyəvi cəmiyyəti və hökuməti olan, Avropa Şurasının və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan bir ölkə kimi, nadir rol oynamasından qürur hissi duyuruq. Biz bu çox əlverişli fürsətdən istifadə edərək, insanları, sivilizasiyaları bir-birinə daha da yaxınlaşdırmağa çalışırıq. Biz 2008-ci ildə İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərinin görüşündə iştirakını təmin edən «Bakı prosesi» adlı forum təşəbbüsünü irəli sürdük. Bu, tərəfimizdən atılmış birinci addım idi. Sonra 2009-cu ildə biz əksini etdik. İslam ölkələrinin mədəniyyət nazirlərinin görüşünə Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərini dəvət etdik.

Bu gün mədəniyyətlərarası dialoqa heç zaman olmadığı qədər böyük ehtiyac var. «Bakı prosesi» təşəbbüsünü irəli sürəndə dünyadakı vəziyyət tamamilə fərqli idi. Bu gün etimadsızlığın səviyyəsinin artdığını görürük. Müvafiq tədbirlər görməsək, dini zəmində qarşıdurmaların hamımız üçün daha da böyük problemlərə gətirib çıxaracağını görürük. Lakin biz sülh şəraitində yaşaya bilərik və düşünürəm ki, Azərbaycan kimi ölkələrin nümunələri bunu əyani

şəkildə göstərir. Bizim ölkəmizdə bütün dinlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayırlar. Hökumətimiz, dövlətimiz nəinki məscidlərin tikintisinə, həmçinin kilsələrin, pravoslav və katolik kilsələrinin, sinaqoqların yenidən qurulmasına və inşasına sərmayə yatırır. Qafqaz regionunda ən qədim kilsələrdən birinin Azərbaycanda, qədim Şəki şəhərinin yaxınlığında yerləşməsindən fərəhlənirik. Eyni zamanda, 743-cü ildə tikilmiş ən qədim məscidlərdən birinin Azərbaycanın qədim Şamaxı şəhərində yerləşməsindən qürur hissi keçiririk. Azərbaycanda müxtəlif konfessiyaların nümayəndələri dini bayramları eyni masa arxasında qeyd edirlər. Buna görə də multikulturalizm bizim üçün bu gün müzakirə olunan, sadəcə, işləyib-işləməməsindən, həyata keçirilib-keçirilməməsindən asılı olmayaraq, bir ideya deyil. Multikulturalizm bizim adət-ənənəmizdir.

Bu gün multikulturalizm təkcə ənənə deyil, bu, dövlət siyasətidir və bizim həyat tərzimizdir. Bu mümkündür, çünki bizim bu sahədə topladığımız çox vacib təcrübəmiz var. Bunun bir nümunəsi bu il Azərbaycanın ilk Avropa oyunlarına ev sahibliyi etməsidir. Çox qəribədir ki, Avropadan başqa, bütün qitələrin öz oyunları var idi. Olimpiya oyunlarının ana vətəni qədim Yunanıstan olmuşdur, sonra Baron de Kuberten oyunları burada – Fransada bərpa etmişdir. Lakin Avropanın heç zaman özünəməxsus oyunları olmamışdı. Beləliklə, Avropa Olimpiya Komitəsinin müsəlman ölkəsində Avropa oyunlarının bərpası ilə əlaqədar müdrik qərarı multikulturalizm və tolerantlıq ideyalarının hamımız üçün əhəmiyyət kəsb etdiyini nümayiş etdirir.

Oyunlar uğurla keçirilmişdir və Avropanın 50 Olimpiya Komitəsini təmsil edən 6 mindən çox atlet oyunlarda iştirak etmişdir. Biz 2017-ci ildə İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcəyik. Ola bilsin ki, uzun illər ərzində Azərbaycan və Bakı bu 2 yarışın bir məkanda keçiriləcəyi yeganə yer olaraq qalacaqdır. Biz qarşılıqlı anlaşmaya töhfə verməyi davam etdirəcəyik, çünki multikulturalizm qarşılıqlı anlaşmaya, qarşılıqlı hörmətə əsaslanır.

Siz digər dinlərə öz dininizə rəğbət bəslədiyiniz kimi hörmət etməlisiniz. Siz qonşunuzdan milliyyətini, kilsədə, sinaqoqda və ya

məsciddə ibadət etməsini soruşmadan onunla yanaşı yaşamalısınız. Yalnız bu halda biz potensial riskləri azalda bilərik. Biz artan gərginlikləri aradan qaldıra bilərik. Əfsuslar olsun ki, dünyada vəziyyət bizim istədiyimiz istiqamətə doğru dəyişmir. Biz səylərimizi birləşdirməliyik. Biz Azərbaycanda qitələri, sivilizasiyaları bir araya gətirmək üçün üzərimizə düşən vəzifəni yerinə yetiririk. Konfransın sədrinin qeyd etdiyi kimi, gələn il biz xüsusilə multikulturalizm, dini və etnik tolerantlıq məsələlərinin müzakirəsini nəzərdə tutan BMT Sivilizasiyalar Alyansının qlobal forumuna ev sahibliyi edəcəyik. Bu məsələdə YUNESKO-nun nadir rolunu vurğulamaq istəyirəm. Biz YUNESKO-nun fəaliyyətini və Baş direktoru xanım İrina Bokovanın güclü rəhbərliyini dəstəkləyirik. Azərbaycan YUNESKO-ya şərəfli fəaliyyətində dəstək olmaq üçün əlindən gələni edəcəkdir.

Bir daha sizi salamlamaq, sizə hörmətimi ifadə etmək və YUNESKO-nun 70-ci ildönümü münasibətilə təbrik etmək istəyirəm.

**Stanley Mutumba Simataa:** Zati-aliləri, çox sağ olun! Çox ətraflı və maarifləndirici çıxışınız üçün təşkilata üzv olan bütün ölkələr adından Sizə səmimi minnətdarlığımı bildirmək istəyirəm.

* * *

*Sonra ABŞ prezidenti Barak Obamanın Foruma ünvanladığı məktub oxundu.*

*Daha sonra Fransa prezidenti Fransua Olland çıxış etdi. O, Parisdə törədilən son terror aktlarından bəhs etdi, Fransanın terrorçulara sərt cavab verəcəyini bildirdi. Fransa Prezidenti terrorizmin bəşəri dəyərlərə böyük təhdid olduğunu qeyd etdi, terror hadisələri ilə bağlı bütün dünyada Fransa xalqına göstərilən həmrəylikdən danışdı. O vurğuladı ki, Parisdə terror aktlarını törədənlər qatillərdir və onlar heç bir sivilizasiyaya aid deyillər.*

*Fransa dövlətinin başçısı bəşəri dəyərlərin qorunmasında YUNESKO-nun mühüm rol oynadığını bildirdi, təşkilatın Əfqanıstanda, Malidə və digər ölkələrdə dağıdılmış abidələri bərpa etdiyini*

*vurğuladı, YUNESKO-nun mədəni dəyərlərin qorunması ilə bağlı çoxlu layihələr həyata keçirdiyini diqqətə çatdırdı.*

*Forumdan sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva YUNESKO-nun Baş direktoru İrina Bokova ilə görüşdülər. Görüşdə Azərbaycan ilə YUNESKO arasında uzun illər səmərəli uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Azərbaycan prezidenti İlham Əliyevin və YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirakı əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirildi. Prezident İlham Əliyevin bu tədbirdə çıxışının önəmi qeyd edildi.*

*Söhbət zamanı Azərbaycanın YUNESKO-nun fəaliyyətində rolu, bu təşkilatın işinə verdiyi töhfə yüksək qiymətləndirildi. Həmçinin Azərbaycanda multikulturalizmin inkişafı, ölkəmizin mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə verdiyi töhfələr diqqətə çatdırıldı. YUNESKO-nun xətti ilə Azərbaycanda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyəti qeyd edildi.*

*Görüşdə əməkdaşlığımızın bundan sonra da genişləndirilməsinə əminlik ifadə olundu və bu əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Daha sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva YUNESKO-nun mənzil-qərargahında təşkilatın İcra Şurasının zalı və nümayəndə heyətlərinin salonu ilə tanış oldular. Qeyd edildi ki, bu zalın və salonun yüksək səviyyədə təmir olunması Azərbaycan dövlətinin dəstəyi ilə həyata keçirilib. Zalda İcra Şurasının tədbirləri ilə yanaşı, xoşməramlı səfirlərin görüşləri, toplantıları da keçirilir.*

*Dövlətimizin başçısı və xanımı ölkəmizin YUNESKO-ya üzv olmasının 20 illiyi münasibətilə Azərbaycan Respublikası tərəfindən hədiyyə edilən daş at və daş qoç abidələrinə baxdılar.*

*YUNESKO-nun mənzil-qərargahının həyətində qoyulan bu heykəllər burada daimi olaraq sərgilənir. Həmin heykəllər XII–XIII əsrlərə aiddir və Tovuz rayonunun Əyyublu kəndindən tapılıb.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva digər ölkələrin YUNESKO-ya təqdim etdiyi abidələrə də baxdılar. Qeyd edildi*

*ki, YUNESKO-nun mənzil-qərargahının həyatində və binada sərgilənən bu abidələr tarixi, mədəni əhəmiyyət daşıyır.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasına işgüzar səfəri noyabrın 18-də başa çatmışdır.*

*Parisin Orli Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Fransanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

## RUSİYA FEDERASİYASININ TƏHSİL VƏ ELM NAZİRİ DMİTRİ LİVANOV İLƏ GÖRÜŞ

*20 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının Təhsil və Elm naziri Dmitri Livanovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında bu il artıq ilk buraxılışın olmasının və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının ölkəmizdə fəaliyyətə başlamasının önəmini qeyd etdi. Dövlətimizin başçısı təhsil sahəsində əməkdaşlığımızın digər formalarının müəyyənləşdirilməsinin zəruriliyini də qeyd etdi. Azərbaycanlı tələbələrin Rusiyanın müxtəlif ali məktəblərində təhsil almalarını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirən prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığımızın daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladı, müxtəlif sahələr üzrə mütəxəssislərin hazırlanmasında təhsilin hər iki ölkə üçün əhəmiyyətli olduğunu dedi.*

*Rusiya Federasiyasının Təhsil və Elm naziri Dmitri Livanov ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi işinə xüsusi diqqət göstərdiyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının uğurlu fəaliyyətini məmnunluqla qeyd edən Dmitri Livanov Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının da Azərbaycanda nüfuz qazanacağına və peşəkar tibb işçilərinə olan tələbatın ödənilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu vurğuladı. Rusiyanın Təhsil və Elm naziri Azərbaycan İqtisad Universitetinin Dərbənd filialının*

*fəaliyyətini təhsil sahəsində qarşılıqlı əməkdaşlığın nümunəsi kimi dəyərləndirdi.*

*Görüşdə ölkələrimiz arasında təhsil sahəsində əlaqələrin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB DRAQAN ÇOVİÇƏ**

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Bosniya və Herseqovina arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bosniya və Herseqovinanın dost xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 noyabr 2015-ci il*

# ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ BRİDCET BRİNKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bridcet Brinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Bridcet Brink ABŞ və Azərbaycan prezidentlərinin ikitərəfli münasibətlərimizlə bağlı apardıqları müzakirələrdən sonra prezident İlham Əliyevlə görüşmək imkanı əldə etmələrini yüksək dəyərləndirdi. Əvvəllər də Azərbaycana səfər etdiyini bildirən xanım Bridcet Brink paytaxtımızda gedən müsbət dəyişikliklərin onlarda dərin təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı «G20»nin Antalya toplantısında ABŞ prezidenti Barak Obama ilə ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı fikir mübadiləsi apardıqları zaman ABŞ Prezidentinin 10 il bundan əvvəl senator kimi, Azərbaycana səfərini məmnunluqla qeyd etdi. Ölkələrimizin müxtəlif sahələrdə uzun illərdir ki, uğurla əməkdaşlıq etdiyini deyən prezident İlham Əliyev enerji və regional təhlükəsizlik, iqtisadi inkişaf və digər sahələrdə əlaqələrimizin əhəmiyyətini xüsusi vurğuladı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Azərbaycanla ABŞ arasında əlaqələrin enerji, iqtisadi şaxələndirmə, ticarət, təhsil, kənd təsərrüfatı, birgə layihələr, terrorizmə qarşı mübarizə, insan haqları və demokratiya və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM PAK KIN HEYƏ**

Hörmətli xanım Prezident!

Koreya Respublikasının sabiq prezidenti, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Kim Yon Samın vəfatı xəbəri məni kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 noyabr 2015-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI V ÇAĞIRIŞ MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA İŞTİRAK

*24 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Azərbaycan Respublikası V çağırış Milli Məclisinin ilk iclasında iştirak etmişdir.*

*İclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açdı.*

**S ə f a M i r z ə y e v:** Zati-aliləri möhtərəm cənab Prezident!

Sizi Milli Məclisdə salamlamaqdan qürur duyuruq, Milli Məclisə xoş gəlmisiniz!

Hörmətli deputatlar, hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Azad, ədalətli və şəffaf seçkilər nəticəsində formalaşmış V çağırış Milli Məclis fəaliyyətinə başlayır. Ulu öndər, müasir müstəqil Azərbaycan dövlətinin yaradıcısı böyük Heydər Əliyevin bizə miras qoyduğu dövlətçilik strategiyası uğurla yerinə yetirilir. Bu seçkilər möhtərəm prezidentimiz cənab İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi uğurlu siyasətin yeni, böyük qələbəsi olmuşdur.

Zati-aliləri, gördüyünüz əzəmətli işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk, gələcək fəaliyyətinizdə böyük uğurlar arzulayırıq.

Hörmətli deputatlar, Milli Məclisə seçilməyiniz münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm. Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci maddəsinə görə, Milli Məclisin ilk iclasını ən yaşlı deputat aparır. Bu şərəfli missiya Milli Məclisin deputatı, hörmətli Fəttah Heydərova nəsib olub.

Hörmətli Fəttah müəllim, xahiş edirəm, iclası başlayasınız.

*İclasa sədrlik edən Fəttah Heydərov V çağırış Milli Məclisin ilk iclasını açıq elan etdi.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

**F ə t t a h  H e y d ə r o v:** Möhtərəm cənab Prezident, Sizi səmimi-qəlbdən salamlayır, Sizə möhkəm cansağlığı, uzun ömür, müstəqil Azərbaycanımızın və bütövlükdə Azərbaycan xalqının rifahı naminə gördüyünüz böyük işlərdə, Heydər Əliyev yolunun davam etdirilməsində yeni-yeni uğurlar və qələbələr arzulayırıq.

*Fəttah Heydərov bildirdi ki, Daxili Nizamnaməyə əsasən yeni çağırış Milli Məclisin ilk iclasında seçilən deputatların siyahısı oxunmalı, Hesablayıcı Komissiya və Milli Məclisin Sədri seçilməlidir.*

*Sonra Fəttah Heydərov V çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxudu.*

*Prezident İlham Əliyev V çağırış Milli Məclisin birinci iclasında nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli deputatlar, xanımlar və cənablar!

V çağırış Milli Məclis bu gün öz işinə başlayır. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Əminəm ki, deputatlar ölkəmizin hərtərəfli inkişafına öz dəyərli töhfəsini verəcək, Milli Məclisin işi çox səmərəli olacaq və Azərbaycanın uğurlu inkişafı davam edəcəkdir.

Noyabrın 1-də keçirilmiş seçkilər Azərbaycan xalqının iradəsini tam ifadə etmişdir. Seçkilər şəffaf, ədalətli şəkildə, yüksək rəqabət şəraitində keçirilmişdir. Beynəlxalq və yerli müşahidəçilər bunu təsdiq etmişlər. 500-dən çox beynəlxalq, on minlərlə yerli müşahidəçi seçki prosesini və seçkilər gününü izləmiş, müşahidələr aparmışdır. Ümumi fikir belə olmuşdur ki, bu seçkilər ən yüksək beynəlxalq standartlara cavab verir, Azərbaycan xalqı bu seçkilərdə öz iradəsini azad şəkildə ifadə etmişdir. Mən xüsusilə Avropa Şurası Parlament Assambleyasının, MDB-nin və əlbəttə ki, digər beynəlxalq təşkilatların rəyini qeyd etmək istəyirəm. Seçkilərin nəticələrini eyni zamanda, beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları da təsdiqləyir.

Bir sözlə, bu seçkilərdə Azərbaycan demokratiya yolunda növbəti uğurlu addım atmışdır və bir daha sübut etmişdir ki, Azərbaycan demokratiyaya sadiqdir. Azərbaycanda bütün demokratik təsisatlar uğurla fəaliyyət göstərir, ölkədə bütün azadlıqlar – söz azadlığı, siyasi fəaliyyət azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, vicdan-din azadlığı təmin edilir, bütün azadlıqlar mövcuddur. Bu seçkilərdə bütün azadlıqlar bir daha özünü büruzə vermişdir.

Son illər ərzində ölkədə gedən quruculuq prosesi də seçkilərin nəticələrinə öz müsbət təsirini göstərib. Azərbaycan uğurla, sürətlə və hərtərəfli inkişaf edir. Əlbəttə, Azərbaycan vətəndaşları bu reallıqları nəzərə alaraq, seçkilərdə həm fəallıq göstərmiş, eyni zamanda, ölkədə aparılan siyasətə bir daha öz səslərini vermişlər.

Azərbaycanın son illərdəki nailiyyətləri artıq nəinki ölkə daxilində, xaricdə də böyük rəğbətlə qeyd edilir. Ölkəmizin beynəlxalq nüfuzu yüksəlir, Azərbaycan etibarlı tərəfdaş kimi tanınır, dostlarımızın, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Bir neçə il bundan əvvəl böyük beynəlxalq dəstəklə, 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz ölkəmizin beynəlxalq nüfuzunu əyani şəkildə əks etdirir.

Son illərdə dünya miqyasında iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf edən ölkə də Azərbaycandır. Əlbəttə, biz bunu böyük uğur kimi qəbul edirik. Bu gün bütün mötəbər beynəlxalq maliyyə-iqtisadi qurumlar bu reallıqları təsdiq edir və Azərbaycanı bəzi ölkələr üçün nümunə kimi göstərir. Bu doğrudan da böyük uğurumuzdur. Təkcə ona görə yox ki, biz özümüzü dünyaya sürətlə inkişaf edən ölkə kimi təqdim edirik. İlk növbədə, ona görə ki, sürətli iqtisadi inkişaf insanların real həyatında da öz müsbət təsirini göstərir. Bizim apardığımız uğurlu iqtisadi islahatlar güclü sosial siyasətlə tamamlanır. Məhz bunun nəticəsidir ki, son illər ərzində ölkəmiz yoxsulluğun və işsizliyin azaldılması sahəsində böyük uğurlara imza atıbdır. Bu gün Azərbaycanda həm yoxsulluq, həm işsizlik 5 faiz səviyyəsindədir və bu, dünya miqyasında ən gözəl göstəricilərdən biridir.

Ölkəmizdə sabitlik təmin edilir, möhkəmlənir. Hər bir ölkə üçün sabitlik başlıca şərtdir. Sabitlik pozulduqda ölkə inkişaf edə bilməz, ölkəyə sərmayə cəlb etmək mümkün olmaz və ölkə öz etibarlılığını itirə bilər. Azərbaycanda sabitlik xalqın iradəsi ilə təmin edilir. Xalq tərəfindən bizim siyasətimizə verilən dəstək ölkəmizdə, cəmiyyətimizdə bu gözəl ab-havanı yaradıbdır. Bu gün Azərbaycan sabitlik baxımından dünyada seçilən ölkələrdəndir, xüsusilə indiki şəraitdə. Biz görürük ki, müxtəlif yerlərdə, müxtəlif bölgələrdə – bizim bölgədə, Yaxın Şərqdə, Avropada, MDB məkanında sabitlik pozulur. Çox xoşagəlməz proseslər gedir. Azərbaycan düşünülmüş siyasət apararaq sabitliyi möhkəmləndirir. Bu, əlbəttə ki, bizim uğurlu inkişafımız, gələcək uğurlu inkişafımız üçün də əsas şərt olaraq qalır.

Ölkəmizdə millətlərarası, dinlərarası münasibətlər ən yüksək səviyyədə həll olunur. Artıq sirr deyil ki, bütün beynəlxalq qurumlar, mötəbər təşkilatlar Azərbaycanı bu sahədə nümunə kimi göstərirlər. Bu reallıqdır, həqiqətdir, bizim siyasətimizin təzahürüdür, cəmiyyətimizdə olan vəziyyətin əlamətidir və burada dövlət siyasəti, ictimai dəstək vəhdət təşkil edir. Əminəm ki, bundan sonra da Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə tənzimlənəcək. Azərbaycan bundan sonra da nümunəvi ölkə kimi özünü göstərəcəkdir. Azərbaycanda bütün dinlərin, bütün millətlərin nümayəndələri qardaşlıq şəraitində bir ailə kimi yaşayacaqlar. Bu bizi daha da gücləndirir. Bu hər bir ölkənin uğurlu inkişafı üçün başlıca şərtdir. Xüsusilə son aylar ərzində Avropada müşahidə olunan mənzərə dediklərimi bir daha sübut edir. Harada ki, bu sahəyə diqqət verilməyib, harada da ki, bu sahə diqqətdən kənarda qalıb, yaxud da başqa siyasi meyillər üstünlük təşkil edib, orada indi çox böyük problemlər yaranır.

Bir sözlə, seçkilərin nəticələrinə bu amillər öz müsbət təsirini göstəribdir. Bu gün öz işinə başlayan V çağırış Milli Məclisin qarşısında da çox ciddi məsələlər durur. Əminəm ki, Milli Məclis ölkəmizin hərtərəfli inkişafına səmərəli şəkildə xidmət edəcək, bütün planlarımız, təşəbbüslərimiz Milli Məclis tərəfindən dəstəklənəcək və beləliklə, ölkəmizin uğurlu inkişafı təmin edilə-

cəkdir. Deputatlar tərəfindən irəli sürüləcək təşəbbüslər, qanun layihələri ölkəmizin hərtərəfli inkişafına xidmət edəcək.

Bu gün mən qarşıda duran bəzi vəzifələr haqqında fikirlərimi bildirmək istəyirəm. Baxmayaraq ki, son illər ərzində böyük uğurlar əldə edilib, həll olunmamış, həllini gözləyən problemlər var. Biz öz fəaliyyətimizi bu problemlərin həllinə yönəltməliyik. Problemlərin arasında birinci məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Son illər bu sahədə heç bir irəliləyiş yoxdur. Ona görə ki, Ermənistan tərəfi sülh istəmir, münaqişəni həll etmək istəmir. Vaxt uzatmaq istəyir, müxtəlif bəhanələrlə danışıqlardan boyun qaçırır, təmas xəttində törədilən təxribatları da, Azərbaycanın bu təxribatlara adekvat cavabını da bəhanə kimi gətirir ki, danışıqlar prosesini pozsun.

Bu reallıqdır. Biz real dünyada yaşayırıq. Beynəlxalq hüququn norma və prinsipləri, əlbəttə ki, bizim mövqemizi dəstəkləyir. Əlbəttə, tarixi ədalət də bizim tərəfimizdədir. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı bu torpaqlarda əsrlərboyu yaşamış, yaratmışdır. Ermənilər Dağlıq Qarabağ ərazisinə XIX əsrdə köçürülüblər. Bu tarixi biz yaxşı bilirik və bütün dünya da bu tarixi bilməlidir. Son illər ərzində aparılan siyasət, o cümlədən deputatlar tərəfindən görülən işlər nəticəsində artıq geniş beynəlxalq ictimaiyyət bilir ki, bu bizim tarixi torpağımızdır. Nəinki Dağlıq Qarabağ, indiki Ermənistanın ərazisi də tarixi Azərbaycan torpağıdır və bunu sübut edən kifayət qədər dəlillər, tarixi faktlar var. Biz sadəcə olaraq, bu faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq, çatdırırıq və çatdıracağıq.

Bugünkü Ermənistan süni dövlətdir, tarixi Azərbaycan torpağında yaradılıb. Bir daha demək istəyirəm ki, bu həqiqətləri bütün dünya bilməlidir. Çünki münaqişənin həlli üçün tarixi əsaslar da mühüm rol oynayır. Uzun illər erməni təbliğatı sübut etməyə çalışırdı ki, Dağlıq Qarabağ onların tarixi torpağıdır. Lobbi qrupları vasitəsilə müəyyən dərəcədə ictimai rəyi çaşdıra bilmişdi. Ancaq son illər Azərbaycanın diplomatik səyləri, ictimai təşkilatların fəaliyyəti, dövlət siyasəti, əlbəttə ki, real mənzərəni dünya ictimaiyyətinin diqqətinə çatdırır və çatdıracaq.

Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsas rol oynayır. Bu qətnamələrdə birmənalı şəkildə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Bu qətnamələr yerinə yetirilməlidir. Bu münaqişənin həlli üçün başqa sənəd ola da bilməz. Çünki BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər beynəlxalq qurumudur.

Digər beynəlxalq təşkilatlar, bildiyiniz kimi, o cümlədən deputatların səyi nəticəsində oxşar qərar və qətnamələr qəbul etmişlər. Onların arasında ATƏT-in qərarlarını, Avropa Şurası Parlament Assambleyasının qətnaməsini xüsusilə qeyd etmək istərdim. «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı da Azərbaycanın haqlı mövqeyini dəstəkləyir.

Münaqişə bu əsaslar üzərində öz həllini tapa bilər. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verə bilməz ki, Azərbaycan ərazisində ikinci qondarma «erməni dövləti» yaradılsın. Bizim bütün səylərimiz bu gün bu məqsədə xidmət edir. Biz bu məsələni bütün beynəlxalq təşkilatlarda müzakirə edirik. Bu məsələ bütün mötəbər tribunalardan səslənir və səslənməlidir. Mənim çıxışlarımda, deputatların çıxışlarında, bizim bütün digər ictimai xadimlərin çıxışlarında, xarici auditoriyalarda bu məsələ səslənməlidir.

Bununla bərabər, diplomatik və siyasi səylər davam etdiriləcək. Minsk qrupunun fəaliyyəti əfsuslar olsun ki, bu günə qədər heç bir səmərə verməyib. Buna baxmayaraq, biz bütün beynəlxalq təşkilatlarda bu məsələni qaldırmalıyıq və qaldırırıq. Bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasında çox dəyərli qərarlar qəbul edilibdir, digər təşkilatlarda da bu fəaliyyət davam etdirilməlidir.

Minsk qrupunun həmsədrləri dünyanın aparıcı ölkələridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Onlar, əlbəttə ki, ilk növbədə, öz qərarlarına hörmətlə yanaşmalıdırlar. Məhz onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrini qəbul etmişlər ki, orada erməni qüvvələrinin torpaqlarımızdan çıxarılması məsələsi qoyulubdur. Onlar ilk növbədə, öz qərarlarına hörmət etməlidirlər. Biz onlardan bunu gözləyirik. Burada balanslı yanaşmadan söhbət

gedə bilməz. Çünki işğalçını və işğala məruz olan ölkəni bir tərəziyə qoymaq olmaz.

Biz başqa sahələrdə olduğu kimi, bu sahədə də ikili standartlarla üzləşirik. İkili standartlar bu gün reallıqdır. Yenə də demək istəyirəm ki, biz real dünyada yaşayırıq və bu reallıqları nəzərə almalıyıq. Ancaq öz prinsipial mövqemizi daim ifadə edəcəyik. Bir daha demək istəyirəm ki, münaqişənin həlli ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün ola bilər. Bu məqsədə nail olmaq üçün Azərbaycan daha da güclü olmalıdır.

Bu gün, əfsuslar olsun ki, dünyada beynəlxalq hüquq normaları arxa plana keçib. İndi güc amili əsas rol oynayır. Kim güclüdür, o da haqlıdır. Biz daha da güclü olmalıyıq. Biz ölkəmizi gücləndiririk. Uzun illər iqtisadi islahatlarla – burada digər amillər də rol oynayır – hərbi potensialın möhkəmləndirilməsi ilə məşğuluq. Biz daha da güclü olmalıyıq. Həm siyasi, həm iqtisadi, həm hərbi gücümüz daha da artmalıdır.

Əgər bu gün Ermənistanın arxasında güclü himayədarlar olmasaydı, bu məsələ çoxdan öz həllini tapardı. Ermənistan təkbaşına, xarici yardım almadan bizim qabağımızda duruş gətirə bilməzdi. Azərbaycan Ermənistandan bir neçə dəfə güclüdür, üstündür. Ancaq o da həqiqətdir ki, erməni lobbisi və müxtəlif ölkələrdə fəaliyyət göstərən erməni təşkilatları öz rolunu oynayır. Bu təşkilatlar müvafiq ölkələrin hökumətlərinə də təsir göstərir. Bu amil bu gün münaqişənin həllində ən böyük əngəldir. Çünki Ermənistan təkbaşına beynəlxalq hüququ kobudcasına, bu dərəcədə kobud şəkildə poza bilməzdi.

Yenə də deyirəm, Azərbaycan öz yolu ilə gedəcək. Heç bir ölkə qondarma «Dağlıq Qarabağ qurumu»nu tanımır və tanımayacaqdır. Biz buna heç vaxt imkan verməyəcəyik, öz diplomatik, siyasi səylərimizi gücləndirəcəyik.

Hərbi potensialın gücləndirilməsi də bizim üçün prioritetdir. Son illərdə bu sahədə də böyük uğurlar əldə edilib. Ordumuzun döyüş qabiliyyəti artır. Ən müasir texnika, silah-sursat alınır. Bu gün beynəlxalq müstəvidə Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bu proses davam etdirilir. Baxmayaraq ki, bizim büdcə

gəlirlərimiz azalıbdır, hərbi xərclər ən prioritet məsələdir. Çünki bu, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və ümumiyyətlə, ölkəmizin təhlükəsizliyini təmin etmək üçün lazımdır.

Daxili siyasətlə bağlı. İndiki şəraitdə, əlbəttə, ilk növbədə, təhlükəsizlik məsələləri bundan sonra da yüksək səviyyədə öz həllini tapmalıdır. Bu gün dünyada gedən proseslər təbii olaraq bizi də narahat edir və bu gün təhlükəsizlik məsələləri hər bir ölkə üçün ön plana çıxır. Azərbaycan da bu sahədə böyük təcrübəyə malik olan ölkədir. Azərbaycan xalqı uzun illərdir ki, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayır. Əlbəttə ki, bundan sonra da bu sahəyə lazımi səviyyədə diqqət göstəriləcəkdir.

Ölkəmizin uğurlu inkişafı üçün xoşagəlməz hallarla mübarizə daha da gücləndirilməlidir. Bu sahədə də böyük uğurlar vardır, xüsusilə korrupsiyaya, rüşvətxorluğa qarşı həm cəza tədbirləri, inzibati tədbirlər, sistem xarakterli tədbirlər görülür, həm də islahatlar aparılır. Bu islahatlar daha da dərinləşməlidir. Əminəm ki, Milli Məclis tərəfindən qəbul ediləcək yeni qanunlar bu məqsədə çatmaq üçün daha da yaxşı baza yaradacaqdır.

İqtisadi siyasətlə bağlı. Təbii ki, biz əvvəlki illərdə aparılan islahatları növbəti illərdə davam etdirəcəyik. Qeyri-neft sektorunun inkişafına daha çox diqqət göstəriləcək. Qeyri-neft sektoru bu gün Azərbaycanın ümumi daxili məhsulunda təqribən 70 faiz təşkil edir, daha da artmalıdır və bu, ölkəmizin uzunmüddətli inkişafını təmin edəcək. Şaxələndirmə, qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, xarici investisiyaların cəlb edilməsi, süni əngəllərin aradan qaldırılması, inhisarçılığa qarşı mübarizə – bütün bu amillər bizim iqtisadi inkişafımızı təmin edəcək.

Bununla bərabər, bölgələrdə infrastruktur layihələrinin icrası davam etdirilməlidir. Əvvəlki illərdə bu sahəyə qoyulan sərmayələri biz bu gün yatıra bilmərik. Ancaq görülən işlər nəticəsində bölgələrdə əsas infrastruktur layihələri ya başa çatıb, ya da ki, başa çatmaq üzrədir. Xüsusilə elektrik enerjisi, qazlaşdırma layihələrini nəzərdə tuturam. Hazırda əsas prioritet içməli su layihələrinə, kənd yollarının çəkilişinə yönəlibdir və bu sahədə hələ görüləsi işlər çoxdur. Növbəti illər ərzində bütün infrastruktur layihələri öz həllini

tapmalıdır, o cümlədən sosial infrastruktur layihələri. Gələn il də dövlət büdcəsində tibb müəssisələrinin, məktəblərin, uşaq bağçalarının tikintisi və təmiri nəzərdə tutulur.

Sosial sahədə. Qeyd etməliyəm ki, bütün sosial proqramlar icra ediləcək. Bu sahədə heç bir ixtisar ola bilməz. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Məhz güclü sosial siyasət bizə imkan verdi ki, biz bu illərdə yaşanan böhrandan ən az itkilərlə çıxa bilək. Çünki bəzi hallarda əsaslı iqtisadi islahatlar sosial problemlərə gətirib çıxarır. Azərbaycanda bu sahəyə daim böyük diqqət göstərilib, bu gün də diqqət yüksək səviyyədədir. Bu yaxınlarda qəbul edilmiş qərarlar əsasında dərman preparatları bazarında dövlət öz rolunu ortaya qoydu. Bu bazar artıq dövlət tərəfindən tənzimlənir və tədricən yüzlərlə, minlərlə adda dərman preparatının qiyməti kəskin şəkildə aşağı düşür, bəzi hallarda 2 dəfə, bəzi hallarda 3 dəfə. Bu da bizim sosial siyasətimizin təzahürüdür.

Məcburi köçkünlərin, qaçqınların məişət problemlərinin həlli də daim diqqət mərkəzində olmalıdır. Gələn il də bu məqsədə çatmaq üçün kifayət qədər böyük vəsait nəzərdə tutulubdur. Son illər ərzində yüz minlərlə köçkün yeni evlərə, mənzillərə köçürülübdür. Bu, gələcək fəaliyyətimiz üçün də daim prioritet olaraq qalmalıdır.

Energetika sektorunda. Azərbaycan nəinki regionda, artıq Avropa qitəsində enerji təhlükəsizliyi ilə bağlı öz dəyərli töhfəsini verməkdədir. Bizim rolumuz artır. Rolumuz artdıqca, əlbəttə ki, ölkəmizin imkanları da, beynəlxalq nüfuzu da, təsir imkanlarımız da genişlənir. Biz bunu yaxşı bilirik və bundan istifadə etməliyik. Çünki bu gün bəzi ölkələrin enerji təhlükəsizliyi Azərbaycandan asılıdır. Getdikcə biz tərəfdaşlarımızın coğrafiyasını genişləndirəcəyik, artıq genişləndirmişik. İmzalanan kontraktlar artıq yeni bir vəziyyətə gətirib çıxarıb. Azərbaycan liderlik göstərərək, Avropanın enerji xəritəsini yenidən tərtib edir. Qeyd etməliyəm ki, burada ilk növbədə, ölkəmiz bu təşəbbüsləri irəli sürərək liderlik göstərib. Bu gün geniş beynəlxalq əməkdaşlıq formatı da məhz ölkəmizin təşəbbüsü ilə formalaşıbdır. «Cənub Qaz Dəhlizi»nin reallaşması bizim imkanlarımızı daha da genişləndirəcək, həm iqtisadi, həm

siyasi imkanlarımız böyük dərəcədə artacaqdır. Beləliklə, ölkəmizin gücü artacaq və bölgədə, qitədə gedən proseslərə təsir imkanlarımız da təbii ki, daha da güclü olacaqdır. «Cənub Qaz Dəhlizi» layihəsi bizim üçün strateji layihədir. Bu layihənin icrası işinə Azərbaycan əvəzolunmaz töhfə verib və verməkdədir.

Nəqliyyat sektorunda. Biz indi tərəfdaş ölkələrlə çox önəmli layihələr üzərində bir neçə ildir ki, işləyirik. Azərbaycanı nəinki regionda, dünya miqyasında nəqliyyat mərkəzinə çevirmək üçün biz konkret addımlar atmışıq. Bu gün Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri reallaşır. Azərbaycan hər 2 layihədə çox ciddi rol oynayır. Şərq–Qərb nəqliyyat dəhlizinin yaradılması üçün ölkəmiz yüz milyonlarla dollar vəsait sərf edib. Şimal–Cənub nəqliyyat dəhlizinin reallaşması üçün yenə də biz maliyyə vəsaitimizi səfərbər etmişik və tərəfdaş ölkələrlə bu layihə üzərində indi çox ciddi işləyirik. Bu layihələr başa çatdıqdan sonra ölkəmizə böyük həcmdə vəsait gətirəcək. Azərbaycan nəqliyyat sahəsində əvəzolunmaz rola malik olacaqdır. Coğrafi vəziyyətimiz bizə bu imkanları yaradır. Ancaq biz bu coğrafi vəziyyətə infrastruktur layihələrini əlavə edirik, böyük vəsait qoyulur. Nəqliyyat infrastrukturu Azərbaycanda bu gün ən çox sərmayə alan sahədir və bu, ölkəmiz üçün çox lazımdır, biz bunu etməliyik.

Əminəm ki, Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir. Çünki biz düşünülmüş siyasət aparırıq, Azərbaycan xalqının maraqlarına söykənən siyasət aparırıq. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır və Azərbaycan maraqlarıdır. Bu maraqlar hər şeydən üstündür. Beynəlxalq arenada da biz daim öz maraqlarımızı müdafiə edirik. Bəlkə də buna görə bəzi hallarda əsassız tənqidə, bəzi hallarda təxribatlara məruz qalırıq. Ancaq bu bizim siyasətimizə heç bir təsir edə bilməz. Çünki biz öz yolumuzla gedirik və güclü iqtisadiyyat, sabitlik, xalq–iqtidar birliyi Azərbaycanda bu şəraiti yaradıb ki, heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməsin. Belə cəhdlər olub, var və istisna edilmir ki, olacaq. Bu cəhdləri etmək istəyənlər də artıq başa düşməlidir ki, bu səylər əbəsdir. Ancaq biz buna hazır olmalıyıq və ölkəmizə qarşı aparılan kampaniyalara ən gözəl cavabımız Azərbaycan

reallıqlarıdır. Antiazərbaycan qüvvələr, erməni lobbisi ilə idarə olunan bəzi xarici riyakar siyasətçilər də Azərbaycan reallıqlarını görüb, əlbəttə ki, məyus olurlar. Biz öz yolumuzla gedirik, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Heç bir ölkə qarşısında bizim öhdəliyimiz yoxdur, ola da bilməz. Beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrdə daim öz mövqemizi ifadə edirik. Bəlkə bu da bəzi xarici dairələrin xoşuna gəlmir. Bəlkə kimsə gözləyir ki, Azərbaycan susacaq, yaxud da öz mövqeyini bildirməyəcək. Xeyr! Görəndə ki, harada ədalət pozulur, təkcə bizə qarşı yox, ümumiyyətlə, harada ikili standartlar mövcuddur, biz sözümüzü deyəcəyik.

Azərbaycan nadir ölkələrdəndir ki, son vaxtlar miqrantlar böhranı ilə bağlı öz səsini ucaldır. Bəziləri susmağa üstünlük verirlər, ancaq biz sözümüzü deyirik. Çünki bu ədalətsizliyə dözmək mümkün deyil. İndi buna miqrantlar böhranı deyirlər. Ancaq miqrantlar üçün bu böhran humanitar fəlakət böhranıdır. Neçə ildir ki, onlar bu fəlakətdən əziyyət çəkirlər. Onların ölkələri dağıdılır, evləri yerlə yeksan edilir. Onlar yaxınlarını, qohumlarını itirirlər, işgəncələrə məruz qalırlar, onların ləyaqəti alçaldılır və bu adamlar nicat tapmaq, bu bəladan xilas olmaq üçün Avropaya üz tuturlar. Görün onları necə qarşılayırlar – yenə də təhqir, işgəncə, onların ləyaqəti alçaldılır. Onları indi günahkar kimi təqdim etməyə çalışırlar. Onların heç bir günahı yoxdur. Əgər onların ölkələri dağıdılmasaydı, onlar öz ölkələrində yaşayardılar. Ancaq bu gün görün nələr baş verir. Biz buna necə susaq?! Biz ona görə öz sözümüzü deyirik. Hesab edirəm ki, əgər başqa ölkələr də bizim kimi öz səsini ucaltsa, bəlkə də bu siyasətə düzəlişlər edə bilərlər.

Deputatlar da yaxşı bilirlər, ictimaiyyət də bilir ki, bir çox hallarda Azərbaycan əsassız ittihamlarla üzləşir. Guya ki, Azərbaycanda demokratiya, insan hüquqları pozulur. Guya Azərbaycan hansısa – kim tərəfindən müəyyən edilibdir, bunu biz bilmirik – meyarlara cavab vermir. Ancaq bu miqrantlar böhranı dəyərləri təbliğ edən ölkələr üçün bir sınaqdır. Siz göstərin öz meyarlarınızı, göstərin öz bəyan etdiyiniz dəyərlərə sədaqətinizi. Biz bunu görmürük. Belə çıxır ki, bu dəyərlər ancaq başqaları üçündür. Bunlar başqalarını əzmək, təhqir etmək, öz iradəsini onlara tətbiq etmək

üçündürmü? Haradadır bu dəyərlər, mərhəmət, insan hüquqları, ləyaqət? Biz bunu görmürük.

Ona görə bu hadisələr və bu vəziyyət bir daha onu göstərir ki, biz nə qədər haqlı olmuşuq, öz yolumuzla getmişik, heç kimdən asılı olmamışıq, olmaq da istəmirik. Buna ehtiyac da yoxdur. Biz öz hesabımıza yaşayırıq, beynəlxalq məsələlərlə bağlı öz sözümüzü deyirik.

Azərbaycan beynəlxalq təşkilatlarda, üzv olduğu təşkilatlarda bundan sonra da fəal iştirak edəcək. Bizim deputatlar da fəal iştirak etməlidirlər. Üzv olmadığımız beynəlxalq təşkilatlar qarşısında bizim heç bir öhdəliyimiz yoxdur, ola da bilməz. Üzv olduğumuz təşkilatlarda fəaliyyətimiz də yüksək qiymətə layiqdir. Üzərimizə götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk və ölkəmizin maraqlarını müdafiə edirik.

Mən əminəm ki, biz qarşıda duran vəzifələri uğurla icra edəcəyik. Dünyada vəziyyət dəyişir, güclər nisbəti dəyişir. Əfsuslar olsun ki, nikbinliyə əsas yoxdur, dünyadakı vəziyyət daha da pisləşə bilər. Ona görə biz buna hazır olmalıyıq. İlk növbədə, təhlükəsizlik. Qeyd etdiyim kimi, Azərbaycanda təhlükəsizlik təmin edilir. Ölkəmizdə daxili təhlükə mənbələri yoxdur. Biz özümüzü xarici müdaxilədən qoruya bilmişik və qoruya bilirik. Öz seçimimizi müdafiə edirik, heç kimin işinə qarışmırıq, amma heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın və bizə ziyan vursun. Çünki bizim işimizə qarışmaq istəyən ancaq bu məqsədlə qarışmaq istəyir. Bəzi hallarda elə ifadələr işlədilir ki, guya Azərbaycana kimsə kömək etmək istəyir. Mən həmişə öz tərəfdaşlarımla görüşlər əsnasında deyirəm ki, bizə kömək etmək lazım deyil. Əgər lazım olarsa, biz xahiş edərik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində bizə heç kim kömək etmir, baxmayaraq, gün kimi aydındır ki, kimdir günahkar, kimdir bu işğalın qurbanı. Ona görə biz daxili təhlükəsizliyi təmin edəcəyik. Heç bir kənar qüvvənin təsiri Azərbaycanda mümkün deyil. Bunu bütün ictimaiyyət bilməlidir və bilir. Gələcəkdə belə cəhdlər olarsa, əlbəttə, ciddi cavab, adekvat cavab veriləcəkdir.

Biz iqtisadi inkişafı daha da sürətləndirməliyik. Neftin qiymətinin aşağı düşməsi, əlbəttə, bizim gəlirlərimizə və xərclərimizə mənfi təsir göstərir. Digər tərəfdən, hesab edirəm ki, bu bizim iqtisadiyyat üçün, məmurlar üçün bir stresdir ki, indiki şəraitdə də nəyə qadir olduğumuzu göstərməliyik.

Bu ilin iqtisadi və sosial göstəriciləri bunu göstərir ki, hətta böhranlı illərdə Azərbaycan iqtisadiyyatı sürətlə və uğurla inkişaf edə bilər. Təhlükəsizlik, fəal xarici siyasət, iqtisadi islahatlar, xoşagəlməz hallara qarşı mübarizə, güclü hərbi potensial və əsas dəyərlərə sədaqətimiz, sadiqliyimiz – bizim üçün gələcəyə gedən yol budur. Azərbaycan müasir dövlətdir, ancaq dərin milli- mənəvi dəyərlər üzərində qurulan bir dövlətdir. Milli dəyərlərimiz, Azərbaycan dəyərləri bizim üçün hər şeydən üstündür. Azərbaycan müstəqillik yolu ilə gedir və gedəcək. Biz müstəqilliyimizi qoruyuruq və qoruyacağıq. Sağ olun.

* * *

*Deputatlar adından prezident İlham Əliyevə minnətdarlığını bildirən iclasın sədri Fəttah Heydərov dövlətimizin başçısını əmin etdi ki, qarşıya qoyulan bütün məsələlər Milli Məclis tərəfindən uğurla yerinə yetiriləcək.*

*İclasın sədri Hesablayıcı Komissiyanın tərkibinə namizədlərin adlarını elan etdi.*

*Milli Məclisin Daxili Nizamnaməsinə əsasən namizədlər bütövlükdə səsə qoyularaq təsdiq edildilər.*

*Sonra Milli Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq, parlamentin Sədri vəzifəsinə deputat Oqtay Əsədovun namizədliyi irəli sürüldü.*

**O q t a y  Ə s ə d o v:** Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli deputatlar, xanımlar və cənablar!

Əvvəlcə icazə verin, Azərbaycan Respublikası Milli Məclisinin Sədri vəzifəsinə namizədliyimi irəli sürmüş Yeni Azərbaycan Partiyasının sədri möhtərəm cənab İlham Əliyevə və deputat həmkarlarıma öz dərin minnətdarlığımı bildirim.

Mən Milli Məclisin qarşısında duran başlıca vəzifəni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən uzaqgörən və müdrik dövlət siyasətinin parlament meyarını etibarlı surətdə təmin etməkdə və xalqın mənafelərini dəstəkləməkdə görürəm. Hesab edirəm ki, Milli Məclis cənab Prezidentin apardığı daxili və xarici siyasəti həmişə dəstəkləyəcək, beynəlxalq təşkilatlar, eləcə də dünya ölkələrinin parlamentləri ilə əlaqələrin inkişafına öz töhfəsini verəcək.

Sizi əmin etmək istəyirəm ki, əgər Milli Məclis mənə etimad göstərərsə, bütün bilik və bacarığımı sərf edərək, bu şərəfli missiyanı layiqincə yerinə yetirməyə çalışacağam.

Diqqətinizə görə təşəkkür edirəm.

*Hesablayıcı Komissiyanın sədri İsa Həbibbəyli Milli Məclisin Sədri seçilməsi ilə bağlı səsvermənin qaydaları haqqında məlumat verdikdən sonra gizli səsvermə keçirildi.*

*Səsvermə başa çatdıqdan sonra İsa Həbibbəyli bildirdi ki, 124 deputat Oqtay Əsədovun lehinə səs verib. Beləliklə, Oqtay Əsədov Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçildi və çıxış etdi.*

– Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli deputatlar!

Etimad göstərib məni Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçdiyinizə görə sizə səmimi minnətdarlığımı bildirirəm.

Fəxr edirəm ki, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan, möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ardıcıl inkişaf edən Yeni Azərbaycan Partiyasının nümayəndəsiyəm.

Hörmətli deputatlar, 2015-ci ilin parlament seçkiləri ölkəmizin demokratik inkişafı yolunda mühüm bir addım oldu.

Milli Məclisə seçkilərin azad, ədalətli və şəffaf şəraitdə keçirilməsi üçün Azərbaycan dövləti və onun başçısı tərəfindən bütün zəruri tədbirlər görülmüşdür.

Demokratik mühitdə keçirilmiş seçkilər yolu ilə xalqın etimadını qazanan namizədlər parlamentin üzvü mandatını qazanmışlar.

Seçkilər nəticəsində Yeni Azərbaycan Partiyasının üzvləri parlamentdə yerlərin əksəriyyətini qazanmışlar. Bu fakt möhtərəm pre-

zidentimiz İlham Əliyev başda olmaqla, partiyamızın xalq arasında çox böyük nüfuza malik olduğunu bir daha nümayiş etdirdi.

Beləliklə, V çağırış Azərbaycan Respublikasının Milli Məclisi fəaliyyətə başlayır. Bu münasibətlə icazə verin, mən də siz həmkarlarımı ürəkdən təbrik edim və gələcək fəaliyyətinizdə sizə uğurlar arzulayım.

Hörmətli deputatlar, IV çağırış Milli Məclis artıq tarixdə qaldı. Ötən dövrdə parlamentin fəaliyyəti səmərəli olub.

Milli Məclis Konstitusiya ilə müəyyən edilmiş səlahiyyətlərini tam həcmdə yerinə yetirib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin qanunvericilik bazası daha da möhkəmləndirilib və təkmilləşdirilib.

Milli Məclis öz fəaliyyətini demokratiya, çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri üzərində qurub.

Parlament qanunyaratma prosesində Azərbaycan Respublikası Prezident Administrasiyası, Nazirlər Kabineti, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, digər icra və məhkəmə hakimiyyəti orqanları, ölkənin aparıcı elm, təhsil, yaradıcılıq mərkəzləri ilə sıx qarşılıqlı əməkdaşlıq edib.

IV çağırış Milli Məclisin 116 iclası keçirilib, ümumən 1410 akt, o cümlədən 1267 qanun və 143 qərar qəbul edilib. Parlamentdə qanun layihələri hazırlanarkən milli dəyərlərimiz əsas götürülməklə, qabaqcıl dünya ölkələrinin təcrübəsindən istifadə edilib. Bu isə qanun yaradıcılığı prosesinin səmərəliliyini artırmağa imkan verib.

Dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dinamik iqtisadi inkişafını nümayiş etdirən dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər sənədlər vaxtında müzakirə edilərək, qəbul olunub. Bundan əlavə, hər il dövlət büdcəsinin icrası haqqında məsələ parlamentin müzakirəsinə çıxarılıb.

Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən qurumun və insan alverinə qarşı mübarizə üzrə milli koordinatorun illik hesabatı, məruzə və məlumatları dinlənilib və qəbul edilib.

Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən layihəsi təqdim edilən 1 amnistiya aktı qəbul olunub. Bu amnistiya aktı təqribən 9 min insana şamil edilib.

Ötən dövrdə Milli Məclisə əhalidən 27 minə qədər təklif, ərizə və şikayət daxil olub, 20 mindən çox vətəndaş deputatlar və parlamentin rəhbərliyi tərəfindən qəbul edilib. İnsanlar parlamentə internet vasitəsilə müraciət etmək imkanına malik olublar.

Son 5 ildə Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində mühüm işlər görülüb. Deputatlar tərəfindən 80-dən çox ölkəyə 700-ə qədər səfər həyata keçirilib, 85-dən çox xarici dövlətin və beynəlxalq təşkilatın 850-dək nümayəndə heyəti Milli Məclisdə olub.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli məsələsində Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması üçün sistemli iş aparılıb. Bütün ikitərəfli və çoxtərəfli görüşlərdə və danışıqlarda müzakirəyə çıxarılan əsas mövzu bu münaqişənin ədalətli şəkildə həll edilməsi olub.

Ümumiyyətlə, Milli Məclis beynəlxalq fəaliyyətində dövlətimizin xarici siyasətinin həyata keçirilməsinə parlament diplomatiyası yolu ilə öz töhfəsini verməyə çalışıb. Bu sahədə görülən işlərin müsbət nəticələri də vardır. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Macarıstan, Panama və Honduras parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətliamın soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, İordaniya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 15 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək, qərar çıxarmışlar.

Bütün bunlar ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsidir. Eyni zamanda, bu uğurlu siyasətə parlament səviyyəsində də dəstək verilir.

Milli Məclisin vəzifələrindən biri də bəzi qüvvələrin Azərbaycana qarşı qərəzli fəaliyyətinin qarşısını almaqdan ibarətdir. Parlament bir neçə müraciət, bəyanat və qərar qəbul edərək, ölkəmiz

barəsində həyata keçirilən qarayaxma və böhtan kampaniyasına, ikili standartlar siyasətinə qəti etirazını bildirib və adekvat tədbirlər görüb.

IV çağırış Milli Məclisin fəaliyyəti Azərbaycan dövlətinin daxili və xarici siyasətində çox böyük uğurların əldə edilməsi ilə eyni vaxta təsadüf edib. Ölkə daxilində ardıcıl və dinamik inkişaf dövlətimizin yüksək beynəlxalq nüfuzunu nümayiş etdirən hadisələrlə müşayiət olunub.

Azərbaycanın tarixdə ilk dəfə olaraq dünyanın 155 ölkəsinin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və müəyyən müddət ərzində həmin təşkilata sədrlik etməsi, Avropa Şurası Nazirlər Komitəsinin sədri vəzifəsini yerinə yetirməsi, nüfuzlu beynəlxalq qurumların müxtəlif toplantılarının, tarixdə ilk Avropa oyunlarının, «Eurovision» mahnı müsabiqəsinin, digər möhtəşəm mədəniyyət və idman tədbirlərinin Bakıda təşkil edilməsi ölkə daxilində həyata keçirilən uzaqgörən siyasətin məntiqi davamı və nəticəsi olub.

Hörmətli xanımlar və cənablar, Milli Məclisin son 5 ildə yerinə yetirdiyi işlərin təhlili göstərir ki, özünün fəaliyyəti ilə parlament möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi sahəsində öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirib.

Ötən dövrdə parlamentin fəaliyyətində biz dövlətimizin başçısının böyük qayğı və diqqətini həmişə hiss etmişik. Azərbaycan Prezidenti Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq müasir standartlara uyğun qanunların hazırlanıb qəbul edilməsi işinə dəyərli töhfələr verir. Buna görə möhtərəm Prezidentimizə Milli Məclisin bütün deputatları adından səmimi minnətdarlığımı bildirirəm.

Hörmətli cənab Prezident!

Hörmətli deputatlar!

IV çağırış Milli Məclisin fəaliyyəti qarşıdakı dövrdə də parlamentin səmərəli işləməsi üçün əlverişli zəmin yaradıb. Dövlətimizin başçısının dəstəyi ilə Azərbaycan parlamenti qabaqcıl dünya ölkələrinin parlamentləri səviyyəsinə yüksəlmək yolunda uğurlu

addımlar atır. Son 5 ildə Milli Məclisin fəaliyyəti bu məqsədə yönəlib. Hesab edirəm ki, bundan sonra da biz bu istiqamətdə hərəkət etməliyik.

Parlament qanunvericilik və qanunyaratma fəaliyyətində həmişəki kimi, yenə də qabaqcıl dünya təcrübəsindən bəhrələnəcəkdir. Milli Məclisin fəaliyyətində demokratiya, çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri daha da genişlənəcəkdir.

Milli Məclis ən böyük dərdimiz olan Dağlıq Qarabağ problemini, qaçqınların və məcburi köçkünlərin güzəranının daha da yaxşılaşdırılması məsələlərini diqqət mərkəzində saxlamalıdır. Parlament dövlətimizin xarici siyasətinin həyata keçirilməsinə parlament vasitələrinin verdiyi imkanlar daxilində kömək göstərməkdə davam etməlidir.

Parlamentlərarası İttifaq, Avropa Şurasının Parlament Assambleyası, ATƏT-in Parlament Assambleyası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisi, MDB Parlamentlərarası Assambleya, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı, Türkdilli Ölkələrin Parlament Assambleyası, NATO Parlament Assambleyası ilə qarşılıqlı əlaqə daha da gücləndirilməlidir. Asiya Parlament Assambleyası ilə münasibətləri dərinləşdirməli və inkişaf etdirməliyik.

Hörmətli deputatlar, bu beynəlxalq təşkilatlarla münasibətləri quranda Azərbaycan dövlətinin maraqları öndə durmalıdır. Bu istiqamətdə ikitərəfli qarşılıqlı əməkdaşlığı inkişaf etdirə bilərik. Əminəm ki, möhtərəm prezidentimiz İlham Əliyevin tövsiyələri və dəstəyi sayəsində sizinlə birlikdə səmərəli fəaliyyət göstərəcək, Azərbaycan parlamentinin üzvü adını şərəflə qoruyacağıq.

Diqqətinizə görə çox sağ olun.

* * *

*Sonra Milli Məclisin Sədr müavinləri seçildi.*

*Deputat Ziyafət Əsgərov Milli Məclis Sədrinin birinci müavini, Bahar Muradova və Valeh Ələsgərov sədrin müavinləri seçildilər.*

*Prezident İlham Əliyev parlamentin Sədrini və müavinləri təbrik etdi, Milli Məclisə qarşıdakı fəaliyyəti dövründə uğurlar arzuladı.*

*Fasilədən sonra Milli Məclis komitələrinin sədrləri seçildi.*

*Deputat Əli Hüseynli Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin, Ziyafət Əsgərov Müdafiə, Təhlükəsizlik və Korrupsiya ilə Mübarizə Komitəsinin, Ziyad Səmədzadə İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin, Valeh Ələsgərov Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin, Eldar İbrahimov Aqrar Siyasət Komitəsinin, Hadı Rəcəbli Əmək və Sosial Siyasət Komitəsinin, Arif Rəhimzadə Regional Məsələlər Komitəsinin, İsa Həbibbəyli Elm və Təhsil Komitəsinin, Rafael Hüseynov Mədəniyyət Komitəsinin, Bahar Muradova İnsan Hüquqları Komitəsinin, Səməd Seyidov Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin sədrləri təsdiq edildilər.*

*V çağırış Milli Məclisdə yeni komitələr də fəaliyyətə başladı.*

*Əhliman Əmiraslanov Səhiyyə Komitəsinin, Aqiyə Naxçıvanlı Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin, Siyavuş Novruzov İctimai Birliklər və Dini Qurumlar Komitəsinin, Fuad Muradov isə Gənclər və İdman Komitəsinin sədrləri təsdiq olundular.*

*Bununla da V çağırış Milli Məclisin ilk iclası başa çatdı.*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BUYAR NİŞANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Albaniya əməkdaşlığı, xüsusən də enerji sahəsində atdığımız addımlar ikitərəfli münasibətlərimizin inkişafına, dostluq əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2015-ci il*

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ**

Hörmətli cənab Prezident!

Mavritaniya İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Mavritaniya xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2015-ci il*

# LATVİYA RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRİ DANA REİZNİECE-OZOLA İLƏ GÖRÜŞ

*25 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Latviya Respublikasının İqtisadiyyat naziri xanım Dana Reizniece-Ozolanı qəbul etmişdir.*

*Xanım Dana Reizniece-Ozola Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Səfərdə onu Latviyanın müxtəlif sektorlar üzrə, o cümlədən informasiya texnologiyaları, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdən olan 30 biznesmenin müşayiət etdiyini vurğulayan nazir ölkəsinin iş adamlarının Azərbaycan ilə əməkdaşlığı davam etdirməkdə maraqlı olduqlarını dedi.*

*Azərbaycan ilə Latviya arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu əlaqələrin dostluq münasibətlərinə əsaslandığını dedi. Latviya Prezidenti ilə çox yaxşı münasibətlərinin olduğunu vurğulayan prezident İlham Əliyev bunu ölkələrarası münasibətlərin inkişafında mühüm amil kimi dəyərləndirdi. Azərbaycan–Latviya əlaqələrinin genişləndirilməsində ölkələrimizin müxtəlif strukturları arasında sıx qarşılıqlı fəaliyyətin önəmini qeyd edən dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlığımızın xüsusi əhəmiyyət daşıdığını bildirdi. Prezident İlham Əliyev Latviyanın İqtisadiyyat naziri xanım Dana Reizniece-Ozolanın ölkəmizə səfəri zamanı iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi ilə bağlı vacib məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu dedi.*

*Dövlətimizin başçısı prezident Raymonds Veyonisin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Latviya Prezidentinə çatdırmağı xahiş etdi.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*25 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycrini qəbul etmişdir.*

*İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycri rəhbərlik etdiyi təşkilatın XII Baş Konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinə göstərdiyi dəstəyə və yüksək qonaqpərvərliyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qonaqların Bakı ilə ilk tanışlıqdan şəhərə valeh olduqlarını vurğulayan Əbdüləziz Osman əl-Tüveycri paytaxtda gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi.*

*İSESKO-nun XII Baş Konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinin önəmini vurğulayan dövlətimizin başçısı yüksək səviyyəli qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün tədbirin yaxşı imkan yaratdığını dedi.*

*Görüşdə Azərbaycan ilə İSESKO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, bu əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik ifadə olundu. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İSESKO BAŞ KONFRANSININ XII SESSİYASININ AÇILIŞINDA İŞTİRAK

*26 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, İSESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva noyabrın 26-da Bakıda İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) Baş Konfransının XII sessiyasında iştirak etmişlər.*

*Sessiyanın açılışında beynəlxalq təşkilatların və xarici ölkələrin yüksək səviyyəli nümayəndələri, mədəniyyət və təhsil nazirləri, diplomatlar iştirak etmişlər.*

*Təşkilatın ali qərarverici orqanı olan Baş Konfrans hər 3 ildən bir keçirilir. İSESKO-nun ümumi fəaliyyət strategiyasını müəyyən edən Baş Konfrans zamanı təşkilatın fəaliyyət sahələrinə aid olan məsələlərlə bağlı əlaqələndirmə və qiymətləndirmə həyata keçirilir, qurumun növbəti 3 il üçün Fəaliyyət Planı və büdcəsi təsdiqlənir.*

*İSESKO-nun Baş Konfransının XII sessiyası Qurani-Kərimdən ayənin oxunması ilə başlandı.*

*Dövlətimizin başçısı sessiyada çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab baş direktor!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! İSESKO-nun Baş Konfransının XII sessiyasının Bakıda keçirilməsi ölkəmiz üçün əlamətdar hadisədir. Çox şadam ki, bu tədbir Bakıda, Azərbaycanda keçirilir. Əminəm ki, qonaqlar ölkəmizin keç-

mişi, reallıqları ilə tanış olmaq üçün gözəl imkanlar əldə edəcəklər.

Son illər ərzində İSESKO dünya miqyasında çox önəmli beynəlxalq təşkilata çevrilibdir. İSESKO-nun əsas vəzifəsi islam aləmində elmin, təhsilin inkişafıdır, islam aləminin zəngin mədəni irsinin qorunmasıdır. İSESKO bu sahədə çox böyük uğurlara nail olubdur. Bu gün dünya miqyasında beynəlxalq təşkilatlar arasında da İSESKO-nun öz yeri var. Qeyd etdiyim kimi, son illər ərzində baş direktor cənab əl-Tüveycrinin rəhbərliyi ilə İSESKO dünya miqyasında çox önəmli və böyük nüfuza malik olan təşkilata çevrilibdir.

Biz Azərbaycanda daim çalışırıq ki, İSESKO-nun nüfuzu daha da artsın. Azərbaycan İSESKO-nun fəal üzvlərindən biridir. Bizim Bakıda keçirilmiş bir çox tədbirlərdə İSESKO təmsil olunur, cənab əl-Tüveycri Azərbaycana tez-tez səfərlər edir. Bakı şəhəri 2009-cu ildə İSESKO-nun dəstəyi ilə islam mədəniyyətinin paytaxtı elan edilmişdi. 2018-ci ildə isə bu şərəfli ada bizim digər qədim şəhərimiz Naxçıvan layiq görülüb. Bu, İSESKO tərəfindən Azərbaycana, Azərbaycan mədəniyyətinə və bu gün Azərbaycanın islam aləmində oynadığı rola verilən yüksək qiymətdir.

Onu da qeyd etmək istəyirəm ki, yaxın zamanlarda Bakıda İSESKO-nun regional mərkəzi yaradılacaq. Azərbaycan dövləti bu mərkəzin yaradılması üçün bütün lazımi tədbirləri görür. Əminəm ki, bu mərkəz öz fəaliyyəti ilə həm regionda, həm, ümumiyyətlə, islam aləmində humanitar əməkdaşlığın dərinləşdirilməsi, islam həmrəyliyinin gücləndirilməsi üçün fəal rol oynayacaqdır.

İSESKO Azərbaycanı daim dəstəkləyir. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində İSESKO daim Azərbaycanın mövqeyini, yəni haqq-ədaləti açıq şəkildə dəstəkləyir. Cənab əl-Tüveycrinin çoxsaylı çıxışlarında bu məsələ ilə bağlı birmənalı mövqe nümayiş etdirilir. Buna görə biz İSESKO-ya minnətdarıq, bütün müsəlman aləminə minnətdarıq.

Bildiyiniz kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, öz həllini tapmır. Uzun illərdir ki, Azərbaycan erməni işğalından əziyyət çəkir. Beynəlxalq birlik tərəfindən tanınmış ərazimizin 20 faizi erməni işğalı altındadır. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşüb. Xalqımıza qarşı ermənilər tərəfindən etnik təmizləmə siyasəti aparılıb. Ermənilər Xocalı soyqırımı törədiblər. Bu gün 10-dan çox ölkə Xocalı faciəsini soyqırımı kimi tanıyır. Ermənistan bütün beynəlxalq hüquq normalarını kobudcasına pozur. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır ki, orada erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. 20 ildən çoxdur ki, Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı», ATƏT, Avropa Şurası Parlament Assambleyası da oxşar qərar və qətnamələr qəbul ediblər. Beynəlxalq hüquq tam şəkildə Azərbaycan mövqeyini dəstəkləyir, tarixi ədalət də bizim tərəfimizdədir. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır. Qarabağ sözünün özü Azərbaycan mənşəlidir. Ona görə həm tarix, həm beynəlxalq hüquq ölkəmizin mövqeyini dəstəkləyir və bu münaqişə yalnız ölkələrin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllini tapa bilər.

Onu da qeyd etməliyəm ki, ATƏT işğal edilmiş ərazilərə 2 dəfə missiya göndərib. Missiyaların məruzələri göstərir ki, işğal edilmiş torpaqlarda hər şey – bizim şəhərlərimiz, kəndlərimiz, tarixi, dini abidələrimiz dağıdılıb. Ermənilər işğal edilmiş torpaqlarda 10 məscidi dağıdıblar. Bu vəhşilikdir. Bu, islam mədəniyyətinə qarşı terrorizmdir. Bir daha qeyd etmək istəyirəm ki, İSESKO bu məsələdə Azərbaycanın haqlı işini daim dəstəkləyir.

Onu da qeyd etməliyəm ki, erməni terror təşkilatları ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda 30-dan çox terror aktı törətmişdir. Bu terror aktları nəticəsində 2000-dən çox

günahsız insan həlak olub. Biz dəfələrlə bəyan etmişik ki, terrorizmin nə milləti, nə də dini var. Əfsuslar olsun ki, son vaxtlar bəzi Qərb dairələri, media nümayəndələri islamı terrorla bağlamaq istəyirlər. Biz bu çirkin əməlləri qətiyyətlə pisləyirik. İslam sülh dinidir, mərhəmət dinidir, dostluq dinidir. Biz islam dəyərlərini dünyaya təqdim etmək üçün Azərbaycanda fəal iş aparırıq. Azərbaycan o ölkələrdəndir ki, dünyanın ən məşhur Luvr Muzeyində islam bölməsinin təşkilində fəal rol oynamış, öz maliyyə töhfəsini vermişdir.

Azərbaycan müsəlman aləmində birinci ölkədir ki, Vatikanda öz sərgisini nümayiş etdirə bilib. Biz islamofobiyaya qarşı açıq şəkildə mübarizə aparırıq. Ən yüksək səviyyədə – prezident səviyyəsində bəyanatlar verilib. İslamofobiya çox böyük təhlükədir, böyük ədalətsizlikdir. Gələcəkdə sivilizasiyalararası münaqişələrə gətirib çıxara bilər. Ona görə həm ölkə daxilində, həm xaricdə biz islam mədəniyyətini təbliğ edirik. Dünyanın inkişaf etmiş ölkələrində Azərbaycanın təşkilatçılığı ilə mütəmadi qaydada sərgilər, təqdimatlar, mədəni proqramlar təşkil edilir. Azərbaycan dinlərarası, millətlərarası əlaqələrin inkişafı üçün də fəal rol oynayır. Bizim təşəbbüsümüzlə Bakıda artıq bir neçə dəfə Beynəlxalq Humanitar Forum keçirilib. 3 dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Dünya dinlərinin liderlərinin Zirvə görüşü keçirilib. Gələn il BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcəkdir. Qeyd etməliyəm ki, bütün bu tədbirlərdə İSESKO fəal iştirak edir. Budur bizim dinlərarası, mədəniyyətlərarası münasibətlərə töhfəmiz.

Bu yaxınlarda Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Azərbaycan artıq dünyada multikulturalizmin mərkəzi kimi tanınır. Azərbaycanda heç vaxt milli, dini zəmində qarşıdurma olmayıb və əminəm ki, olmayacaqdır.

Biz tam əminik ki, multikulturalizmin gözəl gələcəyi var. Sadəcə olaraq, bəzi siyasətçilər, ictimai xadimlər öz çıxışlarında daha da diqqətli olmalıdırlar. Çünki multikulturalizmin al-

ternativi yoxdur. Alternativ ayrı-seçkilikdir, diskriminasiyadır, islamofobiyadır, ksenofobiyadır. Bu, gələcəyə aparan yol sayıla bilməz. Ona görə biz bu bölgədə öz siyasətimizlə və təşəbbüslərimizlə dinlərarası münasibətlərin gücləndirilməsi üçün çalışırıq və çalışacağıq.

Azərbaycan zəngin tarixə malik olan bir ölkədir. Əminəm ki, qonaqlar Bakının qədim tarixi abidələri ilə tanış olacaqlar. Azərbaycan islam həmrəyliyinin gücləndirilməsi, islam dəyərlərinin müdafiəsi üçün beynəlxalq müstəvidə fəal iş aparır.

Onu da qeyd etməliyəm ki, Azərbaycan gənc müstəqil dövlətdir. Cəmi 24 ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. Sovet dövründə Azərbaycanda cəmi 17 məscid var idisə, bu gün məscidlərin sayı 2 mindən çoxdur. Biz fəxr edirik ki, dünyanın ən qədim məscidlərindən biri – 743-cü ildə tikilmiş Şamaxı məscidi Azərbaycanda yerləşir. Bu yaxınlarda məscid əsaslı şəkildə təmir edilibdir və bu gün həm dini abidədir, həm də memarlıq abidəsidir. Ona görə bu məsələlərdə, əlbəttə ki, beynəlxalq təşkilatların, aparıcı siyasətçilərin rolu kifayət qədər böyükdür – xüsusilə indiki şəraitdə, çox həssas vaxtda. Əfsuslar olsun ki, dünyada münaqişələr daha da alovlanır, qarşıdurmalar daha da çoxalır. Azərbaycan öz tərəfindən çalışır ki, humanitar əməkdaşlıq risklərin azaldılmasına gətirib çıxarsın.

İSESKO-nun bilavasitə məşğul olduğu sahələr də Azərbaycanda uğurla inkişaf edir. Qeyd etdiyim kimi, bizim çox zəngin tarixi irsimiz, qədim mədəniyyətimiz var. Bizim bütün mədəni abidələrimiz dövlət tərəfindən qorunur. Təhsilə böyük diqqət göstərilir. Azərbaycanda savadlılıq təxminən 100 faizə çatıbdır. Elmin inkişafına böyük diqqət göstərilir. Elmin inkişafı üçün əsaslı işlər görülür, vəsait ayrılır. Elmin İnkişafı Fondu yaradılıbdır. Azərbaycanda yeni texnologiyalar inkişaf edir. O cümlədən bir neçə il bundan əvvəl Azərbaycan dünyanın o qədər də böyük olmayan kosmik klubuna üzv olub. Azərbaycanda kosmik sənaye sürətlə inkişaf edir. Çünki hər bir ölkənin gələcəyi elmin, təhsilin səviyyəsindən asılıdır, gələcəkdə daha da çox asılı olacaqdır. Çünki ölkələrin inkişafını

şərtləndirən əsas yeni texnologiyalardır, innovasiyalardır, elmin inkişafıdır, təhsilin səviyyəsidir. Biz bu sahəyə çox böyük diqqət göstəririk. Hesab edirəm ki, Azərbaycanın əldə etdiyi təcrübə bəzi ölkələr üçün maraqlı ola bilər.

Bu il Bakıda tarixdə ilk dəfə olaraq Avropa oyunları keçirildi. Onu da qeyd etməliyəm ki, Avropa oyunları Azərbaycanda Olimpiya oyunları səviyyəsində keçirildi. 6 mindən çox idmançı, minlərlə qonaq ölkəmizə gəlmişdi. Qısa müddətdə – cəmi 2 il yarım ərzində bütün hazırlıq işləri görüldü və bu oyunlar tarixə ən gözəl, ən mötəbər, yaxşı təşkil edilmiş oyunlar kimi daxil oldu. I Avropa oyunlarının müsəlman ölkəsində keçirilməsi, hesab edirəm ki, sadəcə olaraq, idman məsələsi deyil. Bu, dediyim kimi, bizim multikulturalizmə, dinlərarası, millətlərarası münasibətlərə verdiyimiz dəyərli töhfə oldu. 2 ildən sonra – 2017-ci ildə isə Bakıda İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Cəmi 2 il ərzində Azərbaycanda həm Avropa oyunları keçirilib, həm də İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Bax, bu 2 hadisə əslində Azərbaycanın hansı mövqelərə malik olduğunu əyani şəkildə göstərir.

Biz 2008-ci ildə «Bakı prosesi»nə təkan verdik. O vaxt Azərbaycanın təşəbbüsü ilə Bakıda keçirilən Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət etdik. Çünki Azərbaycan həm Avropa Şurasının, həm İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Bu, birinci belə toplantı idi. Ondan sonra, 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasına üzv ölkələrin nazirlərini dəvət etdik. Bu prosesə «Bakı prosesi» adı verilibdir. Dünyada artıq «Bakı prosesi» özünəməxsus rol oynayır. Biz çalışırıq ki, bu məsələlər tənzimlənsin, dünyada daha da böyük anlaşma olsun, qarşıdurmaya yol verilməsin, insanlar rahat, sülh, əmin-amanlıq şəraitində yaşasınlar.

İSESKO-nun Baş Konfransının XII sessiyasının Bakıda keçirilməsi, qeyd etdiyim kimi, ölkəmiz üçün çox böyük hadisə-

dir. Əminəm ki, qonaqlar burada səmərəli işləyəcəklər. Burada müzakirə olunan məsələlər gələcəkdə həm islam həmrəyliyini gücləndirəcək, humanitar sahədə görülən işlərə daha böyük təkan verəcək, eyni zamanda, dünya miqyasında qarşılıqlı anlaşmanın dərinləşməsinə xidmət göstərəcəkdir.

Mən çıxışımın sonunda bir daha Azərbaycan xalqının böyük dostu cənab əl-Tüveycrinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Cənab əl-Tüveycri həm İSESKO-nun rəhbəri, həm də ictimai xadim kimi, dünyada çox böyük rol oynayır, Azərbaycanı dəstəkləyir. İSESKO-nun bu səviyyəyə qalxmasında onun xüsusi xidmətləri var. Mən istəyirəm ki, bugünkü toplantıda qonaqların iştirakı ilə gözəl missiyanı icra edim. Cənab əl-Tüveycri mənim sərəncamımla Azərbaycanın dövlət ordeni – «Dostluq» ordeni ilə təltif edilibdir. İstəyirəm bu gün bu toplantıda bu ordeni ona şəxsən özüm təqdim edim.

* * *

*Prezident İlham Əliyev «Dostluq» ordenini İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycriyə təqdim etdi.*

**Əbdüləziz Osman əl-Tüveycri** *(İSESKO-nun baş direktoru):* Qadir Allahın adı ilə!

Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

İSESKO-nun hörmətli Xoşməramlı səfiri, birinci xanım Mehriban Əliyeva!

Zati-aliləri İSESKO-nun XII Baş Konfransının sədrinin nümayəndəsi!

Zati-aliləri İSESKO-nun İcraiyyə Şurasının sədri!

Zati-aliləri nümayəndə heyətlərinin rəhbərləri!

Zati-aliləri nümayəndə heyətlərinin üzvləri!

Hörmətli baş direktorlar, beynəlxalq təşkilatların üzvləri!

Hörmətli səfirlər, xanımlar və cənablar!

İslam, Təhsil, Elm və Mədəniyyət Təşkilatının – İSESKO-nun Baş Konfransının XII sessiyasının açılışında qarşınızda çıxış etməkdən məmnunam. İlk növbədə, bu konfransın hazırkı sessiyasının gözəl ölkədə qəbul edildiyinə və bu gözəl şəhərdə tədbirin uğurla keçməsi üçün yaradılan şəraitə görə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevə səmimi minnətdarlığımı bildirmək istəyirəm. Zati-aliləri, gözəl ölkənizi davamlı tərəqqi və çiçəklənmə yolunda irəliyə doğru aparmaqda Sizə böyük uğurlar arzulayıram. Mən həmçinin böyük şərəf hissi ilə zati-alinizə minnətdarlığımı bildirirəm ki, Siz öz sərəncamınızla məni belə bir yüksək ordenlə təltif etmisiniz. Mən bunu çox yüksək dəyərləndirirəm. Bu mənim islam aləmində göstərdiyim səylərə verilən ən yüksək qiymətdir. Bu şəxsən mənim üçün, bizim təşkilatımız üçün böyük qiymətdir. Sizə dərin təşəkkürümüzü bildiririk ki, bizim bu konfransda açılış nitqi ilə çıxış etdiniz. Arzulayıram ki, Sizin burada qaldırdığınız bütün məsələlər həyata keçirilsin. Bu işlərdə biz də yaxından iştirak etməliyik. Biz bilirik ki, Sizin müdrik rəhbərliyinizlə ölkəniz necə uğurlar qazanıb. Sizin atdığınız addımlara gəldikdə, təbii ki, bunlar bu məqsədlərə çatmaqda bizə yardımçı olacaq.

Mən həmçinin Azərbaycanın birinci xanımı, İSESKO və YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanı xüsusi salamlayıram. Mən təşkilatımıza – İSESKO-ya verdiyi dəstəyə görə ona təşəkkürümü bildirirəm. Mən bilirəm ki, o, elm, mədəniyyət və təhsil sahələrində çox iş görür və bu, ölkənin inkişafında olduqca fəal rol oynayır. Cənab Prezident, çox sağ olun! Birinci xanım, çox sağ olun! Burada bizimlə olduğunuza görə bizə böyük şərəf verdiniz.

*Sonra İSESKO-nun baş direktoru təşkilatın yaranma tarixindən və müasir dövrdəki fəaliyyətindən danışdı:*

– İSESKO son 3 onillik ərzində islam dünyasında baş verən dəyişikliklərə uyğunlaşdı. Bu baxımdan, o özünü birgə islam işinin ön cərgələrində qərarlaşdırdı, islam həmrəyliyinə böyük təkan verdi və nəhayət, sayı 25-dən 52 dövlətə çatan üzv ölkələrdə təhsil, elm və mədəni irəliləyişi gücləndirdi. Biz bütün üzv dövlətlərin səylərini

birləşdirmək, siyasətimizi bütövləşdirmək və müsəlman aləminin ümumi toplu kimi davamlı və əhatəli inkişafına doğru böyük addımların atılması üçün birgə islam fəaliyyətinin məqsədlərinə nail olmaq kimi ülvi amalımızı təmin etmək üçün İslam Əməkdaşlıq Təşkilatının digər 5 üzv dövlətini üzvlüyə qəbul etməyi səmimiyyətlə arzulayırıq.

*İSESKO-nun baş direktoru rəhbərlik etdiyi təşkilatın təhsil, elm, texnologiyalar, mədəniyyət və ünsiyyət sahələrində qlobal elmi mərkəz kimi fəaliyyətindən də danışdı. Əbdüləziz Osman əl-Tüveycri İSESKO-nun 2016–2018-ci illər üçün tədbirlər planında 3 strateji məqsədin qarşıya qoyulduğunu bildirdi. Qeyd etdi ki, bunlar gənclərin islam aləmində davamlı inkişafa səfərbər olunması, üzv dövlətlərin təhsil, elm, mədəniyyət və ünsiyyət sahəsində yürütdükləri siyasətdə keyfiyyətin, idarəçiliyin və bərabərliyin təşviqi, əsas diqqətin insan hüquqlarının, mədəniyyətin təbliğinə, sosial ədalətə və birgəyaşayışa hörmətlə yanaşılmasına yönəltməkdən ibarətdir. İSESKO-nun baş direktoru müasir dünyada və müsəlman aləmində baş verən hadisələrə də münasibət bildirərək dedi:*

– Zati-aliləri cənab Prezident, hörmətli Mehriban xanım, xanımlar və cənablar! Bu gün dünyada baş verən çətinlik və gərginliyə gəldikdə, xüsusən də islam dünyasında olan ciddi vəziyyətlərə toxunduqda, biz bütün üzv dövlətlərin üzləşdiyi çağırışların aradan qaldırılması, səylərimizin birləşdirilməsi üçün bütün imkanlardan istifadə etməliyik. Burada heç bir istisna yoxdur. Çünki qarşımızda duran çağırışları məhz bizim inkişafımızla bağlı davamlı işlərin görülməsinə, yenidənqurma işlərinin aparılmasına, bugünkü inkişafın daha da yüksək səviyyəyə qaldırılmasına və beynəlxalq ictimaiyyətin səylərinin məhz münaqişələrdən və insan hüquqlarının pozulmasından azad olan dünyaya doğru yönəldilməsinə, insanların lazımi həyat tərzi sürmələri üçün sosial ədalətin və sülhün bərqərar olunmasına yönəltməliyik. Buna görə əgər biz İSESKO ailəsi daxilində öz istinadlarımızdan çıxış edərək, daimi olaraq bu vəziyyətə nəzarət edəcəyiksə, bu bizim hamımızı bütün çətinliklərdən, silahlı münaqişələrdən qoruyacaq və münaqişələrin, zorakılığın, vəhşi terrorçuluğun yayılmasının qarşısının alınmasına şərait

yaradacaq. Biz bu yolla addımlayaraq öz mübarizəmizi aparacağıq, müsəlmanlar arasında ayrılığa son qoyacaq, təcridolunmanı ləğv edəcəyik. Biz bu gün baş verən münaqişələrin həllinə, onların tam ləğv edilməsinə bu yolla nail ola bilərik.

Bu gün biz Azərbaycan Respublikasındayıq. Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş inkişaf bütün islam aləmində müasir dövlətin nümunəsi ola bilər. Azərbaycan Respublikası bu gün bir çoxları üçün nümunə ola bilər. Çünki bu, inkişaf etmiş bir dövlətdir. Bu ölkə öz tarixi dəyərlərinə əsaslanaraq sülh şəraitində birgəyaşayışı təşviq edir, sosial sülhün və ədalətin təmin olunmasında uğurlar qazanır. Mən, hörmətli Azərbaycan Respublikasının Prezidenti, Sizə, Azərbaycan xalqına müraciət edərək, Sizi səmimi-qəlbdən təbrik etmək istəyirəm. Əldə etdiyiniz bütün nailiyyətlərə görə Sizi təbrik edirəm. Biz fəxr edirik ki, islam dünyasında belə ölkə mövcuddur. Azərbaycan Respublikası Allah-Taalanın iradəsi və Prezidentin müdrik rəhbərliyi ilə öz inkişafını, qazanılan uğurları davam etdirəcək.

İSESKO ailəsi Azərbaycan Respublikasında və digər ölkələrdə öz məqsədlərinə xidmət edir. Biz də təşkilat olaraq, əlimizdən gələni edirik ki, vacib bildiyimiz məqsədlərə nail olaq. Çünki biz intellektual dairələrin bacarığını bir araya gətiririk, çalışırıq bu sahədə mövcud olan bütün dəyərlərimizi onların vasitəsilə təşviq edək. Buna görə biz belə bir zəngin, xeyirxah və qonaqpərvər xalqı olan ölkədə toplaşmışıq. Bu ölkənin zati-aliləri müdrik Prezidentinin və hörmətli birinci xanımının rəhbərliyi ilə qazanılan nailiyyətlər bizim tərəqqimizin rəmzidir. Biz çox fərəh hissi ilə bəyan edirik ki, dünyaya açığıq. Azərbaycan Respublikası işğal olunmuş Dağlıq Qarabağ ərazilərinin birmənalı olaraq azad edilməsinə nail olacaq və işğal altındakı torpaqlar heç vaxt düşmənə nəsib olmayacaq. Biz bu bəyanatı tərəddüd etmədən veririk. Biz bunu hər zaman etmişik və edəcəyik. Çünki biz, həmçinin istəyirik ki, Fələstin dövləti də İsrail işğalından azad olunsun. Biz bilirik ki, erməni işğalı nəticəsində böyük dağıntılar baş verib. Onlar işğal olunmuş torpaqlarda dini, tarixi, mədəni abidələri dağıdıblar. Buna görə də istərdik ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə hörmətlə yanaşılsın. Çünki

mütləq xarakterə malik olan 4 qətnamədə erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal çıxarılması tələb edilir. Biz onun tərəfdarıyıq ki, bu torpaqlar tezliklə azad olunsun. Mən bütün regional dövlətlərə üzümü tutub deyirəm – biz bu işğala son qoymalıyıq, pozulmuş hüquqları bərpa etməliyik. Mən Konfransdan xahiş edərdim, bir Bəyannamə, qətnamə qəbul etsin və orada tələb olunsun ki, Ermənistanın silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və ətraf rayonlarından çıxarılsın. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı bəşəriyyətə qarşı cinayətdir. İnsanlar öz yerlərindən didərgin salınıb, qətlə yetirilib, onların hüquqları pozulub. Vaxt artıq çoxdan yetişib. Bu cür cinayətlərin qarşısı alınmalıdır. Azərbaycanın vacib regionu işğaldan azad edilməlidir və ediləcək.

Hörmətli cənab Prezident, hörmətli birinci xanım, İSESKO-nun üzv dövlətlərinin hörmətli nümayəndələri! Siz öz evinizdəsiniz. Bu bizim – islam ümmətinin məhz dərk etdiyi bir xətdir, mövqedir. Biz öz məqsədlərimizə nail olacağıq. Bizim Xartiyamızda olan məqsədlərə nail olacağıq. Lakin bildirmək istəyirəm ki, sizi narahat edən hər hansı bir məsələyə gəldikdə, təşkilatımız daxilində dərhal bir-birimizi dəstəkləməliyik. İnşallah, biz öz fəaliyyətimizlə elm, təhsil və mədəniyyəti bütün islam xalqlarında təşviq edəcəyik. Bu, bütün bəşəriyyət üçün vacibdir.

Mən burada Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan xalqına bir daha təşəkkürümü bildirirəm. Bizi və bu Konfransın keçirilməsini qəbul etdiyinizə görə çox sağ olun! Yaratdığınız şəraitə görə minnətdaram və inşallah, əlimizdən gələni edəcəyik ki, Sizin də apardığınız fəaliyyət bizim hamımızın – üzv dövlətlərin maraqlarına uyğun olaraq tam həyata keçsin.

*Daha sonra mükafatlandırma mərasimi oldu. İSESKO-nun 2015-ci il üzrə «Savadlılıq» mükafatına Nigeriyanın nümayəndəsi layiq görüldü.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Konfrans iştirakçıları ilə görüşərək, onlarla söhbət etdilər və xatirə şəkli çəkdirdilər.*

*Xatırladaq ki, prezident İlham Əliyev bu ilin iyulunda İSESKO-nun Baş Konfransının XII sessiyasının və İcraiyyə Şurasının toplantısının Bakıda keçirilməsi ilə bağlı sərəncam imzalamışdı. Budəfəki Konfransda müzakirə olunan məsələlərin müsəlman xalqlarının həyatında inkişafa doğru yeni pəncərə açacağı, qəbul ediləcək qərarların isə islam ölkələri arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcəyi bildirilir.*

*Azərbaycan 1991-ci ildən İSESKO-nun üzvüdür. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın 2006-cı ildə İSESKO-nun Xoşməramlı səfiri adına layiq görülməsi ilə ikitərəfli əlaqələr uğurlu inkişaf mərhələsinə qədəm qoyub və hazırda ən məhsuldar dövrünü yaşayır.*

## FRANSA RESPUBLİKASI HÖKUMƏTİNİN ÜZVÜ ANDRE VALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Fransa Respublikasının Desentralizasiya və Dövlət Qulluğu üzrə Nazirliyinin regionların islahatları məsələləri üzrə Dövlət katibi, hökumət üzvü Andre Vallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında güclü dostluq əlaqələrinin mövcud olduğunu qeyd edən Andre Valli bildirdi ki, bu dostluq əlaqələri Azərbaycan prezidenti İlham Əliyev ilə Fransa prezidenti Fransua Ollandı birləşdirən şəxsi münasibətlər nəticəsində daha da güclənib.*

*Prezident İlham Əliyev bu yaxınlarda Parisdə törədilmiş terror aktı ilə bağlı bir daha Azərbaycan xalqı adından Fransa xalqına başsağlığı verdi. Fransa prezidenti Fransua Ollandın Azərbaycana 2 dəfə səfər etməsini və özünün də Fransaya çoxsaylı səfərlərini xatırladan dövlətimizin başçısı bütün bunları ikitərəfli əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Parisdə törədilən terrorla bağlı prezident İlham Əliyevin başsağlığından təsirləndiyini bildirən Andre Valli Azərbaycana səfərinin ilk günündən terror qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq, Fransanın Bakıdakı səfirliyinin qarşısına əklil və gül dəstələrinin düzülməsinin şahidi olduğunu və Azərbaycan xalqının Fransanın dərdinə şərik çıxmasını ifadə edən mesajları oxuduğunu dedi. O, bütün bunları prezident İlham Əliyevin və Azərbaycan xalqının Fransa xalqının dərdinə şərik çıxmasının göstəricisi kimi qiymətləndirdi.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, kosmik sənaye, müdafiə, təhsil, mədəniyyət və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ GİORGİ MQEBRİŞVİLİ İLƏ GÖRÜŞ

*26 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Gürcüstan Respublikasının Daxili İşlər naziri Giorgi Mqebrişvilini qəbul etmişdir.*

*Gürcüstana bu yaxınlarda etdiyi uğurlu rəsmi səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı səfər zamanı ikitərəfli münasibətlər, o cümlədən regional əməkdaşlıq və təhlükəsizlik ilə bağlı mühüm məsələlərin müzakirə olunduğunu vurğuladı. Regionda təhlükəsizliyin təmin olunması işində ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın rolunu xüsusi qeyd edən prezident İlham Əliyev bu istiqamətdə əlaqələrin daha da möhkəmləndirilməsinin önəmini vurğuladı.*

*Daxili İşlər naziri Giorgi Mqebrişvili Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin və Baş nazir İrakli Qaribaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı. Hüquq-mühafizə orqanları arasında əməkdaşlığa toxunan Gürcüstanın Daxili İşlər naziri xüsusilə dünyada terrorun və cinayətkarlığın hökm sürdüyü bir vaxtda ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəmini qeyd etdi. O, ölkəsinin Azərbaycan ilə mədəni və sosial sahələrdə də əməkdaşlığa böyük önəm verdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin və Baş nazir İrakli Qaribaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

**RUMİNİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB KLAUS İOHANNİSƏ**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Rumıniya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Daim genişlənən dostluq əlaqələrimiz qarşılıqlı faydalı əməkdaşlığımız üçün geniş imkanlar açmışdır.

İnanıram ki, ikitərəfli münasibətlərimizin bütün sahələrdə inkişafı, strateji xarakter daşıyan əməkdaşlığımızın mövcud potensialından səmərəli istifadə olunması bundan sonra da ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 noyabr 2015-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Xarici İşlər naziri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi təbrik edirəm, fəaliyyətinizdə uğurlar arzulayıram. Çox şadam ki, Siz ilk səfəri Azərbaycana edirsiniz. Bu ənənə artıq neçə ildir ki, yaşayır. Həm dövlət, hökumət başçıları, həm nazirlər seçkilərdən sonra ilk səfəri qardaş ölkəyə edirlər. Fürsətdən istifadə edərək, Sizi bu yaxınlarda Antalyada uğurla keçirilmiş «G20» Zirvə görüşü münasibətilə təbrik etmək istəyirəm. Bu, Türkiyənin çox böyük uğurudur. Türkiyə bir daha nümayiş etdirdi ki, böyük dövlətdir, böyük gücə malik olan bir dövlətdir. Şadam ki, qardaş ölkə Azərbaycanı bu toplantıya dəvət etdi. Bu bir daha Türkiyə–Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olduğunu nümayiş etdirir və həm bizim xalqlara, həm dünyaya göstərir ki, Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir.

*Dövlətimizin başçısı bildirdi ki, «G20»nin Antalyada keçirilən Zirvə toplantısı bir çox məsələlərdə Türkiyənin mövqeyinin mühüm rola malik olduğunu göstərdi. Azərbaycan–Türkiyə əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə uğurla əməkdaşlıq etdiyini bildirdi.*

**Mövlud Çavuşoğlu:** Cənab Prezidentim, çox təşəkkür edirəm. Əvvəla, bizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Xarici İşlər naziri olaraq, vəzifəyə təyin edildikdən sonra ilk səfərimi qardaş Azərbaycana etməkdən, ənənələrimizi davam etdirməkdən böyük qürur duyduğumu vurğulamaq istəyirəm. Sizi də 1 noyabr parlament seçkiləri münasibətilə təbrik edirəm. Eyni gündə həm Türkiyədə, həm də qardaş Azərbaycanda seçkilər keçirildi. Çox uğurlu seçki keçirdiniz. Beynəlxalq təşkilatların hesabatlarına da, Avropa Şurasının təsdiq hesabatlarına da baxdım. Bu münasibətlə Sizi təbrik edirəm.

*Mövlud Çavuşoğlu Azərbaycanın «G20»nin Antalyada keçirilən Zirvə toplantısında iştirakına görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Prezident İlham Əliyevin «G20»nin Zirvə toplantısında iştirakından qürur hissi keçirdiyini deyən Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu dövlətimizin başçısının bu cür mötəbər tədbirdə beynəlxalq məsələlərlə bağlı söylədiyi dəyərli fikirləri yüksək qiymətləndirdi. O qeyd etdi ki, Azərbaycan belə bir toplantıda iştirak etməklə, Türkiyənin mövqeyini daha da gücləndirdi. Mövlud Çavuşoğlu Türkiyə–Azərbaycan əlaqələrinin bütün sahələrdə gələcəkdə daha da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Söhbət zamanı dövlətimizin başçısı Türkiyə ilə Rusiya arasında münasibətlərdə yaranmış gərginliyə toxunaraq qeyd etdi ki, Azərbaycan hər iki ölkə ilə tarixən sıx əlaqələrə malikdir və bu gərginlikdən təəssüf və narahatlıq hissi keçirir. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfi Türkiyə–Rusiya münasibətlərindəki gərginliyin azaldılması və aradan qaldırılması istiqamətində səylərini göstərməyə hazırdır.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olundu, Azərbaycan ilə Türkiyənin həyata keçirdikləri TANAP, TAP, Bakı–Tbilisi–Qars və digər layihələrin icrası ilə bağlı fikir mübadiləsi aparıldı.*

## BELARUS RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*27 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Belarusa rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Minsk Milli Aeroportunda Azərbaycan Respublikasının Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Milli geyimli qızlar dövlətimizin başçısına duz-çörək və gül dəstəsi təqdim etdilər.*

*Azərbaycan Respublikasının Prezidentini Belarusun yüksək-vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Minsk*

*28 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 28-də Minskdə rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və Belarusun dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Belarusun dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Belarus prezidenti Aleksandr Lukaşenkoya təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Minsk*

*28 noyabr 2015-ci il*

*Azərbaycan Resublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun noyabrın 28-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra təkbətək görüşü olmuşdur.*

**A l e k s a n d r   L u k a ş e n k o:** Əziz İlham Heydər oğlu, icazə verin, bütün dünya və yəqin ki, xüsusən bizim üçün bu çətin vaxtda Sizi Belarusda salamlayım!

Sizin – bizim həmfikrimizin, mənim böyük dostumun, Belarusda bunu bilirlər – ümumiyyətlə, Belarus xalqının dostunun gəlişi mənə çox xoşdur. Sizi burada salamlamaq, ölkələrimiz üçün gördüyünüz bütün işlərə görə Sizə təşəkkür etmək istəyirəm.

Deməliyəm ki, biz Belarus–Azərbaycan münasibətləri ilə ciddi məşğul olmağa başlayanda əmtəə dövriyyəsi də artdı, müxtəlif problemli siyasi məsələlər də aradan qalxdı. Bizim şəxsi münasibətlərimiz elədir ki, Allah eləsin, hər bir rəhbərlə mənim münasibətim belə olsun. Ümumiyyətlə, biz bu niyyətdəyik və vaxtilə Sizinlə razılaşmışdıq ki, maksimum nəticə əldə etməyə çalışacağıq. Bununla belə, iqtisadi baxımdan bu çətin dövrdə biz əmtəə dövriyyəsini təxminən ən yaxşı vaxtlarda olduğu səviyyədə saxlayırıq. Hərçənd, bütün ölkələrlə bizim əmtəə dövriyyəsi xeyli azalıb. Buna görə də biz münasibətlərimiz üçün böyük işlər görmüşük, yaxşı təməl yaratmışıq. Biz hər il yüksək səviyyədə ünsiyyət təcrübəsi yaratmışıq – bir il bizdə, o biri il sizdə. Ümidvaram ki, hər şey normal olacaq və gələn dəfə mən Sizin ölkəyə,

günəşli gözəl Bakı şəhərinə səfərə gələ biləcəyəm. Bütün sahələrdə bizimlə əməkdaşlıq etdiyinizə görə sağ olun.

Bir daha bəyan etmək istəyirəm ki, bizim münasibətlərimizdə heç bir ehtiyatlanmalı və qapalı mövzu yoxdur. Bizim Sizinlə əməkdaşlığımız Belarusda vilayətin vilayətlə əməkdaşlığı kimidir. Bizim əməkdaşlığımız bu səviyyədədir. Əgər bu kimlərinsə xoşuna gəlmirsə, onların problemidir. Bizdə qadağan edilmiş mövzular yoxdur. Buna görə də Siz Belarusa həmişə bel bağlaya bilərsiniz. Bir daha vurğulamaq istəyirəm ki, çətin vaxtda Sizin heç nəyə baxmadan bizə kömək etməyinizi heç vaxt unutmuruq. Nə vaxtsa məsələləri bir neçə günün içində dostcasına necə həll etməyin lazım olduğunu təfərrüatı ilə danışmaq mümkün olacaq, o cümlədən böyük maliyyə məsələlərini. Biz həmişə sözümüzə əməl edən adamlar olmuşuq. Siz buna bir daha əmin oldunuz. Amma buna baxmayaraq, xüsusən çətin dövrdə göstərdiyiniz dəstəyə və köməyə görə Sizə çox minnətdaram.

Sizə arzum budur ki, bütün çətinliklərə baxmayaraq Azərbaycan, onun xalqı həmişə ucada olsun və əgər hər hansı problemlərlə üzləşərsə, onları aradan qaldırsın. Bilin ki, burada Sizin dostlarınız var.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, əziz Aleksandr Qriqoryeviç! Ölkəmiz haqqında xoş sözlərinizə görə sağ olun.

Mən ilk növbədə, qonaqpərvərliyə görə Sizə təşəkkür etmək istəyirəm. Belarusa səfər etməyə həmişə çox şadam. Son illərdə Sizin rəhbərliyiniz ilə ölkənizin qazandığı uğurlara sevinirəm. Minskin necə müasir, gözəl, inkişaf etmiş şəhərə çevrilməsi buna əyani sübutdur. Əminəm ki, burada yaşamaq, işləmək və qurub yaratmaq insanlara xoşdur. Belarus coşqun iqtisadi inkişaf yolundadır. Sizin ölkənizdə sosial rifah məsələləri fəal həll edilir. Sizin qeyd etdiyiniz kimi, indi bütün ölkələr üçün çətin vaxtdır. Buna baxmayaraq, Belarus müsbət inkişaf dinamikasını qoruyub saxlayır, ictimai-siyasi sabitlik təmin edilir. Hərçənd, biz hamımız iqtisadi böhrana məruz qalırıq, amma Belarus bu təzahürə daha az məruz qalan ölkələrdən biridir.

Bizim münasibətlərimiz möhkəm dostluğa əsaslanır. Bu dostluq artıq illərin sınağından çıxıb. Sizin qeyd etdiyiniz kimi, biz fəal qarşılıqlı əlaqə yaratmağa başlayanda bir-birimizi o qədər də yaxşı tanımırdıq. Lakin son illərdə rəsmi səviyyədə prezidentlərin, digər qurumların rəhbərlərinin bir neçə səfəri baş tutub. Əlbəttə, gələn il Sizi yenə də Azərbaycanda rəsmi səfərdə qəbul etməyə çox şad olaram, ona görə ki, müzakirə edilməli mövzular çoxdur. Əvvəla, hər bir səfər bizim münasibətlərimizin strateji xarakterinin bir daha siyasi təsdiqidir. İkincisi, biz bütün istiqamətlər üzrə – həm siyasi sahədə, həm xarici siyasət, iqtisadiyyat, sənaye sahələrində bir çox məsələləri həll edirik. Bizdə də Belarusla əməkdaşlıq məsələləri ilə bağlı heç bir məhdudiyyət yoxdur və bütün istiqamətlər üzrə çox müsbət dinamika, nəticələr görürük. Fəal qarşılıqlı əlaqə saxladığımız bu 10 ildə biz Belarus xalqını, onun açıq, xeyirxah, sədaqətli, səmimi xarakterini yaxından tanıdıq. İnanın ki, bütün bu epitetləri mən sözgəlişi demirəm. Bunu mən də, belaruslarla ünsiyyətdə olmuş və olan hər bir vətəndaşımız da hiss edir. Bu sizin ölkənizin böyük sərvətidir. Mən Azərbaycan xalqı adından sizə yeni uğurlar, yeni nailiyyətlər arzu etmək istəyirəm. Biz də dost kimi, həmişə yanınızda olacağıq, sizin uğurlarınıza həmişə sevinəcəyik. Qonaqpərvərliyə görə bir daha sağ olun.

* * *

*Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Minsk*

*28 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun noyabrın 28-də təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**A l e k s a n d r L u k a ş e n k o:** Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Sizi Belarus torpağında ürəkdən salamlayıram. Budəfəki səfər Belarus ilə Azərbaycan arasında yaxın, dost münasibətlərin fəal inkişaf etməsinin təsdiqidir. Biz bu münasibətləri həqiqətən, yüksək qiymətləndiririk. Zənnimcə, dünya iqtisadiyyatında böhran hallarını nəzərə alaraq, bu gün biz əsas diqqəti qarşılıqlı faydalı əməkdaşlığın yeni ideyaları və istiqamətləri üzərində cəmləşdirməliyik. Biz bu barədə İlham Heydər oğlu ilə çoxdan danışırdıq. İndiki çətin şəraitdə bizim dövlətlərimiz, xoşbəxtlikdən, qarşılıqlı əmtəə dövriyyəsinin ciddi azalmasına yol verməyiblər. Bununla belə, zaman bizdən qarşılıqlı iqtisadi fəaliyyəti, o cümlədən üçüncü ölkələrin bazarlarında fəaliyyəti genişləndirmək üçün çevik və səmərəli qərarlar qəbul etməyimizi tələb edir. Fəxrlə qeyd etmək istəyirəm ki, Gəncə avtomobil zavodunda MTZ Belarus traktorlarının, Minskdəki MSKT avtozavodunun texnikasının istehsalı üzrə müştərək layihə yüksək nəticələr verir. 2007-ci ildən bəri bu zavodun istehsal sahələrində 6 min «Belarus» traktoru, 3 minə yaxın avtomobil və qoşqu istehsal edilib. Başqa sahələrdə də ikitərəfli qarşılıqlı fəaliyyəti genişləndirmək üçün imkanlar az deyil. Məsələn, nəqliyyat əlaqələrini təkmilləşdirmək üçün biz kiçik və ortahəcmli ucuz, lakin etibarlı avtobuslar, İsveçrə ilə birgə istehsal edilən dəmir yolu sərnişin qatarları, şəhərdaxili daşımalar

üçün ekoloji təmiz qaz-generator mühərrikləri ilə işləyən rahat avtobuslar təklif edə bilərik. Onların yığılmasını Sizin ölkənizdə təşkil etmək olar.

Güman edirəm ki, Azərbaycanın nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsində bizim iştirakımız faydalı olacaq. Məsələn, Bakının mərkəzi ilə onun şəhərətrafı zonası arasında sürətli relsli nəqliyyatın hərəkətinin təşkil edilməsi, o cümlədən Heydər Əliyev Beynəlxalq Aeroportu ilə şəhər arasında əlaqənin daha rahat şəraitinin təmin olunması üçün avadanlıq satışı xəttinin layihələşdirilməsində biz iştirak edə bilərik. Həmçinin tütün və siqaretin qarşılıqlı satışının inkişafı sahəsində sanballı imkanlar var və bu cür münasibətlər uzunmüddətli əsasda yaradılmalıdır.

Azərbaycanın işgüzar dairələrinin iştirakı ilə neft kimyası, energetika, kənd təsərrüfatı sahələrində kooperasiya imkanlarını da nəzərdən keçirmək istərdik. Müasir dünyada informasiya texnologiyaları, informasiyanın qorunması sahələri xüsusilə aktualdır. Bu sahələrdə müştərək layihələr axtarışı üzərində işi davam etdirmək lazımdır. Ümidvaram ki, bugünkü görüş bizim əməkdaşlığın inkişaf etdirilməsi prosesinə əlavə təkan verəcək, onu konkret məzmunla zənginləşdirəcək.

Hörmətli İlham Heydər oğlu, bir daha vurğulamaq istəyirəm ki, Azərbaycan Belarusun etibarlı dostu və tərəfdaşı olub, indi də belədir. Biz dostluğumuzu yüksək qiymətləndiririk. Əgər bu sizin xeyrinizə olarsa, biz Avrasiya İqtisadi İttifaqında sizin maraqlarınızın təmin olunmasına eyni dərəcədə səmimi və açıq kömək etməyə hazırıq.

Hörmətli İlham Heydər oğlu, Sizə təşəkkür edirəm ki, bu çətin vaxtda sözünüzə əməl etdiniz, bizim ölkəyə gəldiniz. Gördüyünüz kimi, danışmalı məsələlər var. Buna görə də Sizi Belarus torpağında bir daha salamlayıram.

**İlham Əliyev:** Çox sağ olun, hörmətli Aleksandr Qriqoryeviç! Mən ilk növbədə, Sizə qonaqpərvərliyinizə, məni Belarusa yenidən rəsmi səfərə dəvət etdiyinizə görə təşəkkür etmək istərdim. Sizin ölkənizdə olmağa həmişə şadam, burada özümü evimdəki kimi hiss edirəm.

Sizin qeyd etdiyiniz kimi, son illərdə ölkələrimiz arasında çox etimadlı münasibətlər səviyyəsi yaranıb, bu münasibətlər çox uğurla inkişaf edir. Bu gün biz Sizinlə nə işlər görüldüyünü və nə etməyi planlaşdırdığımızı müzakirə etdik. Lakin hər şeydən əvvəl, Sizi prezident seçkilərində inamlı qələbəniz münasibəti ilə ürəkdən təbrik etmək istərdim. Belarus xalqı Sizə bir daha yüksək etimad göstərdi və seçkilərin nəticələri əslində Sizin ölkə rəhbəri vəzifəsində fəaliyyətinizin nəticəsidir.

Düşünürəm ki, bu gün mənim nümayəndə heyətimin üzvləri də Belarusun nə dərəcədə uğurla, dinamik, səmərəli inkişaf etməsini bir daha öz gözləri ilə gördülər. Minsk çox yaraşıqlı – qəşəng, rahat, təmiz şəhərə çevrilib. Əminəm ki, burada yaşamaq, işləmək xoşdur, buraya gəlmək xoşdur.

Ölkələrimiz arasında münasibətlər həqiqətən, ən yüksək səviyyədədir. Siz tamamilə haqlısınız, biz buna nail olmaq üçün uzun yol keçmişik. Lakin 10 ildən bir qədər əvvəl başlanmış bu cür fəal əməkdaşlıq illərində, mənim fikrimcə, bir-birimizi müxtəlif vəziyyətlərdə artıq yetərincə sınamışıq. Münasibətlərimizin möhkəmliyini, etibarlılığını sınamışıq və heç vaxt bir-birimizi naümid qoymamışıq. Buna görə biz bu gün bir-birimizə inanırıq və sənədlərin altındakı imzalarımız kimi, sözlərimiz də böyük sanbala malikdir.

Bu gün gələcək əməkdaşlıq istiqamətlərini müəyyən edən sənədlər də imzalanacaq. Lakin əsas odur ki, biz bir sıra məsələlər barəsində razılığa gəlmişik. Biz sevinirik ki, Belarus uğurla inkişaf edir. Sizin qeyd etdiyiniz kimi, indi çətin zamandır. İqtisadi böhrana siyasi böhran, bir sıra ölkələrdə isə hərbi-siyasi böhran da əlavə olunur. Biz qarşıdurma dövründə yaşayırıq. Təbii ki, bu vəziyyət beynəlxalq məsələlərin həllinə yeni yanaşmalar tələb edir. Bax, bu cür şəraitdə Belarusda mövcud olan ictimai-siyasi sabitlik uğurun əsas göstəricisidir, habelə bu uğurun davam edəcəyinin rəhnidir. Biz sizin dostlarınız kimi, buna çox şadıq.

Belarus bizim üçün dost, qardaş dövlətdir. Əminəm ki, bu səfərdən sonra münasibətlərimiz daha sürətlə inkişaf edəcək.

* * *

*Görüşdə elm, yüksək* texnologiyalar, *maşınqayırma sənayesi, beynəlxalq təşkilatlarda və digər sahələrdə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə* olundu.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Minsk*

*28 noyabr 2015-ci il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Prezidenti ilə Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko imzaladılar.*

*«Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2025-ci ilədək sosial-iqtisadi əməkdaşlıq haqqında Müqavilə»ni Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşko imzaladılar.*

*«Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında məcburi dövlət sosial sığortası sahəsində əməkdaşlıq haqqında Protokol»u Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarus Respublikasının Əmək və Sosial Müdafiə naziri Mariyanna Şotkina imzaladılar.*

*«Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu ilə Belarus Milli Elmlər Akademiyası, Belarus Respublikası Fundamental Tədqiqatlar Fondu arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə və Belarus Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin sədri Vladimir Qusakov imzaladılar.*

* * *

*Sonra mükafatlandırma mərasimi oldu. Belarus prezidenti Aleksandr Lukaşenko ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin möhkəmlənməsinə və inkişafına verdikləri töhfəyə görə Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubova və «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Xanlar Fətiyevə Belarus Respublikasının «Şərəf» ordenini təqdim etdi.*

# BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Minsk*

*28 noyabr 2015-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Belarus prezidenti Aleksandr Lukaşenkonun bəyanatı

Hörmətli dostlar! Bu gün biz həmkarım, dostum, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev ilə çox səmərəli və məhsuldar danışıqlar apardıq. Tərəflər münasibətlərimizin strateji xarakterini təsdiq etdilər. Azərbaycan ilə Belarus arasında problemlərin və ya fikir ayrılığının olmaması, dünya iqtisadiyyatında durğunluq və beynəlxalq vəziyyətin inkişafında birmənalı olmayan proqnozlar şəraitində gələcək birgə fəaliyyətə yanaşmalarımızın oxşarlığı qeyd edildi. Bu baxımdan biz Belarus–Azərbaycan münasibətlərini daha da dinamikləşdirmək qətiyyətində olduğumuzu bildirdik. Bu ilk növbədə, ticari-iqtisadi sahədə, investisiyalar sahəsində əməkdaşlığa aiddir.

Son illərdə qarşılıqlı əmtəə dövriyyəsi artımının müsbət dinamikası saxlanılır. Keçən il onun həcmi 330 milyon dollara bərabər olub. Cari ildə də qarşılıqlı ticarətin həcmi, demək olar ki, əvvəlki səviyyədə saxlanılıb. Həm də bu göstərici bizim qarşılıqlı fəaliyyətimizin mövcud potensialına dəlalət edir. Axı ölkələrimizin imkanları çox genişdir. Biz istehsal kooperasiyası və iri infrastruktur layihələrinin həyata keçirilməsi, investisiyaların cəlb edilməsi və

bir sıra başqa sahələrdə əməkdaşlığın fəallaşdırılması perspektivlərini müzakirə etdik. Hər iki tərəf birgə istehsal güclərini artırmaqda, Azərbaycanda yığılan texnikanın model sırasını genişləndirməkdə, habelə Azərbaycanda yerli detallardan və dəstləşdirmə materiallarından istifadə edilməklə, bizim şirkətlər tərəfindən yeni kooperasiya istehsalatları yaradılmasında maraqlı olduğunu bildirib.

Belarus Respublikasının coğrafi mövqeyini, onun Avrasiya İqtisadi İttifaqının üzvü olmasını nəzərə alaraq, hesab edirik ki, Belarusda Azərbaycan xammalının, yarımfabrikatların emalı üzrə kooperasiya istehsalatları yaratmaq, sonradan üçüncü ölkələrin, o cümlədən Avropa İttifaqının bazarlarına çıxmaq perspektivli istiqamətdir. Bu və digər istiqamətlərin müfəssəl işlənməsi üçün Belarus və Azərbaycan hökumətlərinə müvafiq tapşırıqlar veriləcək.

Tərəflər həm də bir sıra sənədlər, o cümlədən prezidentlərin Birgə Bəyannaməsini, Belarus ilə Azərbaycan arasında sosial-iqtisadi əməkdaşlıq haqqında Müqaviləni, 2025-ci ilə qədər olan dövr üçün sosial-iqtisadi əməkdaşlıq proqramını imzalayıblar. Prezident Əliyevin indicə dediyi kimi, biz həm də əməkdaşlığın yeni istiqamətlərini – informasiya texnologiyaları, nanobiotexnologiyalar sahəsində, hərbi-sənaye kompleksi, elmi tədqiqatlar sahəsində əməkdaşlıq istiqamətlərini müəyyən etdik. İndicə özünüz şahid oldunuz ki, bizim akademiyalar da müvafiq saziş imzaladılar. Bu sənədlərin reallaşdırılması siyasi, ticari-iqtisadi, elmi-texniki, humanitar əməkdaşlıq sahələrində qarşılıqlı faydalı Belarus–Azərbaycan əlaqələrinin daha da genişlənməsinə şərait yaradacaq.

Sonda bir daha vurğulayıram ki, Minsk ilə Bakı arasında həll edilməmiş və həll edilə bilməyən məsələlər yoxdur. Müzakirə üçün qapalı mövzular da yoxdur. Biz etibarlı strateji tərəfdaşlar olmuşuq və indi də belədir. Bizim azərbaycanlı dostlarımız, Azərbaycandakı qardaşlarımız bilməlidirlər ki, biz Belarusda Azərbaycan üçün əlimizdən gələni edəcəyik. Bizim üçün çətin dövrlərdə sizin oynadığınız rolu, bizə etdiyiniz köməyi həmişə yadda saxlayacağıq. Biz qədirbilən xalqıq və bunu yaxşı xatırlayırıq. Lazım gələrsə biz

də Azərbaycan xalqına eyni qaydada həmişə kömək edəcəyik. Təşəkkür edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Sağ olun, hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli xanımlar və cənablar!

Aleksandr Qriqoryeviç, mən ilk növbədə, Sizə bu dəvətə, mənim və Azərbaycan nümayəndə heyətinin üzvlərinin Belarus torpağında hiss etdiyimiz qonaqpərvərliyə görə bir daha təşəkkür etmək istərdim. Bizim münasibətlərimizin gələcək inkişaf yollarını Sizinlə birlikdə müəyyən etmək üçün dost, qardaş Belarusa bir daha gəlməyimə şadam.

Bu gün mühüm sənədlər imzalanıb, onlar müxtəlif istiqamətlər üzrə gələcək inkişafımızı müəyyən edəcək. Prezidentlər tərəfindən Birgə Bəyannamə imzalanmasını xüsusi qeyd etmək istərdim. Bu Bəyannamə bizim həyat fəaliyyətimizin, demək olar ki, bütün sahələrini əhatə edir. Orada bizim bir-birimizi daim dəstəklədiyimiz beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyətimiz barədə də danışılır. İqtisadi, siyasi əməkdaşlıq, humanitar, sənaye istehsalı, hərbi-sənaye sahələrində əməkdaşlıqdan bəhs edilir. Bizim aramızda bütün bu istiqamətlər üzrə çox sıx münasibətlər, dostluğa, qardaşlığa, qarşılıqlı etimada əsaslanan münasibətlər yaranıb. Aleksandr Qriqoryeviçlə bu gün qeyd etdiyimiz kimi, biz bu münasibətləri illər boyu qurmuşuq. Bu gün həmin münasibətlərin səviyyəsi xalqlarımızın mənafelərinə uyğundur və bu münasibətləri strateji tərəfdaşlar arasındakı münasibətlər kimi səciyyələndirməyə imkan verir.

Biz həmişə bir-birimizi dəstəkləməyə çalışmışıq və bundan sonra da bizdən asılı olan nə varsa edəcəyik ki, Belarus və Azərbaycan daim bir-birinin dəstəyini hiss etsin. Beynəlxalq strukturlarda, iqtisadi kooperasiya çərçivəsində də bütün məsələlərdə bizim çox səmimi münasibətlərimiz var.

Biz iqtisadi sahədə gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyən etdik. Əlbəttə, Aleksandr Qriqoryeviçin fikrinə mən də şərikəm ki, böhran şəraitində ölkələrimiz arasında əmtəə döv-

riyyəsinin sabit qalması sevindirici haldır. Biz bu gün əmtəə dövriyyəsini xeyli artıra biləcək layihələri də çox ətraflı müzakirə etdik. Biz qarşılıqlı ticarətə daha artıq diqqət yetirməliyik, o cümlədən başqa ölkələrdən idxal etdiyimiz malları Belarusdan Azərbaycana, Azərbaycandan Belarusa idxal etməliyik. Müştərək istehsalatlar yaradılmasının artıq yaxşı tarixi var. Gəncə zavodu buna nümunədir, orada çox qısa müddətdə, 1 ildən az vaxtda Belarus texnologiyaları üzrə istehsal qaydaya salınıb. Bu gün həmin zavod Azərbaycan ərazisində mühüm sənaye obyektidir.

Biz Azərbaycanda Belarus texnologiyaları əsasında başqa istehsalatlar yaradılması məsələlərini, həmçinin Belarusda Azərbaycanın kənd təsərrüfatı məhsullarının emal edilməsi üzrə istehsalatlar yaradılmasını nəzərdən keçirməyə hazırıq. Başqa sözlə desək, iqtisadi əlaqələrin möhkəmlənməsi, biznes strukturlarının fəal qarşılıqlı əlaqəsi üçün çox möhkəm siyasi baza vardır. Mənim Belarusa növbəti səfərim bunu əyani şəkildə təsdiq edir. Bu il Aleksandr Qriqoryeviç I Avropa oyunlarının açılışında iştirak etmək üçün Azərbaycana gəlmişdi. Fürsətdən istifadə edib, Aleksandr Qriqoryeviçi gələn il Azərbaycana rəsmi səfərə bir daha dəvət etmək istəyirəm.

Bu səfərlər bizim xalqlarımız və region üçün yaxşı siqnaldır. Onlar praktiki baxımdan da çox faydalıdır, çünki səfərlər çərçivəsində biz planlar, layihələr barədə razılığa gəlir, sonra onları reallaşdırırıq. Mənim fikrimcə, münasibətlərimizin bir xüsusiyyəti də ondan ibarətdir ki, biz nə barədə razılığa gəlsək, onu yerinə yetiririk. Biz etibarlı tərəfdaşlarıq və münasibətlərimizi, dostluğumuzu qiymətləndiririk. Əminəm ki, münasibətlərimizin davamlı inkişafı gələcəkdə də təmin ediləcək. Belarus və Azərbaycan iki dost kimi, uğurla irəliləyəcək. Bizim nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və diqqətə görə bir daha təşəkkür edirəm. Sağ olun.

# BELARUS DÖVLƏT BÖYÜK VƏTƏN MÜHARİBƏSİ TARİXİ MUZEYİ İLƏ TANIŞLIQ

*Minsk*

*28 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Belarus Dövlət Böyük Vətən Müharibəsi Tarixi Muzeyi ilə tanış olmuşdur.*

*Azərbaycan Prezidentinə muzey haqqında ətraflı məlumat verildi. Bildirildi ki, muzey İkinci dünya müharibəsində faşizm üzərində Qələbə uğrunda canlarından keçmiş insanların xatirəsini əbədiləşdirmək üçün yaradılıb. Bu muzey 1944-cü il oktyabrın 22-dən Minskdəki Azadlıq meydanında müharibə illərində ziyan görməmiş «Həmkarlar evi»ndə fəaliyyətə başlayıb. Ötən il isə hazırda muzeyin yerləşdiyi yeni Memorial Kompleksin açılışı olub. Burada İkinci dünya müharibəsi illərində istifadə olunan silah-sursat, texnika və digər maraqlı eksponatlar sərgilənir.*

*Muzeydə İkinci dünya müharibəsi illərinin hərb tarixinə aid çox dəyərli eksponatlar saxlanılır. Ümumi sahəsi 4200 kvadratmetr olan muzeydə 10 ekspozisiya zalı və 8 mindən çox ekspozisiya materialı var. Fondu 28 kolleksiya və 144 mindən çox müxtəlif əşyalardan, o cümlədən foto, sənəd, məktub və İkinci dünya müharibəsi iştirakçılarının şəxsi əşyalarından ibarət olan muzey daim yeni eksponatlarla zənginləşdirilir. «Partizanların əlyazma jurnalları» və «Əldəqayırma partizan silahı» kolleksiyaları birinci dərəcəli tarixi-mədəni dəyərə malikdir.*

*Bölmələrin birində müharibənin başlanması, Belarus ərazisində ilk müdafiə, o cümlədən Smolensk və Moskva döyüşləri barədə məlumat verilir. Brest qalası müdafiəçilərinin qəhrəmanlığı ziyarətçilərə xüsusi instalyasiya vasitəsilə təqdim olunur. Muzeydə*

*faşizm üzərində ümumi Qələbənin qazanılmasında və Belarusun faşist işğalçılarından azad olunmasında Azərbaycan xalqının qəhrəman oğullarının böyük şücaətini əks etdirən eksponatlar nümayiş etdirilir. Brest qalasının müdafiəsi zamanı da azərbaycanlılar qəhrəmanlıqları ilə seçiliblər.*

*Muzeydə nasist Almaniyasının Belarus ərazisində yaratdığı ölüm düşərgələri, həmçinin digər həbsxanalarla bağlı maraqlı eksponatlar sərgilənir. Məlumata görə, Belarusda hitlerçilər 260-dan çox ölüm düşərgəsi və insanları kütləvi məhvetmə məntəqəsi yaradıblar. Bu faşist düşərgələrində sovet xalqlarının digər nümayəndələri ilə yanaşı, 30 azərbaycanlı hərbçi də qətlə yetirilib.*

*«Belarusda partizan hərəkatı və antifaşist gizli mübarizəsi» adlanan zal maraqlı dizaynı ilə seçilir. Faşistlərin Belarusu işğal etdiyi dövrdə burada partizan hərəkatının Mərkəzi və Belarus qərargahları yaradılıb. Muzeydə Belarusdakı partizan hərəkatında iştirak edən azərbaycanlıların göstərdikləri şücaətlər barədə ətraflı məlumat verilir. Həmyerlilərimiz Ələkbər Əliyev və Məmməd Məmmədov partizan hərəkatında xüsusi qəhrəmanlıqlar göstəriblər. Muzeydə Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin rəşadəti haqqında da məlumat verilir. Hazırda Minskdə onun adını daşıyan küçə var.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin bu muzeylə tanışlığından bəhs edən fotoşəkillərə baxdı. Ümummilli lider 1978-ci ilin dekabrında Belarus SSR-nin və Kommunist Partiyasının yaradılmasının 60 illiyi münasibətilə keçirilən tədbirlər çərçivəsində rəsmi nümayəndə heyətinin rəhbəri kimi, bu muzeydə olub və Xatirə kitabına ürək sözlərini yazıb.*

*Ulu öndərin muzeylə tanışlığını əks etdirən fotoşəkillər dövlətimizin başçısına hədiyyə olundu.*

*Muzeydəki «Qələbə» zalında Azərbaycanın 8 qəhrəman oğlunun – Sovet İttifaqı qəhrəmanlarının adları qızıl hərflərlə həkk olunub. Onlar Belarusun işğaldan azad olunmasında mərdlik və qəhrəmanlıq göstəriblər. Onların arasında 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun da adı var. O, Smorqon şəhərinin fəxri vətəndaşı adına layiq görülüb, Vileyka şəhərində şərəfinə abidə*

*ucaldılıb. Hər iki şəhərdə Həzi Aslanovun adını daşıyan küçələr var. Muzeydə Həzi Aslanovla bağlı kitablar da sərgilənir.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## «QƏLƏBƏ» MEYDANINI ZİYARƏT

*Minsk*

*28 noyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Minsk şəhərindəki «Qələbə» meydanında 1941–1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Meydanda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.*

*Azərbaycanın və Belarusun dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 28-də Belarus Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Minsk Milli Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Belarusun yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 noyabr 2015-ci il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 noyabr 2015-ci il*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ**

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Laos xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 noyabr 2015-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*1 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qarşıladı.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikası Hökumətinin üzvləri ilə görüşdü.*

## Ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət etmişdir.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat verdi.*

## Naxçıvan Beynəlxalq Aeroportunun «Şərq Terminalı» ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Naxçıvan Beynəlxalq Hava Limanının «Şərq Terminalı» ilə tanış olmuşdur.*

*Muxtar Respublikanın Ali Məclisinin Sədri Vasif Talıbov və «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin pre-*

*zidenti Cahangir Əsgərov dövlətimizin başçısına terminalın texniki göstəriciləri barədə məlumat verdilər. Bildirildi ki, yenidənqurma işləri aparılarkən burada uzunluğu 20 metr olan 2 keçid körpüsü, minik və enişlərin təmin olunması üçün 2 teleskopik trap quraşdırılıb. Ümumiyyətlə, sərnişinlərin rahatlığı üçün terminalda bütün zəruri tədbirlər görülüb. Hərəkət məhdudiyyəti olan sərnişinlər üçün 2 lift quraşdırılıb. Uzunluğu 41 metr olan baqaj konveyeri və eskalatorlar istifadəyə verilib. Bütün bu yeniliklər hava limanının sərnişin dövriyyəsini 2 dəfədən çox artıraraq saatda 150–200 nəfərdən 400–450 nəfərə çatdırılmasına imkan verəcək.*

*Qeyd edək ki, hazırda Naxçıvan Beynəlxalq Aeroportundan Bakı ilə yanaşı, İstanbul və Moskva şəhərlərinə də uçuşlar həyata keçirilir. İlin sonunadək Gəncə şəhərinə uçuşların bərpa edilməsi nəzərdə tutulur.*

*Ermənistanın işğalçılıq siyasəti nəticəsində blokada şəraitində yaşayan muxtar respublika üçün həyati vacibliyi nəzərə alınaraq, dövlətimizin başçısının tapşırıqlarına əsasən Naxçıvan Beynəlxalq Aeroportunun modernləşdirilməsi üçün görülən tədbirlər çoxşaxəliliyi ilə seçilir. Ötən bir neçə il ərzində hava limanında yeni inzibati binanın istifadəyə verilməsi, təhlükəsizliyi gücləndirmək məqsədilə müxtəlif təyinatlı yeni maşın-mexanizmlərin alınması, sərnişindaşımaları ilə bağlı xidmətin səviyyəsini daha da yüksəltmək – bütövlükdə uçuşların təhlükəsizliyini təmin etmək və aeroportun fəaliyyətini dünya standartlarına uyğunlaşdırmaq istiqamətində çox mühüm addımlar atılıb.*

*Dövlətimizin başçısı hava limanının imkanlarından səmərəli istifadə edilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Sənaye Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Naxçıvan Sənaye Kompleksinin açılışında iştirak etmişdir.*

*Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın əsas qolu olan sənayenin inkişafı diqqət mərkəzindədir. Həyata keçirilən*

*tədbirlər və mövcud şərait bu sahə üzrə sahibkarlığın inkişafına, iri sənaye komplekslərinin və istehsal sahələrinin yaranmasına imkan verir. Bütün bunlar isə daxili tələbatın yerli istehsal hesabına ödənilməsinə və ixrac potensialının artmasına şərait yaradır.*

*Ölkəmizdə strateji xarakter daşıyan sənaye müəssisələrinin yaradılması prosesinin Naxçıvan Muxtar Respublikasını da əhatə etməsi həyata keçirilən genişmiqyaslı iqtisadi proseslərin tərkib hissəsidir. Prezident İlham Əliyevin xüsusi diqqət göstərdiyi sənaye sahələrinin yaradılması prosesində muxtar respublikanın da fəal iştirak etməsi ilk növbədə, əhalinin məşğulluğunun təmin olunmasına geniş imkanlar açır. Təbii ki, bu cür müəssisələrin yaradılması həm də Naxçıvan Muxtar Respublikasında innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahə üzrə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı yüksəlişini təmin etməkdir. Belə müəssisələrdən biri də muxtar respublikanın Kəngərli rayonunda inşa olunub.*

*Dövlətimizin başçısına əvvəlcə Sənaye Kompleksinin laboratoriyasında yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, istehsal olunan məhsulların laborator müayinələri burada aparılacaq. Müasir avadanlıqların quraşdırıldığı laboratoriyada yüksək-ixtisaslı kadrlar işləyir və burada müayinələrin vaxtında və keyfiyyətlə aparılması üçün hər cür şərait var.*

*Müəssisənin ərazisini gəzən prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, kompleksin ümumi sahəsi 9 hektardır və özündə 4 zavodu birləşdirir. Bunlar gips, gips lövhələr, əhəng və məsaməli beton istehsal edən zavodlardır. Müasir avadanlıqların quraşdırıldığı zavodlarda istehsal prosesini avtomatik idarəetmə və təhlükəsizliyə videonəzarət sistemləri yaradılıb. Kompleks istifadəyə verildikdən sonra muxtar respublikada müvafiq tikinti materiallarına tələbatın yerli istehsal hesabına ödənilməsi təmin olunacaq. Bu müəssisənin fəaliyyətə başlaması daxili tələbatın ödənilməsi ilə yanaşı, yerli inşaat materiallarının ixracına da imkan*

*verəcək. Yeni layihənin reallaşması üçün Sahibkarlığa Kömək Milli Fondundan dövlət maliyyə dəstəyi göstərilib.*

*Sonra prezident İlham Əliyev məsaməli beton istehsal edən zavodda yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, müəssisədə xammal kimi, daş qumundan, əhəng, gips, sement və alüminium tozundan istifadə olunacaq. İnşaat sektorunda ən çox istifadə edilən bu tikinti materialları istənilən ölçüdə asanlıqla kəsilir, yüksək səviyyədə səs və istilik izolyasiyasına malikdir. Bundan əlavə, yüngül və zəlzələyə davamlı olan bu materiallar yanmaya qarşı beynəlxalq standartlara uyğundur. Müasir avadanlığın quraşdırıldığı zavodda il ərzində 150 min ton məsaməli beton istehsal olunacaq.*

*Kompleksə daxil olan digər zavodlarda da yüksək şərait yaradılıb. Məsələn, Əhəng zavodunda istifadə olunacaq yerli xammal muxtar respublikanın Qarabağlar mədənindən gətiriləcək. Burada hazırlanan məhsullardan inşaat sektorunda, kənd təsərrüfatında, kağız və şüşə istehsalında istifadə ediləcək. Sahəsi 4500 kvadratmetr olan müəssisədə ildə 36000 ton əhəng istehsalı nəzərdə tutulur.*

*Gips zavodunda istifadə olunacaq xammal isə Çalxanqala, Çeşməbasar, Xıncab və Böyükdüz zonalarından gətiriləcək. Burada istehsal olunan məhsullar məsaməli beton blokların, suvaq və üzləmə gipsinin, gips lövhələrin hazırlanmasında istifadə ediləcək. Zavodun illik istehsal gücü 40 min ton gipsdir.*

*Gips lövhə zavodunda da yüksək şərait yaradılıb. Xammal kimi, nişasta, gips, üzləmə kağızı və yapışqandan istifadə olunacaq. Müəssisədə istehsal olunan məhsullara inşaat sektorunda tələbat böyükdür. Bunu nəzərə alaraq zavodda ildə 2 milyon kvadratmetr gips lövhələrin hazırlanması həyata keçiriləcək.*

*Sonda dövlətimizin başçısı müəssisəni işə saldı.*

## Şəhərdaxili su şəbəkəsinin istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Naxçıvan şəhərdaxili su şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Layihənin baş planı ilə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Naxçıvanda şəhərdaxili su və kanalizasiya şəbəkəsinin tikintisi Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında kredit sazişinə əsasən həyata keçirilib. 2010-cu ilin mayında başlanılan tikinti işləri yüksək səviyyədə yerinə yetirilib. Görülmüş işlər çərçivəsində 224790 metr uzunluğunda şəhərdaxili su şəbəkəsi tikilib, 21207 ev birləşməsində sayğaclaşma işləri görülüb. Şəbəkə üzərində 905 yanğın hidrantı quraşdırılıb. Bununla da Naxçıvan şəhər əhalisinin içməli suya tələbatı 100 faiz təmin olunub.*

*Qeyd edildi ki, layihənin mühüm tərkib hissəsi olan şəhərin kanalizasiya şəbəkəsinin yenidən qurulması işləri də uğurla icra olunub. Layihə çərçivəsində 219040 metr uzunluğunda kanalizasiya xətləri çəkilib. Bu da 20795 ev birləşməsini əhatə edib.*

*Sonra prezident İlham Əliyevə layihənin icrasında istifadə olunan tikinti materialları, xüsusilə də borular haqqında məlumat verildi. Bildirildi ki, həm su, həm də kanalizasiya şəbəkəsinin qurulması zamanı bütün köhnə xətlər yeniləri ilə əvəz olunub və yüksəkkeyfiyyətli borulardan istifadə edilib.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov şəhərdaxili su şəbəkəsinin istifadəyə verilməsini bildirən düyməni basdılar.*

## Şəhər 2 saylı Uşaq musiqi məktəbinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Şəhər 2 saylı Uşaq musiqi məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyevə məlumat verildi ki, bu musiqi məktəbi 1987-ci ildə yaradılıb. Məktəb binasının darısqallığı son vaxtlar burada tədrisin müasir səviyyədə qurulmasına əngəl törədirdi. Bu çətinliyi nəzərə alaraq, muxtar respublika rəhbərliyi məktəb üçün yeni bina tikilməsi haqqında qərar verib. Şəhərin görməli yerlərindən birində – Atatürk küçəsində ümumi sahəsi 2540 kvadratmetr olan 4*

*mərtəbəli yaraşıqlı* bina *qısa müddətdə ucaldılıb*. Burada 300 *şagird müxtəlif* musiqi *alətlərində ifaçılıq sənətinə, həmçinin* milli *və* klassik musiqinin *sirlərinə yiyələnəcək*. Bunun *üçün* 4 *şöbədə* 7 ixtisas *üzrə tədris* aparılacaq. *Təlim və tədrisin yüksək səviyyədə* aparılması *üçün bütün zəruri tədbirlər görülüb*. 39 *fərdi* sinif otağı, *tədris otaqları və müxtəlif tədbirlərin keçirilməsi üçün* zal *ən müasir avadanlıqlarla təchiz* edilib.

*Ölkənin hər yerində olduğu* kimi, *Naxçıvan* Muxtar Respub-*likasında* da *yeni mədəniyyət və incəsənət ocaqlarının gənc nəslin istifadəsinə verilməsi, mövcud olanların yüksək səviyyədə bərpası, onların müasir avadanlıqlarla təchiz edilməsi dövlətin mədəniyyət sahəsinə hərtərəfli qayğısının* bariz *nümunəsidir*.

*Dövlətimizin başçısı məktəbdə təlim və tədrisin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini* verdi.

## NAXÇIVAN MUXTAR RESPUBLİKA XƏSTƏXANASININ AÇILIŞINDA NAXÇIVAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*1 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Naxçıvan Muxtar Respublika Xəstəxanasının açılışında iştirak etmişdir.*

*Azərbaycanda səhiyyənin inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən biridir. Son illərdə prezident İlham Əliyevin səhiyyənin inkişafı ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Səhiyyə müəssisələrinin təmir və bərpası, ən modern avadanlıqlarla təchiz olunması, regionlarda yeni diaqnostika mərkəzlərinin istifadəyə verilməsi və digər tədbirlər səhiyyə sahəsində aparılan islahatların əsasını təşkil edir. Bu sırada Naxçıvan Muxtar Respublika Xəstəxanası da mühüm yer tutur. Naxçıvan səhiyyəsində həmişə mühüm rol oynayaraq şərəfli yol keçən bu tibb müəssisəsi 1920-ci ildən şəhər xəstəxanası kimi fəaliyyətə başlayıb. 100 çarpayılıq Naxçıvan Birləşmiş Şəhər Xəstəxanası 1950-ci ildən Respublika Xəstəxanasına çevrilib, 1957-ci ildə N.Nərimanov adına Respublika Birləşmiş Xəstəxanası adlanıb. Fəaliyyətdə olan indiki xəstəxana binasının tikintisinə ümummilli lider Heydər Əliyevin dəstəyi ilə 1979-cu ildə başlanılıb və 1987-ci ildə istifadəyə verilib. Ötən illər ərzində bina istifadəyə yararsız hala düşdüyündən 2013-cü ilin*

*əvvəlindən burada əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb və artıq tibb ocağı istifadəyə hazırdır.*

*Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, 8 mərtəbəli binada tibbin ən son yenilikləri tətbiq olunur. Əsaslı təmir və yenidənqurma işlərindən sonra 300 çarpayılıq olan xəstəxanada 14 stasionar şöbə fəaliyyət göstərir. Buraya travmatologiya, təcili və təxirəsalınmaz tibbi yardım, ümumi terapiya, nevrologiya, hematologiya, göz xəstəlikləri, burun-qulaq-boğaz, endokrin xəstəliklər, urologiya, cərrahiyyə, neyrocərrahiyyə, reanimasiya və reabilitasiya şöbələri daxildir. Xəstəxanada pulmonologiya, qastroenterologiya, hemodializ kimi 3 stasionar bölmə, həmçinin qəbul, radiologiya, laboratoriya, Konsultativ Diaqnostik Poliklinika, Mərkəzi Qan Bankı, Dərman Vasitələrinin Mərkəzləşmiş Analitik Ekspertiza Laboratoriyası şöbələri fəaliyyət göstərir. Fizioterapiya, hidroterapiya, Naftalan nefti ilə müalicə, əməliyyat bölmələri və çoxsaylı yardımçı kabinələr də xəstələrin ixtiyarında olacaq. 130 həkimin, 467 orta və kiçik tibb işçisinin çalışdığı xəstəxanada elmi-tibbi kitabxana da fəaliyyət göstərir. Burada tələbələr üçün 2 böyük auditoriya və 7 sinif otağı, kompüter zalı, 200 nəfərlik iclas zalı, tibb idman mərkəzi və müayinə otaqları yaradılıb. Xəstəxananın köməkçi binasında da yüksək şərait vardır. Burada MRT və digər zəruri tibbi müayinələr aparmaq mümkün olacaq.*

*Ərazidə geniş yaşıllaşdırma işləri görülüb.*

*Dövlətimizin başçısı xəstəxananın kollektivi və Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Salam, sabahınız xeyir olsun. Mən sizi ürəkdən salamlayıram. Yenidən Naxçıvanda olmağımdan çox məmnunam. Bu gün Naxçıvanda çox əlamətdar bir gündür. Naxçıvan Muxtar Respublikasında çox gözəl, müasir xəstəxana açılır. Bu münasibətlə sizi və muxtar respublikanın bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm. Bu, gözəl, əlamətdar hadisədir.

Xəstəxana ən yüksək standartlara cavab verir. Xarici görünüşü də çox gözəldir, əzəmətlidir, bir memarlıq əsəridir. Burada

quraşdırılan avadanlıqlar ən yüksək standartlara cavab verir, ən qabaqcıl firmaların istehsalıdır. Çox gözəl dizaynı var. İnteryer, palatalar, əməliyyat otaqları, dializ bölməsi də gözəldir, burada bir neçə bölmə fəaliyyət göstərir. Bu xəstəxananın istifadəyə verilməsi ilə Naxçıvanda səhiyyə infrastrukturunun yaradılması prosesi başa çatır. Çünki bu günə qədər həm Diaqnostika Mərkəzi tikilib istifadəyə verilib, Doğum Mərkəzi tikilib və bütün rayonlarda müasir xəstəxanalar artıq fəaliyyət göstərir. Bu da son bir mərhələ idi. Çünki buna böyük ehtiyac var idi. Respublika Xəstəxanası yaxşı vəziyyətdə deyildi, çoxdan tikilmişdi, köhnəlmişdi və yeni xəstəxananın tikilməsinə böyük ehtiyac var idi.

Bu doğrudan da çox əlamətdar hadisədir və bir daha göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rahatlığı, sağlamlığı dayanır. İnsan sağlamlığı üçün nə lazımdırsa, Azərbaycanda biz bunu edirik. Son illər ərzində ölkə üzrə 500-dən çox tibb müəssisəsi tikilib və təmir edilib. Ekologiya ilə bağlı məsələlər öz həllini tapır. Naxçıvanda bu problem yoxdur. Çünki burada çox gözəl, təmiz iqlim var. Amma bəzi yerlərdə, xüsusilə Bakıda, Abşeron yarımadasında ekoloji tədbirlərin görülməsinə böyük ehtiyac var idi.

Ölkə üzrə içməli su layihələri icra edilir. Bu da insan sağlamlığı üçün çox vacib olan məsələdir. Şadam ki, Naxçıvan şəhərində də bu problem artıq öz həllini tapıb. Artıq bir müddətdir ki, sakinlər fasiləsiz olaraq təmiz içməli su alırlar. Kanalizasiya şəbəkəsinin yaradılması istiqamətində də işlər gedir. Bizim planlarımızda o da var ki, Naxçıvanın bütün rayon mərkəzlərində içməli su, kanalizasiya layihələri icra edilsin və biz bu məqsədə çatacağıq.

Azərbaycanda səhiyyə ilə bağlı kompleks tədbirlər görülür. İlk növbədə, səhiyyə infrastrukturu yaradılır. Bunsuz səhiyyəni inkişaf etdirmək mümkün deyil. Həkimlərin hazırlığı istiqamətində işlər aparılır. Müasir avadanlıq alınır. Bu sahədə görülən işlər səhiyyə sisteminin təkmilləşməsinə gətirib çıxarıb. Ancaq görüləsi işlər hələ çoxdur. Elə etməliyik ki, Azərbaycanın hər bir yerində insanlar keyfiyyətli tibbi xidmət ala bilsinlər. Bəzi hallarda bəzi vətəndaşlar müalicə üçün xaricə üz tuturlar. Hesab edirəm, biz elə sistem

yaratmalıyıq ki, əksinə, xaricdən Azərbaycana müalicə və müayinə üçün gəlsinlər. Əminəm ki, bu xəstəxanada müalicə üçün Naxçıvana yaxın bölgələrdən, qonşu ölkələrdən də vətəndaşlar gələ bilərlər və gələcəklər.

Bütövlükdə Naxçıvanda işlər çox yaxşı gedir, quruculuq-abadlıq işləri aparılır. Mənim Naxçıvana səfərlərim mütəmadi xarakter daşıyır və hər dəfə bir çox açılışlarda iştirak edirəm. Bu da dinamik inkişafın təzahürüdür. Bu gün mən bir çox önəmli tədbirlərdə iştirak edirəm. Onların içində ən böyüyü xəstəxananın açılışıdır. Uşaq musiqi məktəbi, kənd məktəbi, sənaye kompleksi, Günəş Elektrik Stansiyası, içməli su layihəsi, bunlar özlüyündə bir göstəricidir. Çünki respublika həm iqtisadi cəhətdən inkişaf edir, sənaye potensialı möhkəmlənir, həm də sosial məsələlər öz həllini tapır. Səhiyyə, təhsil, idman – budur əsas sosial infrastruktur məsələləri!

Naxçıvanda infrastruktur məsələləri də, demək olar ki, artıq həll olunub. Muxtar respublika əhalisinin 100 faizi uzun illər ərzində təbii qaz alır. Elektrik enerjisi ilə problem yoxdur. Hesab edirəm ki, gün gələcək, Naxçıvan bütün enerji tələbatını bərpa olunan enerji növləri hesabına təmin edəcək. Buna nail olmaq üçün böyük işlər görülür, su-elektrik stansiyaları tikilib. Ordubad Su-Elektrik Stansiyasının tikintisi gedir və bu gün Günəş Elektrik Stansiyasının açılışını qeyd edəcəyik.

Şəhərlərarası yollar çəkilir, kənd yolları salınır. Yəni kompleks yanaşma bundan ibarətdir. Sənaye və iqtisadi inkişaf elə olmalıdır ki, Naxçıvanın dayanıqlı inkişafı təmin edilsin. Çünki çox sevindirici haldır ki, Naxçıvanın əhalisi artır, əhalinin sayı 450 min nəfərə çatıbdır. Əhalinin artımı bizi daha da gücləndirir, eyni zamanda, yeni inkişafı da şərtləndirir. Çünki artan əhali artan iş yerləri, yeni sənaye müəssisələri deməkdir. Bildiyiniz kimi, indi dünyada maliyyə-iqtisadi böhran, bəzi ölkələrdə siyasi-hərbi böhran hökm sürür, neftin qiyməti kəskin şəkildə aşağı düşübdür. Buna baxmayaraq, Azərbaycanda quruculuq və inkişaf sürətlə gedir. Hətta böhranlı illərdə bu gözəl xəstəxanaya böyük həcmdə maliyyə vəsaiti ayrılıb. Naxçıvanın içməli su şəbəkəsinin yaradılmasına da çox böyük həcmdə həm dövlət vəsaiti ayrılıb, həm də xarici banklardan kreditlər götürülüb. Biz bu siyasətdən kənarda qala bilmərik. Bizim

siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır. Buna nail olmaq üçün güclü iqtisadiyyat olmalıdır. Bu gün Azərbaycan iqtisadi inkişaf templərinə görə dünya miqyasında yenə də birincilər sırasındadır. Bunu statistika göstərir və bu, mötəbər beynəlxalq maliyyə qurumlarının hesabatlarında qeyd edilir. Əminəm ki, biz gələn ili də uğurla başa vuracağıq, necə ki, 2015-ci il gözəl nəticələrlə başa çatır – iqtisadi artım, inflyasiyanın aşağı səviyyədə qalması. 2016-cı ildə də nəzərdə tutulmuş bütün proqramlar icra olunacaq, o cümlədən Naxçıvanda quruculuq, inkişaf davam etdiriləcəkdir.

Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir. Naxçıvan rəhbərliyi çox uğurla, səmərəli işləyir. Naxçıvanın siması dəyişir. Bu gün Naxçıvan nəinki Azərbaycanda, bölgədə, dünya miqyasında ən abad şəhərlərdən biridir. Təkcə şəhərdə yox, bütün bölgələrdə də quruculuq, inkişaf işləri gedir. Bu gözəl uğurlar münasibətilə sizi təbrik edirəm. Sizə yeni uğurlar, qələbələr arzulayıram.

**V a s i f  T a l ı b o v** *(Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri):* Möhtərəm cənab Prezident, bu gün Azərbaycan sabit və davamlı inkişafa malikdir. Bu inkişaf ona görə sabitdir ki, onun əsasını ulu öndərimiz Heydər Əliyev qoyub. Ona görə davamlıdır ki, Azərbaycanda bu siyasətə alternativin olmadığını reallığa çevirmisiniz. Çıxışlarınızın birində dediyiniz kimi, görülən işlər onu göstərir ki, biz faktiki işlərlə, əməli addımlarla sübut etdik ki, bu gün Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır və əbədi yaşayacaqdır.

Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, o sahə üzrə hərtərəfli, əsaslandırılmış inkişaf proqramı olmasın. Ölkəmizin inkişafının mühüm elementlərindən biri də regionların sosial-iqtisadi inkişafı ilə bağlıdır. Blokada şəraitində yaşayan muxtar respublikada bütün sahələrlə yanaşı, enerji təhlükəsizliyinə də diqqət artırılıb. Vaxt var idi ki, muxtar respublikada elektrik enerjisi fasilələrlə verilirdi, qonşu ölkələrdən enerji alırdıq. Sizin rəhbərliyinizlə 2005-ci ildə muxtar respublikaya təbii qaz xətti çəkildi, bu hesaba enerji təsərrüfatı gücləndirildi, modul və qaz-turbin stansiyaları, Heydər Əliyev su anbarı, Arpaçay və Biləv çayı üzərində elektrik

stansiyaları tikildi, alternativ və bərpa olunan enerji mənbələrinin istismarı diqqətdə saxlanıldı, Naxçıvanda yeni Günəş Elektrik Stansiyası yaradıldı. Muxtar respublikada həyata keçirilən bütün quruculuq tədbirlərinin himayəçisi olan cənab Prezident 2004-cü ildən ötən müddət ərzində muxtar respublikaya səfərləri zamanı elm, təhsil və mədəniyyət, idman, səhiyyə və sosial təminat, energetika, meliorasiya, yol tikintisi, sahibkarlıq, eləcə də hərbi quruculuq sahələrini əhatə edən 120-dən çox obyektin açılışında iştirak etmiş, Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illik yubileyləri keçirilmişdir.

Hər bir inkişafın əsasında insan amili dayanır. Ölkə rəhbəri muxtar respublikanın inkişafına öz töhfəsini verənlərin əməyini yüksək qiymətləndirmiş, son 11 ildə muxtar respublikadan 950 nəfər Azərbaycan Respublikasının dövlət təltiflərinə layiq görülmüşdür.

Cənab Prezident, Sizin Naxçıvan Muxtar Respublikasına hər səfəriniz qədim diyarımızın əhalisində qürur və iftixar hissi yaradır. Bugünkü səfər nəticəsində ölkə rəhbərinin iştirakı və himayəsi ilə muxtar respublikada istifadəyə verilən obyektlərin sayı daha da artacaqdır. Bu obyektlər muxtar respublikanın inkişafına yönəlmiş həyati vacib obyektlərdir. Naxçıvan Muxtar Respublikasının inkişafına göstərdiyiniz diqqət və qayğıya görə, cənab Prezident, Sizə bir daha yüksək ehtiramımızı və minnətdarlığımızı bildiririk.

## Naxçıvan Günəş Elektrik Stansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Naxçıvan Günəş Elektrik Stansiyasının açılışında iştirak etmişdir.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına məlumat verdi ki, muxtar respublikada da alternativ və bərpa olunan enerji mənbələri ilə bağlı mühüm layihələr həyata keçirilir. Belə layihələrdən biri də Babək rayonunun Xalxal kəndi yaxınlığında tikintisinə cari ildə başlanılan yeni*

Günəş Elektrik Stansiyasıdır. Bu energetika qurğusu üçün 35 hektar torpaq sahəsi ayrılıb.

Qeyd edildi ki, 20 meqavat gücə malik stansiyada işlər Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi ilə Belçika Krallığının «Soltech» şirkəti arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Stansiyada 78 min 684 ədəd ən müasir «şüşə-şüşə» tipli günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyası quraşdırılıb. Panellərlə transformator yarımstansiyaları, transformator yarımstansiyaları ilə birləşdirici məntəqə arasında kabel və yüksəkgərginlikli elektrik ötürücü, həmçinin yaxınlıqdakı «Xalxal» yarımstansiyasına qədər 35 kilovoltluq kabel xətləri çəkilib. Tikinti-quraşdırma işlərinin vaxtında başa çatdırılması üçün əraziyə 30-dan çox müxtəlif təyinatlı texnika və 400 nəfərdən çox işçi cəlb olunub. Stansiyanın 5 ayrı-ayrı ərazilərdə yerləşən qurğuları hasara alınıb, burada siqnalizasiya və videomüşahidə qurğuları quraşdırılıb. Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində 30 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal olunacaq.

Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin əməkdaşları və Belçikanın «Soltech» şirkətinin nümayəndələri ilə görüşdü.

Prezident İlham Əliyev stansiyanın açılışını bildirən düyməni basdı.

Qeyd edək ki, bu iri layihə alternativ enerji mənbəyi kimi, gələcəkdə Naxçıvanın enerji təminatının tamamilə yerli ehtiyatlar hesabına ödənilməsində mühüm rol oynayacaq.

Dövlətimizin başçısı muxtar respublikanın energetika kompleksinin daha da inkişafı, eləcə də bərpa olunan və alternativ enerji mənbələrindən geniş istifadə ilə əlaqədar tapşırıqlarını verdi.

## Nehrəm kənd 2 saylı tam orta məktəbinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Babək rayonunun Nehrəm kənd 2 saylı tam orta məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bir daha təsdiqləyir ki, bu sahə də dövlət siyasətinin mühüm prioritetləri sırasındadır. Ötən illərdə ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilib, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunub. Bu proses, həmçinin ən ucqar yaşayış məntəqələrini də əhatə edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb, bütün orta təhsil ocaqlarında kompüter sinifləri yaradılıb və internetə qoşulub. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına hərtərəfli dəstəyini əsirgəmir. Azərbaycan dövlətinin təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd – ölkəmizdə bu sahənin qloballaşan dünyanın tələbləri səviyyəsində qurulmasıdır. Həyata keçirilən kompleks proqramlar təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə – tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib. Belə təhsil ocaqlarından biri də Babək rayonunun Nehrəm kənd 2 saylı tam orta məktəbidir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Nehrəm kənd 2 saylı tam orta məktəbi muxtar respublikada tikilən və ya əsaslı şəkildə təmir olunan çoxsaylı təhsil müəssisələrindən biridir. Ümumi sahəsi 5165 kvadratmetr olan məktəbin binası üçmərtəbəlidir. Burada 990 şagird təhsil alır. Onların ixtiyarına 42 sinif otağı, kimya, fizika və biologiya fənlərinin tədrisi üçün laboratoriyalar, hərbi kabinet verilib. Bundan başqa, məktəblilərin şahmatın sirlərinə yiyələnmələri üçün 2 xüsusi sinif ayrılıb. Kitabxana, müəllimlər otağı, idman zalı ən zəruri avadanlıqlarla təmin olunub. Məktəbdə 5 elektron lövhə quraşdırılıb, optik kabel ilə internet şəbəkəsinə qoşulub.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, muxtar respublikanın 221 məktəbi eyni vaxtda birbaşa Naxçıvan şəhərindəki Bayraq Meydanı ilə canlı bağlantı yarada bilir, bu da telekörpü vasitəsilə müxtəlif mövzularda dərslərin keçirilməsinə imkan verir. Nehrəm kənd 2 saylı tam orta məktəbi də həmin sistemə qoşulub. Məktəb bütün lazımi infrastrukturla təchiz olunub.*

## Yenidən qurulmuş Şəkərabad–Babək qəsəbə–Nehrəm– Arazkənd dairəvi avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də yenidən qurulmuş Şəkərabad–Babək qəsəbə–Nehrəm–Arazkənd dairəvi avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf nəticəsində paytaxt Bakı ilə yanaşı, respublikanın bütün regionlarında mühüm yol-nəqliyyat layihələri icra olunur, yeni yollar salınır, mövcud magistrallar ən müasir səviyyədə yenidən qurulur, çoxfunksiyalı yol qovşaqları inşa olunur. Artıq bu layihələr rayon, kənd və qəsəbələri də əhatə edir. Şəkərabad–Babək qəsəbə–Nehrəm–Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması belə layihələrin Naxçıvan Muxtar Respublikasında da geniş vüsət aldığını nümayiş etdirir. Son illərdə Naxçıvanda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən mühüm layihələr sırasında öz yeri olan bu yolun yeni və daha müasir şəkildə istifadəyə verilməsi ilk növbədə, əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən əsaslı tədbirlərdəndir. Yüksək səviyyədə yenidən qurulan bu yol nəqliyyatın rahat və maneəsiz hərəkətinə imkan yaradır.*

*Dövlətimizin başçısı əvvəlcə yolun texniki-iqtisadi göstəriciləri ilə tanış oldu.*

*Məlumat verildi ki, Babək rayonunun bir sıra yaşayış məntəqələrini birləşdirən, uzunluğu 16 kilometrə yaxın, eni 7,5 metr olan yol 1 il müddətində tamamilə yenidən qurulub. Burada 455 metr uzunluğunda beton kanal çəkilib. Yol boyunca 8 yerdə beton su*

*keçidi, 38 yerdə boru su keçidi tikilib, lazımi yol nişanları və göstəriciləri qoyulub. Ən başlıcası isə bu rahat yoldan həmin ərazidə yaşayan 32 min nəfər sakin istifadə edəcək. Bu magistral təkcə Naxçıvan şəhəri və Babək rayonu üçün deyil, ümumilikdə, muxtar respublika üçün mühüm iqtisadi əhəmiyyətə malikdir.*

*Bildirildi ki, bu gün Naxçıvan Muxtar Respublikasında yol-nəqliyyat infrastrukturunun inkişafı diqqət mərkəzində saxlanılır, nəqliyyat kompleksinin yenilənməsinə xüsusi önəm verilir. Eyni zamanda, kənddaxili və kəndlərarası yolların da abadlaşdırılması istiqamətində davamlı işlər görülür.*

*Azərbaycan prezidenti İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri dekabrın 1-də başa çatmışdır.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və hökumətin üzvləri yola saldılar.*

## «BAKUTEL – 2015» XXI AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və «BakuTel – 2015» XXI Azərbaycan Beynəlxalq sərgi və konfransının işə başlaması münasibətilə təbrik edirəm.

Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində dinamik inkişaf edən ölkələr sırasındadır. Respublikamızda informasiya cəmiyyətinin əsaslarının qurulması yolunda mühüm addımlar atılır. Genişzolaqlı internet xidmətlərinin, ən yeni texnologiyaların istifadəsi və rəqəmli televiziya yayımı genişləndirilir, müasir idarəetmənin təmin olunması və şəffaflığın gücləndirilməsi üçün «Elektron hökumət» quruculuğu istiqamətində ardıcıl iş aparılır. «Bir pəncərə» prinsipi üzrə təşkil edilmiş elektron xidmətlərin istifadəçilərinin sayı sürətlə artmaqdadır.

Ölkəmiz «Azərspace-1» və «Azərsky» peyklərini orbitə çıxararaq dünya kosmik ailəsinə qoşulmuşdur. Azərbaycanın təşəbbüskarı olduğu və mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilən «Trans–Avrasiya Böyük İnformasiya Magistralı» və «Avropa – Yaxın Şərq İnformasiya Magistralı» layihələri uğurla həyata keçirilir. Texnologiya parklarının yaradılması, qabaqcıl texnologiyaların təhsildə tətbiqi, istehsal və investisiyayönümlü innovativ layihələrə dövlət dəstəyi ölkədə və regionda yüksək texnologiyalar sektorunun inkişafına xidmət edir.

Ənənəvi xarakter almış bu sərgi və konfrans son nailiyyətlərin nümayişi, təcrübə mübadiləsi və işgüzar əlaqələr baxımından böyük imkanlara malikdir. Bu il milli pavilyonları ilə təmsil olunan ölkələrin sayının daha da çoxalması tədbirinizin əhatə dairəsinin genişləndiyini göstərir. Əminəm ki, iştirakçı dövlətlərin təmsilçiləri, alimləri, mütəxəssisləri, ictimaiyyət və biznes nümayəndələri

arasında səmərəli görüşlər, konfransda dinləniləcək məruzə və çıxışlar beynəlxalq əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşməsinə öz töhfəsini verəcəkdir.

Sizə bu məsul və şərəfli işinizdə yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2015-ci il*

**ARGENTİNA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAURİSİO MAKRİYƏ**

Hörmətli cənab Makri!

Argentina Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Argentina arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Argentina xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2015-ci il*

**TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Tailand xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2015-ci il*

## GÜRCÜSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ TİNATİN XİDAŞELİ İLƏ GÖRÜŞ

*2 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Gürcüstan Respublikasının Müdafiə naziri Tinatin Xidaşelini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bu yaxınlarda Gürcüstana rəsmi səfərini və keçirdiyi görüşlər zamanı ikitərəfli əlaqələrimizi əhatə edən müxtəlif məsələlər ətrafında aparılan səmərəli müzakirələri məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev ikitərəfli əlaqələrimizin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi və energetika sahələrində uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Gürcüstanın Müdafiə naziri Tinatin Xidaşelinin Azərbaycana səfərinin iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığa dair məsələlərin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd etdi.*

*Gürcüstanın Müdafiə naziri Tinatin Xidaşeli də Azərbaycana səfərinin ölkələrimizin hərbi strukturları arasında əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Tinatin Xidaşeli ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrə xüsusi önəm verdiyini vurğuladı.*

## UKRAYNA RESPUBLİKASI PREZİDENT ADMİNİSTRASİYASININ RƏHBƏRİ BORİS LOJKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Ukrayna Respublikası Prezident Administrasiyasının rəhbəri Boris Lojkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkəmizə ilk dəfə səfər etdiyini vurğulayan Ukrayna Prezident Administrasiyasının rəhbəri Boris Lojkin paytaxtımızda gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Ukrayna prezidenti Petro Poroşenkonun məktubunu dövlətimizin başçısına çatdıran Boris Lojkin ölkələrimiz arasında əlaqələrin fəal şəkildə inkişaf etdirilməsinin zəruriliyini vurğuladı.*

*Prezident İlham Əliyev Ukrayna Prezidenti ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi apardığını, ölkələrimiz arasında müzakirə ediləcək çoxlu birgə layihələrin mövcud olduğunu vurğuladı. Dövlətimizin başçısı Ukrayna Prezident Administrasiyasının rəhbəri Boris Lojkinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müəyyənləşdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan–Ukrayna ikitərəfli əlaqələrinin müxtəlif sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «BAKUTEL–2015» SƏRGİSİ İLƏ TANIŞLIQ

*2 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Bakı Ekspo Mərkəzində «BakuTel–2015» XXI Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, dekabrın 5-dək davam edəcək «BakuTel–2015» Beynəlxalq sərgisində 200-dən artıq şirkət iştirak edir. Yeni şirkətlərin diqqətini cəlb edən sərgidə bu il debütantların sayı iştirakçıların ümumi sayının 15 faizini təşkil edir.*

*Sonra prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.*

*Dövlətimizin başçısı əvvəlcə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin stendinə baxdı. Burada prezident İlham Əliyevə «Elektron hökumət» portalı və Data Mərkəzi barədə ətraflı məlumat verildi. Bildirildi ki, 2012-ci ildən fəaliyyətə başlayan «Elektron hökumət» portalı artıq özündə 80-dən artıq qurumu birləşdirir. Hazırda 45 qurum tərəfindən 432 elektron xidmət, 220-dən artıq elektron ödəniş olmaqla, vətəndaşlara ümumilikdə 650-dən artıq elektron xidmət göstərilir. 35 qeyri-dövlət qurumu da portala qoşularaq bu xidmətlərdən yararlanır. Son 2 il ərzində istifadəçilərin sayı 10 dəfə artaraq 2,5 milyona çatıb. Ötən ildən elektron arayışların verilməsinə də başlanılıb.*

*Azərbaycan Prezidentinə Data Mərkəzi barədə də məlumat verildi. Bildirildi ki, «bulud» texnologiyası əsasında regionda birinci olan Data Mərkəzi artıq istismara tam hazırdır. Mərkəzin istifadəyə verilməsini şərtləndirən sertifikatlaşdırma prosesi artıq tamamlanıb. Avropa Nüvə Tədqiqatları Təşkilatının apardığı elmi tədqiqatların nəticələrinin bu Data Mərkəzində saxlanılması və istifadə olunması ilə bağlı razılaşma var. Data Mərkəzinin istifadəyə verilməsi ölkədə «Elektron hökumət»in genişlənməsinə, həm dövlət, həm də qeyri-*

*dövlət orqanlarının informasiya məlumatlarının saxlanılmasına imkan verəcək.*

*Prezident İlham Əliyevə «Google»un yeni platforması barədə məlumat verildi. «Cultural Institute» adlanan platforma dünyanın bütün muzeyləri, sərgiləri və maraqlı, mədəni görməli yerlərini əhatə edir. Məlumat verildi ki, ilk olaraq Azərbaycanın 3 muzeyi platformaya daxil edilib. Bunlar Xalça, Milli İncəsənət və Musiqi Mədəniyyəti muzeyləridir. Ümumilikdə bu 3 muzey üzrə 1000-dək eksponat platformada təqdim ediləcək. «Google» bu platforma üzrə Azərbaycan ilə əməkdaşlığı davam etdirmək niyyətindədir.*

*Dövlətimizin başçısına CERN – Avropa Nüvə Tədqiqatları Təşkilatının məqsədi və funksiyaları barədə də məlumat verildi. Bildirildi ki, CERN-də çalışan fiziklər və mühəndislər Yer kürəsinin fundamental quruluşunu öyrənirlər. Onlar materiyanın tərkibinin – əsas elementar hissəciklərinin tədqiqi üçün dünyanın ən böyük və ən mürəkkəb elmi alətlərindən istifadə edirlər. 1954-cü ildə təsis edilmiş CERN laboratoriyası Cenevrə şəhərinin yaxınlığında yerləşir. Hazırda 21 dövlətin üzv olduğu təşkilat Avropanın ilk birgə müəssisələrindən biridir.*

*Sərgidə Birləşmiş Ərəb Əmirliklərinin Dubay Əmirliyi İqtisadi İnkişaf Nazirliyinin İxrac İnkişaf Korporasiyası («Dubai Exports») ilə təmsil olunur.*

*Prezident İlham Əliyevə «Dubai Exports»un gələcək planları və məqsədləri barədə məlumat verildi. Bildirildi ki, «Dubai Exports» qarşısına innovasiya ilə inkişaf məqsədini qoyub. «BakuTel» sərgisinə ilk dəfə qatılan «Dubai Exsports» ümumilikdə ölkəmizdə keçirilən müxtəlif səpkili sərgilərdə artıq 3 ildir iştirak edir.*

*Azərbaycan Prezidentinin sərəncamı ilə 2015-ci ildə yaradılan Mingəçevir Yüksək Texnologiyalar Parkı artıq uğurlu fəaliyyətə başlayıb. Sərgidə bu parkın ilk rezidenti olan «HTECH İnvest» şirkəti də iştirak edir. «HTECH İnvest»in əsas məqsədi dünyanın tanınmış informasiya texnologiyaları şirkətlərinin məhsullarının Azərbaycanda yığılmasını təmin etməkdir. Hazırda «ACER» şirkəti ilə danışıqlar başa çatmaq üzrədir. İlk məhsul 2016-cı ilin fevralın-*

*da istehsal ediləcək. «ACER» şirkəti dünyanın 5  ən nüfuzlu informasiya texnologiyaları şirkətindən biridir.*

*Prezident İlham Əliyev «Azərkosmos» ASC-nin stendi ilə tanış oldu. Məlumat verildi ki, Qafqazda yeganə peyk operatoru olan «Azərkosmos» ASC telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksəkkeyfiyyətli peyk xidmətləri təqdim edir. Dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan «İntelsat» ilə «Azərkosmos» ASC-nin uzunmüddətli razılaşmasına əsasən, 45 dərəcə Şərq uzunluğu orbital mövqeyində yerləşəcək «Azərspace-2» Afrika, Avropa, Asiya və Yaxın Şərq regionlarını əhatə edəcək. «Azərspace-2» «Azərkosmos»un sayca ikinci telekommunikasiya peyki olmaqla yanaşı, «Azərspace-1»in əhatə zonasını genişləndirərək, Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Tropik Afrikada ödənişli televiziya, hökumət strukturları üçün rabitə və şəbəkə xidmətlərinə artan tələbatı ödəyəcək.*

*«BakuTel–2015» sərgisi çərçivəsində «Azərspace-2» peykinin orbitə çıxarılması barədə «Azərkosmos» ASC ilə Fransanın «Arianespace» şirkəti arasında müqavilə imzalanıb. Prezident İlham Əliyevin iştirakı ilə imzalanan müqaviləyə əsasən, «Azərspace-2» peykinin 2017-ci ildə Fransanın «Ariane-5» raketi ilə Fransız Qvianasından orbitə çıxarılması nəzərdə tutulub.*

*Dövlətimizin başçısına «Kaspersky» şirkəti barədə də məlumat verildi. Bildirildi ki, şirkət artıq 18 ildir 33 ölkənin informasiya-kommunikasiya texnologiyaları bazarlarına informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə məhsullarını təqdim edir. Şirkətin məhsulları arasında kompüterlərin təhlükəsizliyi, şəbəkələrin, elektron ünvan serverlərinin, mobil avadanlığın, fayl serverlərinin kiberhücumlardan qorunması üzrə xidmətlər yer alır. Sərgidə ilk dəfə iştirak edən «Kaspersky»nin Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev «Formula-1» Avropa Qran-pri yarışının stendi ilə də tanış oldu. Qeyd edildi ki, gələn il Bakının ilk dəfə ev sahibliyi edəcəyi yarış milyonlarla televiziya tamaşaçısının diqqətini bir daha ölkəmizə yönəldəcək. Dünya üzrə məşhur pilotlar YUNESKO-nun Dünya İrsi Siyahısına daxil olmuş İçərişəhər Dövlət*

Tarix-Memarlıq Qoruğu, Xəzər sahili boyu və müasir göydələnlərin əhatə etdiyi ərazidə yarışacaqlar. «Formula-1» Bakı Qran-prisinin promouter şirkəti olan «Bakı Şəhər Halqası» bu mötəbər turnirin yüksək səviyyədə keçirilməsi ilə bağlı hazırlıq işlərinə artıq başlayıb.

Çinin «Huawei» şirkəti də sərgidə geniş təmsil olunur. Yüksək texnoloji məhsullar istehsal edən «Huawei» dünyanın ən böyük 100 şirkətindən biridir. Şirkətin bir çox ölkələrdə, o cümlədən Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir. «Huawei» artıq 15 ildir ki, Azərbaycanda öz xidmətlərini təklif edir. Onlar əsasən internet operatoru və korporativ xidmətlərdir. Şirkət ölkəmizin aparıcı mobil operatorları ilə əməkdaşlıq edir. «Huawei»in məhsulları arasında planşet, mobil telefon, şəbəkə, informasiya-kommunikasiya texnologiyaları avadanlığı və stasionar kameralar sərgilənir. Şirkət ölkəmizdə «Huawei–Azərbaycan» adı ilə fəaliyyət göstərir.

Prezident İlham Əliyevə Sumqayıt Texnologiyalar Parkında yeni istehsal edilən məhsullar barədə də məlumat verildi. Onların arasında kommunikasiya dolabları, ödəniş terminalları, infoköşk, rabitə, internet, elektrik kabelləri var. Məhsulların hamısı yüksək keyfiyyəti ilə seçilir. Sumqayıt Texnologiyalar Parkı müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış nəhəng zavodlar kompleksidir. Regionda nadir layihə olan STP Azərbaycanın həm daxili, həm də xarici bazarının tələbatını tam ödəmək qabiliyyətinə qadirdir.

Dövlətimizin başçısı SAP şirkətinin stendinə baxdı. Şirkət 1972-ci ildə Almaniyada təsis olunub. Proqram təminatı və biznes həllərinin istehsalçısı olan SAP-ın 190 ölkədə 290 min müştərisi var. Şirkət yeni nəsil məlumatlar bazası, proqram təminatları ilə dünya bazarının liderlərindəndir. Şirkətin gələn il Azərbaycanda rəsmi ofisinin açılışı nəzərdə tutulub. SAP sərgidə «Smart Azərbaycan» layihəsi üçün innovativ texnologiyaları təqdim edir. Bunlar İnnovativ Liman Logistikası, İnnovativ Energetika, İnnovativ Kənd Təsərrüfatı, Hava Daşımalarının İnteraktiv İdarəedilməsidir.

Prezident İlham Əliyev ABŞ-ın «CISCO Systems» şirkətinin stendi ilə də tanış oldu. Sonra dövlətimizin başçısına kiber təhlükələr və onların idarə edilməsi sistemi barədə məlumat verildi. Dünyada

*real zamanda baş verən kiber hücumlar, Avropa və Azərbaycan üzrə spam aktivliyinin vəziyyəti barədə məlumat diqqətə çatdırıldı.*

*«BakuTel–2015»in iştirakçıları arasında aparıcı informasiya-kommunikasiya texnologiyaları şirkətləri, Azərbaycanın mobil rabitə operatorları, internet provayderləri, sistem inteqratorları və tanınmış brendlərin distribüterləri yer alıb. Ənənəvi olaraq, sərgidə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə bir sıra ölkələrin milli stendləri təqdim olunur. Sərgidə informasiya texnologiyaları sahəsi üzrə yeni nəsil və milli genişzolaqlı internet üzrə həll variantları, 4-5G mobil texnologiyalar, fiber-optik və «bulud» texnologiyaları üzrə xidmətlər, «Elektron hökumət», «Smart Azərbaycan» layihələri üçün yeni texnologiyalar, eləcə də informasiya təhlükəsizliyi yer alıb.*

*BMT, Beynəlxalq Telekommunikasiya İttifaqı və Rabitə sahəsində Regional Birlik kimi beynəlxalq təşkilatların dəstəyi, eləcə də Dünya Sərgi Sənayesi Assosiasiyası tərəfindən sərgiyə verilmiş keyfiyyət nişanı «BakuTel»in beynəlxalq nüfuzunu bir daha təsdiq edir. Sərgidə «startap» şirkətlərinə iş üçün xüsusi yer ayrılıb. Sərginin təşkilatçıları qismində «Iteca Caspian» və «Caspian Event Organisers» şirkətləri çıxış edir.*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ**

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Finlandiya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 3 *dekabr 2015-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*3 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlunun dekabrın 3-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Baş nazir Əhməd Davudoğlunun şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Baş naziri Əhməd Davudoğlunu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyənin Baş nazirinə raport verdi.*

*Türkiyə Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və Baş nazir Əhməd Davudoğlu Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkiyənin Baş naziri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Baş nazir Əhməd Davudoğluna, Türkiyənin nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidentinin və Türkiyə Baş nazirinin qarşısından keçdi.*

*Prezident İlham Əliyev və Baş nazir Əhməd Davudoğlu rəsmi foto çəkdirdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*3 dekabr 2015-ci il*

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra dekabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Əlaqələrimizin genişləndirilməsi baxımından bu səfərin önəmi xüsusi vurğulandı. Münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*3 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə dekabrın 3-də geniş tərkibdə görüşü keçirilmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Parlament seçkilərindən sonra ilk səfərinizdir. Seçkilərdə qazandığınız qələbə münasibətilə Sizi bir daha təbrik edirəm. Şadam ki, Siz ilk səfəri qardaş ölkəyə edirsiniz. Bu da təbiidir. Biz də seçkilərdən sonra ilk səfəri qardaş Türkiyəyə edirik. Bu bir daha Türkiyə–Azərbaycan birliyini, qardaşlığını göstərir. Bizim əlaqələrimiz ən yüksək zirvədədir. Türkiyə və Azərbaycan bir-birinə çox yaxın olan ölkələrdir, bütün məsələlərdə bir yerdəyik, bir-birimizi dəstəkləyirik və dəstəkləyəcəyik.

Şadam ki, Siz Azərbaycana böyük heyətlə gəlmisiniz. Əminəm ki, hökumətin yeni üzvləri bu günlər ərzində öz həmkarları ilə görüşəcəklər, məsələləri müzakirə edəcəklər, əlaqələrimizin inkişafı üçün yeni yollar axtaracaqlar və tapacaqlar. Bizim əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri əhatə edir. Biz bütün sahələrdə gözəl inkişafı görürük. Əminəm ki, Sizin səfəriniz də bu istiqamətdə çox önəmli addım olacaqdır. Bir daha xoş gəlmisiniz!

**Ə h m ə d  D a v u d o ğ l u:** Çox təşəkkür edirəm, hörmətli cənab Prezident!

Bu çox gözəl ənənədir. Bazar ertəsi gecə etimad səsverməsindən sonra Türkiyə Respublikasının 64-cü hökuməti olaraq vəzifəmizin icrasına başladıq. Hələ İstanbula və doğulduğum Konya şəhərinə

getməmişəm, amma Bakıya gəlmişəm. Çünki Bakı, Azərbaycan bizim canımızdır, ürəyimizdir. Mən həmişə buraya «can Azərbaycan» deyirəm. Ona görə bu ənənəyə sadiq qalaraq, heyətimizlə birlikdə ilk səfərimi Bakıya etməkdən çox böyük məmnunluq hissi keçirirəm.

Bilirsiniz, Türkiyədə yeni hökumət qurulub və bu hökumətdə təmsil olunan nazirləri Sizə təqdim edəcəyik. Çünki birlikdə işləyəcəyik. Azərbaycanın, hamımızın böyük lideri atanız möhtərəm Heydər Əliyevin dediyi kimi, biz «bir millət – iki dövlətik». Bu mənada bizim nazirlərimizə Sizin nazirləriniz kimi, sizinkilərə də bizimkilər kimi hər zaman baxıldığını bilirik. Əlaqələrimiz genişmiqyaslıdır. Dünyada heç bir iki ölkə arasında əlaqələr Türkiyə–Azərbaycan münasibətləri qədər yaxın deyil. Energetika, ticarət, nəqliyyat, mədəniyyət sahələrində çox geniş əlaqələrimiz var. Həmişə olduğu kimi, bizi böyük qonaqpərvərliklə qarşıladınız.

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*3 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu geniş tərkibdə görüş başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Çox şadam ki, parlament seçkilərindən sonra Siz ilk səfəri Azərbaycana – qardaş ölkəyə edirsiniz. Fürsətdən istifadə edərək, bir daha rəhbərlik etdiyiniz partiyanın parlament seçkilərində qazandığı böyük qələbə münasibətilə sizi Azərbaycan xalqı adından təbrik edirəm. Parlament seçkilərindən sonra ilk rəsmi səfəriniz bir daha Türkiyə–Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olduğunu göstərir.

Eyni zamanda, bu yaxınlarda Antalya şəhərində keçirilmiş «G20» Zirvə görüşü münasibətilə Türkiyəni təbrik etmək istəyirəm. Minnətdarlığımı bildirmək istəyirəm ki, Türkiyə bu Zirvə görüşünə Azərbaycanı dəvət etdi. Bir ölkəni dəvət edə bilərdi və bu ölkə Azərbaycan oldu. Buna görə də Sizə minnətdaram. Bu bizim üçün çox önəmlidir. İlk növbədə ona görə ki, həm Türkiyə, həm Azərbaycan, həm də dünya ictimaiyyəti gördü ki, biz bir-birimizə nə qədər yaxınıq. Məncə, dünyada bir-birinə bu qədər yaxın olan ikinci ölkələr mövcud deyil. Bizi birləşdirən tariximizdir, ortaq mədəniy-

yətimizdir, etnik köklərdir, dilimizdir. Eyni zamanda, bu gün Türkiyə və Azərbaycan iki müstəqil dövlət kimi, bir-biri ilə çox sıx əməkdaşlıq edir. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olmuşdur. O gündən bu günədək bizim əlaqələrimiz çox sürətlə və hərtərəfli inkişaf edir.

Biz bütün dövrlərdə və bütün məsələlərdə daim bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Bu, dəyişməz siyasətdir. Bu siyasət həm ədalətə, həm də bizim tarixi keçmişimizə söykənir. Biz çox istəyirik ki, gələcək nəsillər də bu əlaqələri yüksək səviyyədə saxlasınlar. Bunun üçün bütün imkanlar var. Çünki bizim siyasi maraqlarımız üst-üstə düşür. Biz istəyirik ki, bölgədə sülh, əmin-amanlıq olsun, qarşıdurmalar olmasın, bütün ölkələr, bütün xalqlar rahat yaşasınlar, öz həyatlarını qursunlar, heç kim heç kimin daxili işinə qarışmasın.

Türkiyə–Azərbaycan birliyi və siyasəti bölgədə sabitləşdirici rol oynayır. Çünki bölgədə sabitlik, əfsuslar olsun ki, pozulub, yeni təhdidlər, risklər meydana gəlir. Biz bütün bu çağırışlara hazır olmalıyıq və hazırıq. Əlbəttə, Türkiyə nə qədər daha güclü olsa, Azərbaycanın gücü də o qədər artacaqdır.

Biz bütün beynəlxalq təşkilatlarda da bir-birimizi daim dəstəkləyirik. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyini dəstəklədiklərinə görə Türkiyə xalqına, dövlətinə minnətdarlığımı bildirmək istəyirəm. Bildiyiniz kimi, uzun illərdir ki, Azərbaycan erməni işğalından əziyyət çəkir. Beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımızın 20 faizi erməni işğalı altındadır. Şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, tarixi abidələrimiz ermənilər tərəfindən dağıdılıbdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası münaqişənin həlli ilə bağlı 4 qətnamə qəbul etmişdir. Qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur. Ancaq Ermənistan buna məhəl qoymur və bu qətnamələr 20 ildən artıqdır ki, kağız üzərində qalır. Bu münaqişə və bütün başqa münaqişələr beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bunun başqa həll yolu yoxdur.

Bu gün eyni zamanda, bizi birləşdirən enerji, nəqliyyat layihələri haqqında fikir mübadiləsi apardıq. Burada da ölkələrimiz, xalqlarımız, bölgə və dünya üçün gördüyümüz işlər böyük məna daşıyır. Xüsusilə TANAP layihəsini qeyd etmək istəyirəm. TANAP layihəsi Türkiyə–Azərbaycan layihəsidir. Biz bu layihəni birgə icra etməyə başladıq. Bu gün bu layihə beynəlxalq layihə kimi, dünya miqyasında diqqət mərkəzindədir. TANAP layihəsinin icrasında heç bir problem yoxdur və bu gün biz bir daha bu məsələni müzakirə etdik. Əminəm ki, bu layihə vaxtında – 2018-ci ildə, bəlkə ondan da tez icra ediləcəkdir. Beləliklə, Azərbaycan Türkiyəyə və ondan sonra Avropaya daha böyük həcmdə təbii qazını ixrac edə biləcək. Türkiyə və Avropa ölkələri yeni alternativ mənbəyə çıxış əldə edəcəkdir. Bütün tərəflər bu layihənin icrasından ancaq fayda görəcəkdir.

Azərbaycanın çox zəngin təbii qaz yataqları vardır. Təsdiq edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir. Əlbəttə ki, bizim əsas resurs bazamız «Şahdəniz» layihəsidir. Ancaq onun kənarında da çox böyük digər qaz yataqlarımız var və bizim əsas ixrac yolumuz da artıq bəllidir. Bu Türkiyədir və Türkiyə üzərindən digər Avropa ölkələridir.

Şadam ki, bununla bərabər, qarşılıqlı sərmayə qoyuluşu uğurla həyata keçirilir. Həm Türkiyə, həm də Azərbaycan şirkətləri qarşılıqlı olaraq sərmayə qoyurlar. Azərbaycan yaxın illərdə Türkiyəyə 20 milyard dollara yaxın sərmayə qoyacaqdır. O sərmayənin bir hissəsi artıq qoyulub və bu, əlbəttə ki, bir daha bizim siyasi iradəmizi əks etdirir. Ancaq dost ölkələrin iqtisadiyyatlarına bu qədər sərmayə qoyula bilər.

Bütün digər sahələrdə, o cümlədən humanitar sahədə də sıx əməkdaşlıq aparılır. Hərbi sahədə çox gözəl əməkdaşlıq aparılır. Azərbaycan Türkiyədən ordumuza lazım olan silahları alır. Eyni zamanda, biz artıq bir neçə dəfə birgə hərbi təlimlər də keçirmişik, həm Türkiyədə, həm Azərbaycanda. Bu bir daha bizim birliyimizi nümayiş etdirir, gücümüzü artırır. Bu gün həm regionda, həm Avropada gedən proseslərdə Türkiyə və Azərbaycan artıq ciddi amil kimi mövcuddur.

Son illər ərzində Türkiyənin inkişafı, güclənməsi, dünya miqyasında artan rolu bizi bir dost, qardaş kimi çox sevindirir və bir daha demək istəyirəm ki, bizi də gücləndirir. Biz gücümüzə güc qatırıq, biz dostuq, qardaşıq. Bu, əsas məsələdir və bütün məsələlərdə bundan sonra da bir-birimizi dəstəkləyəcəyik, bir-birimizin yanında olacağıq.

Hörmətli cənab Baş nazir, bir daha Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

**Türkiyənin Baş naziri Əhməd Davudoğlunun bəyanatı**

Çox təşəkkür edirəm, hörmətli cənab Prezident!

Mən də qonaqpərvərliyinizə görə bir daha təşəkkür etməyi özümə borc bilirəm. Türkiyə ilə Azərbaycan – mən nə vaxt «Azərbaycan» deyirəmsə, həmişə «can Azərbaycan» deyirəm – bizim canımızdır, canımızla iç-içədir. Çox özəl əlaqələrə sahibik. Bunun bir göstəricisi də Türkiyədə və Azərbaycanda kim hökumət qurursa, vəzifəyə gəlirsə, ilk səfərini qarşılıqlı olaraq Türkiyəyə və Azərbaycana edir.

Bazar ertəsi axşamı yeni hökumətə etimad göstərilməsi ilə bağlı parlamentdə keçirilən səsvermədə lazımi səsi toplayıb 64-cü hökuməti qurduq. Hələ İstanbula, doğulduğum Konyaya getmədim, amma mənəvi məmləkətimiz Azərbaycana Sizinlə görüşməyə gəldim. Bu gözəl ənənə bundan sonra qiyamətə qədər davam edəcək. Ankarada kim iqtidara gəlsə, əvvəlcə Bakıya gələcək. Bakıda kim seçkilərdə qalib gəlsə, o da Ankaraya gələcək. Mən bizimlə eyni gündə keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyasının uğurları münasibətilə sizləri təbrik edirəm. Qarşıdakı illərdə Türkiyədə və Azərbaycanda iki sabit hökumətin ölkədə hakimiyyətdə olması əlaqələrimizi möhkəmləndirəcək, gücümüzə güc qatacaq.

Böyük liderimiz Heydər Əliyev «bir millət – iki dövlət» demişdi. Vətən şairimiz Bəxtiyar Vahabzadə «Türkiyə və Azərbaycan, bir ananın iki oğlu» demişdi. Biz bir-birimizə bu şəkildə bağlanmışıq.

Bu bağlılıq nəsillərdən-nəsillərə ötürüləcək. Biz də Bakının ruzigarı-küləyi üçün darıxmışdıq. Oradan sevgi almağa gəldik.

Həmişə olduğu kimi, bu gün burada çox faydalı görüşlər keçirdik. Eyni zamanda, yeni təyin olunan nazir yoldaşlarımızı hörmətli Prezidentimizə təqdim etdim. Çünki Türkiyədə nazir olan hər kəs Azərbaycanın da naziri kimidir. Azərbaycanın nazirləri də eyni şəkildə.

Ortaq məsələlərimizi tam əməkdaşlıq şəraitində müzakirə etdik. Türkiyə və Azərbaycan həm Qafqaz regionunda, həm Avrasiya bölgəsində sabit inkişaf edən ölkələrdir. Çox dərin iqtisadi böhranların yaşandığı bir dövrdə – 2005-ci ildən 2015-ci ilədək Azərbaycan böyük inkişaf nümayiş etdirib, milli gəliri təxminən 5 dəfə artıb. Bu uğurların qazanılmasında cənab Prezidentin və onun hörmətli komandasının yaxşı işləməsi və Azərbaycan xalqının vətənpərvərliyi böyük əhəmiyyətə malikdir.

Təbii ki, Türkiyə hər zaman bu proseslərdə Azərbaycanın yanında olub və olacaq. Hansı mövzuda olursa-olsun, əgər Azərbaycanı maraqlandıran bir məsələ varsa, Türkiyənin mövqeyi bəllidir. Bütün sahələrdəki kimi, siyasi sahədə əlaqələrimiz hər zaman ən yüksək səviyyədə olub. «G20» Sammitində hörmətli Prezidenti Türkiyədə, Antalyada görmək bizə böyük şərəf verdi. Türkiyə bayrağının dalğalandığı hər yerdə Azərbaycan bayrağı vardır. Azərbaycan bayrağının dalğalandığı hər yerdə Türkiyə bayrağı vardır.

Bunu sadəcə, gəlişigözəl sözlər kimi demirik, əməli işlərlə, layihələrlə də dəstəkləyirik. Avrasiya miqyasında ən böyük layihələrin təməlində Türkiyə–Azərbaycan əməkdaşlığı durur. Bu təməlin enerji və nəqliyyat xətləri xüsusilə mühüm əhəmiyyət kəsb edir. TANAP layihəsi artıq xəyala çevrilən Nabukko kimi bir çox layihədən sonra həyata keçirilibsə, bu, Türkiyə və Azərbaycan arasında dostluq, qarşılıqlı etibar sayəsində reallaşıb. Bir çox ölkələrin edə bilmədiyini Türkiyə və Azərbaycan danışıqlar apararaq birlikdə həyata keçirdilər. Digərləri daha sonra qoşuldular.

Bu gün keçirdiyimiz görüşlərdə, apardığımız müzakirələrdə energetika nazirlərimiz TANAP layihəsinin nəzərdə tutulduğu kimi,

2018-ci ildə deyil, daha tez reallaşması üçün razılığa gəldilər. Gecə-gündüz çalışacağıq, Türkiyə Respublikasının sərhədləri daxilində TANAP layihəsi üçün nə lazımdırsa ediləcək. Bu işlər Azərbaycanda da eyni qaydada görüləcək. Çünki TANAP və Bakı–Tbilisi–Ceyhan iki böyük layihə olaraq neft və təbii qaz ehtiyatlarının Xəzərdən Aralıq dənizinə və Avropaya çatdırılmasında əsas kanallardır. TANAP-ın TAP ilə tamamlanması Avropa daxilində balanslaşmaya da təsir edəcək.

Ötən bazar günü keçirdiyimiz Türkiyə–Avropa İttifaqı Zirvəsi ilə bağlı da prezident İlham Əliyevə məlumat verdim. Orada avropalı dostlarımızla əgər Avropanın enerji təhlükəsizliyi müzakirə mövzusu olarsa, ən təhlükəsiz xəttin Xəzər ehtiyatlarının Türkiyə vasitəsilə Avropaya çatdırılması olduğunu bir daha müzakirə etdik.

Nəqliyyat məsələsində də Türkiyənin və Azərbaycanın eyni qaydada liderlik etdiyi, Gürcüstan ilə birlikdə həyata keçirdiyi Bakı–Tbilisi–Qars dəmir yolu xətti Çindən İstanbula və Avropaya qədər uzanan dəhlizin şah damarını təşkil edir. Bu xəttin, inşallah, 2016-cı ilin birinci yarısında fəaliyyətə başlaması ilə tarixi İpək yolu yeni bir deyimlə, daha müasir şəkildə bu günümüzə daşınacaq. Bu mövzuda Çin ilə görüşlər keçirmişik, Çin dövlətinin başçısının Antalyada cənab Prezidentimizlə görüşündə də bu məsələlər açıq şəkildə müzakirə edilib. Hörmətli prezident İlham Əliyevin Çinə səfərində də bu məsələlər müzakirə olunacaq. Bu dəhlizin ən qısa zamanda gerçəkləşməsi və ən qısa nəqliyyat xəttinin yaradılması bu gözəl Bakını Asiyanın ən önəmli limanlarından birinə çevirəcək.

Biz Bakını Azərbaycan ilə birlikdə Asiyanın yüksələn bir ulduzu olaraq görürük. Hər gəlişimdə Bakıda gördüyüm yüksəlişdən və inkişafdan böyük məmnunluq duyuram. «Soyuq müharibə»dən sonra əgər şəhərlərə baxsaq, ölkələrin taleyini də görə bilirik. Ən parlaq, ən müasir və ən çox inkişaf etmiş şəhərlərin başında Bakı dayanır. Bu mənada Azərbaycanın inkişafı bizim inkişafımızdır. Türkiyənin inkişafı Azərbaycanın inkişafıdır. Əslində söhbət qarşılıqlı olaraq Türkiyənin 9 milyard, Azərbaycanın isə 4 milyard dollarlıq sərmayə qoyuluşundan gedir. Türkiyənin İzmir bölgəsində «Petkim»ə Azərbaycan sərmayəsinin yatırılması bizə böyük güc

verib. Hədəfimiz bu sərmayələri ən qısa müddətdə 20 milyard dollara, hazırda 5 milyard dollar olan ticarət dövriyyəmizi 15 milyard dollara çatdırmaqdır. Bunun üçün lazımi işləri görə biləcək iradəyə sahibik.

Bundan əlavə, bir çox başqa sahələrdə – ortaq mədəni dəyərlərimiz baxımından da görüləcək işlərimiz var. «Mədəniyyətlər ittifaqı» layihəsinə Azərbaycanın ev sahibliyi etməsinə böyük önəm veririk. İnşallah, gələn il aprelin 25–27-də keçiriləcək BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu ilə Azərbaycan dünyanın diqqətini bir daha özünə cəlb edəcək. Belə böhranlı, dünyada inanclar arasında qarşıdurmaların yaşandığı bir dövrdə Bakıdan yüksələcək mədəniyyətlər ittifaqı və sülh sözlərinin böyük mənası olacaq.

Cənab prezident İlham Əliyevin müdafiə sənayesi sahəsinə dair fikirləri ilə tam həmrəyəm. Müdafiə sənayesi sahəsində də ortaq fəaliyyətimiz davam edəcək. Azərbaycanın özünün müdafiə sənayesini inkişaf etdirməsi və Türkiyə ilə birlikdə layihələr həyata keçirməsi bizim ən çox önəm verdiyimiz məsələlərdən biridir.

Qafqazda və ətraf regionlarda sülhün bərqərar olması Türkiyə–Azərbaycan əlaqələrindən çox asılıdır. Bu baxımdan Türkiyə–Azərbaycan–Gürcüstan, Türkiyə–Azərbaycan–İran, Türkiyə–Azərbaycan–Türkmənistan üçtərəfli mexanizmlərinə böyük önəm veririk. Türkiyə və Azərbaycanın birlikdə olduğu və digər ölkələrin iştirak etdiyi mexanizmlərin sülhə böyük töhfə verəcəyinə inamımız qətidir. Türk Şurası və digər regional təşkilatlarda birlikdə çalışmaqdan da böyük məmnunluq duyuruq.

Bu gün, həmçinin başda Dağlıq Qarabağ problemi olmaqla, regional məsələləri də müzakirə etdik. Türkiyə olaraq bizim mövqemiz açıq və konkretdir: Azərbaycanın işğal altındakı torpaqlarının hamısı – bir kvadratsantimetri belə, qalmamaqla qaytarılana qədər Türkiyə Azərbaycana verdiyi dəstəyi davam etdirəcək. Dünyada bir çox problemlərin həllində əsas prinsip ərazi bütövlüyünə qarşılıqlı hörmətdir. Azərbaycan torpaqlarının 20 faizinin işğal altında olduğu müddətdə Qafqazda sülhün və sabitliyin təmin olunmasında nə qədər çətinliklərin yaşandığı məlumdur.

Mən burada Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi, ədalətli və davamlı sülhün təmin olunması istiqamətində atılacaq hər addıma dəstək verəcəyimizi bir daha bəyan etmək istəyirəm. Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olması üçün bütün Qafqazı əhatə edəcək sülh və rifah layihələrinə hər zaman töhfə verəcəyik.

Bu gün müzakirə etdiyimiz məsələlərdən biri də Suriya başda olmaqla, Yaxın Şərq və ətraf regionlarda yaşanan gərginliklərlə bağlı proseslər oldu. Mən cənab Prezidentə dost, qardaş bir ölkə olaraq, Suriyada son proseslər və noyabrın 24-də əvvəlcə hansı ölkəyə məxsusluğu bəlli olmayan, amma daha sonra Rusiyanın etdiyi açıqlama ilə ona aid olduğu məlum olan təyyarənin vurulması ilə bağlı məlumat verdim.

Türkiyə bütün bu məsələlərdə həmişə şəffaf və açıq siyasət yürüdüb. Buradan bir daha dostumuz, qonşumuz və böyük ortağımız olan Rusiyanı bütün bu məsələləri soyuqqanlı şəkildə dəyərləndirməyə çağırıram. Türkiyə öz sərhədlərini qoruyub. İndiyədək hər hansı şəkildə heç bir ölkəni hədəf alan aqressiv mövqedə olmayıb. Sərhədlərimiz dəfələrlə pozulsa da, hər dəfə bu halları Rusiya tərəfi ilə, aidiyyəti tərəflərlə müzakirə etdik və bütün dünyanın bildiyi kimi, müdafiə olunma qaydalarımızı da elan etdik. Türkiyə Respublikasının torpaqları, hava məkanı bizim üçün müqəddəsdir. Bundan başqa, Suriya böhranının ən çox təsir etdiyi ölkə də Türkiyə Respublikasıdır. Suriya böhranının Türkiyədən daha çox təsir etdiyi ikinci bir ölkə yoxdur. Suriyada baş verənlərə Türkiyədən daha çox təsir edəcək ikinci bir ölkə də yoxdur. Biz Suriyadakı böhrana görə 2 milyon qaçqını qəbul etmək məcburiyyətində qaldıq. Dünya bu böhranı seyr edərkən 8 milyard dollara yaxın xərclə 2 milyon qardaşımızı Türkiyədə yerləşdirdik. BMT Təhlükəsizlik Şurası bu məsələyə passiv yanaşanda və bu böhran daha da yayılaraq insan faciələrinə yol açanda susanlar ilk növbədə bu böhrana cavabdehlər kimi qiymətləndirilməlidir.

Bizim Suriyanın, o cümlədən heç bir ölkənin bir qarış torpağında gözümüz yoxdur. Amma başqa ölkələrin də bizim sərhədlərimizə, hava məkanımıza ehtiram göstərmələrini gözləmək ən təbii

haqqımızdır. İndiki halda Türkiyə Rusiya ilə istənilən məsələni müzakirə etməyə hazırdır. Bütün məsələləri ətraflı müzakirə edə bilərik. Hər məsələdə fərqli qənaətdə olsaq da, görüşüb danışa, qənaətlərimizi bölüşə bilərik. Bir masa ətrafında danışıqlar aparmağa da hazırıq. Bu gün iki ölkənin xarici işlər nazirləri cənab Çavuşoğlu və cənab Lavrov Belqradda ATƏT-in toplantıları çərçivəsində görüşəcəklər. Orada da eyni fikri ifadə edəcəyik. Hər bir məsələni danışıb müzakirə edə bilərik. Müzakirə etməyəcəyimiz yeganə məsələ Türkiyə Respublikası dövlətinin sərhədləri və suveren haqlarıdır. Biz hamının suveren haqlarına hörmət edirik və hər kəsin də bizə hörmət etməsini gözləyirik.

Xüsusilə iqtisadi sanksiyalar məsələsində, Türkiyə indiyə qədər İrana, keçmişdə Suriyaya, bu yaxınlarda Rusiyaya qarşı tətbiq olunan iqtisadi sanksiyalar məsələsində də eyni mövqe ortaya qoymuş və iqtisadi sanksiyaların siyasi problemlərin həllinə fayda verməyəcəyini bəyan etmişdir. Rusiyanın ən çətin vaxtlarında bu ölkəyə qarşı tətbiq olunan iqtisadi sanksiyalara biz qatılmadıq.

Ancaq bu gün Türkiyənin heç bir şəkildə səbəb olmadığı böhranla əlaqədar Rusiyanın bizə qarşı iqtisadi sanksiyaların tətbiqi ilə bağlı qərar qəbul etməsini də böyük bir ziddiyyət olaraq görürük. Özlərinə qarşı iqtisadi sanksiyalar tətbiq ediləndə bundan məmnun olmayanlar başqalarına da iqtisadi sanksiyalar tətbiq etməməlidirlər. Həmçinin iqtisadi sanksiyalar hər iki tərəfə də zərər verir. Heç bir iqtisadi sanksiya birtərəfli işləyə bilməz.

Bu baxımdan da Rusiyaya, bu gün belə açıqlamaları ilə gərginliyi artıran cənab Putinə bir daha demək istəyirəm: əvvəlcə açıqlamalarımızdakı sərtliyi yumşaldaq. Qarşılıqlı ittihamlar əvəzinə, müzakirələr aparmaq üçün görüşək. Sonra əgər hadisənin necə baş verməsi ilə bağlı məlumat almaq istəsələr – düzdür, bunları əvvəlcə açıqlamışıq – bir daha açıqlayarıq. Dünya da buna şahiddir. Dünyada artıq heç nə gizli qalmır. Hava sərhədimizin pozulmasının necə baş verdiyi eyni zamanda, NATO qeydlərində, bölgədəki hərbi bazalarda, hər yerdə bəllidir. Bunları danışıb müzakirə edərik. Gərginliyi azaltmaq, ittihamedici açıqlamalardan çəkinmək və iki qonşu ölkə olaraq, bir masa ətrafında əyləşərək problemləri həll etmək

bizim seçdiyimiz yol və metoddur. Çünki Türkiyə–Rusiya münasibətlərinə yalnız Türkiyə və Rusiya olaraq iki ölkənin deyil, Qafqaz, Balkanlar, Orta Asiya, Yaxın Şərq, Qara dəniz, Xəzər dənizi regionlarının və digər bölgələrin də ehtiyacı var. Türkiyə ilə Rusiya arasındakı əlaqələrin yaxşı olması bütün bu bölgələrin sülh və sabitliyinə töhfə verər. Bu baxımdan bu müraciətimizi buradan bir daha səsləndirmək istəyirəm. Amma heç bir şəkildə əsassız ittihamlarla Türkiyənin günahlandırılmasını da qəbul etməyəcəyimizi və nə olursa-olsun, kimin tərəfindən gəlirsə-gəlsin, hansı ölkəyə aid olursa-olsun Türkiyənin hava, quru və dəniz sərhədlərini təhdid edəcək və ya pozacaq heç bir fəaliyyətə imkan verməyəcəyimizi bir daha ifadə etmək istəyirəm.

Bu baxımdan Türkiyədə hər zaman istənilən məsələni şəffaf bir şəkildə müzakirə etdiyi üçün Türkiyənin bu prosesdə yanaşmaları və düşüncələri, hadisənin başvermə vəziyyəti barədə cənab Prezidentə məlumat verdik. Onsuz da Türkiyə ilə Azərbaycan arasında elə bir məsələ yoxdur ki, səmimiyyətlə müzakirə olunmasın. Elə bir məsələ yoxdur ki, birlikdə müzakirə etməyək.

Mən yüksək qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə bir daha təşəkkür etmək istəyirəm. Bütün azərbaycanlı qardaşlarımıza, dostlarımıza, can Azərbaycana 78 milyon qardaşından salam gətirdik. Buradan da Bakının təkcə küləyini yox, salamını da aparacağıq. Bilsinlər ki, hər şey yox olsa, hər şey tar-mar olsa da, qiyamətə qədər yıxılmayacaq, tar-mar olmayacaq yeganə amil Türkiyə ilə can Azərbaycan arasındakı dostluq, qardaşlıqdır.

Bu baxımdan, cənab Prezidentim, qarşıdakı 4 ildə Türkiyə Respublikasının iqtidarda olacaq Baş naziri kimi, Azərbaycan harada olsa, biz də orada olacağıq. Azərbaycanın mənafeyi haradadırsa, Türkiyənin də mənafeyi orada olacaq. Azərbaycan bayrağı haradadırsa, Türkiyənin də bayrağı onun yanında olacaq. Bir daha təşəkkür edirəm.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ İŞTİRAK

*3 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından dekabrın 3-də Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlunun şərəfinə ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak etmişdir.*

## LATVİYA RESPUBLİKASININ RİFAH NAZİRİ ULDİS AUQULİS İLƏ GÖRÜŞ

*3 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Latviyanın Rifah naziri Uldis Auqulisi qəbul etmişdir.*

Prezident İlham Əliyev Azərbaycan ilə Latviya arasında mütəmadi həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrimizin yaxşı göstəricisi olduğunu bildirdi. Bu səfərlərin ikitərəfli münasibətlərimizlə bağlı məsələlərin həllinə töhfəsini verdiyini deyən dövlətimizin başçısı bu baxımdan Latviyanın Rifah naziri Uldis Auqulisin də ölkəmizə səfərinin səmərəli nəticələr verəcəyinə ümidvar olduğunu qeyd etdi. Azərbaycanda əhalinin sosial müdafiəsinə göstərilən dövlət dəstəyindən danışan prezident İlham Əliyev ölkəmizdə bu sahədə ən qabaqcıl standartların tətbiq edildiyini bildirdi. Müvafiq fəaliyyət sahəsi üzrə qarşılıqlı fikir və təcrübə mübadiləsi aparılmasının əhəmiyyətinə toxunan dövlətimizin başçısı iki ölkə arasında əməkdaşlığa dair yeni istiqamətlərin müzakirə olunmasının önəmini qeyd etdi.

Azərbaycanın sosial müdafiə sahəsində qazandığı nailiyyətlərə toxunan Latviyanın Rifah naziri Uldis Auqulis ölkəmizin müvafiq qurumları ilə birgə işləmək niyyətində olduqlarını bildirdi. Hər iki ölkədə uğurla tətbiq olunan təcrübənin öyrənilməsinin vacibliyini xüsusi vurğulayan Latviyanın Rifah naziri əhalinin sosial müdafiəsi sisteminin təkmilləşdirilməsinə nail olmaq üçün görülən işlər, əldə edilən uğurlar və qarşıya çıxan problemlərə dair müzakirələr aparılmasının əhəmiyyətini vurğuladı.

## RUSİYA KİNEMATOQRAFÇILAR İTTİFAQININ SƏDRİ NİKİTA MİXALKOV İLƏ GÖRÜŞ

*3 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Rusiya Kinematoqrafçılar İttifaqının sədri, kinorejissor Nikita Mixalkovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Rusiyanın bütün sahələrdə, o cümlədən humanitar sahədə uğurlu əməkdaşlıq etdikləri bildirildi. Bu səfərin ölkələrimiz və xalqlarımız arasında humanitar sahədə əlaqələrin daha da genişləndirilməsi işinə xidmət etdiyi vurğulandı. Nikita Mixalkovun Azərbaycana növbəti səfərinin ölkələrimizin mədəniyyət sahəsində əməkdaşlığına öz töhfəsini verdiyi qeyd edildi.*

*Nikita Mixalkov səfərindən məmnun olduğunu, Azərbaycanın mədəniyyət və incəsənət nümayəndələri ilə görüşünün onda xoş təəssürat yaratdığını vurğuladı.*

*Nikita Mixalkov 70 illiyi münasibətilə hazırlanan, müəllifi olduğu filmlərin kolleksiyasını və kitabı prezident İlham Əliyevə təqdim etdi.*

## ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİNİN YENİ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*5 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Əmlak Məsələləri Dövlət Komitəsinin İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov prezident İlham Əliyevə mərkəzdə yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzinin yeni inşa edilmiş binası dördmərtəbəlidir. Binanın ətrafı abadlaşdırılıb, müasir dizaynda yaşıllıqlar salınıb, işıqlandırılma işləri görülüb, avtodayanacaq yaradılıb.*

*Binanın interyeri müasir səviyyədə qurulub, inşaat işləri yüksək keyfiyyətlə yerinə yetirilib. Binada ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada 80 nəfərlik heyət üçün iş otaqları, müasir avadanlıqlarla təchiz edilmiş 140 nəfərlik konfrans və video nümayiş zalları, videokonfrans, treninq, xidmət və digər otaqlar yaradılıb.*

*Dövlətimizin başçısına mərkəzdən idarə edilən informasiya sistemləri haqqında məlumat verildi. Burada dövlət əmlakının avtomatlaşdırılmış idarəedilməsi, daşınmaz əmlaklar və torpaqlar, milli qeydiyyat sistemi, daşınmaz əmlakın kadastrı və qeydiyyatı, ünvan reyestri kimi informasiya sistemləri fəaliyyət göstərir. Mərkəzdə daşınmaz əmlak, torpaq idarəçiliyi üzrə toplanan geoməkan məlumatları milli məkan məlumatları infrastrukturunun formalaşmasında baza rolunu oynayacaq. İnformasiya sistemlərində toplanmış məlumatların məxfiliyi mövcud qanunvericiliyə uyğun və İKT imkanlarından istifadə edilməklə qorunacaq.*

Daşınmaz əmlakın qeydiyyatı, kadastrı və idarəedilməsi sistemi respublika ərazisində mülkiyyət növündən asılı olmayaraq, daşınmaz əmlaka dair hüquqların qeydiyyatı ilə bağlı daşınmaz əmlakın dövlət reyestrinin aparılması, daşınmaz əmlakın vahid dövlət kadastrı, habelə daşınmaz dövlət əmlakının idarə edilməsi, hərracların təşkili barədə məlumatların vahid məlumat bazasında toplanılmasını, onların mühafizəsini təmin edən informasiya ehtiyatlarının və proqram-texniki vasitələrin məcmusudur. Azərbaycanın kadastr tarixində ilk dəfə olaraq, Bakı və Sumqayıt şəhərlərinin mükəmməl elektron kadastr məlumat bazası yaradılıb, rəqəmsal kadastr xəritələri tərtib edilib, bütün növ daşınmaz əmlaklar barədə hərtərəfli məlumat yerləşdirilib.

Elektron kadastr məlumat bazasında parsel-torpaq sahəsi haqqında bütün məlumatlar əksini tapıb. Bu baza ilə hüquqların dövlət qeydiyyatı sistemi arasında bağlantı yaratmaqla, daşınmaz əmlakın kimə məxsus olması barədə məlumatı əldə etmək mümkündür. Torpaqların elektron kadastr uçotu işinin icrası üçün paralel olaraq, respublikanın 3,5 milyon hektar ərazisini əhatə edən ortofotomaterialların stereomodellər üzərindən rəqəmsallaşdırılması, inzibati ərazi vahidlərinin sərhədlərinin müəyyənləşdirilməsi, bələdiyyə xəritələrinin hazırlanması işləri aparılır. 2016-cı ilin aprelində Gəncə şəhərinin və Şəki rayonunun torpaqlarının və onların üzərindəki daşınmaz əmlak obyektləri barəsində mükəmməl elektron kadastr məlumat bazasının yaradılması işi yekunlaşacaq. Bazanın materiallarından şəhərsalma işində, hər bir inzibati ərazi vahidi üzrə sosial təyinatlı obyektlərin sayı və yerləşmə vəziyyətinin düzgün təhlilində, sosial obyektlərin yerləşməsinin planlaşdırılması zamanı əhalinin tələbatına uyğunluğunun müəyyənləşdirilməsində, əmlakın qiymətləndirilməsində və digər mühüm məsələlərdə istifadə ediləcək.

Ünvan reyestri informasiya sistemi respublikada daşınmaz əmlakların ünvan məlumatlarının toplanmasının və məlumat bazasının elektron idarə edilməsini, həmçinin bu məlumatlara digər dövlət orqanlarının informasiya sistemlərinin çıxışını təmin edən avtomatlaşdırılmış informasiya sistemidir. Bu sistem ünvan işinin elektron xidmətlər sırasına daxil edilməsinə və ölkədə ünvan axta-

*rışlarında naviqasiya sisteminin tətbiqinə şərait yaradıb. Sistem ünvanlar haqqında mərkəzləşdirilmiş ümumdövlət rəsmi informasiya bazasıdır. Bu sistemin işə düşməsi ilə vətəndaşlara şəxsiyyət vəsiqələrinin və pasportların hazırlanması zamanı ünvan məlumatlarının əldə edilməsi avtomatlaşdırılıb. Bundan başqa, sistem təcili yardım, yanğınsöndürmə, axtarış əməliyyatları və digər hallarda obyektə daha az vaxt sərf etməklə çatmağa imkan verir.*

*Dövlətimizin başçısına torpaqların elektron uçotu sistemi barədə də məlumat verildi. Sistem təyinatından və mülkiyyət növündən asılı olmayaraq, ölkənin bütün torpaqlarının kəmiyyət və keyfiyyət göstəricilərini xarakterizə edən məlumatların toplanmasını, emalını, idarə olunmasını və digər istifadəçilərə çatdırılmasını təmin edir. Sistemin işə düşməsi nəticəsində torpaqların islahat sənədlərindəki göstəriciləri ilə faktiki yerləşmə vəziyyətinə dair göstəriciləri arasındakı uyğunsuzluqlar aradan qaldırılacaq, kadastr xəritələri ilə bağlı problemlər həllini tapacaq, torpaq ehtiyatlarının idarə edilməsinin, əmlak münasibətlərinin tənzimlənməsinin dövlət mexanizmi təkmilləşəcək, əmlak üzərində dövlət nəzarəti mexanizmi daha çevik olacaq. Bundan başqa, sistem respublikada torpaqların təyinatı, istifadə növü üzrə dəqiq kadastr uçotunun aparılmasına, «Plan-ölçü» sənədinin verilməsi işinin elektron xidmətlər sırasına daxil edilməsinə şərait yaradacaq, qeyri-kənd təsərrüfatı torpaqlarının kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi üçün qərarların qəbulunda informasiya bazası rolunu oynayacaq, icarəyə götürülmüş, lakin istifadə olunmayan torpaq sahələrinin aşkarlanmasına şərait yaradacaq.*

*Bina ilə tanışlıq zamanı bildirildi ki, burada, həmçinin yeməkxana, arxiv, ümumi, texniki dəstək və servisin təşkili, informasiya sistemləri və proqram təminatının işlənməsi və digər şöbələr var. Bir sözlə, binada yaradılan şərait əməkdaşların yüksək səviyyədə fəaliyyət göstərməsinə geniş imkanlar açır.*

*Prezident İlham Əliyev mərkəzin işinə uğurlar arzuladı.*

## ÇİN XALQ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*Sian*

*8 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Çin Xalq Respublikasına dövlət səfərinə gəlmişdir.*

*Sian şəhərinin Beynəlxalq Aeroportunda dövlətimizin başçısını şəhərin rəsmi şəxsləri qarşıladılar.*

## SİAN ŞƏHƏRİNDƏKİ TERRAKOTA ORDUSU MUZEYİ İLƏ TANIŞLIQ

*9 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində dekabrın 9-da Sian şəhərindəki Terrakota Ordusu (yeraltı heykəllər ordusu) Muzeyi ilə tanış olmuşdur.*

*Sian şəhəri Çinin mərkəzində yerləşən Şaansi əyalətinə mənsubdur. Qədim İpək yolunun üzərində yerləşən bu əyalət zəngin tarixi və mədəniyyəti ilə diqqəti cəlb edir. Bu şəhər Çinin 4 qədim paytaxtından biridir.*

*Dövlətimizin başçısına əvvəlcə muzeyin yerləşdiyi ərazinin planı barədə məlumat verildi.*

*Diqqətə çatdırıldı ki, yeraltı heykəllər ordusu 1974-cü ildə təsadüf nəticəsində – bir kəndlinin ərazidə qazıntı işləri apardığı zaman aşkar edilib və dünya tarixinin ən önəmli arxeoloji tapıntılarından hesab olunur. 1977–1985-ci illərdə burada 2 dəfə arxeoloji qazıntı işləri aparılıb. Həmin ərazidə tədqiqatlar nəticəsində boyları 183 və 193 santimetr arasında dəyişən əsgər heykəlləri aşkarlanıb. Heykəllərin özəlliyi onların hər birinin üz ifadəsinin və geyimlərinin fərqli olmasıdır. Lakin tapılan heykəllər torpaqdan çıxarılandan sonra üzlərindəki boyalar pozulduğuna və təbii rənglərini dəyişdiyinə görə arxeoloqlar qazıntı işlərini yarımçıq qoymağa məcbur olublar. Çinlilər tərəfindən dünyanın səkkizinci möcüzəsi kimi qəbul edilən terrakota əsgərləri ilə bağlı qazıntı işləri 2009-cu ildə yenidən bərpa olunub. Qazıntı aparılan ərazidən indiyədək təxminən 2 min əsgər heykəli tapılıb. Ərazidə 520 atla 8 min əsgərin, 130 döyüş arabasının, 150 süvarinin olduğu təxmin edilir. Onlar 600-ə yaxın yeraltı çuxurda toplanıb. Çin imperatoru*

Sin Şi Huangın məzarı da buradadır. Əfsanəyə görə, terrakota ordusu imperator Sin Şi Huangın məzarını qoruyurmuş.

Məlumat verildi ki, 1987-ci ildə YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilən terrakota ordusu 3 ayrı çuxurda dəfn edilib. Çuxurlardan ən böyüyü əsasən piyada əsgərlərin heykəllərindən ibarətdir. Müxtəlif hərbi rütbələri daşıyan hərbçilər dövrün döyüş nizamına və strategiyasına uyğun şəkildə, döyüş meydanında hazır mövqedə basdırılıblar. Çuxurların birində imperatorun mərasim batalyonu öz nizami düzülüşü ilə diqqəti cəlb edir. Əsgərlərin yanında o dövrə aid təxminən 10 min bürünc silah da var.

Bu muzey Çin tarixini, həmçinin o dövrə məxsus texnologiya, incəsənət və mədəniyyəti öyrənmək və tədqiq etmək üçün əvəzsiz mənbədir. Lakin araşdırmalar hələ də terrakota ordusunun sirrini açmağa kömək etməyib. Qədim məxəzlərdə yazılıb ki, imperator Sin Şi Huang dövrünün görkəmli dövlət xadimi olaraq, Çin ərazilərini vahid dövlətdə birləşdirən lider kimi tarixə düşüb. Bəzi mənbələr Çin səddinin inşasına başlanmasının da onun adı ilə bağlı olduğunu bildirir. Tarixçi Si Maqian isə yazır ki, bu məzarın inşası 30 il davam edib və tikintidə 700 min insan işləyib. İmperatorun ordunu dəfn etdirmək üçün niyə Sian ərazisini seçməsinin də maraqlı tarixçəsi var. Tarixçilər hesab edirlər ki, imperator Li Şan adlanan dağı o dövrün məşhur fəlsəfəsi ilə əlaqələndirib. Məhz buna görə özünün də burada dəfn olunmasını əmr edib. İmperatorun məzarı yerin 36 metr dərinliyindədir və o inanırdı ki, daş heykəllərdən ibarət terrakota ordusu onu öldükdən sonra da qoruyacaq.

Prezident İlham Əliyev terrakota ordusunun müxtəlif rütbəli hərbçilərinin heykəllərinə baxdı.

Dövlətimizin başçısına qazıntı işləri zamanı ərazidən tapılan bürünc silah nümunələri barədə məlumat verildi.

Qeyd edək ki, il ərzində bu muzeyə dünyanın müxtəlif yerlərindən minlərlə turist gəlir.

Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.

## ŞAANSİ VİLAYƏTİNİN QUBERNATORU LOU ÇİNCYAN İLƏ GÖRÜŞ

*Sian*

*9 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Çinin Şaansi vilayətinin qubernatoru Lou Çincyan ilə görüşmüşdür.*

*Lou Çincyan prezident İlham Əliyevin Çinə dövlət səfərinə Şaansi vilayətindən başlamasından şad olduğunu bildirdi. «Siz görkəmli rəhbərsiniz» – deyən qubernator prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadiyyatın yaxşı inkişaf etdiyini vurğuladı. Rəhbərlik etdiyi vilayət ilə Azərbaycan arasında müəyyən oxşarlıqların olduğunu bildirən Lou Çincyan qədim İpək yolu üzərində yerləşən Şaansi vilayətinin tarixi haqqında danışdı. O burada sənayenin müxtəlif sahələrinin inkişaf etdiyini, telekommunikasiya sahəsinin müasirləşdirilməsi ilə bağlı bir çox tədbirlərin görüldüyünü diqqətə çatdırdı. «Biz Azərbaycan ilə bütün sahələrdə əməkdaşlıq etməyə hazırıq» – deyən qubernator bildirdi ki, prezident İlham Əliyevin Siana səfəri Azərbaycan ilə Şaansi vilayəti arasında dostluq əlaqələrinin möhkəmlənməsinə xidmət edəcək, energetika və humanitar sahələrdə əməkdaşlığın inkişafına töhfə verəcək.*

*Prezident İlham Əliyev Çinə dövlət səfərinə Şaansi vilayətindən başlamasından məmnun qaldığını, bunun bir çox səbəblərinin olduğunu dedi. Dövlətimizin başçısı bildirdi ki, Şaansinin qədim tarixi, güclü iqtisadiyyatı və sənayesi var. Terrakota Muzeyinin onda böyük təəssürat yaratdığını deyən prezident İlham Əliyev bunu Çin xalqının qədim tarixə və mədəniyyətə malik olmasının göstəricisi kimi dəyərləndirdi. Bu səfərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına, eyni zamanda, Şaansi vilayətinin məhsulları ilə Azərbaycanın daha yaxından tanış olmasına imkan*

yaradacağını deyən prezident İlham Əliyev respublikamızın Çin ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək istəyində olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycanda son illərdə sürətli iqtisadi artım müşahidə olunur və ölkəmiz uğurla inkişaf edir. Bu da ölkələrimiz arasında fəal qarşılıqlı əməkdaşlığın həyata keçirilməsinə kömək edir.

Görüşdən sonra Şaansi vilayətinin qubernatoru Lou Çincyan adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə qəbul təşkil edildi.

## SİAN ŞƏHƏRİNDƏ ŞAANSİ AVTOMOBİL ZAVODU İLƏ TANIŞLIQ

*Sian*

*9 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Çinin Sian şəhərində Şaansi avtomobil zavodu ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu müəssisə Çində avtobus, ağırtonnajlı, orta, yüngül, mini yük avtomobilləri, mühərriklər, ehtiyat hissələri, habelə hərbi avtomobillər istehsal edən iri müəssisələrdən biridir. 1968-ci ildə yaradılmış zavodun hazırda 23 min işçisi var.*

*İstehsal prosesinə baxan prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müəssisənin buraxdığı yük maşınları SACHMAN, avtobusları isə «Eurostar Bus» brendləri altında dünyanın 90-dan çox ölkəsində, o cümlədən Azərbaycanda satılır. Şirkətin xaricdə 41 ofisi və 310 servis mərkəzi fəaliyyət göstərir. SACHMAN yük avtomobilləri Almaniyanın MAN şirkəti ilə birgə əməkdaşlıq sayəsində istehsal edilir.*

*Şaansi avtomobil zavodunun daxil olduğu «Shaanxi Automobile Group Co. Ltd» ümumilikdə 10 törəmə şirkəti özündə birləşdirir. Onların hamısı Şaansi vilayətində yerləşir. Şirkət avtobus və yük maşınları ilə yanaşı, digər yük avtomobil istehsalçıları üçün hissələr də buraxır. Çinin avtomobil sənayesində xüsusi payı olan bu şirkət ötən müddətdə 600 mindən çox müxtəlif təyinatlı avtomobil istehsal edib.*

*Şirkətin Sian şəhərindəki texnoparkında yük avtomobilləri, avtomobil şassisi və mühərrik zavodları, texniki, satış mərkəzləri*

*fəaliyyət göstərir. Şaansi avtomobil zavodu hazırda Çinin və Asiyanın ən böyük 500 şirkəti siyahısındadır.*

* * *

*Bununla da Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Çinin Sian şəhərinə səfərini başa çatdıraraq paytaxt Pekinə yola düşdü. Sian Beynəlxalq Aeroportunda dövlətimizin başçısını şəhərin rəsmi şəxsləri yola saldılar.*

## PEKİN BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA MƏRASİMİ

*9 dekabr 2015-ci il*

*Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Sian şəhərindən paytaxt Pekinə gəlmişdir.*

*Azərbaycanın və Çinin dövlət bayraqlarının dalğalandığı Pekin Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Çinin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Pekin*

*10 dekabr 2015-ci il*

*Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 10-da Ümumçin Xalq Nümayəndələri Yığıncağında – parlamentdə rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Çinin rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Sədr Si Cinpinə təqdim olundu.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Çinin dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Əllərində Azərbaycanın və Çinin bayraqları olan uşaqlar dövlət başçılarını salamladılar.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Pekin*

*10 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin dekabrın 10-da geniş tərkibdə görüşü keçirilmişdir.*

**S i C i n p i n:** Cənab Prezident, Sizi Pekində görməyə şadam. Çinə dövlət səfərinə xoş gəlmisiniz! Uzun illərdir ki, Çin ilə Azərbaycan hüquq bərabərliyi, qarşılıqlı fayda və qarşılıqlı hörmət ruhunda ikitərəfli əlaqələri inkişaf etdirir, həyati əhəmiyyətli və ciddi narahatlıq doğuran məsələlərdə bir-birini qətiyyətlə dəstəkləyirlər. Siyasi sahədə qarşılıqlı etimad daim möhkəmlənir, çoxplanlı əməkdaşlıq fasiləsiz olaraq dərinləşir. Ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri üçün möhkəm təməl və geniş perspektivlər var.

Cənab Prezident Çin xalqının köhnə dostudur. Siz Çin–Azərbaycan münasibətlərinin inkişafı üçün daim səy göstərirsiniz. Keçən ilin mayında Siz Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Sammitində iştirak etmişdiniz. Bu Sammit çərçivəsində biz ikitərəfli münasibətlərə və qarşılıqlı maraq doğuran problemlərə dair fikir mübadiləsi apardıq, geniş əhatəli məsələlərə dair qarşılıqlı anlaşmaya nail olduq.

Cənab Prezident, mən ikitərəfli münasibətlərin inkişafında yüksək dinamikanı daim saxlamaq üçün Sizinlə bərabər işgüzar əlaqələri fəallaşdırmağa hazıram. Bir neçə gün bundan əvvəl Azərbaycanda, Xəzərdəki neft mədənində yanğın baş verib, ciddi tələfat olub. Cənab Prezident, bununla əlaqədar, fürsətdən istifadə edib, Çin hökuməti və Çin xalqı adından, şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı

vermək, habelə Sizinlə həmrəy və kədərinizə ürəkdən şərik olduğumu bildirmək istəyirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, cənab Sədr. İlk növbədə, Sizin ölkəyə dövlət səfərinə dəvət olunduğum üçün Sizə təşəkkür etmək istəyirəm. Bu səfər ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək. Azərbaycanda baş vermiş faciəli hadisələrlə – çoxsaylı neftçinin həlak olması ilə əlaqədar verdiyiniz başsağlığına görə də Sizə təşəkkür etmək istərdim. Sizin başsağlığınız dost sözləridir. Buna görə Sizə təşəkkür edirəm.

Bizi möhkəm münasibətlər bağlayır. Biz bir sıra sahələrdə dostlar və tərəfdaşlar kimi əməkdaşlıq edirik. Mən bilirəm ki, Siz bizim ölkəmizə xoş münasibət bəsləyirsiniz. Azərbaycanda Sizi çox yaxşı tanıyırlar, dünya miqyaslı məsələlərdə oynadığınız rola, həmçinin Azərbaycana xeyirxah münasibətinizə görə Sizi yüksək dəyərləndirirlər.

Qeyd etdiyiniz kimi, keçən il Sizinlə görüşdük və ölkələrimiz arasında münasibətlərin geniş spektrini müzakirə etdik. Bizim Şanxay görüşündən sonra keçən 1 il ərzində əlaqələrimiz daha da möhkəmlənib. Bu gün biz münasibətlərimizin gələcək inkişafını müəyyən edəcək bir sıra mühüm sənədlər imzalayacağıq. Onların arasında, əlbəttə, Sizinlə bərabər imzalayacağımız Bəyannaməni xüsusi qeyd etmək istərdim. Həmin Bəyannamə bizim niyyətlərimizi əks etdirir. Biz əlaqələrimizi genişləndirmək, siyasi dialoqu inkişaf etdirmək, beynəlxalq təşkilatlarda fəal əməkdaşlığı bundan sonra da davam etdirmək və iqtisadi əlaqələri möhkəmlətmək istəyirik. İpək yolu iqtisadi zolağının yaradılması barədə Sizin təşəbbüsünüzü biz Azərbaycanda çox yüksək qiymətləndiririk.

* * *

*Çin Xalq Respublikasının Sədri Si Cinpin prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sabitliyin möhkəmləndiyini, iqtisadi inkişafın artdığını, əhalinin rifah halının yaxşılaşdığını dedi. Azərbaycanın beynəlxalq nüfuzunun yüksəldiyini bildirən Çin Xalq Respublikasının Sədri ölkəmizin I Avropa oyunlarını yüksək səviy-*

*yədə keçirdiyini qeyd etdi. O, Yeni Azərbaycan Partiyasının parlament seçkilərində qələbə qazanması münasibətilə təbriklərini çatdırdı. Si Cinpin Çinin Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da dəstəkləyəcəyini vurğuladı.*

*Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Sian şəhərində olduğunu xatırladan Çin Xalq Respublikasının Sədri İpək yolunun başlandığı Sianın onun doğma şəhəri olduğunu qeyd etdi. Si Cinpin İpək yolu üzrə iqtisadi zolağın yaradılması layihəsinin həyata keçirilməsində Azərbaycanın fəaliyyətini dəstəklədiyini diqqətə çatdırdı. O bununla bağlı bu gün imzalanacaq sənədin bu sahədə əməkdaşlığımızda yeni səhifə açacağını vurğuladı.*

*Azərbaycanın 2020-ci ilə qədər inkişaf konsepsiyasının olduğunu vurğulayan Si Cinpin ölkəmizin böyük fəaliyyət planı qurduğunu, Çinin də öz perspektivlərini müəyyənləşdirən böyük planlar üzərində işlədiyini qeyd etdi. Bildirdi ki, hazırda Çin şirkətləri Azərbaycanda energetika, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə uğurla fəaliyyət göstərir. Bu sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlər mövcuddur. Maliyyə sahəsində də əlaqələrin perspektivlərinin olduğunu deyən Çin Xalq Respublikasının Sədri Asiya İnfrastruktur İnvestisiyaları Bankı ilə əməkdaşlığın əhəmiyyətini, həmçinin nəqliyyat, sanaye sahələrində əlaqələrin genişləndirilməsinin mümkünlüyünü qeyd etdi. Azərbaycanın Avrasiyanın mərkəzində yerləşdiyini vurğulayan Si Cinpin ölkəmizin logistika, beynəlxalq nəqliyyat sistemində yaxşı imkanlarının olduğunu, respublikamızın bu sahədə Çin ilə Avropa arasında mühüm tranzit rolu oynaya biləcəyini diqqətə çatdırdı. Çin Xalq Respublikasının Sədri xalqlarımız arasında humanitar, mədəniyyət sahələrində əməkdaşlığın, parlamentlərarası əlaqələrin, gənclər təşkilatlarının əməkdaşlığının genişləndirilməsinin mümkünlüyünü vurğuladı. O, dünyada terrorizm, təcavüzkar separatizm təhdidlərinin olduğu bir vaxtda Azərbaycan ilə Çin arasında təhlükəsizlik sahəsində əməkdaşlığın regionda çox böyük rol oynayacağını söylədi, ölkələrimizin hüquq-mühafizə*

orqanlarının bu cür hallara qarşı mübarizəni genişləndirməsinin önəmini qeyd etdi.

Beynəlxalq təşkilatlarda yaxşı əməkdaşlığımızın olduğunu deyən Çin Xalq Respublikasının Sədri ölkələrimizin bir çox məsələlərdə mövqelərinin üst-üstə düşdüyünü vurğuladı. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə əməkdaşlığın genişləndirilməsinin mümkünlüyünü qeyd edən Sədr Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına «Dialoq üzrə tərəfdaş» statusunda qoşulmasının önəmini diqqətə çatdırdı.

Azərbaycan prezidenti İlham Əliyev ölkələrimiz arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, bu səfərin əməkdaşlığımızın genişlənməsinə töhfə verəcəyini vurğuladı. Dövlətimizin başçısı bir çox məsələlərdə mövqelərimizin üst-üstə düşdüyünü diqqətə çatdırdı. Prezident İlham Əliyev Çində iqtisadi baxımdan gələcək inkişafla bağlı böyük uğurlar qazanıldığını, Azərbaycanın da mühüm iqtisadi nailiyyətlər əldə etdiyini, ölkələrimizin iqtisadi sahədə əməkdaşlığının genişləndirilməsi üçün yaxşı potensialın olduğunu qeyd etdi. Dövlətimizin başçısı Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında yaxın əlaqələrin olduğunu, bunun da ikitərəfli münasibətlərimizin möhkəmlənməsinə kömək etdiyini vurğuladı.

Azərbaycan Prezidenti ölkələrimizin beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq həyata keçirdiyini diqqətə çatdırdı. Azərbaycanda gedən iqtisadi inkişaf proseslərindən danışan dövlətimizin başçısı Sian şəhərinə səfərini xatırlatdı, buradakı qədim mədəniyyətin bütün dünyanın sərvəti olduğunu bildirdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident İlham Əliyev dövlət başçıları tərəfindən imzalanacaq Birgə Bəyannamədə bu problemin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü əsasında həll edilməsinin əksini tapmasının önəmli olduğunu vurğuladı. Dövlətimizin başçısı Çinin münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini dəstəklədiyini yüksək qiymətləndirdi, ölkəmizin də «Vahid Çin» prinsipinə dəstək verdiyini dedi. İki ölkənin rəhbərləri arasında şəxsi dostluğun münasibətlərimizin inkişafına töhfə verdiyini vurğulayan prezident İlham

Əliyev Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu və bunun ölkəmizin xarici siyasətinin prioritetlərindən birini təşkil etdiyini dedi. Terrorizm, təcavüzkar separatizm, ekstremizm kimi təhlükələrlə mübarizədə ölkələrimizin hüquq-mühafizə orqanları arasında əməkdaşlığın önəmini qeyd edən dövlətimizin başçısı Çin şirkətlərinin Azərbaycanda energetika sektorunda fəaliyyət göstərdiyini, ölkəmizin informasiya-kommunikasiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu vurğuladı. Azərbaycanın və Çinin Asiya İnfrastruktur İnvestisiyaları Bankının həmtəsisçiləri olduğunu qeyd edən prezident İlham Əliyev hökumətlərarası Komissiyanın bu yaxınlarda keçirilən görüşünün iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə öz töhfəsini verəcəyini diqqətə çatdırdı.

Nəqliyyat sahəsində əməkdaşlığa toxunan prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın Çin ilə Avropa arasında mühüm tranzit dəhlizi rolunu oynaması üçün yaxşı potensial var və ölkəmizdən keçən yol Çin ilə Avropa arasında ən qısa yol ola bilər. Azərbaycanda infrastrukturun yaradılması, nəqliyyat sisteminin təkmilləşdirilməsi istiqamətində çox böyük işlər görüldüyünü deyən dövlətimizin başçısı investisiya qoyuluşu sahəsində əməkdaşlığın genişləndirilməsinin, texnoparklarda Çin şirkətlərinin iştirakının mümkünlüyünü qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin BMT-də və digər beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırdı.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Pekin*

*10 dekabr 2015-ci il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra dekabrın 10-da Azərbaycan–Çin sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında «İpək yolu İqtisadi Kəməri»nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Çinin Xarici İşlər naziri Van İ imzaladılar.*

*«Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında məhkumların verilməsi haqqında Müqavilə»ni Azərbaycanın Ədliyyə naziri Fikrət Məmmədov və Çinin Ədliyyə naziri Vu Ayyin imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında fitosanitar əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Çinin Kənd Təsərrüfatı naziri Xan Çanfu imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında mülki hava nəqliyyatına dair Saziş»i «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin («AZAL») prezidenti Cahangir Əsgərov və Çinin Mülki Aviasiya Administrasiyasının rəhbəri Li Ciasyan imzaladılar.*

*«Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında 2016–2019-cu illərdə*

*təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Çinin Təhsil naziri Yuen Quyren imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Çin Xalq Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Çinin Nəqliyyat naziri Yan Çuantan imzaladılar.*

*«Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında ikitərəfli iqtisadi əməkdaşlığın təşviqi üzrə Anlaşma Memorandumu»nu Azərbaycanın İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev və Çinin Kommersiya naziri Quan Xuçen imzaladılar.*

*«Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi və Çin Xalq Respublikasının Enerji İdarəsi arasında Anlaşma Memorandumu»nu Azərbaycanın Çindəki səfiri Lətif Qəndilov və Çinin Energetika üzrə Dövlət İdarəsi rəisinin müavini Çen Şan Zye imzaladılar.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə Çin Xalq Respublikasının Milli Dəmir Yolu Administrasiyası arasında dəmir yolu nəqliyyatı sahəsində əməkdaşlıq haqqında Saziş»i «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov və Çinin Milli Dəmir Yolu Administrasiyasının rəhbəri Lu Donfu imzaladılar.*

* * *

*Dekabrın 10-da Çin Xalq Respublikasının Sədri Si Cinpinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edildi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ ÇİNİN RENMİN UNİVERSİTETİNİN «TARİX ÜZRƏ FƏXRİ PROFESSOR» DİPLOMUNUN TƏQDİMETMƏ MƏRASİMİ

*Pekin*

*11 dekabr 2015-ci il*

*Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dekabrın 11-də Renmin Universitetinin «Tarix üzrə Fəxri professor» diplomunun təqdim edilməsi mərasimi keçirilmişdir.*

*Əvvəlcə prezident İlham Əliyev tarix üzrə Fəxri professor seçildiyi bu ali təhsil ocağının Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra dövlətimizin başçısı universitetin rektoru Liu Veylə görüşdü.*

*Görüşdə ölkələrimiz arasında bir çox sahələrdə, xüsusilə siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrin inkişaf etdiyi bildirildi. Təhsil sahəsində əməkdaşlığın, xüsusilə universitetlərarası əlaqələrin genişləndirilməsinin, tələbə mübadiləsinin həyata keçirilməsinin əhəmiyyəti qeyd edildi. Prezident İlham Əliyevin Çinə dövlət səfərinin ölkələrimiz arasında bir sıra sahələrdə olduğu kimi, təhsil sahəsində də əməkdaşlığın inkişafına töhfə verəcəyi vurğulandı. Bu sahədə əlaqələrin xalqlarımızın dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət etdiyi bildirildi.*

*Sonra qarşılıqlı hədiyyələr təqdim olundu.*

*Universitetin prorektoru İ Cixon mərasimi açaraq bu görüşün ali təhsil ocağının həyatında mühüm hadisə olduğunu dedi.*

*O, Azərbaycan Prezidentini bu ali təhsil ocağında qəbul etməyin onlar üçün şərəf olduğunu vurğuladı.*

*Renmin Universitetinin rektoru Liu Vey çıxış edərək prezident İlham Əliyevi universitetdə görməkdən şad olduqlarını bildirdi. O, dövlətimizin başçısını rəhbərlik etdiyi ali təhsil ocağının Fəxri professoru adına layiq görülməsi münasibətilə təbrik etdikdən sonra ölkələrimiz arasındakı münasibətlərin tarixindən danışdı.*

**L i u V e y:** Çin və Azərbaycan qədim tarixə, parlaq sivilizasiyaya malik olan ölkələrdir. Azərbaycan Avrasiyanın ürəyində yerləşir. Bu ölkə Şərq və Qərb mədəniyyətlərinin birləşməsinə şahidlik edir, habelə müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin bir-biri ilə kəsişdiyi məkandır.

Xalqlarımız arasındakı uzunmüddətli dostluq əlaqələri 2000 min il əvvələ – qədim İpək yolunun başlanğıcına qədər uzanır. İpək yolu və onun üzərindəki şəhərlər müntəzəm inkişaf edirdi. Bu qədim şəhərlərdən biri olan Bakı İpək yolunun incisi kimi, dünyada məşhurlaşmışdı. İpək yolu vasitəsilə Çinin gözəl ipəyi Azərbaycana, Azərbaycanın nadir xalçaları və daş duzu isə Çinə gətirilirdi. Daha sonra 1992-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələr quruldu. Sabiq prezident Heydər Əliyevin hakimiyyəti dövründə ölkələrimiz arasında əməkdaşlıq inkişaf etdi, siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələr gücləndi, xalqlarımızın münasibətləri dərin dostluğa çevrildi. Bu proses prezident İlham Əliyevin hakimiyyəti dövründə də uğurla davam edir. Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən irəli sürülən İpək yolu iqtisadi kəmərinin yaradılması əlaqələrimizin inkişafına təkan verir. İndi prezident İlham Əliyev Renmin Universitetinin fəxri professoru adını alır. Bu, zati-alilərinin ikitərəfli əlaqələrin dərinləşdirilməsi, ali təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsi istəyinin bariz göstəricisidir.

*Rektor Liu Vey rəhbərlik etdiyi Renmin Universitetinin tarixi və keçdiyi inkişaf yolu barədə məlumat verərək bildirdi ki, Çinin ən nüfuzlu ali təhsil müəssisələrindən olan bu universitet əsasən*

*humanitar, sosial və ətraf mühitlə bağlı elmlərin tədrisi sahəsində ixtisaslaşıb. Çinin ali təhsil müəssisələrinin flaqmanı kimi tanınan bu universitet bir çox sahələrdə aparıcı və əvəzedilməz mövqeyə sahibdir. Liu Vey universitetin bundan sonra qədim İpək yolu kəməri ətrafındakı ölkələr üzrə tədqiqatlar aparmaq üçün daha ciddi səylər göstərəcəyini bildirdi. O, ali təhsil ocağında keçmiş Sovet İttifaqı, Şərqi Avropa və Mərkəzi Asiya üzrə tədqiqatların aparıldığını, bu sahədə mühüm nailiyyətlərin qazanıldığını diqqətə çatdırdı, Azərbaycan ilə əməkdaşlıqdan danışaraq dedi:*

– Renmin Universiteti uzun müddətdir Azərbaycan universitetləri ilə əməkdaşlığa ciddi əhəmiyyət verir. Buna ən gözəl nümunə Bakı Dövlət Universiteti ilə olan tərəfdaşlığımızdır. İndiyədək Renmin Universitetində 12 azərbaycanlı tələbə oxuyub. Cənab Prezident, Sizi fəxri professorumuz olaraq görməkdən böyük qürur duyuruq və inanıram ki, Sizin dəstəyinizlə Azərbaycan ilə bağlı məsələlər, o cümlədən qədim İpək yolu kəmərinə dair təşəbbüs üzrə araşdırmalarımız daha çox nəticə verəcək. Təbii ki, ali təhsil istiqamətində daha yaxından əməkdaşlıq edəcəyik. Cənab Prezident, Sizə cansağlığı arzu edirəm. Sağ olun.

*Sonra prorektor İ Cixon prezident İlham Əliyevin həyat və fəaliyyəti barədə məlumat verdi.*

*Daha sonra Renmin Universitetinin «Tarix üzrə Fəxri professor» diplomu və döş nişanı dövlətimizin başçısına təqdim edildi.*

*Prezident İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Renmin Universitetinin hörmətli rektoru və prorektoru!

Hörmətli tələbələr və dostlar!

İlk növbədə, mənə Fəxri professor diplomunun verilməsinə görə universitetin rəhbərliyinə dərin təşəkkürümü bildirmək

istəyirəm. Mən bunu ölkələrimiz arasında dostluq rəmzi kimi qiymətləndirirəm.

Azərbaycan ilə Çin arasında dostluğun qədim tarixi var. Tarixin müxtəlif dövrlərində xalqlarımız bir-biri ilə ünsiyyətdə olublar. İndi isə Azərbaycan müstəqil dövlət olaraq, Çin ilə ikitərəfli əlaqələrin qurulmasından ötən 23 il ərzində bu ölkə ilə müxtəlif sahələr üzrə fəal əməkdaşlıq edir.

Mənim Çinə dövlət səfərim bu gün yekunlaşmaq üzrədir. Mən səfərimə qədim Sian şəhərindən başladım, Terrakota Ordusu Muzeyi ilə tanış oldum və bir daha xalqınızın böyük mədəniyyəti, ənənələri və tarixinin şahidi oldum. Bu bir daha nümayiş etdirir ki, Çin xalqının əsrlərlə davam edən tarixi boyunca siz şah əsərlər yaratmısınız, tarix yazmısınız və sizin müasir uğurunuz həmin tarixi irsə əsaslanır.

Bu gün ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir və dövlət səfərinin nəticələri məni çox qane edir. Gözəl ölkənizdə keçirdiyim bu bir neçə gün ərzində Çinin rəhbərliyi ilə görüşlərim olub. Bu görüşlərdə dostluq, tərəfdaşlıq və qarşılıqlı anlaşma şəraitində aparılan müzakirələr və danışıqlar zamanı biz bir daha razılaşdıq ki, münasibətlərimizdə müsbət meyili davam etdirməliyik. Biz dost ölkələrik. İkitərəfli münasibətləri inkişaf etdirmək və dərinləşdirmək üçün bizdə güclü qarşılıqlı iradə mövcuddur. Bizim mükəmməl siyasi münasibətlərimiz var və mənim Çinə dövlət səfərim bunu bir daha nümayiş etdirdi.

Biz bir çox sahələrdə bir-birimizi dəstəkləyirik. Beynəlxalq təşkilatlarda bir-birimizə dəstək nümayiş etdiririk. Azərbaycan «Vahid Çin» prinsipini ciddi şəkildə dəstəkləyir. Çin isə öz növbəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həlli ilə bağlı bizə dəstək verir. Bu və ikitərəfli əlaqələrimizin digər bir çox mühüm cəhətləri dünən mənim və Çin Xalq Respublikasının Sədri Si Cinpinin imzaladığımız Birgə Bəyannamədə öz əksini tapıb. Bu vacib siyasi sənəddən əlavə,

dünən siyasi, iqtisadi, sosial inkişafın və ölkələrimiz arasında əməkdaşlığın bir çox sahələrini əhatə edən 9 sənəd imzalanıb və bununla da imzalanmış sənədlərin ümumi sayı 10-a çatıb.

BMT çərçivəsində çox fəal əməkdaşlıq edirik. Bu il Azərbaycan Çinin dəstəyi ilə Şanxay Əməkdaşlıq Təşkilatına dialoq üzrə tərəfdaş olub.

İqtisadi sahədə çox fəal əməkdaşlıq edirik. Bu yaxınlarda Çində hökumətlərarası birgə Komissiyanın iclası keçirilib. Bu Komissiya mənim səfərim ərzində öz həllini tapmış məsələlərlə məşğul idi. Bu Komissiyanın görüşü mənim dövlət səfərimə hazırlıq xarakteri daşıyırdı.

Azərbaycan Çinin təşəbbüsünə qoşularaq Asiya İnfrastruktur İnvestisiyaları Bankının həmtəsisçisi oldu. Bu da bizim iqtisadi əməkdaşlığımızın yaxşı göstəricisidir. Çinin bir çox şirkətləri Azərbaycanda fəal şəkildə çalışır. Səfərim ərzində mən 2 şirkətlə tanış oldum. Sian şəhərində Avtomobil zavodunda oldum. Bu zavod artıq avtomobilləri Azərbaycana ixrac edir. Bu da ölkəmizə ixracatı artırır. Dünən Azərbaycanda fəal şəkildə çalışan «Huawei» korporasiyasının ofisi ilə tanış oldum. Biz Azərbaycanda daha çox Çin şirkətlərini görmək istəyirik və Çin rəhbərliyi ilə görüşlərimdə bu məsələni vurğulamışam. Azərbaycanda Çinin müxtəlif sahələrdə – infrastruktur, tikinti sahələrində fəaliyyət göstərən daha çox şirkətlərini görmək istəyirik. Əlbəttə ki, biz Çin şirkətlərini investor qismində görmək istəyirik. Çünki Azərbaycanda əlverişli investisiya mühiti var.

Nəqliyyat sahəsində əməkdaşlığın aparılması üçün çox yaxşı perspektivlər mövcuddur. Biz sədr Si Cinpin tərəfindən irəli sürülmüş İpək yolu iqtisadi kəmərinin yaradılması təşəbbüsünü tam dəstəkləyirik. Azərbaycan ölkə daxilində çox müasir nəqliyyat infrastrukturunun yaradılması işinə öz töhfəsini verir. Deyə bilərəm ki, bu ilin avqustunda Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gətirilib. Biz dünən nəqliyyat sahəsində əməkdaşlığın perspektivlərini geniş şəkildə müzakirə etdik. Azərbaycanın coğrafi mövqeyi ölkəmizi malların Avropadan Asiyaya, Asiyadan Avropaya tranziti üçün

mərkəzə çevirir. Biz hazırda dəmir yollarının müasirləşdirilməsinə, Xəzər regionunda ən böyük limanın yaradılmasına və ümidvaram ki, gələn il fəaliyyətə başlayacaq Azərbaycan ilə Avropa arasında dəmir yolu əlaqəsinə sərmayə yatırırıq. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi Asiya ilə Avropanı birləşdirəcək, tarixi İpək yolunu qurmaq üçün çatışmayan dəmir yolu əlaqəsini yaradacaq. Bu nəqliyyat marşrutu malların Çindən Avropaya, Avropadan Çinə gətirilməsi üçün ən qısa yol olacaq.

Başqa sözlə, bizim əməkdaşlığımız çox genişdir. Bu, siyasi sahəni, beynəlxalq əlaqələri əhatə edir. Dediyim kimi, beynəlxalq təşkilatlar çərçivəsində çox fəal əməkdaşlıq edirik. İqtisadi əməkdaşlığımızın praktiki məsələlərinə xüsusi diqqət yetiririk. Əlbəttə, biz nəqliyyat təşəbbüsləri ilə bir neçə ölkə arasında əməkdaşlığın aparılmasına yaxşı imkan yaradırıq. İqtisadi və nəqliyyat layihələri ölkələri birləşdirir, iqtisadi dividendlər verir. Onlar müxtəlif ölkələr arasında qarşılıqlı anlaşma üçün yaxşı şərait yaradır. Ölkələrin müxtəlif xarici siyasət prioritetləri, dünyada baş verən hadisələrlə bağlı fərqli baxışları ola bilər. Bu da təbiidir. Lakin biz iqtisadi əməkdaşlıq, daha geniş regional əməkdaşlıq vasitəsilə qarşılıqlı anlaşma üçün daha yaxşı şərait yarada bilərik. Bizim mövqemiz buna əsaslanır və Çin ilə Azərbaycanın baxışları bir çox sahələrdə üst-üstə düşür.

Biz terrorizmə, ekstremizmə, radikalizmə qarşı birlikdə mübarizə aparırıq. Biz multikulturalizm dəyərlərini təşviq edirik və dünyada, regionumuzda gərginliyin azalmasına töhfə verməyə çalışırıq. Bununla bərabər, ölkələrimiz arasında ikitərəfli münasibətlərin mövcud durumu bizi çox qane edir. Əminəm ki, mənim səfərimin nəticələri, imzalanmış sənədlər, xüsusilə Çin və Azərbaycan arasında Birgə Bəyannamə gələcək inkişaf üçün yaxşı baza olacaq. Birgə Bəyannamə, demək olar ki, bizim birgə fəaliyyətimizin bütün cəhətlərini, siyasi, iqtisadi, münaqişələrin tənzimlənməsinə aid məsələləri, nəqliyyat və mədəniyyət məsələlərini əhatə edir.

Biz təhsil sahəsində daha fəal əməkdaşlıq etmək istəyirik. Universitetin rektoru ilə müzakirə etdiyimiz kimi, mənə Fəxri professor diplomunun verilməsindən sonra əminəm ki, Azərbaycan gəncləri ölkənizin aparıcı təhsil müəssisələrindən biri olan Renmin Universitetində təhsil almaq üçün buraya gələcəklər. Beləliklə, ölkənizdən yaxşı xatirələrlə, nəticələrlə ayrılıram. Əminəm ki, növbəti illərdə sənədlərin praktiki icrasını görəcəyik.

Bu gün Azərbaycan, ölkəmizin inkişafı və planları haqqında da sizə bir qədər məlumat vermək istəyirəm. Azərbaycan çox qədim diyardır. Əsrlərboyu xalqımız dəyərlər yaradıb. Azərbaycanda olan bir çox tarixi yerlər ölkəmizin qədim tarixini əks etdirir. Azərbaycan tarixi İpək yolu üzərində yerləşir, Avropa və Asiya qitələri ilə sıx bağlıdır. Ölkəmiz faktiki olaraq, Avrasiyanın ortasında yerləşir. Lakin müstəqil ölkə kimi, biz çox gəncik. Biz cəmi 24 ildir ki, müstəqilik. Bu illər transformasiya, inkişaf, modernləşmə illəri olub və biz böyük nəticələr əldə etmişik.

Bu gün Azərbaycan beynəlxalq birliyin fəal üzvüdür. 4 il bundan əvvəl 155 ölkənin, eləcə də Çinin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Bu da Azərbaycana olan geniş beynəlxalq dəstəyin göstəricisi və beynəlxalq arenada bizim fəaliyyətimizə verilən qiymət idi.

Azərbaycanın iqtisadiyyatı dünyada sürətlə artan iqtisadiyyatlardan biridir. Ötən 10 il ərzində ümumi daxili məhsulumuz 3 dəfədən çox artıb. Bu da bizə infrastruktura, o cümlədən sosial infrastruktura sərmayə yatırmağa, işsizlik səviyyəsini ciddi şəkildə azaltmağa imkan verir. Hazırda işsizliyin səviyyəsi 5 faizdir. Sürətli iqtisadi artım ölkəmiz üçün çoxlu fürsətlər yaratdı. Bu gün Azərbaycan, həmçinin xarici sərmayədardır. Biz başqa ölkələrə investisiya yatırırıq. Əlbəttə ki, iqtisadi və maliyyə sabitliyi siyasi müstəqilliyimizin ən əsas elementlərindəndir. Biz yalnız 24 ildir ki, müstəqilik, gənc ölkəyik və öz müstəqilliyinə hər şeydən çox dəyər verən ölkəyik.

Üzləşdiyimiz problemlərə gəldikdə, əsas problem ərazilərimizin Ermənistan tərəfindən işğal olunmasıdır. 20 ildən artıqdır ki, BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması ilə bağlı 4 qətnamə qəbul edib. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrin tələblərinə məhəl qoymamağa davam edir. BMT Təhlükəsizlik Şurası dünyada ən yüksək beynəlxalq təşkilatdır. Qəbul olunmuş qətnamələr beynəlxalq hüquqa və ədalətə əsaslanır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi hələ də işğal altındadır. Bir milyondan çox Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkünə çevrilib. Biz etnik təmizləmə siyasətinə məruz qalmışıq. Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ və ətraf 7 rayon 20 ildən artıqdır ki, işğal altındadır. 1994-cü ildən bəri atəşkəs rejimi qüvvədədir. Lakin atəşkəs sülh demək deyil. Torpaqlarımız azad olunanda, qaçqın və məcburi köçkünlərimiz öz evlərinə qayıda biləndə sülhə nail olunacaq. Münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası əsasında öz həllini tapmalıdır. Sədr Si Cinpinlə imzaladığımız Birgə Bəyannamədə bütün yanaşmalar öz əksini tapıb. Bu münaqişənin həll olunması üçün belə yanaşma nümayiş etdirdiyinə görə Çinə çox minnətdaram.

Bu böyük problemə baxmayaraq, Azərbaycan sürətlə inkişaf edir. Bizim enerji ehtiyatlarımız var və əlbəttə, bu ehtiyatlar bizə maliyyə ehtiyatları toplamağa imkan verir. Lakin neftin qiymətinin 1 il ərzində, demək olar, 3 dəfə aşağı düşməsi, əlbəttə ki, bacarıqların nümayiş etdirilməsi vaxtının yetişməsi deməkdir.

Azərbaycan yaxşı idarəçilik nümayiş etdirir. Neft istehsal edən ölkələr arasında Azərbaycan hələ də inkişaf etməkdə olan azsaylı ölkələrdəndir. Gəlirlərimizin əhəmiyyətli dərəcədə aşağı düşməsinə baxmayaraq, bu il təxminən 4 faiz iqtisadi artım gözlənilir. Buna da əsasən iqtisadiyyatın şaxələndirilməsi siyasəti nəticəsində nail olunub. Biz qapılarımızı sərmayələr

üçün açmışıq və adambaşına düşən investisiya, birbaşa xarici sərmayələrin həcmi çox yüksək səviyyədədir. Sənaye sahələrini, infrastrukturu yaratmaq və sərmayədarları Azərbaycana dəvət etmək üçün öz vəsaitlərimizi investisiya etmişik. İqtisadiyyatın şaxələndirilməsi prosesinin uğurlu olması sübuta yetirildi. Biz ölkəmizdə işləyəcək daha çox sayda Çin şirkətlərini görməyə ümid edirik, xüsusilə sənaye istehsalı, informasiya texnologiyaları, yüksək texnologiyalar, kənd təsərrüfatı sahələrində və bir çox digər sahələrdə. Çünki ölkələrimiz arasında çox yaxşı dostluq münasibətlərinin olmasını əsas tutaraq biz bu münasibətlərə çox vacib olan iqtisadi komponenti də əlavə etməliyik. Azərbaycan investisiyaların yatırılması nöqteyi-nəzərindən çox cəlbedici ölkədir. Xarici sərmayələr lazımi şəkildə qorunur.

Beləliklə, ölkəmiz inkişaf edir, bizim gələcək üçün böyük planlarımız var. Məqsədimiz Azərbaycanı dünyanın inkişaf etmiş ölkəsinə çevirməkdir. Düşünürəm ki, bunun üçün yaxşı imkanlar mövcuddur.

Biz təhsilə böyük diqqət yetiririk. Çünki bu hər bir ölkənin gələcəyidir. İqtisadiyyatı irəli aparan və ölkənin uğurunu nümayiş etdirən təbii ehtiyatlar deyil, təhsil və əhalinin intellektual səviyyəsidir. Bu sahədə biz Çin ilə daha fəal şəkildə əməkdaşlıq aparmaq istəyirik. Qeyd etdiyim kimi, Renmin Universiteti ilə öz universitetlərimiz arasında daha da sıx əməkdaşlıq görmək istəyirəm. Çünki təhsil bizim üçün əsas prioritetlərdən biridir. Bizdə savadlılığın səviyyəsi demək olar ki, 100 faizdir. Bizim əsas məqsədimiz enerji ehtiyatlarının qiymətinin aşağı düşməsi ilə bağlı müvəqqəti çətinliklərə baxmayaraq, elə təhsil sisteminə malik olmaqdır ki, o, Azərbaycanın inkişaf etməsinə imkan yaratsın. Bizim əsas məqsədimiz iqtisadiyyatımızın çox güclü qeyri-neft sektorunu yaratmaq, texnologiyaları inkişaf etdirmək, təhsil və elmə sərmayə yatırmaq və insanlarımız üçün daha yaxşı həyat şəraiti yaratmaqdır. İqtisadi islahatlar güclü sosial siyasətlə dəstəklənib. Yoxsulluğun və işsizliyin azalması bu siyasətin uğurlu olmasını

göstərir. Beləliklə, ölkəmizin inkişafı haqqında qısaca olaraq bu qədər.

Dediyim kimi, bizim gələcək üçün planlarımız ölkəmizin milli maraqlarına söykənir. Biz regionda sülhün olmasını istəyirik və siyasi səylərimizi gərginliyin azalmasına istiqamətləndiririk. Qeyd etdiyim kimi, biz beynəlxalq terrorizmə, radikalizmə, separatizmə qarşı fəal mübarizə aparırıq. Biz bütün konfessiya və etnik qrup nümayəndələrinin sülh və harmoniya içərisində yaşadığı multikulturalizm cəmiyyətinə malik olmağımızdan qürur duyuruq. Artıq Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bu bizim böyük dəyərimizdir. Biz bu dəyərləri təşviq etmək istəyirik.

Mənə Fəxri professor diplomunun verilməsi ilə əlaqədar sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Mən artıq sizin ailənizin bir üzvüyəm. Bu döş nişanını həmişə özümdə saxlayacağam. Ümid edirəm ki, sizi Bakıda görəcəyəm. Artıq universitetin rəhbərliyini Bakıya dəvət etmişəm. İndi isə tələbələri dəvət etmək istəyirəm. Ölkəmizlə tanış olmaq və dostluğumuzu daha da gücləndirmək üçün Azərbaycana gəlin. Çox sağ olun.

## XALQ QƏHRƏMANLARI ABİDƏSİNİ ZİYARƏT

*Pekin*

*11 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət etmişdir.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycanın və Çinin dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.*

*Bu milli abidə Çin xalqının azadlıq mübarizəsində həyatlarını itirən qəhrəmanların xatirəsinə ehtiram əlaməti olaraq ucaldılıb.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri dekabrın 11-də başa çatmışdır.*

*Azərbaycanın və Çinin dövlət bayraqlarının dalğalandığı Pekin Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Çinin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

## QEYDLƏR

**1. Fikrət Məmmədov,** F i k r ə t F ə r r u x o ğ l u (d.1955) – Azərbaycan Respublikasının Ədliyyə naziri, I dərəcə Dövlət ədliyyə müşaviri, Məhkəmə-Hüquq Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 5, 89, 99–100, 345.

**2. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5, 12, 18, 20, 21, 24, 38, 39, 44,52, 74, 75, 82, 84, 92, 102,110, 111, 122, 141, 142, 164, 172, 220, 221, 233, 282, 292, 317, 328.

**3. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 8, 18–19, 92.

**4. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 11.

**5. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 11.

**6. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min $km^2$, əhalisi 3 milyon nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir.

Dağıstan ərazisi bizim eradan əvvəl I minilliyin axırlarına qədər Qafqaz Albaniyasının tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 12–13.

**7. Dərbənd** – Rusiya Federasiyasının Dağıstan Muxtar Respublikasında şəhər. Dərbənd Qafqaz Albaniyasının ən qədim şəhərlərindən biri olmuşdur. V əsrdə iqtisadi və siyasi cəhətdən Qafqaz Albaniyasının mühüm şəhərlərindən biri, həm də Sasani canişinlərinin iqamətgahı idi. Abbasilər xilafəti dövründə (750–1258) Avropa və Asiya ölkələri ilə ticarətdə əsas tranzit məntəqəsi idi. X əsrdə Şirvanşahların hakimiyyəti altına düşür. Bundan sonra Azərbaycana yiyələnmək istəyən yadellilər arasında gedən müharibələr zamanı Dərbənd əldən-ələ keçir. 1509-cu ildə I Şah İsmayıl (1501–1524) Dərbəndi tutur. 1796-cı ildə V.A.Zubovun başçılığı ilə Rusiya qoşunu şəhəri işğal edir. Gülüstan müqaviləsinə (1813) əsasən Dərbənd Rusiyaya verilmişdir. – 12.

**8. Əziz Əliyev,** Ə z i z M ə m m ə d k ə r i m o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 12.

**9. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 12–13, 48–55, 56–57, 62–63, 168–171, 187, 192, 215–216, 259, 321, 322, 327.

**10. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 12, 13, 55, 192.

**11. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 16.

**12. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 16.

**13. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 20.

**14. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 20, 25, 135, 141, 142, 143, 144, 158.

**15. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 25, 32–33, 187.

**16. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 31, 68, 120, 183–192, 258–259, 310–325.

**17. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü

ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 31, 184–192.

**18. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 34, 60, 61, 235.

**19. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. –34, 60, 61.

**20. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 48–49.

**21. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 48, 149, 187, 190, 192, 212, 218, 235.

**22. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati

cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 48, 174–175, 182, 187, 188, 202–214, 255.

**23. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 49, 52, 61, 119, 125, 161, 181, 208, 218, 224, 225,235, 237, 244, 245, 252, 253, 259, 315, 320, 343, 350, 354.

**24. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2,38 milyon $km^2$, əhalisi 40,4 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 50.

**25. Əbdüləziz Buteflikay** (d.1937) – Əlcəzairin dövlət xadimi, 1999-cu ildən Əlcəzair Respublikasının Prezidentidir. – 50.

**26. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədə-

niyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 66, 71, 85, 183, 184, 202, 203, 213, 214,243, 250, 254.

**27. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri. 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 68, 310–325.

**28. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası –

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 69–70, 77, 95, 221.

**29. Sergey Lebedev** (d.1948) – Rusiyanın dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 69–70.

**30. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 71, 85, 141, 184.

**31. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 86, 108–147, 191, 256, 302, 319.

**32. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 120, 190, 196.

**33. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 123, 187, 192, 272.

**34. Şevardnadze Eduard Amvrosiyeviç** (1928–1914) Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 111, 122.

**35. Giorgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013-cü ildən Gürcüstan Respublikasının Prezidentidir. – 112–126, 134–146, 256.

**36. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 97, 120, 125, 143, 158, 189, 190, 196.

**37. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 125, 128, 185, 197, 259, 319, 352.

**38. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul Zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 125, 237.

**39. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997-ci il). 2005-ci ildə Özbəkistan qurumu tərk etdi. – 125.

**40. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 125, 199, 206, 207, 222, 225, 235, 236, 245, 315, 321, 350, 353, 354.

**41. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 125, 204, 210, 225, 235,245,248, 251.

**42. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 150–171.

**43. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə Heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 153.

**44. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 153, 198, 210.

**45. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azər-

baycan feodal dövləti. Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət, 1797–1828-ci illərdə isə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdir. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, on minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 160.

**46. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 161.

**47. Akif Əlizadə,** Akif Ağamehdi oğlu (d.1934) – görkəmli geoloq-alim. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının sədri, Yeni Azərbaycan Partiyasının sədr müavini. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 161–166, 269.

**48. Üzeyir Hacıbəyli,** Üzeyir Əbdülhüseyn oğlu (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 162, 163.

**49. Mirəsədulla Mirqasımov,** Mirəsədulla Mirələsgər oğlu (1883–1958) – cərrah. Azərbaycan Respublikası MEA-nın ilk prezidenti. Tibb elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. İlk azərbaycanlı alim-cərrah. Azərbaycan Respublikasında ilk doktorluq dissertasiyası müdafiə etmiş həkimlərdən və müasir tibb elminin əsasını qoyanlardan biri.M.Mirqasımovun elmi fəaliyyəti əsasən sidikdaşı xəstəliyinin etiologiya, klinika və müalicəsinin öyrənilməsini, irinli peritonitləri,

urologiya və cərrahlığın digər aktual məsələlərini əhatə edir. Cərrahlıq sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin və 5 cildlik «Cərrahiyyə» kitabının müəllifidir. – 163.

**50. Səməd Vurğun,** S ə m ə d Y u s i f o ğ l u V ə k i l o v (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi. Yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, 2 dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 163.

**51. Yusif Məmmədəliyev,** Y u s i f H e y d ə r o ğ l u (1905–1961) – görkəmli kimyaçı alim. Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı. Əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, benzolu propilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi yolunu işləyib hazırlamış, bu da İkinci dünya müharibəsində aviasiyanın yüksəkoktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir. 1947–50-ci və 1958–61-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. – 163.

**52. Heydər Hüseynov,** H ü s e y n o v H e y d ə r N ə c ə f o ğ l u (1908–1950) – Azərbaycan filosofu, ictimai xadim . Azərbaycan Elmlər Akademiyasının akademiki. SSRİ Dövlət mükafatı laureatı. Dialektik və tarixi materializm problemləri, fəlsəfə tarixi və s. mövzularda əsərlər yazmış, Azərbaycan mədəniyyətinin böyük nümayəndələrinin fəlsəfi irsini öyrənmişdir. Onun ədəbiyyatşünaslığa aid əsərləri də vardır. – 163.

**53. Mustafa bəy Topçubaşov** (1895–1981) – cərrah, ictimai və dövlət xadimi. Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. Tədqiqatı əsasən qarında, başda, döş qəfəsində aparılan cərrahi problemlərə,

öddaşı xəstəliyinin müalicəsinə, periferik iflic xəstəliyinə həsr olunmuşdur. Orijinal diaqnostika və cərrahi üsul təklif etmişdir. O, dünyada geniş istifadə olunan analgeziya üsulunu ilk dəfə kəşf etmişdir. – 163.

**54. Mikayıl Hüseynov,** M i k a y ı l Ə l ə s g ə r o ğ l u (1905–1992) – Azərbaycan memarı və memarlıq tarixçisi. Müasir Azərbaycan memarlığının banilərindən biri. Memarlıq doktoru, professor. Azərbaycan və SSRİ EA-nın həqiqi üzvü olmuşdur. Layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində, eləcə də Moskvada, Düşənbədə yaşayış, ictimai və mədəni-məişət binaları tikilmişdir. Bakıda M.F.Axundov adına Milli Kitabxana, EA şəhərciyi kompleksi, Bakı Metropoliteninin «Nəriman Nərimanov», «Nizami», «Elmlər Akademiyası» stansiyaları onun ən görkəmli əsərlərindəndir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı və Sosialist Əməyi Qəhrəmanı idi. – 163.

**55. Sadıq Dadaşov,** S a d ı q Ə l ə k b ə r o ğ l u (1905–1946) – Azərbaycan memarı, memarlıq tarixçisi. XX əsr Azərbaycan memarlığının banilərindən biri. Professor. SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, Azərbaycan SSR EA-nın akademiki. SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan memarlıq irsinin ilk tədqiqatçısıdır. – 163.

**56. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 164, 202–214.

**57. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq

və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 164.

**58. Zakir Həsənov,** Z a k i r  Ə s g ə r  o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 177.

**59. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 48.

**60. Böyük Britaniya,** B ö y ü k  B r i t a n i y a  v ə  Ş i m a l i  İ r l a n d i y a  B i r l ə ş m i ş  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 181, 187, 191, 192.

**61. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. –182, 212, 255.

**62. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 184.

**63. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 190, 192, 212, 218.

**64. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri, 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 191, 192.

**65. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 192.

**66. Donald Tusk** (d.1957) – Polşa və Avropanın siyasi xadimi. 2007–2014-cü illərdə Polşanın Baş naziri, 2014-cü ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 192.

**67. Oman,** O m a n  S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı Məskət şəhəridir. – 194.

**68. Qabus bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. – 194.

**69. İrəvan** – qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər

(1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin ermənilər İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 209.

**70. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 232–237.

**71. İsa Həbibbəyli,** İ s a Ə k b ə r o ğ l u (d.1949) – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, filologiya elmləri doktoru, AMEA-nın Ədəbiyyat İnstitutunun direktoru, professor, Əməkdar elm xadimi. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Milli Məclisin Elm və Təhsil Məsələləri daimi Komitəsinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 234, 238.

**72. Ziyafət Əsgərov,** Z i y a f ə t A b b a s o ğ l u (d.1963) –hüquqşünas. Hüquq elmləri doktoru, professor. Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavinidir. Hazırda Milli Məclisin Təhlükəsizlik və Müdafiə Məsələləri daimi Komitəsinin sədri və NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 237, 238.

**73. Valeh Ələsgərov,** V a l e h F e y r u z o ğ l u (d.1946) – Əməkdar mühəndis. 1992-ci ildən «Azərneft» Dövlət Konserninin vitse-prezidenti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, şirkətin prezidentinin müşaviri olmuş, 1995–2005-ci illərdə ARDNŞ-in Xarici Sərmayələr İdarəsinin rəisi vəzifəsində çalışmışdır.

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavinidir. Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Məsələləri daimi Komitəsinin sədri, Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin rəhbəri, Azərbaycan–Rusiya İkitərəfli Parlamentlərarası Komitəsinin həmsədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 237, 238.

**74. Ziyad Səmədzadə,** Z i y a d Ə l i a b b a s o ğ l u (d.1940) – iqtisad elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin sədridir. – 238.

**75. Eldar İbrahimov,** E l d a r R z a o ğ l u (d.1945) – iqtisad elmləri üzrə elmlər doktoru. Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 238.

**76. Hadı Rəcəbli,** H a d i M u s a o ğ l u (d.1947) – siyasi elmlər doktoru, professor, Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Milli Məclisin Əmək və Əmək və Sosial Siyasət Komitəsinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 238.

**77. Bahar Muradova,** B a h a r Ə v ə z q ı z ı (d.1962) – filoloq, siyasi elmlər üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikası Milli

Məclisinin Sədr müavinidir. YAP-ın icra katibinin müavini, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

Bahar Müradova İnsan Hüquqları Komitəsinin sədri və ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 237, 238.

**78. Rafael Hüseynov,** R a f a e l B a b a o ğ l u (d.1955) – ədəbiyyatşünas, publisist, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Komitəsinin sədri, Nizami adına Ədəbiyyat Muzeyinin direktorudur. – 238.

**79. Əhliman Əmiraslanov,** Ə h l i m a n T a p d ı q o ğ l u (d.1947) – cərrah-onkoloq, tibb elmləri doktoru, professor. AMEA-nın akademik-katibi. Əməkdar elm xadimi. SSRİ Dövlət mükafatı laureatı, Rusiya Federasiyası Təbiət Elmləri Akademiyasının üzvü, 1992-ci ilə kimi SSRİ TEA-nın ÜOEMD-də işləmişdir. 1992–2015-ci illərdə Azərbaycan Tibb Universitetinin rektoru olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Milli Məclisin Səhiyyə Komitəsinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 238.

**80. Fuad Muradov,** F u a d R a u f o ğ l u (d.1979) – mühəndis. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, 2018-ci ildən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədridir. – 238.

**81. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 242–254.

**82. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min $km^2$, əha-

lisi 19,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 257.

**83. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014–2015 və 2015-ci ildən indiyə kimi Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 258–269.

**84. Belarus,** B e l a r u s  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 260–278.

**85. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 260–274.

**86. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 269, 345, 346.

**87. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 282–297.

**88. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 282, 286, 292–293, 297.

**89. Tailand,** T a i l a n d  K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 70,5 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 301.

**90. Bhumibol Adulyadej** (1927–2016) – 1950–2016-cı illərdə (faktiki 1946-cı ildən) Tailand Krallığının Kralı olmuşdur. – 301.

**91. Finlandiya,** F i n l a n d i y a  R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 338,4 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 309.

**92. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 319, 331–357.

**93. İpək yolu**, b ö y ü k  İ p ə k  y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 332, 342.

**94. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 339–246.

## Şəxsi adlar göstəricisi


**Abdulatipov Ramazan** – 12–13
**Abdullayev Rövnəq** – 20
**Abutalıbov Hacıbala** – 9
**Adulyadej Bhumibol** – 301
**Aliu Olumuiva** – 14–15
**Amari Akira** – 32–33
**Andre Pyer** – 48
**Anodina Tatyana** – 15
**Aslanov Həzi** – 276, 277
**Auqulis Uldis** – 326
**Berdıməhəmmədov Qurbanqulu** – 16
**Bin Səid Qabus** – 194
**Bokova İrina** – 212
**Brink Bridcet** – 218
**Broek Antonius** – 176
**Buşez Orelia** – 174–175
**Buteflikay Əbdüləziz** – 50
**Çen Şan Zye** – 346
**Çukanoviç Milo** – 36
**Çoviç Draqan** – 217
**Çavuşoğlu Mövlud** – 258–259
**Çunq Eu Yonq** – 58
**Dadaşov Sadıq** – 163
**Davudoğlu Əhməd** – 68, 310–325
**De Kuberten Baron** – 211
**De Venesia Jose** – 58–59
**Dərziyev Mahir** – 140–141
**Eyyubov Yaqub** – 269, 270
**Evans Devid** – 181
**Əhmədzadə Mübariz** – 71

**Əl-Məktum Məhəmməd** – 280
**Əl-Nəhəyyan Xəlifə** – 279
**Əl-Tüveycri Əbdüləziz** – 242, 244, 249–253
**Ələsgərov Valeh** – 237, 238
**Əliyev Ələkbər** – 276
**Əliyev Heydər** – 5, 12, 18, 20, 21, 24, 38, 39, 44, 52, 74, 75, 82, 84, 92, 102,110, 111, 122, 141, 142, 164, 172, 220, 221, 233, 282, 292, 317, 328
**Əliyev Əziz** – 12
**Əliyeva Leyla** – 184
**Əliyeva Mehriban** – 66, 71, 85, 183, 184, 202, 203, 213, 214,243, 250, 254
**Əlizadə Akif** – 161–166, 269
**Əlizadə Ələşrəf** – 163
**Əmiraslanov Əhliman** – 238
**Ərdoğan Əminə** – 184
**Ərdoğan Rəcəb Tayyib** – 31, 184–192
**Əsədov Heydər** – 345
**Əsgərov Cahangir** – 345
**Əsgərov Ziyafət** – 237, 238
**Əsədov Oqtay** – 232–237
**Əzizbəyov Şamil** – 163
**Fapuca Anqlu** – 64–65
**Fətiyev Xanlar** – 270
**Fişer Hayntz** – 11
**Füzuli Məhəmməd** – 164
**Gamil Suzanne** – 51–52
**Hacıbəyli Üzeyir** – 162, 163
**Heydərov Fəttah** – 220–221, 232
**Həbibbəyli İsa** – 234, 238
**Həsənov Fazil** – 141–142
**Həsənov Kərəm** – 328
**Həsənov Rüfət** – 66

**Həsənov Zakir** – 177
**Hüseyn Məmnun** – 34, 60, 61
**Hüseynov Heydər** – 163
**Hüsenyov Mikayıl** – 163
**Hüseynov Rafael** – 238
**Hüseynli Əli** – 238
**Xidaşeli Tinatin** – 302
**İbrahimov Eldar** – 238
**II İliya** – 132–133
**İohannis Klaus** – 257
**İvanişvili Bidzina** – 129
**Kasprşik Anji** – 48
**Kemeron Devid** – 191, 192
**Kim Çanq-gyu** – 172–173
**Koleyro Mari-Luiz** – 203
**Qani Məhəmməd** – 35
**Qaribaşvili İrakli** – 127–128, 256
**Qaşqay Mirəli** – 163
**Qodsif Dankan** – 181
**Qrossheym Aleksandr** – 163
**Quan Xuçen** – 346
**Layçak Miroslav** – 204
**Lu Donfu** – 346
**Lebedev Sergey** – 69–70
**Livanov Dmitri** – 215–216
**Liu Vey** – 347
**Lojkin Boris** – 303
**Lou Çincyan** – 334
**Lukaşenko Aleksandr** – 260–274
**Makkabe Stiv** – 181
**Makri Maurisio** – 300
**Marqvelaşvili Giorgi** – 112–126, 134–146, 256
**Matveyev Viktor** – 168–171
**Maybus Rey** – 149
**Merkel Angela** – 192

**Məmmədov İspəndiyar** – 142
**Məmmədov Məmməd** – 276
**Məmmədov Fikrət** – 5, 89, 99–100, 345
**Məmmədov Tahir** – 81
**Məmmədəliyev Yusif** – 163
**Məmmədyarov Elmar** – 269, 345, 346
**Mixalkov Nikita** – 327
**Mirzə İbrahimov** – 163
**Mirzəyev Səfa** – 220
**Minşel Karolin** – 181
**Mirqasımov Mirəsədulla** – 163
**Mukherci Pranab** – 54
**Muradov Fuad** – 238
**Muradova Bahar** – 238
**Mustafayev Şahin** – 21
**Modi Narendra** – 54
**Müller Siril** – 18–19
**Mqebrişvili Giorgi** – 256
**Musayev Heydər** – 142–143
**Naxçıvanlı Aqiyə** – 238
**Niinistö Sauli** – 309
**Nişani Buyar** – 239
**Novruzov Siyavuş** – 238
**Nizami** – 163
**Obama Barak** – 190, 192, 212, 218
**Olland Fransua** – 182, 212, 255
**Osotimehin Babatunde** – 179–180
**Pak Kın He** – 219
**Popov İqor** – 48
**Putin Vladimir** – 12, 13, 55, 192
**Rana Sanjay** – 53–54
**Reizniece-Ozola Dana** – 241
**Renzi Matteo** – 192
**Rezak Nacib** – 192
**Rəcəbli Hadı** – 238

**Rəhimzadə Arif** – 238
**Rəfiyev Nəcəfqulu** – 276
**Rizbi Riçard** – 181
**Rzayev Orucəli** – 82
**Rzayev Ramiz** – 102–105
**Sayasone Çoummali** – 281
**Seyid Müsahid** – 60–61
**Seyidov Səməd** – 238
**Səməd Vurğun** – 163
**Səmədzadə Ziyad** – 238
**Simataa Stanley** – 204
**Si Maqian** – 333
**Si Cinpin** – 339–346
**Sihamoni Norodom** – 148
**Simpkins Luke** – 67
**Semaşko Vladimir** – 269
**Sin Şi Huang** – 332, 333
**Skotland Patrisia** – 181
**Smut Corc** – 166, 168
**Slutski Leonid** – 62–63
**Şotkina Mariyanna** – 269
**Şevardnadze Eduard** – 111, 122
**Şərif Məhəmməd** – 60, 61
**Şirokoqorov İvan** – 163
**Talıbov Vasif** – 282, 286, 292–293, 297
**Topçubaşov Mustafa** – 163
**Tusk Donald** – 192
**Uld Əbdüləziz Məhəmməd** – 240
**Umaxanov İlyas** – 56–57
**Uorlik Ceyms** – 48
**Usubov Elxan** – 84
**Usupaşvili David** – 130
**Van İ** – 345
**Vahabzadə Bəxtiyar** – 317
**Valli Andre** – 255

**Yan Çuantan** – 346
**Yuen Quyren** – 346
**Veyonis Raymonds** – 193, 241
**Yesman İosif** – 163
**Zeman Miloş** – 17

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 41, 190
**Afrika** – 199
**Adriatik dənizi** – 191
**Ağdam** – 178
**Albaniya** – 191, 239
**Almaniya** – 187, 192, 276
**Amerika Birləşmiş Ştatları** – 48, 149, 187, 190, 192, 212, 218, 235
**Ankara** – 186, 317
**Antalya** – 183–192, 218, 258, 314, 318
**Aralıq dənizi** – 190
**Argentina** – 187, 300
**Asiya** – 58, 59, 319, 352
**Aşağı Tala** – 73
**Avrasiya** – 218, 266, 318
**Avropa** – 77, 78, 80, 94, 102, 118, 120, 125, 185, 189, 191, 196, 211, 218, 306, 319, 351, 352
**Avstraliya** – 67, 187
**Avstriya** – 11
**Balaxanı** – 41, 45
**Balakən** – 86, 106
**Balkan** *(yarımada)* – 323
**Belarus** – 260–278
**Binəqədi** – 8
**Birləşmiş Ərəb Əmirlikləri** – 279, 280, 305
**Bolqarıstan** – 191

**Bolnisi** – 135
**Bosniya və Herseqovina** – 217, 235
**Böyük Britaniya** – 181, 187, 191, 192
**Braziliya** – 187
**Cenevrə** – 169
**Ceyranbatan** – 37–47
**Cənub-Şərqi Asiya** – 185
**Cənubi Asiya** – 306
**Cənubi Afrika Respublikası** – 187
**Cənubi Qafqaz** – 29, 142
**Çex Respublikası** – 17, 215
**Çin** – 319, 331–357
**Dağıstan** – 12–13
**Dağlıq Qarabağ** – 49, 52, 61, 119, 125, 161, 181, 208, 218, 224, 225,235, 237, 244, 245, 252, 253, 259, 315, 320, 343, 350, 354
**Dərbənd** – 12
**Dmanisi** – 135
**Dubna** – 168
**Əfqanıstan** – 35
**Əlcəzair** – 50
**Finlandiya** – 309
**Fransa** – 48, 174–175, 182, 187, 188, 202–214, 255, 306
**Gədəbəy** – 8
**Gəncə** – 8, 101, 265, 283, 329
**Gürcüstan** – 86,108–147,191,256,302,319
**Hindistan** – 53–54, 187
**Honduras** – 215
**Xəzər dənizi** – 26, 117, 158, 190, 191, 196, 319, 323, 351
**Xankəndi** – 161
**Xocalı** – 235, 245
**İmişli** – 8

**İndoneziya** – 187
**İordaniya** – 235
**İran** – 161
**İrəvan** – 209
**İstanbul** – 283, 312
**İsveçrə** – 266
**İtaliya** – 187, 191, 192
**Kamboca** – 148
**Kanada** – 187
**Kolumbiya** – 235
**Konya** – 313
**Koreya Respublikası** – 172–173, 187, 219
**Qafqaz** – 214, 306, 318, 321, 323
**Qahirə** – 180
**Qax** – 86
**Qala** – 41
**Qara dəniz** – 117, 323
**Qardabani** – 135
**Qəbələ** – 8
**Quba** – 8
**Qoxmuq** – 86
**Laos** – 281
**Latviya** – 193, 326
**Macarıstan** – 235
**Mahaçqala** – 12
**Malayziya** – 192
**Malta** – 64–65, 203
**Marneuli** – 134–146
**Mavritaniya** – 240
**Meksika** – 187– 235
**Mərkəzi Asiya** – 306
**Minsk** – 260–278
**Misir** – 51–52
**Monteneqro** – 36
**Moskva** – 275, 283

**Naxçıvan** – 101
**Naxçıvan Muxtar Respublikası**– 282–297
**Nehrəm** – 295–296
**Oğuz** – 8
**Oman** – 194
**Orta Asiya** – 323
**Pakistan** – 34, 60–61, 235
**Panama** – 235
**Paris** – 182, 186, 202–214
**Peru** – 235
**Pekin** – 338–357
**Ramana** – 41
**Rumıniya** – 257
**Rusiya** – 12–13, 48, 55, 56–57, 62–63, 168–171, 187, 192, 215–216, 259, 321, 322, 327, 361
**Sabunçu** – 5–8
**Saray** – 41
**Sian** – 331–337
**Sumqayıt** – 20–30, 329
**Səudiyyə Ərəbistanı** – 187
**Slovakiya** – 204
**Smolensk** – 275
**Suriya** – 321
**Suraxanı** – 8
**Şaansi** – 334–335
**Şamaxı** – 211
**Şəki** – 8, 84–107, 211, 329
**Şərqi Anadolu** – 161
**Şərqi Avropa** – 153
**Şirvan** – 101
**Tailand** – 301
**Tbilisi** – 108–133
**Türkmənistan** – 16
**Türkiyə** – 31, 68, 120, 183–192,

258–259, 310–325
**Ukrayna** – 303
**Volqa çayı** – 169
**Yaxın Şərq** – 199, 306, 321, 323
**Yaponiya** – 25, 32–33, 187
**Yuxarı Tala** – 73
**Yunanıstan** – 191
**Zaqatala** – 8, 71–83
**Zirə** – 41

# MÜNDƏRİCAT

SABUNÇU MƏHKƏMƏ KOMPLEKSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*21 oktyabr 2015-ci il* ........................................................................5

BAKIDA YENİ SALINAN YOLLARIN, PARKLARIN, YENİDƏN QURULAN KÜÇƏ VƏ PROSPEKTLƏRİN AÇILIŞI MƏRASİMİ

*21 oktyabr 2015-ci il* ........................................................................9

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ

*22 oktyabr 2015-ci il* ........................................................................11

RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ RƏHBƏRİ RAMAZAN ABDULATİPOV İLƏ GÖRÜŞ

*22 oktyabr 2015-ci il* ........................................................................12

BEYNƏLXALQ MÜLKİ AVİASİYA TƏŞKİLATININ PREZİDENTİ OLUMUİVA BENARD ALİU VƏ DÖVLƏTLƏRARASI AVİASİYA KOMİTƏSİNİN SƏDRİ TATYANA ANODİNA İLƏ GÖRÜŞ

*22 oktyabr 2015-ci il* ........................................................................14

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*23 oktyabr 2015-ci il* ........................................................................16

ÇEX RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİLOŞ ZEMANA

*23 oktyabr 2015-ci il* ........................................................................17

DÜNYA BANKININ VİTSE-PREZİDENTİ SİRİL MÜLLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 oktyabr 2015-ci il* ........................................................................... *18*

SUMQAYITDA YÜKSƏKSIXLIQLI POLİETİLEN ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*25 oktyabr 2015-ci il* ........................................................................... *20*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*26 oktyabr 2015-ci il* ........................................................................... *31*

YAPONİYANIN DÖVLƏT NAZİRİ AKİRA AMARİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2015-ci il* ........................................................................... *32*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*27 oktyabr 2015-ci il* ........................................................................... *34*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*27 oktyabr 2015-ci il* ........................................................................... *35*

MONTENEQRONUN BAŞ NAZİRİ MİLO ÇUKANOVİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 oktyabr 2015-ci il* ........................................................................... *36*

CEYRANBATAN ULTRASÜZGƏCLİ SUTƏMİZLƏYİCİ QURĞULAR KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*28 oktyabr 2015-ci il* ........................................................................... *37*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*28 oktyabr 2015-ci il* ........................................................................48

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*29 oktyabr 2015-ci il* ........................................................................50

MİSİR ƏRƏB RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SUZANNE MƏHƏMMƏD GAMİL İLƏ GÖRÜŞ

*29 oktyabr 2015-ci il* ........................................................................51

HİNDİSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SANJAY RANA İLƏ GÖRÜŞ

*29 oktyabr 2015-ci il* ........................................................................53

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*31 oktyabr 2015-ci il* ........................................................................55

RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ İLYAS UMAXANOV İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il* ..........................................................................56

ASİYA SİYASİ PARTİYALARI BEYNƏLXALQ KONFRANSI DAİMİ KOMİTƏSİNİN HƏMSƏDR-LƏRİ İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il* ..........................................................................58

PAKİSTAN İSLAM RESPUBLİKASI SENATININ MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ MÜSAHİD HÜSEYN SEYİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il* ..........................................................................60

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ KOMİTƏ SƏDRİ LEONİD SLUTSKİ İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il* ..........................................................................62

MALTA PARLAMENTİNİN SƏDRİ ANQLU FARUCA İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il* ........................................................................... *64*

MİLLİ MƏCLİSƏ SEÇKİLƏRLƏ BAĞLI 6 SAYLI MƏNTƏQƏDƏ SƏSVERMƏDƏ İŞTİRAK

*1 noyabr 2015-ci il* ........................................................................... *66*

AVSTRALİYA PARLAMENTİ ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 noyabr 2015-ci il* ........................................................................... *67*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD DAVUDOĞLUNA

*2 noyabr 2015-ci il* ........................................................................... *68*

MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ SERGEY LEBEDEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2015-ci il* ........................................................................... *69*

ZAQATALA RAYONUNA SƏFƏR

*4 noyabr 2015-ci il* ........................................................................... *71*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ ZAQATALA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 noyabr 2015-ci il* ........................................................................... *74*

ŞƏKİ ŞƏHƏRİNƏ SƏFƏR

*4 noyabr 2015-ci il* ........................................................................... *84*

ŞƏKİ MƏHKƏMƏ KOMPLEKSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*4 noyabr 2015-ci il* ......................................................................................*87*

YEKUN NİTQİ

*4 noyabr 2015-ci il* ....................................................................................*103*

GÜRCÜSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*5 noyabr 2015-ci il* ....................................................................................*108*

TBİLİSİ ŞƏHƏRİNDƏ QƏHRƏMANLAR MEMORİALINI
ZİYARƏT

*5 noyabr 2015-ci il* ....................................................................................*109*

TBİLİSİ ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR
ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*5 noyabr 2015-ci il* ....................................................................................*110*

GÜRCÜSTAN RESPUBLİKASININ MƏRHUM DÖVLƏT
BAŞÇISI EDUARD ŞEVARDNADZENİN MƏZARINI ZİYARƏT

*5 noyabr 2015-ci il* ....................................................................................*111*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*5 noyabr 2015-ci il* ....................................................................................*112*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GİORGİ
MARQVELAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*5 noyabr 2015-ci il* ....................................................................................*113*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*5 noyabr 2015-ci il* ....................................................................................*114*

BİRGƏ BƏYANNAMƏNİN İMZALANMASI MƏRASİMİ

*5 noyabr 2015-ci il* ....................................................................................*116*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GİORGİ MARQVELAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*5 noyabr 2015-ci il* .......................................................................... *117*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*5 noyabr 2015-ci il* .......................................................................... *122*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*6 noyabr 2015-ci il* .......................................................................... *127*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*6 noyabr 2015-ci il* .......................................................................... *128*

GÜRCÜSTAN RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ BİDZİNA İVANİŞVİLİ İLƏ GÖRÜŞ

*6 noyabr 2015-ci il* .......................................................................... *129*

GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ DAVİD USUPAŞVİLİ İLƏ GÖRÜŞ

*6 noyabr 2015-ci il* .......................................................................... *130*

GÜRCÜSTAN PRAVOSLAV KİLSƏSİNİN PATRİARXI II İLİYA İLƏ GÖRÜŞ

*6 noyabr 2015-ci il* .......................................................................... *132*

MARNEULİDƏ SOYUDUCU ANBAR KOMPLEKSİ İLƏ TANIŞLIQ

*6 noyabr 2015-ci il* .......................................................................... *134*

MARNEULİDƏ «ÇAY EVİ» TƏDRİS MƏRKƏZİ İLƏ TANIŞLIQ

*6 noyabr 2015-ci il* .......................................................................... *135*

KAMBOCA KRALI ӘLAHӘZRӘT NORODOM SİHAMONİYӘ

*6 noyabr 2015-ci il ........................................................................148*

ABŞ HӘRBİ DӘNİZ QÜVVӘLӘRİNİN KATİBİ REY MAY-BUSUN BAŞÇILIQ ETDİYİ NÜMAYӘNDӘ HEYӘTİ İLӘ GÖRÜŞ

*7 noyabr 2015-ci il ........................................................................149*

AMEA-nın 70 İLLİK YUBİLEYİNӘ HӘSR OLUNMUŞ ÜMUMİ YIĞINCAQDA İŞTİRAK

*9 noyabr 2015-ci il ........................................................................150*

KOREYA RESPUBLİKASININ AZӘRBAYCANDA YENİ TӘYİN OLUNMUŞ SӘFİRİ KİM ÇANQ-GYU İLӘ GÖRÜŞ

*10 noyabr 2015-ci il ......................................................................172*

FRANSA RESPUBLİKASININ AZӘRBAYCANDA YENİ TӘYİN OLUNMUŞ SӘFİRİ ORELİA BUŞEZ İLӘ GÖRÜŞ

*10 noyabr 2015-ci il ......................................................................174*

BMT-nin AZӘRBAYCANDAKI REZİDENT ӘLAQӘLӘN-DİRİCİSİ ANTONİUS BROEK İLӘ GÖRÜŞ

*11 noyabr 2015-ci il ......................................................................176*

MÜDAFİӘ NAZİRLİYİ HӘRBİ HAVA QÜVVӘLӘRİNİN HӘRBİ ŞӘHӘRCİYİNDӘ YARADILAN ŞӘRAİTLӘ TANIŞLIQ

*11 noyabr 2015-ci il ......................................................................177*

BMT-nin ӘHALİ FONDUNUN İCRAÇI DİREKTORU BABATUNDE OSOTİMEHİN İLӘ GÖRÜŞ

*12 noyabr 2015-ci il ......................................................................179*

BÖYÜK BRİTANİYA NÜMAYӘNDӘ HEYӘTİ İLӘ GÖRÜŞ

*13 noyabr 2015-ci il ......................................................................181*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*14 noyabr 2015-ci il ..........................................................................182*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*14 noyabr 2015-ci il ..........................................................................183*

ALİ QONAQLARIN ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*14 noyabr 2015-ci il ..........................................................................184*

«BÖYÜK İYİRMİLİK» ÖLKƏLƏRİ LİDERLƏRİNİN SAMMİTİNDƏ İŞTİRAK

*15 noyabr 2015-ci il ..........................................................................185*

«BÖYÜK İYİRMİLİK»İN SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ MÜZAKİRƏLƏRDƏ ÇIXIŞ

*15 noyabr 2015-ci il ..........................................................................188*

«G20»NİN SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN İŞÇİ NAHARDA TERRORİZMƏ QARŞI MÜBARİZƏ VƏ QAÇQINLAR BÖHRANI MÖVZUSUNDA MÜZAKİRƏLƏRDƏ ÇIXIŞ

*16 noyabr 2015-ci il ..........................................................................189*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAYMONDS VEYONİSƏ

*16 noyabr 2015-ci il ..........................................................................193*

OMAN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*16 noyabr 2015-ci il ..........................................................................194*

İLHAM ƏLİYEV: «G20»NİN ANTALYA SAMMİTİNDƏ QƏBUL EDİLMİŞ QƏRARLAR QLOBAL PROBLEMLƏRİ HƏLL EDƏN BİRGƏ FƏALİYYƏTƏ DƏSTƏK OLACAQ»

*16 noyabr 2015-ci il* ........................................................................*195*
FRANSA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*16 noyabr 2015-ci il* ........................................................................*202*

YUNESKO BAŞ KONFRANSININ 38-ci SESSİYASININ
LİDERLƏR FORUMUNDA İŞTİRAK

*17 noyabr 2015-ci il* ........................................................................*203*

RUSİYA FEDERASİYASININ TƏHSİL VƏ ELM NAZİRİ
DMİTRİ LİVANOV İLƏ GÖRÜŞ

*20 noyabr 2015-ci il* ........................................................................*215*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN
SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB
DRAQAN ÇOVİÇƏ

*23 noyabr 2015-ci il* ........................................................................*217*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA
MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ BRİDCET
BRİNKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*23 noyabr 2015-ci il* ........................................................................*218*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM PAK KIN HEYƏ

*24 noyabr 2015-ci il* ........................................................................*219*

AZƏRBAYCAN RESPUBLİKASI V ÇAĞIRIŞ MİLLİ
MƏCLİSİNİN İLK İCLASINDA İŞTİRAK

*24 noyabr 2015-ci il* ........................................................................*220*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BUYAR NİŞANİYƏ

*25 noyabr 2015-ci il* ........................................................................*239*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

*25 noyabr 2015-ci il* ........................................................................... *240*
LATVİYA RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRİ
DANA REİZNİECE-OZOLA İLƏ GÖRÜŞ

*25 noyabr 2015-ci il* ........................................................................... *241*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ OSMAN
ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*25 noyabr 2015-ci il* ........................................................................... *242*

İSESKO BAŞ KONFRANSININ XII SESSİYASININ
AÇILIŞINDA İŞTİRAK

*26 noyabr 2015-ci il* ........................................................................... *243*

FRANSA RESPUBLİKASI HÖKUMƏTİNİN ÜZVÜ ANDRE
VALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*26 noyabr 2015-ci il* ........................................................................... *255*

GÜRCÜSTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ
GİORGİ MQEBRİŞVİLİ İLƏ GÖRÜŞ

*26 noyabr 2015-ci il* ........................................................................... *256*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB KLAUS İOHANNİSƏ

*27 noyabr 2015-ci il* ........................................................................... *257*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMA-
YƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 noyabr 2015-ci il* ........................................................................... *258*

BELARUS RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*27 noyabr 2015-ci il* ........................................................................... *260*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*28 noyabr 2015-ci il* ........................................................................... *261*
BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ALEKSANDR LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 noyabr 2015-ci il* ........................................................................... *262*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*28 noyabr 2015-ci il* ........................................................................... *265*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 noyabr 2015-ci il* ........................................................................... *269*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ
MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*28 noyabr 2015-ci il* ........................................................................... *271*

BELARUS DÖVLƏT BÖYÜK VƏTƏN MÜHARİBƏSİ TARİXİ
MUZEYİ İLƏ TANIŞLIQ

*28 noyabr 2015-ci il* ........................................................................... *275*

«QƏLƏBƏ» MEYDANINI ZİYARƏT

*28 noyabr 2015-ci il* ........................................................................... *278*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX
XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA

*30 noyabr 2015-ci il* ........................................................................... *279*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ
VƏ BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX
MƏHƏMMƏD BİN RƏŞİD
ƏL-MƏKTUMA

*30 noyabr 2015-ci il* ........................................................................... *280*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ

*30 noyabr 2015-ci il* ........................................................................ *281*
NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*1 dekabr 2015-ci il*......................................................................... *282*

NAXÇIVAN MUXTAR RESPUBLİKA XƏSTƏXANASININ AÇILIŞINDA NAXÇIVAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*1 dekabr 2015-ci il*......................................................................... *288*

«BAKUTEL – 2015» XXI AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*2 dekabr 2015-ci il*......................................................................... *298*

ARGENTİNA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAURİSIO MAKRİYƏ

*2 dekabr 2015-ci il*......................................................................... *300*

TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ

*2 dekabr 2015-ci il*......................................................................... *301*

GÜRCÜSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ TİNATİN XİDAŞELİ İLƏ GÖRÜŞ

*2 dekabr 2015-ci il*......................................................................... *302*

UKRAYNA RESPUBLİKASI PREZİDENT ADMİNİSTRASİYASININ RƏHBƏRİ BORİS LOJKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2015-ci il*......................................................................... *303*

«BAKUTEL–2015» SƏRGİSİ İLƏ TANIŞLIQ

*2 dekabr 2015-ci il*......................................................................... *304*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

3 *dekabr 2015-ci il*..........................................................................*309*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*3 dekabr 2015-ci il*..........................................................................*310*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*3 dekabr 2015-ci il* ..........................................................................*311*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*3 dekabr 2015-ci il*..........................................................................*312*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*3 dekabr 2015-ci il*..........................................................................*314*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ İŞTİRAK

*3 dekabr 2015-ci il*..........................................................................*325*

LATVİYA RESPUBLİKASININ RİFAH NAZİRİ ULDİS AUQULİS İLƏ GÖRÜŞ

*3 dekabr 2015-ci il*..........................................................................*326*

RUSİYA KİNEMATOQRAFÇILAR İTTİFAQININ SƏDRİ NİKİTA MİXALKOV İLƏ GÖRÜŞ

*3 dekabr 2015-ci il*..........................................................................*327*

ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİNİN YENİ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*5 dekabr 2015-ci il*..........................................................................*328*

ÇİN XALQ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*8 dekabr 2015-ci il..........................................................................331*

SİAN ŞƏHƏRİNDƏKİ TERRAKOTA ORDUSU MUZEYİ İLƏ TANIŞLIQ

*9 dekabr 2015-ci il..........................................................................332*

ŞAANSİ VİLAYƏTİNİN QUBERNATORU LOU ÇİNCYAN İLƏ GÖRÜŞ

*9 dekabr 2015-ci il ..........................................................................334*

SİAN ŞƏHƏRİNDƏ ŞAANSİ AVTOMOBİL ZAVODU İLƏ TANIŞLIQ

*9 dekabr 2015-ci il ..........................................................................336*

PEKİN BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA MƏRASİMİ

*9 dekabr 2015-ci il..........................................................................338*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*10 dekabr 2015-ci il ........................................................................339*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*10 dekabr 2015-ci il ........................................................................340*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*10 dekabr 2015-ci il........................................................................345*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ ÇİNİN RENMİN UNİVERSİTETİNİN «TARİX ÜZRƏ FƏXRİ PROFESSOR» DİPLOMUNUN TƏQDİMETMƏ MƏRASİMİ

*11 dekabr 2015-ci il........................................................................347*

XALQ QƏHRƏMANLARI ABİDƏSİNİ ZİYARƏT

*11 dekabr 2015-ci il*.............................................................................*357*

QEYDLƏR .............................................................................. *358*

*Şəxsi adlar göstəricisi*...........................................................................*382*

*Coğrafi adlar göstəricisi*...................................................................... *387*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət* **Orucov**

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.